**QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ**
**BAKI İSLAM UNİVERSİTETİ**

**ŞAHLAR ŞAHBAZ OĞLU ŞƏRİFOV**

# QURANİ-KƏRİMDƏ VƏ HƏDİSİ-ŞƏRİFLƏRDƏ QİYAMƏTİN TƏSVİRİ

*Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin DK-141/M saylı, 26.02.2016 tarixli məktubu ilə çapına razılıq verilmişdir.*

**"Elm və təhsil"**
**Bakı-2016**

**Elmi redaktor və rəyçi:** **Kamandar Şərifov,**
*filologiya üzrə elmlər doktoru, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri.*

**Elmi məsləhətçilər:** **Hacı Fuad Nurullayev,**
*Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Bakı İslam Universitetinin dekanı.*

**Hacı İbrahim Quliyev,**
*fəlsəfə üzrə fəlsəfə doktoru, QMİ Fatva Şöbəsinin aparıcı mütəxəssisi Bakı İslam Universitetinin hədis müəllimi*

**Əzimli Dilavər**
*Tarix üzrə fəlsəfə doktoru, AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi*

**Ön sözün müəllifi:** **Anar İsgəndərov,**
*Tarix üzrə elmlər doktoru, QMİ-nin Elmi-dini şuranın üzvü, Bakı Dövlət Universiteti, Tarix fakültəsinin kafedra müdiri.*

**İlahiyyat korrektoru:** **Hilal Ağamoğlanov,**
*Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı.*

**Şahlar Şərifov. Qurani-Kərimdə və hədisi-şəriflərdə Qiyamətin təsviri. Bakı, "Elm və təhsil", 2016, 296 səh.**

"Qurani-Kərimdə və hədisi-şəriflərdə Qiyamətin təsviri" kitabı Quranda və məsumların (ə) hədislərində mövcud olan məlumatlardan bəhs edir. Həmçinin kitabda Cənnət və Cəhənnəmin vəsfi də geniş şəkildə araşdırılmışdır.

Lüğəti mənada "qalxmaq, dikəlmək, doğulmaq və dirilmək" mənasına gələn qiyamət, bir əqaid termini olaraq da Allahın dünya üçün müəyyən etdiyi vaxtın sonunda, kainat və dünya nizamının pozulması, hər şeyin alt-üst olması, yox olması və dünya həyatının bitməsi, həm də insanların hesab vermək üçün təzədən diriləræk qalxmaları (yavmul-qiyamət "qalxma günü") deməkdir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8176-2-1

© Şahlar Şərifov, 2016
© «Elm və təhsil», 2016

# ÖN SÖZ

Lüğəti mənada “son, sonra olan və sonrakılar” kimi mənaları olan axirət sözü, termin olaraq dünya həyatından sonrakı əbədi həyat qarşılığında istifadə edilir.

Axirət ölümdən sonra başlayan və məhşərdəki dirilişdən sonra əbədiyyən davam edəcək olan həyatdır. Bu mənada axirət dünya həyatının ziddi kimi, axirət həyatı da dünya həyatının qarşılığında istifadə edilir.

Hər bir müsəlman bilməlidir ki, bu fani dünya həyatı ölümlə bitmir. İnsan dünyadakı həyatını başa vurduqdan sonra onu qiyamətədək qaranlıq qəbir həyatı, qiyamətdən sonra isə əbədi axirət həyatı gözləyir. Yaşadığımız dünyada bizə əməllərimizin yalnız cüzi əvəzi verilir. Tam olaraq qarşılığı isə axirət dünyasında veriləcəkdir. Əgər ulu Yaradan bütün əməllərin mükafat və cəzasını elə bu dünyada versəydi, insan ya tamah üzündən, ya da qorxudan heç bir pis əmələ yol verməz, yalnız yaxşılıq edərdi. Bu isə müəyyən bir təmənna, yaxud qorxu müqabilində olan yaxşılıqdır ki, mənəviyyat baxımından onun Allah yanında heç bir qiyməti yoxdur. İnsanın ləyaqət və qiyməti onun azad olduğu şəraitdə Allahın ona bəxş etdiyi əql və iradə ilə düzgün yolu seçməsi, bu yolda durmadan irəliləyərək nəcib işlərlə məşğul olması, yaxşılıq etməsidir. Məhz səmimi qəlbdən Allaha edilən ibadət də bu cür olmalıdır. Əsl ibadət Allahın ibadət olunmağa layiq yeganə varlıq olduğunu dərk edərək edilən ibadətdir ki, bu da kamil möminlərə xas olan keyfiyyətdir.

Lakin nəfsinə uyan insan, bir olan Allahın buyuruqlarını unudaraq pis əməllər üzündən ağır günahlara mübtəla olur, demək olar ki, öz nəfsinin ucubatından küfrə yuvarlanaraq cəhənnəmə sakin olur. Halbuki insan Allahın kitabına, Hz. Peyğəmbərin (s) şəriətinə əməl etsə, səhv üzündən bir günah işlətdikdə tövbə edib doğru yola qayıtsa, lütfü və mərhəməti geniş olan Allah onu bağışlayar və bir daha pis yola, zəlalətə düşməməkdə ona yardımçı olar.

Məada inanan hər bir insan bir tərəfdən ona verilmiş ömür payından səmərəli bəhrələnməyə, dünya nemətlərindən, həyatın gözəlliklərindən lazımınca istifadə etməyə, digər tərəfdən isə Allaha

ibadət və itaətlə yanaşı, dünyada yaxşı işlər görməyə, heç bir şeydə ifrata varmamağa, öz həmcinsləri və onu əhatə edənlərlə düzgün hərəkət etməyə, qısası axirətini dünyasına satmamağa, dünyasından da axirətinə görə məhrum olmamağa çalışır.

Qiyamət günü də axirətin bir parçası və hissəsi olduğuna görə, o da ölümdən sonra ilə əlaqədar bir hadisə səciyyəsini daşıyır. Qiyamət günü, edilən yaxşılıq və pisliklərin əvəzi veriləcəyi, tam olaraq hər şeyin yerli yerinə qoyulacağı gündür. Qiyamətə həmçinin "din günü", "cəza günü" və "ayırdetmə günü" kimi adlar da verilib.

Qurani-Kərimin bir çox ayələri Qiyamət hadisəsi və təsvirinə həsr edilib. Bu isə Allahın Qiyamətə necə böyük dəyər verdiyini göstərir. Çünki, Quran nazil olan ilk vaxtdan etibarən insanlara tövhidi təbliğ etməklə yanaşı, axirət və qiyamət hallarını da böyük bir incəlik və möhtəşəm, təsir edici bir ədəbi üslubda təbliğ etmişdir.

Qiyamət və axirətin İslamda necə böyük və əhəmiyyətli yerə malik olduğunun bariz sübutu da axirət inancının İslamda imanın və əqidənin bir parçası, daha doğrusu iman əsasları şəcərəsində əhəmiyyətli yerdə olmasındadır.

Quran dəfələrlə Qiyamət mövzusuna toxunmuş və onu insanların nəzərinə çatdırmışdır.

Bundan ötrü, Qurandakı Qiyamət səhnələrini tədqiq edib araşdırmaq böyük bir əhəmiyyət kəsb edir. Şahlar Şahbaz oğlu Şərifov da məhz bu məqsədi əsas götürərək, Qiyamət səhnələrinin gözəl təsvir üslubundakı məqsədi bu kitabda işıq üzünə çıxarmağa çalışmışdır.

Ümumilikdə, əsərin işıq üzü görməsini təqdir edir və onun geniş oxucu kütləsini maraqlandıracağına, habelə islami maarifləndirmə işinə dəyərli töhfə olacağına inanıram.

**Anar İsgəndərov**, *tarix elmləri doktoru, Qafqaz Müsəlmanları İdarəsi, Elmi-dini şuranın üzvü, Bakı Dövlət Universiteti, Tarix fakültəsinin kafedra müdiri.*

## Bismillahir-Rəhmanir-Rəhim

# GİRİŞ

### A. Qurani-Kərimin təsvir metodu

Təsvir Quran üslubunun ən güclü təbliğ etmə vasitəsidir. Quran gözlə görülən hadisələrin, mənzərələrin, zehində yaranan mənəvi məfhumların və ruhi hallarla yanaşı insan tiplərilə bəşər təbiətini də, hiss və xəyallara xitab edəcək şəkildə, təsvir metodunu istifadə edərək –tablolaşdırır və səhnələşdirir. Onlara elə bir canlılıq və hərəkətlilik verir ki, zehində mənəvi məfhumların hərəkətli bir şəklə büründüyü, o ruhi halların canlı bir səhnəyə çevrildiyi və yaxud insan tiplərinin canlanıb həyat qazandığı və bəşər təbiətinin də mücəssəm bir hal aldığı görülür. Beləliklə hadisələr, zehində yaranan tablolar, hekayələr və mənzərələr canlı və hərəkətli bir vəziyyətə gəlir. Bütün bunlara birdə dialoq əlavə edilincə, zehində və xəyalda təsəvvür üçün lazım olan ünsürlər hər yönü tamamlanır. Bu şəkildə özlərinə, təbliğin əvvəlində yeni bir dünyagörüşü qazandırdığı tamaşaçını hadisənin cərəyan etdiyi ilk məkana götürür, buradakı mənzərələri sıra ilə onların gözlərinin önünə sərir, baş verəcək hadisələri yenidən canlandırır. Tamaşaçı Quranın bu təsvirini, oxunmaqda olan bir kəlam və bir misal olduğunu unudub bilavasitə iştirakçısı olduğu bir hadisə kimi zehnində canlandırır. İnsan elə təsvir edilən hadisələrdən ayrıla bilmir və onun zehnində elə bir təəssürat oyanır ki, bu hadisələrdə o da iştirak edir, bu hadisələr onun üzərində baş verir. Artıq bundan sonra, nəql olunan hadisə həyatın hekayəsi olmur, birbaşa həyatın özü olur.[1]

Zehində təsəvvür olunan mənanın və ruhi halların təsvirində, insan tiplərinin ya da nəql olunan hadisənin canlandırılmasında istifadə olunan vasitənin, tablo halına gətirəcək rənglər və ya danışan şəxslər deyil, cansız söz və cümlələr olduğunu

---

[1] Seyid Qutub, Quranda Ədəbi təsvir, Arslan nəşr, İstanbul-1997, səh-54.

vurğuladıqda Quranın ifadə tərzindəki ecaz sirlərini bir dərəcəyə qədər başa düşmüş oluruq.

Quranın bütün hədəflərində mənəvi bir məfhum, bir ruh halı, mənəvi sifət, insan tipi, bir hadisə, keçmişdə baş verən bir qissə, qiyamət hallarından bir mükafat və ya ərəb səhnəsi təqdim olunarkən, ya da dəlil gətirərək isbatlama məqsədi daşıyan və ya sadəcə mübahisəyə yönəlik ayələrdə misal verilərkən, qısacası bütün bu adları çəkilən vəziyyətlərdə təsviri ifadə tərzi istifadə edilir. Canlandırılan sözlərə görə zehnə xitab edəcək hala gəlir.

Təsvir rənglərlə, hərəkətlərlə, musiqi və zehində canlandırma ilə edilir. Musiqi ilə edilən təsvirdə nəğmə, bir tablodakı rənglərin vəzifəsini öz öhdəsinə götürür. Belə bir təsvir çox vaxt səsvermə, dialoq, sözlərin səs tonu, ibarələrin nəğmələri ilə nəzmin şərik əsəridir. Beləliklə təsvir edilən səhnə göz, qulaq, duyğu və xəyalla yanbayan düşüncə və vicdana da səslənərək bunları da qane edir.[2]

Quran Qiyamət səhnələrini məhz bu metodla təsvir etmişdir. Bu səhnələrin bəzisində açıq-aşkar müharibələr, bəzisində maddi münaqişələr, bəzisində canlı mənzərələr, bəzisində də kölgə və rəsmlər olduğu görülür. Bu işdə də məhz səhnələri təqdim etməyə çalışacağıq. Quranın təsvir etdiyi bu Qiyamət səhnələrini uzaq bənzətmələrlə çətinləşdirmədən, onun ədəbi təsvirinə uyğun olmayan dini və lüğəti mövzulara daxil olmadan, Quranın konkret, sadə, açıq sözlərlə təsvir etdiyi Qiyamət hadisəsini əvvəldən sonunadək ardıcıl və zəncirvarı surətdə təhlil etməyə, həmçinin mürəkkəb təsvir formalarına müraciət etmədən Quranın Qiyamət hadisəsini təbliğ edərkən nə məqsəd güddüyünü aşkar etməyə çalışacağıq.

## B. Ümumi olaraq Qiyamət

Ölümdən sonrakı həyatın mahiyyəti və təsviri haqqında bir-birindən fərqli görüşləri qəbul etmiş olsalar da, İlah varlığını qəbul edən bütün din və düşüncə sistemləri axirət inancını qəbul etməkdədirlər. Misal üçün Tövratda dünya həyatından sonra

[2] Seyid Qutub, Quranda Qiyamət səhnələri, Arslan nəşr, İstanbul-1998, səh-8.

ruhun ölməzliyini, dünyada işlənən günahların qeyd edildiyi, axirətdə Allahın görüləcəyi və edilən hər bir əməlin mütləq əvəzi veriləcəyi bəyan edilmişdir.[3] İncildə də həmçinin axirət və qiyamət mövzusu açıq-aydın qeyd edilir.[4] Quranda isə axirət mövzusuna özündən əvvəlki səmavi kitablardan daha çox yer verilmişdir. Hətta o səviyyədə ki, mövzu ilə əlaqədar Quranın ehtiva etdiyi termin və istilahların sayı yüzdən çoxdur. Bunlar arasında ən çox istifadə edilən "axirət" və onun müzəkkəri (kişi cinsində) olan "axir" kəlməsidir. Hər iki kəlmənin Quranda istifadə sayı yüz ondur.

Onu qeyd etmək lazımdır ki, axirət və qiyamət günü ilə əlaqədar məlumatları tədqiq edən elmə "esxatologiya" deyilir. Esxatologiya hər bir dini sistemin ayrılmaz parçasıdır. Esxatoloji dünyagörüşü dinin etik prinsiplərinə və inananların dünyagörüşünə həlledici təsir bağışlayaraq, bu nəzəriyyənin məntiqi nəticəsinə çevrilir.[5]

Həmçinin digər dinlərdə olduğu kimi, İslamda da axirət inancı, dünya və insanlığın yaranmasının məntiqi nəticəsidir.

Axirət inancı həm Məkki, həm də Mədəni ayələrdə tez-tez təkrarlanmışdır. Bu təkrar bir məqsəd güdür: Mövzunun əhəmiyyətini göstərmək, məsuliyyət hissini gücləndirmək, dünya ilə axirət arasındakı psixoloji məsafəni qısaldaraq mömінin ruhunu yüksəltmək.

Onu qeyd etmək lazımdır ki, qiyamət səhnələrinin çoxu Məkki surələridir. Bunun da bir səbəbi vardır. Quran insanları ibadətə, şəriət qayda-qanunlarına tabe olmağa çağırmaqdan əvvəl onların qəlblərinə səslənir, onları öncə Allahın, peyğəmbərin haqq olduğuna dair dəlil gətirib insanları Qiyamətlə, onun əzabı ilə qorxudur, yalnız bundan sonra insanları şəriətə əməl etməyə dəvət edir. Çünki Quran Məkkədə ilk andan şəriətə tabe olmaqdan danışsaydı, bu insanlara ağır gələrdi.

---

[3] İncil, Moskva-1995, "Kniqa Danielya", 12/21.
[4] İncil, Moskva-1995, "Luka" 20/27-28.
[5] A. Alizadə, "Bibliya i Koran", Bakı, Əbilov, "Zeynalov i sınovya", 2002, səh-110.

Quran qiyamət səhnələrinə, xüsusən də ölümdən sonra dirilməyə, sorğu-suala, qiyamət zamanı baş verəcək hadisələrə dair bəyanlara böyük əhəmiyyət vermiş, insanlara vəd etdiyi axirət aləmi barədə yalnız xəbər verməklə kifayətlənməmiş, müşahidə edilən bir mənzərə və hərəkət edən canlı bir varlıq halına gətirmişdir. Müsəlmanlar da bu təsvir nəticəsində o aləmi tam yaşamış, səhnələri görmüş, hadisələri seyr etmiş və bunlardan təsirlənmişlər. Hətta elə bir səviyyəyə çatmışlar ki, bəzən ürəkləri yerindən oynamış, tükləri diksinmiş, içləri qorxu ilə dolmuş, ruhlarını hüzur və güvən ehtiva etmiş, atəşin alovları üzlərinə toxunmuşdur. Qiyamət gəlmədən o günü dünyada ikən sanki görmüşlər.

"Üsuli-Kafi"də yer alan bir rəvayət bunu Peyğəmbərimizin (s) zamanında da baş verdiyi bizə nəql edir. Rəvayətdə deyilir: "Peyğəmbər (s) camaatla sübh namazını qıldı. Sonra məsciddəki rəngi saralmış, başını aşağı sallamış gəncə nəzər saldı. Onun cismi arıq, gözləri isə solğun idi.

Peyğəmbər (s) soruşdu: "Ey gənc! Gecən necə keçib?"

Gənc dedi: "Ya Rəsulallah! Yəqində olan mömin kimi".

Peyğəmbər (s) onun sözündən təəccübləndi. (Belə ki, gənc, baş verməsi nadir olan bir şeydən xəbər verdi.) Dedi: "Hər bir yəqinin həqiqəti var, bəs sənin yəqininin həqiqəti nədir?"

Gənc dedi: *"Ya Rəsulallah, mənim yəqinim məni hüznləndirir, gecələri oyaq və gündüzləri susuz saxlayır, nəfsim dünyaya və onda olanlara nifrət edir. Belə ki, sanki mən Rəbbimin Ərşinə baxıram. Sanki hesaba çağırılıram. İnsanlar da bunun üçün həşr olunurlar və mən də onların arasındayam. Sanki Cənnət əhlini müşahidə edirəm. Onlar Cənnətdə nemətlər içində, taxtlara söykənirlər, bir-biri ilə tanış olurlar. Sanki Cəhənnəm əhlini görürəm. Onlar orada əzab çəkir və bağırırlar. Sanki mən indi də odun nəfəsini duyuram. O səslər hələ də qulaqlarımda dövr edir".*[6]

---

[6] "Usuli Kafi", "İslam kitabları" nəşriyyat evi, Tehran, c.2., səh. 53, "İman və küfr" fəsli, hədis 2.

Lüğəti mənada “qalxmaq, dikəlmək, doğulmaq və dirilmək” mənasına gələn qiyamət, bir əqaid termini olaraq da Allahın dünya üçün müəyyən etdiyi vaxtın sonunda, kainat və dünya nizamının pozulması, hər şeyin alt-üst olması, yox olması və dünya həyatının bitməsi, həm də insanların hesab vermək üçün təzədən diriləırək qalxmaları (yavmul-qiyamət “qalxma günü”) deməkdir. Qiyamət sözü Qurani-Kərimdə bilavasitə zikr edilməsinə baxmayaraq, eyni mənanı daşıyan iyirmi dənə ada rast gəlmək mümkündür. Bunlar içərisində ən çox istifadə edilən “əs-Saat” sözüdür. Bu söz bilindiyi kimi həm qiyamət, həm də daha ümumi mənada “zaman” mənasına gəlir. Qiyamət mənasında keçdiyi yerlərin sayı qırxdır. Bu mənada istifadə olunan sözləri “mərifə” (müəyyənlik) halında rast gəlinir. “Nəkirə” (qeyri-müəyyən) olaraq yer aldığı yerlərdə “zaman” mənasına gəlir. Qiyamət mənasını ifadə edən sözlərin arasında həmçinin “əl-Vaqiə” (qəti olaraq meydana gələcək hadisə), “əl-Haqqə” (baş verməsi qaçılmaz olan bir hadisə), “əl-Qariə” (kainatı təşkil edən hissələrin böyük bir gurultu ilə bir-birinə dəyməsi), “əs-Sahhə” (qulaqlar, kar edəcək dərəcədə güclü səs), “əl-Ğaşiyə” (varlıqları əhatə edən hadisə), “ət-Tammətul-kubra” (böyük fəlakət) şəklində istifadələrə də rast gəlmək mümkündür.[7]

Qiyamət öncəsində Yerdə güclü zəlzələlər baş verər. Yer öz içində olanları çölə tökər. Onun hissələri bir-birindən ayrılıb pərakəndə vəziyyətə düşər. Dəryalar yarılar, dağlar hərəkətə gələr və bir-birinə çırpılaraq qum təpəsi kimi, didilmiş yun kimi dağılaraq fəzada pərakəndə vəziyyətə düşər. Başlarını asimana dikən uca dağlar silsiləsindən ilğımdan başqa bir şey qalmaz.

Ay, eləcə də Günəşdən milyon dəfələrlə böyük olan əzəmətli ulduzlar sönər, onların hərəkətindəki qanunauyğunluqlar pozular. O cümlədən, ay və ulduzlar bir-birinə qovuşar, bu dünyanı möhkəm bir tavan kimi əhatə edən asiman çalxalanar və parçalanaraq bir-birindən ayrılar. Onun nizamı bir-birinə qarışar. Səma cisimləri əridilmiş filiz şəklinə düşər və dünyanın fəzası tüstü və buludla dolar.

---

[7] Şərafəddin Gölcük, İslam Akaidi, Esra nəşr, Konya-1997, səh-267.

Belə bir vəziyyətdə Allahın əmrilə böyük mələklərdən olan İsrafil tərəfindən ölüm suru çalınar, vəhşət hissi və iztirab bütün canları bürüyər. Yalnız varlığın sirlərindən və həqiqətlərindən agah olan, qəlbləri ilahi mərifət və məhəbbətlə dolan şəxslər iztirab hissi keçirməzlər. Bununla da bütün canlı varlıqlar ölər. Təbiət aləmində həyatdan heç bir əsər-əlamət qalmaz.

Daha sonra əbədi olan digər bir həyat başlanar. Bütün dünya Allahın nuru ilə işıqlanar, bu dəfə Hz.İsrafil tərəfindən həyat suru yenidən səslənər və bütün insanlar (hətta heyvanlar belə) bir anda dirilərlər. Daha sonra vahiməli halda havada yayılaraq pərakəndə vəziyyətdə uçan çəyirtkə kimi olar, sürətlə ilahi məhkəməyə doğru tələsərlər və bütün insanlar böyük bir səhnədə bir yerə toplaşarlar. Əksər hallarda vəziyyət elə olar ki, bərzəx aləmində qalmaları bir saat, bir gün, yaxud bir neçə gün davam etdiyini təsəvvür edərlər. Bu səhnələr məxluqlar Cənnət və ya Cəhənnəmə gedənə kimi davam edər və bitər. Qiyamət də bu zaman müddətinin adıdır.[8]

Qiyamət baş verməzdən əvvəl onun əlamətləri özünü büruzə verməlidir. Qiyamətin böyük və kiçik əlamətləri vardır. Elmin geriləməsi, savadsızlığın yayılması, içki, zina kimi haram olan işlərin çoxalması, qadın nüfuzunun kişilərdən çox olması, qətl hadisələrinin artması[9] və s. kimi qiyamətin kiçik əlamətləri vardır. Qiyamətin böyük əlamətlərini isə bu hədis çox gözəl ifadə edir: *"On böyük əlamət görülməyincə qiyamət qopmaz. Bunlar: Duxan (duman), Dəccal, Dəbbət-ul-ərd, günəşin qərbdən doğması, Mehdinin zuhuru, Hz.İsanın göydən enməsi, Yəcuc və Məcucun çıxması, şərqdə, qərbdə və Ərəbistanda yerin batması, bunlardan sonra Yəməndən bir atəşin çıxıb insanları bir araya gətirməsidir".*[10] Onu da qeyd edək ki, qiyamətin əlamətlərinin əksəriyyəti hədislərdə bildirilib.

Bundan əlavə onu qeyd etmək lazımdır ki, qiyamət anlayışının üç növü vardır:

---

[8] http://www.erfan.ir/article/article.php?id=41914

[9] Buxari, Fitən, 4, 25; Hüdud 20.

[10] Müslim, Fitən, 4.

1. Qiyaməti-Kubra – Böyük qiyamət. Canlıların öldükdən sonra təkrar dirildikləri gün, zaman.

2. Qiyaməti-Suğra – Kiçik qiyamət. Hər kəsin öz ölümü.

3. Qiyaməti-Vusta. Tarixin müəyyən dövründə hər hansı bir qövmün bir neçə səbəbdən bütöv bir halda yoxa çıxmasıdır.[11]

Bu qiyamət növlərindən bizim tədqiqat hədəfimizə Qiyaməti-Kubra daxildir. Qiyamətin digər növləri ayrı sahəyə aid olduğu üçün biz onlara toxunmayacağıq.

Kitabda 700-ə qədər Quran ayəsinə müraciət olunmuş, şiə və sünni mənbələrindən 300-ə qədər mötəbər hədisdən istifadə edilmişdir. Buna görə də kitabın 95 faizini Quran ayələri və hədislər təşkil edir. Bunun bir səbəbi də ondan ibarətdir ki, məadın əqli dəlillə sübut olunmasından əlavə onun həqiqət və xüsusiyyətləri ilə tanış olmaq üçün "vəhy" yolundan başqa bir yol yoxdur.

Salam olsun bütün peyğəmbərlərə, xüsusən, İslamın əziz peyğəmbəri Hz.Muhəmmədə (s), onun pak Əhli-Beytinə və onların haqq canişinlərinə! Həmçinin, salam olsun şəhidlərə və boynumuzda haqları olan ustadlara!

İlahi, bu kitabı bizə, barəsində söhbət açdığımız gün üçün azuqə et!

[11] Muhsin Demirci, Kuranın Temel Konuları, İstanbul, İFAV, 2000, 323-330.

# I FƏSİL
# QURANİ-KƏRİMDƏ QİYAMƏTİN ƏLAMƏTLƏRİ

## Qiyamətin vaxtı

Quran, qiyamət mövzusunda, xüsusilə onun baş verməsi əsnasında olacaq hadisələrə toxunmaqla yanaşı, onun nə vaxt baş verəcəyinə dair sualları cavabsız qoymuşdur. Qurana görə bunu Allahdan başqa heç kimsə bilmir. "Cin" surəsində Uca Allah buyurur: ***"De: "Mən sizin qorxudulduğunuz əzabın yaxın olduğunu, yaxud Rəbbimin onun üçün uzun bir müddət təyin edəcəyini bilmirəm! Qeybi bilən ancaq Odur və O, Öz qeybini heç kəsə əyan etməz".***[12]

Yəni Allah böyük bir nizam içində yaratdığı həyatı bizim bilmədiyimiz bir vaxtda bütün nizamıyla birlikdə sona çatdıracaq. Hətta hədislərdə də qiyamətin zamanı ilə əlaqədar biz məlumatlara rast gəlirik. Hz.Peyğəmbərin (s) qiyamətin nə zaman baş verəcəyi ilə bağlı sualına Hz.Cəbrail (ə) belə cavab vermişdir: *"Bu barədə mən, sual verəndən daha çox məlumatlı deyiləm".*[13] Demək ki, Qiyamətin nə vaxt baş verəcəyini yalnız Allah bilir. Bu barədə digər Quran ayələri də vardır: ***"(Ya Rəsulum!) Səndən o saat (qiyamət) haqqında soruşarlar ki, nə vaxt gələcək. De: "Onun elmi ancaq Rəbbimin yanındadır, vaxtını Ondan başqa heç kəs açıqlaya bilməz. Göylərdə və yerdə bir kimsənin onu bilməsi çətindir. O sizlərə ancaq qəflətən gələr!" Sən onun haqqında bir şey bilirsənmiş kimi onlar (səndən) israrla soruşarlar. De: "Onun elmi ancaq Allahın yanındadır, amma insanların əksəriyyəti (bunu) bilməz!"***[14]

---

[12] "Cin" surəsi, ayə-25, 26.
[13] Buxari, İman, 37, Müslim, İman, 1.
[14] "Əraf" surəsi, ayə-187.

***“Həqiqətən, o saatı (qiyamətin qopacağı vaxtı) ancaq Allah bilir. Yağışı (istədiyi vaxt) göydən O yağdırır, bətnlərdə olanı (doğulacaq uşağın oğlan, yaxud qız, xəstə və ya sağlam, xoşbəxt və ya bədbəxt, yaxşı və ya pis əməl sahibi olacağını) O bilir. Heç kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını), heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır!”***[15]

***“O saatı (qiyamətin nə vaxt qopacağını) bilmək yalnız Ona aiddir.”***[16]

Bundan başqa Quran Qiyamətin yaxınlaşdığını da vurğulamaqdadır. Bu barədə Uca Allah “Həcc” surəsində belə buyurur: ***“(Bu həm də belə bir danılmaz həqiqətlə inanmağınız üçündür ki) o saat (qiyamət günü) mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları diriləcəkdir!”***[17]

Qiyamət yaxınlaşaraq gəlməkdədir. İnsanların çoxunun inamının əksinə olaraq qiyamət heç də uzaq deyil. O gün dünya ilə birlikdə dünyaya aid olan hər bir şey yox olacaq. Tamahkarlıq, acgözlük, istəklər, azğınlıqlar, şəhvət, düşmənçilik və zövqlər sona çatacaq. Və şübhəsiz ki, qiyamət saatı yaxınlaşaraq gəlməkdədir.

Bundan başqa Quranda qiyamət gününün bir xüsusiyyəti xüsusən qeyd edilir. O da qiyamətin baş verməsinin mütləq həqiqət olduğudur. Bu ayə həmin fikri təsdiqləyir: ***“Barəsində heç bir şübhə edilməyən qiyamət günündə sizi O toplayacaqdır”.***[18]

Qeyd etdiyimiz bütün bu ayələrdən Qiyamətin zamanı ilə əlaqədar üç nəticə əldə olunur:

1. Qiyamətin nə zaman qopacağı bilinmir.
2. Onun baş verməsi mütləq həqiqətdir.
3. O yaxınlaşaraq gəlməkdədir.

---

[15] “Loğman” surəsi, ayə-34.
[16] “Fussilət” surəsi, ayə-47.
[17] “Həcc” surəsi, ayə-7.
[18] “Ənam” surəsi, ayə-12.

Tarix boyu heç kəs məadın olmaması barədə bir elmi dəlil göstərə bilməmişdir. Məadı inkar edənlər yalnız bir sözü ifadə edirlər ki, necə ola bilər ki, insanın cəsədi çürüyüb aradan getsin və təzədən dirilsin?

Quranın və əqlin cavabı budur ki, bu, şübhəsiz, mümkün olan bir işdir. Buna görə ki, həm fikri cəhətdən təsəvvürə malikdir, həm də daim gecə-gündüz bu cür (ölülərin dirilməsi kimi) nümunələri öz gözümüzlə görürük.

İmam Məhəmməd Təqi (ə) buyurur: *"Yatmaq və oyanmaq, ölmək və ya dirilməyi dərk etmək üçün ən gözəl nümunədir"*. Bu hədisə əsasən deyə bilərik ki, ölüm uzun və şiddətli yuxudan başqa bir şey deyil, bahar və payız fəsli isə bitkilərin ölüb-dirilməsinə başqa bir nümunədir. Qurani-Kərim bu barədə buyurur: ***"Buludları hərəkətə gətirən küləkləri Allahdır göndərən! Biz (o buludları) quru (ölü) bir məmləkətə tərəf qovub, öldükdən sonra torpağı onunla dirildirik. (Ölüləri) diriltmək də belədir!"***[19]

Başqa bir ayədə belə buyurulur: ***"Bəndələrə ruzi olsun deyə! Biz onunla (o su ilə) ölü bir məmləkəti cana gətirdik. (Qəbirlərdən dirilib) çıxmaq da belədir!"***[20]

Ölümdən sonra dirilməyin nümunələri yaradılış aləmində hər gecə və gündüzdə, hər il və hər fəsildə bizim gözümüzün önündə parlayır. Qurani-Kərim ölülərin dirilməsini və qeyri-mümkün iş olmadığını isbat etmək üçün çox sayda nümunələr gətirir. Bunlardan Hz.Üzeyir və Hz.İbrahimin barəsində olan iki əhvalatı qısa şəkildə nəql edirik:

***"Yaxud (ya Rəsulum!) büsbütün alt-üst olmuş (xaraba qalmış) bir kəndin yanından keçən bir kəs kimisini (görmədinmi?) O: "Əcaba, Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" –demişdi. Belə olduqda, Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan: "Nə qədər yatmısan?" –deyə soruşdu. O da: "Bir gün, bəlkə, bir gündən daja az", -deyə cavab verdi. Allah ona: "Bəlkə, yüz il yatmısan, yediyin***

---

[19] "Fatir" surəsi, ayə-9.
[20] "Qaf" surəsi, ayə-11.

***yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi (uzunqulağının) sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da necə onların üzərini ətlə örtürük?" –deyə buyurdu. O kimsəyə bunlar aydın olduqda: "Artıq bildim ki, Allah hər şeyə qadirdir!" –dedi."***[21]

Bir dənizin kənarından keçən Hz.İbrahim (ə) bir leşin yarı hissəsinin dənizin sahilində, digər hissəsinin isə quruda olduğunu gördü. Səhra heyvanları və quşlar bu leşin ətrafında cəmləşib hərəsi bir yerini qoparıb yeyir. "***Bu zaman İbrahim (ə): "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" –dedikdə (Allah): "Məgər (ölüləri diriltməyimə) inanmırsan?" –buyurmuşdu. (İbrahim) "Bəli, inanıram, lakin ürəyim xatircəm (arxayın) olmaq üçün (soruşdum)", -deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: "Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"***[22]

Mütəal Allah bu cür misalları çəkməklə bizləri məad dərsinin ibtidai və orta mərhələsindən daha yuxarı mərhələlərə çatmaq üçün hidayət edir və varlıq aləmində özünəməxsus sınaqlara tərəf aparır.

### Qurani-Kərimdə Qiyamətin adları

İslamın əsas qaynaqları olan Qurani-Kərimdə və hədislərdə qiyamətin yüzdən çox ad və sifəti zikr olunmuşdur. Tərcüməsi və bəyanı sadə olduğuna görə Quranda olan adları burada qeyd edirik:

1. "yaumə tubləs-sərair"

***"Qiyamət günü pərdələr kənar olacaq və hər insanın sirləri aşkarlanacaq".***[23]

---

[21] "Bəqərə" surəsi, ayə-259.
[22] "Bəqərə" surəsi, ayə-260.
[23] "Tariq" surəsi, ayə-9.

2. “yaumə yəkunun-nəsu kəl-fəraşil-məbsus”

***“O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək (çəyirtkə kimi bir-birinə qatışacaq)”*[24]**

3. “vəl-yaumil-mövud”

***“And olsun vəd olunmuş günə (qiyamət gününə). And olsun şəhadət verənə və (haqqında) şəhadət verilənə (peyğəmbərlərə və onların ümmətlərinə, yaxud cümə və Ərəfə günlərinə) ki.”*[25]** Və yaxud da “Bütün peyğəmbərlər və asimani kitablar o günə vədə vermişdilər”.

4. “yaumə yəfirrul-məru min əxihi və ummihi və əbihi”

***“O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! Hər kəs öz hayında olacaq, heç kəs heç kəsin halından xəbər tutmayacaq.”*[26]**

5. “yaumə yənzurul-mər`u mə qaddəmət yədəhu”

***“Həqiqətən, Biz sizi yaxın bir əzabla (qiyamət gününün əzabı ilə) qorxutduq. O gün insan öz əlləri ilə etdiyi (yaxşı, pis) əməlləri görəcək, kafir isə: “Kaş (bu əzabı görməmək üçün) torpaq olaydım!” –deyəcəkdir.”*[27]**

6. “vəmtəzul-yaumə eyyuhəl-mucrimun”

***“İnsanların ayrılacağı gün, ilahi hökm və qəzavətin bütün insanlara şamil olacağı gündür.”*[28]**

7. “yaumə lə yəntiqun”

***“Bu elə bir gündür ki, (qiyaməti yalan sayanlar) danışa bilməzlər”.*[29]**

8. “yaumə əsirun, aləl-kəfirinə ğeyru yəsirin”

***“O gün çox ağır bir gün olacaqdır, (O gün) kafirlər üçün asan olmayacaqdır!”*[30]**

9. “yaumə yəxrucunə minəl-əcdəsi siraən”

---

[24] “Qariə” surəsi, ayə-4.
[25] “Buruc” surəsi, ayə-2-3.
[26] “Əbəsə” surəsi, ayə-34, 35, 36, 37.
[27] “Nəbə” surəsi, ayə-40.
[28] “Yasin” surəsi, ayə-59.
[29] “Mursəlat” surəsi, ayə-35.
[30] “Muddəsir” surəsi, ayə-9-10.

***"O gün onlar (dünyada ibadət etdikləri) bütlərin yanına tələsirmişlər kimi qəbirlərindən tez-tələsik çıxacaqlar."***[31]

10. "yaumut-təğabun"

***"Allahın sizi (haqq-hesab üçün) toplanış gününə cəm edəcəyi gün –məhz o gün qarşılıqlı aldanma günüdür! (Həmin gün kafirlərin dünyaya uyaraq axirəti əldən verdiklərinə görə, bəzi möminlərin də dünyada bacardıqlarından az yaxşı əməllər etdiklərinə görə aldanmaları bəlli olacaqdır). Kim Allaha iman gətirib yaxşı əməllər etsə, (Allah) onun günahlarının üstünü örtər və onu (ağacları) altından çaylar axan cənnətlərə daxil edər. Bu, böyük qurtuluşdur (uğurdur)!"***[32]

11. "yaumə lə təmliku nəfsun linəfsin şey`ən"

***"O gün heç kəs heç kəsin karına gələ bilməz. O gün əmr Allahındır! (İş ancaq Allaha qalmışdır)".***[33]

12. "yaumə lə yuxzillahun-nəbiyyə vəl-ləzinə əmənu məah"

***"Ey iman gətirənlər! Allaha səmimi qəlbdən (bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin. Ola bilsin ki, Rəbbinizin günahlarınızın üstünü örtsün və sizi (ağacları) altından çaylar axan cənnətlərə daxil etsin. O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların (iman) nuru (qıl körpüsü üstündə onlara yol göstərmək üçün) önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: "Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şey qadirsən!"***[34]

13. "yaumul-cəm"

***"O gün bütün insanlar orada cəmləşərlər".***[35]

14. "yaumə təral-mumininə vəl-muminəti yəs`a nuruhum beynə eydihim"

***"O gün (qiyamət günü, ya Peyğəmbər) mömin kişilərin və qadınların (səmimi etiqadları və dünyada etdikləri yaxşı əməllər***

[31] "Məaric" surəsi, ayə-43.
[32] "Təğabun" surəsi, ayə-9.
[33] "İnfitar" surəsi, ayə-19.
[34] "Təhrim" surəsi, ayə-8.
[35] "Təğabun" surəsi, ayə-9.

***müqabilində nail olduqları iman) nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını (qıl körpüsü üstündə onlara yol göstərdiyini) görəcəksən. (Mələklər onlara deyəcəklər:) "Bu gün sizin müjdəniz (ağacları) altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız!" Bu, böyük qurtuluşdur (uğurdur)!"***[36]

15. "yaumin məlumin"sa

***"Məlum bir günün (qiyamət gününün) müəyyən bir vaxtında mütləq (məhşərə) cəm ediləcəklər."***[37]

16. "yaumə yudəuunə ilə nəri cəhənnəmə dəan"

***"O gün onlar (məadı inkar etdikləri üçün) zorla cəhənnəm oduna sürüklənəcəklər".***[38]

17. "yaumul-xuruc"

***"O gün (bütün yaranmışlar) dəhşətli (tükürpədici) səsi doğrudan-doğruya eşidəcəklər. O gün (qəbirlərdən) çıxma günüdür!"***[39]

18. "yaumul-xulud"

***"Ora sağ-salamat (əmin-amanlıqla) daxil olun. Bu, əbədiyyət günüdür!"***[40]

19. "yaumul-vaid"

***"O gün peyğəmbərlərin xətərli xəbər verib elan etdikləri və əməli libası geyinilən gündür."***[41]

20. "yaumin azim"

***"(Ya Rəsulum!) Ad qövmünün qardaşını (Hudu) da xatırla! Bir zaman o özündən əvvəl də, sonra da peyğəmbərlər gəlib-getmiş Əhqafda (yüksək qumsal təpələrdə) olan qövmünə belə demişdi: "Allahdan başqasına ibadət etməyin. Mən böyük (müdhiş) günün sizə üz verəcək əzabından qorxurum!"***[42]

21. "yaumun əlim"

---

[36] "Hədid" surəsi, ayə-12.
[37] "Vaqiə" surəsi, ayə-10.
[38] "Tur" surəsi, ayə-13.
[39] "Qaf" surəsi, ayə-42.
[40] "Qaf" surəsi, ayə-34.
[41] "Qaf" surəsi, ayə-20.
[42] "Əhqaf" surəsi, ayə-21.

***“Amma onların içərisindən çıxan firqələr arasında ixtilaf düşdü (xaçpərəstlər: “İsa Allahın oğludur!” –dedilər, yəhudilər isə onun peyğəmbərliyini büsbütün inkar etdilər). Acı bir günün (qiyamət gününün) əzabından vay o zülm edənlərin halına!”***[43]

22. “və yaumə yu`radul-ləzinə kəfəru alən-nər”

***“Kafir olanlar cəhənnəm oduna göstəriləcəklər! (cəhənnəm odunun üzündən pərdə götürülüb kafirlərin gözünə görünəcəyi, yaxud cəhənnəm əzabını dadacaqları) gün (onlara məzəmmətlə belə deyiləcəkdir): “Siz dünya həyatınızda (bütün) nemətləri görüb daddınız və onlardan ləzzət aldınız (dünyada sizin üçün gözəl olan hər şeyi xərclədiniz, axirətə bir şey qalmadı). Bu gün isə yer üzündə nahaq yerə təkəbbür göstərdiyinizə və (Allahın itaətindən çıxmış) fasiqlər olduğunuza görə həqarətli əzabla cəzalandırılacaqsınız!”***[44]

23. “yaumə lə yənfəuz-zaliminə mə`zirətuhum”

***“O gün zalımların üzrxahlığı faydasızdır.”***[45]

24. “yaumə yəqumul-əşhəd”

***“Bir gün ki, bütün şahidlər şəhadət vermək üçün ayağa qalxarlar.”***[46]

25. “yaumət-tənəd”

***“O gün camaat bir-birlərini səsləyər və kömək diləyər, amma nə olsun?”***[47]

26. “yaumil-hisəb”

***“O gün kiçik və böyük hesablar da soruşular.”***[48]

27. “yaumət-təlaq”

***“O gün insanlar bir-birləri ilə - bəndələr Allahla, göy əhli yer əhli ilə, zalım məzlumla və insanlar öz əməlləri ilə görüşərlər.”***[49]

28. “yauməl-əzifəh”

---

[43] “Zuxruf” surəsi, ayə-65.
[44] “Əhqaf” surəsi, ayə-20.
[45] “Ğafir” surəsi, ayə-52.
[46] “Ğafir” surəsi, ayə-51.
[47] “Ğafir” surəsi, ayə-32.
[48] “Ğafir” surəsi, ayə-27.
[49] “Ğafir” surəsi, ayə-15; əl-Mizan, XVII cild, səh-337.

***"O gün yaxındır, lakin siz elə xəyal edirsiniz ki, uzaqdır."***[50]

29. "yaumə yəğşahumul-azəbu min fauqihim və min təhti ərculihim"

***"O gün əzab onları başlarının üstündən, ayaqlarının altından saracaqdır. (Allah) onlara: "Etdiyiniz əməllərin cəzasını dadın!" –deyə buyuracaqdır."***[51]

30. "yaumə lə yənfəu malun və lə bənun"

***"O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər!"***[52]

31. "yaumə yəadduz-zalimu alə yədeyhi"

***"O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: "Kaş ki, mən Peyğəmbər vasitəsilə (özümə) doğru bir yol tutaydım."***[53]

32. "yaumə təşhədu aleyhim əlsinətuhum və eydihim və ərculuhum bima kanu yə`məlun"

***"Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir."***[54]

33. "yauməl-həsrət"

***"(Ya Rəsulum!) Sən onları peşmançılıq günü ilə (heç bir şeyin fayda verməyəcəyi qiyamət günü ilə) xəbərdar edib qorxut. Çünki, onlar qəflət içində olub hələ iman gətirməmişkən iş olub bitər (qiyamət qopar)."***[55]

34. "yaumə təcidu kullu nəfsin ma amilət min xeyrin muhdəran və mə amilət min su`in..."

***"O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi Öz əzabından çəkindirir, çünki Allah bəndələrə (Öz bəndələrinə) mərhəmətlidir!"***[56]

---

[50] "Ğafir" surəsi, ay-18.
[51] "Ənkəbut" surəsi, ayə-55.
[52] "Şüəra" surəsi, ayə-88.
[53] "Furqan" surəsi, ayə-27.
[54] "Nur" surəsi, ayə-24.
[55] "Məryəm" surəsi, ayə-39.
[56] "Ali-İmran" surəsi, ayə-30.

35. “yaumə təbyəddu vucuhun və təsvəddu vucuh”

***“Bəzi üzlərin ağ, bəzi üzlərin isə qara olacağı gündə (qiyamət günündə) üzü qara olanlara: “İman gətirəndən sonra kafirmi oldunuz? İndi, kafir olduğunuza görə dadın əzabı!” – deyiləcəkdir.”***[57]

36. “yaumin lə reybə fihi”

***“Ey Rəbbimiz! Olacağına şübhə edilməyən bir gündə (qiyamətdə) bütün insanları (bir yerə) toplayan Sənsən. Allah Öz vədəsindən əsla dönməz!”***[58]

37. “yaumə lə bey`un fihi və lə xulləh”

***“Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün (qiyamət günü) gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən xərcləyin (sərf edin)! Kafirlər (bunu inkar edənlər) isə (özlərinə) zülm edənlərdir!”***[59]

Qeyd etdiyim ayələrin bəziləri Qurani-Kərimdə “yaum” kəlməsi ilə gəlmişdir. Digərləri isə Qiyamətin sifətlərinə və vəsfinə aiddir ki, mərhum Feyz Kaşani bu ayələri özünün “Muhəccətul-Beyza” adlı kitabında qeyd etmişdir.[60]

**Qiyamət günü**

Qiyamət səhnəsində insanların hazır olmasını Quran bir neçə formada bəyan edir. Bəzi ayələrdə insanın fərdi surətdə, bəzilərində isə kütləvi surətdə öz rəhbərləri ilə birgə gətirilmələrindən xəbər verir. Bu barədə Qurani-Kərimdə buyurulur: ***“Onların hamısı qiyamət günü Onun hüzuruna bir-bir gələcək.”***[61]

***“Bir gün (qiyamət günü) bütün insanları öz imamları (ardınca getdikləri rəhbərləri, yaxud peyğəmbəri və ya əməl dəftərləri) ilə birlikdə (hüzurumuza) çağıracağıq. Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar (şad olarlar).***

[57] “Ali-İmran” surəsi, ayə-106.
[58] “Ali-İmran” surəsi, ayə-9.
[59] “Bəqərə” surəsi, ayə-254.
[60] “Muhəccətul-Beyza”, VIII cild, səh-331.
[61] “Məryəm” surəsi, ayə-95.

***Onlara tük (xurma çəyirdəyinin yarığındakı tel) qədər haqsızlıq edilməz."***[62]

***"Sur çalınacağı gün (qəbirlərinizdən çıxıb) dəstə-dəstə (məhşərə) gələcəksiniz."***[63]

Məzmunca eyni olan bu ayələrin bir-birindən fərqli cəhəti yalnız bundan ibarətdir ki, insanın həyat şəraitində güvəndiyi və arxalandığı vasitələrə (mal-dövlətə, ata-anaya, qohum-əqrabaya və s.) əli çatmayacaq və onlardan imdad ala bilmədiklərinə görə tənha və köməksiz qalacaqlar, sağ ikən öz talelərini kimlərin ixtiyarına vermişdilər, kimlərlə həmfikir olmuşdular və əməkdaşlıq etmişdilər özlərini onların əhatəsində görəcəklər. Qeyd etdiklərimizi daha yaxşı başa düşmək üçün diqqətinizə aşağıdakı hədisi çatdırırıq:

Hz.Peyğəmbərin (s) səhabələrindən biri "Nəbə" surəsinin 18-ci ayəsi barəsində soruşuldu. Hz.Peyğəmbər (s) ağladı və buyurdu: *"Çox mühüm bir sual verdin".* Sonra belə davam etdi: *"Qiyamətdə on növ məşhur insan olacaq".*

*1. Şaiyə yayanlar, meymun surətində olarlar.*

*2. Haram yeyənlər, donuz surətində olarlar.*

*3. Riba (faizlə pul alıb pul verənlər) yeyənlər, başıaşağı surətdə (kəlləmayallaq) olarlar.*

*4. Ədalətsiz hakimlər (qazilər), kor halda.*

*5. Məğrur və özünü istəyənlər (xudpəsəndlər), kar və lal vəziyyətdə olarlar.*

*6. Əməlsiz alimlər, öz dilini çeynəyən vəziyyətdə.*

*7. Pis qonşu, əl-ayağı kəsilmiş vəziyyətdə.*

*8. Xəbərçilər, söz gəzdirənlər, od-alov şöləsindən asılmış halda.*

*9. Əyyaşlar, cəmdəkdən də pis üfunət verdikləri halda.*

*10. Təkəbbürlü və lovğa adamlar, oddan paltar geydikləri halda məhşər ayağına gələcəklər".*[64]

---

[62] "İsra" surəsi, ayə-71.

[63] "Nəbə" surəsi, ayə-18.

[64] "Məcməul-bəyan", "Nurus-səqəleyn" və "Təfsiri Safi", "Nəbə" surəsinin 18-ci ayəsinin təfsiri.

Qurani-Kərimdə oxuyuruq: ***“Onlar (o gün) gözlərini zəlilanə aşağı dikib (ətrafa) səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar”.***[65]

***“O gün onlar (dünyada ibadət etdikləri) bütlərin yanına tələsirmişlər kimi qəbirlərdən tez-tələsik çıxacaqlar”.***[66]

***“Gözləri zəlilcəsinə yerə dikiləcək, özlərini də zillət bürüyəcəkdir. Halbuki onlar (dünyada) sağlam olduqları ikən səcdəyə dəvət olunurdular”.***[67]

Mütəal Allah Peyğəmbərinə (s) buyurur: ***“İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allahın əzabı çox şiddətlidir!”***[68]

Əlbəttə, bu əzab və işgəncələr günahkarlara və kafirlərə aiddir. Təqva əhli və çöhrələrində iman nuru olanlarsa, rahat və əmin-amanlıq içərisində olacaq, heç bir vahimə və nigarançılıq çəkməyəcəklər:

***“O gün (qiyamət günü, ya Peyğəmbər) mömin kişilərin və qadınların (səmimi etiqadları və dünyada etdikləri yaxşı əməllər müqabilində nail olduqları iman) nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını (qıl körpüsü üstündə onlara yol göstərdiyini) görəcəksən. (Mələklər onlara deyəcəklər:) “Bu gün sizin müjdəniz (ağacları) altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız!” Bu, böyük qurtuluşdur (uğurdur)!”***[69]

Qurani-Kərimdə oxuyuruq ki, insanlar qiyamətdə öz oğul-uşağını, ata-anasını, qohum-qardaşını unudub, yalnız öz haylarında olacaqlar, bu cəhət də yalnız kafirlərə aiddir.

***“O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! Hər kəs öz hayında olacaq, heç kəs heç kəsin halından xəbər tutmayacaq.”***[70]

---

[65] “Qəmər” surəsi, ayə-7.
[66] “Məaric” surəsi, ayə-43.
[67] “Nun” surəsi, ayə-43.
[68] “Həcc” surəsi, ayə-2.
[69] “Hədid” surəsi, ayə-12.
[70] “Əbəsə” surəsi, ayə-34, 35, 36, 37.

***"O gün bir çox üzlərə isə toz-torpaq qonacaq."***[71]

***"O gün yaxşı əməl sahibləri üzləri nurlu və gülərüz halda və müjdəli xəbərlər alaraq Qiyamət səhnəsində hazır olarlar."***[72]

Həmçinin o gün kafirlərin üzləri qaralacaq və çox məyus olacaqlar, iman əhli və xeyirxah işlər görənlər isə üzügülər, nurlu bir simada, bəşarət xəbərini aldıqları halda qiyamət səhnəsində hazır olacaqlar. O gün, Allahın dərgahında hesab üçün yığışmaq məcburidir və ondan yaxa qurtarmaq heç cürə mümkün deyil, çünki Allahın o günə təyin etdiyi məmurların bir qismi insanları məhşər ayağına qovub aparacaq, bir qismi isə onların əməllərinə şahidlik verəcəklər. ***"Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir."***[73]

**Maddi vasitələrin köməyə çatmaması**

"Məryəm" surəsinin 95-ci ayəsində belə buyurulur: ***"Onların hamısı qiyamət günü Onun hüzuruna bir-bir gələcək." "Bir-bir gələcək"***dən məqsəd odur ki, heç bir güc-qüvvə onun köməyinə çatmağa qadir deyil. Bir sıra səbəblər və vəsilələr vardır ki, dünyada insana kömək edə bilər. O səbəb və vasitələr aşağıdakılardan ibarətdir:

1. Rüşvət və hədiyyələr. Günümüzdə bəzi insanlar bəzi işlərini sahmana salmaq və yaxud hər hansı bir çətinliyi aradan qaldırmaq üçün kimlərəsə rüşvət və hədiyyələr verirlər. Bunun əksinə olaraq Qurani-Kərim belə buyurur: ***"Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs heç kəsin karına gələ bilməsin (heç kəs heç kəsə öz əməlindən bir şey verə bilməsin), heç kəsdən şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanması barəsində xahiş, iltimas) qəbul olunmasın, heç kəsdən (günahlarının təmizlənib əzabdan xilas olması üçün) fidyə (əvəz) alınmasın və onlara (günahkarlara) heç bir kömək göstərilə bilməsin!"***[74]

---

[71] "Əbəsə" surəsi, ayə-40.

[72] "Əbəsə" surəsi, ayə-38-39.

[73] "Qaf" surəsi, ayə-21.

[74] "Bəqərə" surəsi, ayə-48.

2. Kiməsə güvənmək (arxalanmaq). Qiyamət günündə kiməsə bel bağlamaq, arxalanmaq heç cür mümkün deyil. Qurani-Kərimdə buyurulur: ***“Onlar barəsində şəfaət qəbul olunmaz.”***

3. Üzr istəmək. Dünyada üzrxahlıq etmək kiminsə yanında nicat tapmaq üçün vəsilə ola bilər, amma qiyamətdə ola bilməz. Qurani-Kərimdə bu barədə buyurulur: ***“O gün zalımlara üzrləri heç bir fayda verməz və onların tövbə etmələri (Allah rizasını diləmələri) də istənilməz”.***[75]

4. Havadarlıq (əlaqə və bağlılıqlar) etmək. Qurani-Kərimdə buyurulur: ***“O zaman tabe olmuşlar tabe olanlardan (bütpərəstlərin rəisləri bütpərəstlərdən) uzaqlaşacaq, (onların hamısı qiyamətdəki) əzabı görəcək və aralarındakı rabitə qırılacaqdır”.***[76]

5. Kömək istəmək (imdad diləmək). Dünyada sahibkar öz xidmətçisinin əlindən tutub istənilən vaxt ona kömək edə bilər, qiyamətdə isə bu cür yardımlaşmalar mümkün deyil. Qurani-Kərimdə buyurulur: ***“O gün dostun dosta heç bir faydası olmaz, onlara kömək də edilməz! (Heç kəs heç kəsdən Allahın əzabını dəf edə bilməz!)”***[77]

6. Məkr və hiyləgərlik. Dünyada bəzi hallarda müvəqqəti də olsa, hiylə ilə bir iş görmək olur, amma qiyamətdə heç vaxt belə ola bilməz. Bu barədə Qurani-Kərimdə buyurulur: ***“Elə isə (dəhşətdən) sarılıb karıxacaqları günə qovuşana qədər sən onları tərk et! O gün hiylələri onlara heç bir fayda verməyəcək (Allahın əzabını onlardan dəf edə bilməyəcək) və onlara heç bir kömək olunmayacaqdır.”***[78]

7. Fəda vermək (və ya “fidyə” can satın alma). Dünyada elə hallar olur ki, insan həbsdən qurtarmaq üçün bir çox vasitələrə əl atır. Məsələn: “haqq” verməklə və ya müəyyən maraq üzündən və s. səbəblərə görə biri-digərinin günahını boynuna götürməklə. Qurani-Kərimdə buyurulur: ***“(Ey münafiqlər!) Bu gün artıq nə***

---

[75] “Rum” surəsi, ayə-57.
[76] “Bəqərə” surəsi, ayə-166.
[77] “Duxan” surəsi, ayə-41.
[78] “Tur” surəsi, ayə-45-46.

***sizdən, nə də kafirlərdən (günahlarınızın bağışlanması üçün) heç bir fidyə qəbul olunmaz. Məskəniniz Cəhənnəmdir. Sizə yaraşan odur. Orası necə də pis dönüş yeridir!"***[79]

O gün öz azadlığınız üçün sizlərdən heç bir fəda qəbul olunmaz və xəyal etməyin ki, əgər ödədiyiniz fidyə böyük olsa, sizi azad edə bilər. Qurani-Kərimdə buyurulur: ***"Əgər yer üzündə olanların hamısı, üstəlik bir o qədər kafirlərin əlində olsaydı və onlar bunu qiyamət gününün əzabından qurtarmaq üçün fidyə versəydilər, yenə də onlardan (fidyə) qəbul olunmazdı. Onları şiddətli bir əzab gözləyir! Onlar oddan çıxmaq istədilər, lakin heç cür oradan çıxa bilməzlər. Onlar əbədi əzaba düçar olanlardır!"***[80]

8. Mal-dövlət və övlad. Qurani-Kərimin bir çox ayələrindən oxuyuruq ki, qiyamətdə insan üçün var-dövlət, valideyn üçün isə övlad heç bir fayda verə bilməz, yalnız təmiz qəlb və saleh əməl insana kömək edə bilər. "əl-Mizan" təfsirinin buyurduğuna görə, dünyada insanın köməyinə yetişən maddi və etibarlı dəyəri olan hər bir şey, o dünyada heç bir işə yaramayacaq.

9. Nisbət və qohumluq. İnsan bu dünyada qohumlarını ziyarət edir, öz şəxsi mənafeyi üçün qohumlarından kifayət qədər istifadə edə bilir, qiyamətdə isə nəinki uzaq qohum, hətta valideyn öz övladının və ya əksinə övlad öz valideyninin dərdinə zərrəcə də olsa, çarə edə bilməyəcək. Qurani-Kərimdə bu barədə buyurulur: ***"Ey insanlar! Rəbbinizdən qorxun. Atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi bir gündən həzər edin. Allahın vədi, şübhəsiz ki, haqdır. (Qiyamət günü mütləq gələcəkdir). Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. O aldadıcı (Şeytan) sizi Allaha arxayın edib (Allah Öz bəndələrinə qarşı mehribandır, onların hamısını bağışlayacaq, günahlarından keçəcək deyə) tovlamasın!"***[81]

***"Nə (xatirinə Allaha və Peyğəmbərinə xəyanət etdiyiniz Məkkədəki) qohum-əqrəbanız, nə də oğul-uşağınız sizə bir***

---

[79] "Hədid" surəsi, ayə-15.
[80] "Maidə" surəsi, ayə-36-37.
[81] "Loğman" surəsi, ayə-33.

***fayda verəcəkdir. Allah qiyamət günü sizi bir-birinizdən ayıra-caqdır. Allah nə etdiyinizi görəndir!"***[82]

***"Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar. (Qiyamət günü heç bir qohumluq fayda verməz, qohumlar bir-birini tanımaz; hərə öz hayında olar)".***[83]

***"O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! Hər kəs öz hayında olacaq, heç kəs heç kəsin halından xəbər tutmayacaq".***[84]

Məada aid olan bütün məsələlər – ölülərin dirilməsi, mövcud aləmdəki nizamın bir-birinə qarışması və başqa bir nizamın təşkili məsələsi, Qiyamət gününün, yəni haqq-hesab gününün bərpa olması üçündür. Qurani-Kərimin hikmətli ayələrində və Məsumlardan (ə) bizə yetişən rəvayətlərdə bu barədə insanlara xitab olunur. Həmin ayələrdən bəzilərini qeyd edirik:

1. Hamıdan bir-bir sorğu-sual olunar: ***"(Özlərinə) peyğəmbər göndərilən ümmətləri (peyğəmbərlərə tabe olub-olmadıqları barədə) sorğu-suala çəkəcək, göndərilən peyğəmbərləri də (dinimizi onlara təbliğ edib-etməmələri haqqında) mütləq sorğu-suala çəkəcəyik."***[85]

Ayədən də göründüyü kimi, Qiyamətdə baş tutacaq sorğu-sual ümumidir və başda peyğəmbərlər olmaqla bütün insanlara aid olacaqdır.

2. Bütün əməllərə görə sorğu-sual. İnsan, həyatı boyu yaşadığı müddətdə az-çox, pis-yaxşı nə kimi işlər görübsə, hər birisi üçün cavab verəcək. Qurani-Kərimdə bu barədə buyurulur: ***"Əgər Allah istəsəydi, sizi (eyni dində olan) tək bir ümmət edərdi. (Allah) dilədiyini zəlalətə salar, dilədiyini isə doğru yola yönəldər. Sözsüz ki, etdiyiniz əməllərə görə, sorğu-sual olunacaqsınız."***[86]

---

[82] "Mumtəhinə" surəsi, ayə-3.
[83] "Muminun" surəsi, ayə-101.
[84] "Əbəsə" surəsi, ayə-34, 35, 36, 37.
[85] "Əraf" surəsi, ayə-6.
[86] "Nəhl" surəsi, ayə-93.

***“Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onun əvəzini görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onun əvəzini görəcəkdir (mükafatını alacaqdır).”***[87]

Qeyd etdiyimiz bu ayədə keçən “misqal” kəlməsi miqdar və ölçü mənasındadır və “zərrə”, qaranlıq yerdə açılan deşikdən düşən günəşin şüasında gözə dəyən xırda mövcudatlara deyilir.

Eyni zamanda, bu ayə, insanların xeyir və şər əməlləri üçün ümumi bir qanundur. Çünki insan ömrü boyu elə xeyirli işlər görə bilər ki, onunla bir çox günahlarını da yuyub aparar və ya əksinə elə bir günah iş görər ki, yaxşı əməllərini də heç edər.

3. Gizli əməllər barəsində sorğu-sual. Qurani-Kərimdə bu barədə buyurulur: ***“Göylərdə və yerdə nə varsa, (hamısı) Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. (Allah) istədiyini bağışlar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir.”***[88]

Allah zahirdə surəti olmayan günahları da Qiyamət günü sorğu-suala çəkəcəkdir (böyük günah olan Allaha şərik qoşmağı, riyanı, haqqı gizlətməyi və s.).

4. Hər hansı yerdə olunan əməlin hesabatı. Qurani-Kərimdə Hz.Loğmanın (ə) dilindən övladına belə buyurulur: ***“(Loğman öyüd-nəsihətinə davam edərək) dedi: “Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), (hər şeydən) xəbərdardır!”***[89]

Ayədən də məlum olur ki, heç bir əməl Allahdan gizli deyil, istər kiçik olsun, istərsə də qaranlıqda və yaxud hər hansı bir məkanda olursa-olsun, Allah bütün işlərdən xəbərdardır. Qurani-

---

[87] “Zilzal” surəsi, ayə-7-8.
[88] “Bəqərə” surəsi, ayə-284.
[89] “Loğman” surəsi, ayə-16.

Kərimi oxuyarkən bir çox ayələrin sonunda rast gəldiyimiz "xəbirun" (incə və nazik işləri bilən və xəbərdar olan) ifadəsi də məhz buna işarədir.

Həmin ayə eynilə "Ənbiya" surəsində də qeyd olunmuşdur: ***"Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik."***[90]

Başqa bir ayədə belə buyurulur: ***"O gün nə bir insan, nə də bir cin günahı barəsində sorğu-sual olunmayacaqdır!"***[91]

İslami rəvayətlərdə və mərhum Əllamə Təbatəbainin[92] Quran təfsirində də bu ayəyə işarə edilərək göstərilmişdir ki, qiyamət meydanında mərhələlər və dayanacaqlar çoxdur. Onların bəzilərində sual-cavab olacaq, bəzilərində isə yox. Ona görə də bu ayəni, yalnız qiyamətdəki mərhələlərin hər hansı birinə aid etmək düzgün olardı. Mütəal-Allah zülmkar insanları hamımızdan yaxşı tanıyır, həmçinin mələklər və möminlər də insanlıq simasını itirmiş fasiq və sitəmkarları tanıyırlar.

Başqa bir ayədə belə buyurulur: ***"(Qarun) dedi: "Bu (var-dövlət) mənə yalnız məndə olan elm (Tövratı gözəl bilmək, yaxud əlkimyaya yaxşı bələd olmaq, ticarətdən baş çıxarmaq) sayəsində verilmişdir". Məgər o (Qarun) Allahın ondan əvvəl özündən daha qüvvətli və daha varlı olan neçə-neçə kəsləri məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar. (Onların günahkar olduqları üzlərindən bilinər və buna görə də heç bir sorğu-sual edilmədən cəhənnəm oduna atılarlar).***[93]

Bu ayə Qarun və onun həlak olması barədə bəyan edir ki, "ey zamanın qarunları, özünüzə gələnə qədər sizə möhlət verilib. Əyri yoldan qayıdın. Ona görə ki, bizim qəzəbimiz zamanı sizə tövbə və üzrxahlıq üçün bir daha möhlət verilməyəcək. Biz fasiqləri

---

[90] "Ənbiya" surəsi, ayə-47.
[91] "Rəhman" surəsi, ayə-39.
[92] "əl-Mizan", XIX cild, səh-121.
[93] "Qəsəs" surəsi, ayə-78.

həlak etdiyimiz zaman, onların günahlarından soruşmarıq ki, onlar tövbə, üzrxahlıq və iltimas üçün bir fürsət əldə etmiş olmasınlar.

Beləliklə, bu ayə Qiyamətə aid deyil, bəlkə bu dünyada həlakətə uğrayan fasiq insanlara aiddir ki, diqqətli olsunlar, Allahın qəzəbi yetişsə, onlar üçün sual-cavaba fürsət qalmayacaq.

**Qiyamətdə hesab çəkən kimlərdir?**

İslami məlumatlara əsasən, qiyamət günündə hesab tələb edən yalnız Allahdır. O Allah ki, alim, adil, əzizdir və heç vaxt heç kimin haqqında zülm etməyib. Qurani-Kərimdə buyurulur: ***"Biz qiyamət günü üçün ədalət tərəzisini qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik".***[94]

***"Sonra insanlar Allahın –özlərinin həqiqi ixtiyar sahibinin hüzuruna qaytarılar. Bilin ki, hökm Onundur və O, ən tez haqq-hesab çəkəndir!"***[95]

Bir nəfər Hz.Əlidən (ə) soruşdu: "Allah bu qədər camaatın hesabatını bir vaxtda necə çəkəcək?" Hz.Əli (ə) buyurdu: *"Bütün insanlara bir vaxtda necə ruzi verir, hesablarını da o cür çəkəcək".*[96]

Bəzi rəvayətlərdə də qeyd olunur ki, Mütəal Allah hər ümmətin hesabını, onların səmavi din rəhbərlərinə və ya imamlarının öhdəsinə qoyacaq.

İmam Sadiq (ə) buyurur: *"Allah qiyamət günündə bizim şiələrimizin hesabını bizim öhdəmizə buraxacaq".*[97]

İmam Kazim (ə) buyurur: *"Camaatın hesabı bizimlədir".*[98]

Şeyx Səduqdan nəql olunan başqa bir hədisdə deyilir: *"Allah peyğəmbərlərin hesabını özü çəkəcək, peyğəmbərlərə öz*

---

[94] "Ənbiya" surəsi, ayə-47.
[95] "Ənam" surəsi, ayə-62.
[96] "Nəhcül-bəlağə".
[97] Əllamə Məclisi, "Biharul-ənvar", VII cild, səh-264.
[98] "Biharul-ənvar", VII cild, səh-274.

*canişinlərinin hesabını, imamlara isə ümmətin hesabını çəkmək tapşırılıb".*[99]

***"Göylərdə də, yerdə də əzəmət yalnız Ona məxsusdur. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!"***[100] Qeyd olunan bu ayə barədə məşhur şiə alimi Əllamə Təbatəbai deyir: "İmam Sadiqin (ə) hədisinə uyğun olaraq, hər bir ümmətin hesabı onun zəmanəsinin imamları ilə olacaqdır". Sonra əlavə olaraq deyir: "Bu rəvayət sənədlə İmam Baqir (ə), İmam Sadiq (ə), İmam Kazim (ə) və İmam Hadidən (ə) varid olmuşdur".[101]

Rəvayətlərə əsasən, qiyamət günündə insanı hesaba çəkənlərdən biri də insanların öz vicdanı olacaqdır. Qurani-Kərim bu barədə buyurur: ***"(Və ona belə deyərik:) "Oxu kitabını (əməl dəftərini). Bu gün haqq-hesab çəkmək üçün elə öz nəfsinin sənə şahidlik etməsi yetər!"***[102]

***"(Qiyamət günü hər kəsin) əməl dəftəri qarşısına qoyulacaq. (Ya Rəsulum! O zaman) günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O bizim heç bir kiçik və böyük günahımızı nəzərdən buraxmadan hamısını sayıb yazmışdır ki!" onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!)"***[103]

İmam Sadiq (ə) bu ayə haqqında buyurub: *"Qiyamətdə insan öz əməllərini elə xatırlayar ki, sanki, onları indi əncam verib. O şəxs fəryad qopararaq deyəcək: "Bu nə kitabdır ki, mənim hər bir əməlimi özündə əks etdirib".*[104]

"Nəhl" surəsinin 93-cü ayəsində buyurulduğu kimi, qiyamətdə insanlar bütün əməlləri barədə sorğu-sual olunacaqlar. Ayədə deyilir: ***"Əgər Allah istəsəydi, sizi (eyni dində olan) tək***

---

[99] "Biharul-ənvar", VII cild, səh-251.
[100] "Casiyə" surəsi, ayə-37.
[101] "əl-Mizan", XX cild, səh-403.
[102] "İsra" surəsi, ayə-14.
[103] "Kəhf" surəsi, ayə-49.
[104] "Safi" təfsiri.

***bir ümmət edərdi. (Allah) dilədiyini zəlalətə salar, dilədiyini isə doğru yola yönəldər. Sözsüz ki, etdiyiniz əməllərə görə sorğu-sual olunacaqsınız."***

Amma bəzi ayə və rəvayətlərdə qeyd olunmuşdur ki, müəyyən məsələlərdə xüsusi həssaslıq olacaq. Bu barədə Qurani-Kərimdə buyurulur: ***"Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!"***[105]

Ayədə qeyd olunan nemətdən məqsəd məsum İmamların (ə) vilayətidir. Əllamə Təbatəbai buyurur: "Su və çörək neməti barəsində ona görə sual olunar ki, bu nemətlərdən alınan güc və qüvvət Allah rizası yolunda və peyğəmbərlərinin xəttində sərf olunmalı olduğu halda haraya sərf olunub?[106]

Maddi nemətlər barəsində ona görə sual olunur ki, niyə bu nemətlər öz yolunda sərf olunmamışdır? Bu yol Allaha bəndəçilik və Onun məsum övliyalarına itaət etmək yoludur. Yox, əgər o kəslər maddi nemətlərdən Allah yolunda istifadə etmişlərsə, heç vaxt sorğu-sual olunmayacaqlar. İmam Sadiq (ə) buyurur: *"Bu ayədə qeyd olunan nemətdən məqsəd, biz Əhli-Beytin vilayətidir".*[107]

Başqa bir rəvayətdə belə buyurulur: *"İnsan qiyamətdə ömründən, cavanlığından, malından, vilayətdən və Əhli-Beytə (ə) olan məhəbbətdən sorğu-sual olunmayana qədər öz yerindən hərəkət etməz".*[108]

Qurani-Kərimdə buyurulur: ***"(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qulaq, göz və ürək –bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır."***[109]

---

105 "Təkasur" surəsi, ayə-8.
106 Əllamə Məclisi, VII cild, səh-272.
107 Əllamə Məclisi, "Biharul-ənvar", X cild, ayə-22.
108 "Biharul-ənvar", VII cild, səh-258.
109 "İsra" surəsi, ayə-36.

Bəzi rəvayətlərdən oxuyuruq ki, Qiyamətdə insanlara veriləcək ilk sual namaz barəsindədir. Əgər insanın yerinə yetirdiyi namaz qəbul olsa, digər əməllər barəsində də soruşulacaq. Əgər insanın namazı qəbul olunmazsa, başqa əməllərin də heç bir faydası olmayacaq.[110]

Qurani-Kərimin bildirdiyinə görə, qiyamətdə insanlar din və iman məktəbi haqqında atılan böhtanların da hesabını verəcəkdir. Bu barədə buyurulur: ***"Şübhəsiz ki, onlar həm öz günahlarına, həm də öz günahları ilə yanaşı, daha neçə-neçə günahlara (yoldan çıxartdıqları kimsələrin günahlarına) yüklənəcəklər. Qiyamət günü onlar uydurduqları yalanlara görə mütləq sorğu-sual olunacaqlar!"***[111]

Qiyamət günü dəlilsiz və mənasız yerə Allahın müqəddəs zatına nisbət verilən bir sıra mövhumatlardan da sual olunar. Bir qrup insan vardır ki, mələkləri Allahın qızları bilirdilər. Onlar barəsində belə buyurulur: ***"Onlar Rəhmanın qulları olan mələkləri dişi saydılar. Mələk onlar (mələklərin) yaradılışına şahid olmuşlar?! Onların bu şəhadəti (əməl dəftərlərinə) yazılacaq və (bu barədə) sorğu-sual olunacaqlar!"***[112]

Hətta, insanlar qiyamətdə heyvanlara verdikləri zülmlərə görə də sorğu-sual olunacaqlar. Bu barədə nəql olunan rəvayətlərin birində deyilir: Hz.Peyğəmbər (s) bir dəvənin əbəs yerə yüklə bağlandığını gördükdə belə buyurdu: *"Bu heyvanın sahibi özünü Qiyamətin hesabı üçün hazırlasın".*[113]

İslamiyyətdən öncə və sonra günahsız halda diri-diri qız uşaqlarının torpağa basdırılması barədə də valideynlərdən sorğu-sual olunacaq. Bu barədə Qurani-Kərimdə buyurulur: ***"Diri-diri torpağa gömülən qızdan, axı o hansı günaha görə öldürüldü? – deyə soruşulacağı zaman".***[114] Bu ayə, həmçinin dünya mədəniyyətinin, sənətinin və elminin bugünkü vaxtında cərrahiyyə əməliyyatı ilə öz uşağını siqt etdirənlərə də aiddir.

---

[110] "Biharul-ənvar", VII cild, səh-267.
[111] "Ənkəbut" surəsi, ayə-13.
[112] "Zuxruf" surəsi, ayə-19.
[113] "Biharul-ənvar", VII cild, səh-276.
[114] "Təkvir" surəsi, ayə-8-9.

Qeyd edəcəyimiz Quran ayələrindən və hədislərdən məlum olur ki, Qiyamət günü hər bir insan müxtəlif formada sorğu-sual olunacaqdır.

1) Bəzi insanların asan və sadə sorğu-suala çəkiləcəkləri barədə Qurani-Kərimdə belə buyurulur: ***"Kimin əməl dəftəri sağ əlinə verilmişsə, onunla yüngül haqq-hesab çəkiləcək və o, (Cənnətdəki) ailəsinin (yaxınlarının) yanına sevinclə qayıdacaqdır!"***[115]

Bu barədə nəql olunan bir hədisdə Hz.Peyğəmbər (s) belə buyurur: *"Əgər səni məhrum edən kəsə əta etsən, səndən ayrılan kəslə get-gəl etsən və sənə zülm edən kəsi bağışlasan, Allah bu əməlinə xatir Qiyamət günü səndən hesabatı asan tutar".*[116]

Başqa bir hədisdə isə İmam Sadiq (ə) belə buyurur: *"Dünyada sileyi-rəhm (qohumlarla əlaqə) Qiyamətdə hesabın asanlaşmasına səbəb olar."*[117]

2) Bəzi insanların ağır və çətin sorğu-suala çəkiləcəkləri barədə Qurani-Kərimdə belə buyurulur: ***"Məgər onlar (kafirlər) Bizim (hökmümüzlə, qüdrətimizlə) yer üzünə gəlib onu ətrafından əskiltdiyimizi (müsəlmanların get-gedə onların torpaqlarını fəth etdiklərini) görmürlərmi? Hökm edən Allahdır. Heç kəs Onun hökmünü dəf edə bilməz. (Allah) tezliklə haqq-hesab çəkəndir!"***[118]

Mütəal Allah Qiyamət günü insanların hesabını dünyadakı ağıl tərəziləri ilə ölçüb, sonra onlardan hesab çəkəcəkdir. Kimin ağlı çoxdursa, demək o, zirəkdir və əgər bu zirəkliyindən öz mənafeyi üçün istifadə edərək fəsad törədibsə, onun hesabı çox ağır və məşəqqətli olacaq.

İmam Sadiq (ə) dostlarından birini başqa bir şəxslə qızğın mübahisə edən halda gördü. Söhbətə müdaxilə edərkən məlum oldu ki, o, öz haqqını müsahibindən israrla tələb edir. Bu zaman İmam (ə) öz dostuna buyurdu: *"Çətin və ağır şəraitdə yaşayan*

---

115 "İnşiqaq" surəsi, ayə-7, 8, 9.
116 "Məcməul-bəyan", X cild, səh-461.
117 "Biharul-ənvar", VII cild, səh-273.
118 "Rəd" surəsi, ayə-41.

*insanlara canı yanmayan, onların qeydinə qalmayan kəsin qiyamətdə hesab çəkilərkən imdadına yetən olmayacaq".*

3) Bəzi insanlar sorğu-sualsız cəhənnəmə atılacaqlar.

Bu şəxslər həmin müşriklərdir ki, onlara saysız dəlil-sübut gətirmək, öyüd-nəsihət etmək kar etməyib, onlar qəflətdə və zəlalətdə qaldılar, pis əməllərindən və zülmkarlıqlarından əl çəkmədilər. Buna görə də onlardan qiyamətdə sorğu-sual etməyə ehtiyac olmayacaq.

İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur: *"Müşriklər üçün qiyamətdə mizan-tərəzi qurulmayacaq, çünki onların aqibəti indidən aydındır".*[119]

İmam Rzadan (ə) gələn bir hədisdə Hz.Peyğəmbərin (s) belə dediyi buyurulur: *"Allah müşriklərdən başqa bütün bəndələrini hesab üçün tərəzi ayağına gətirər".*[120] Bu həqiqət barədə Qurani-Kərimdə buyurulur: ***"Onlar o kəslərdir ki, Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını (qiyamət günü dirilib haqq-hesab üçün Onun hüzurunda duracaqlarını) inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz (qiyamət günü) onlar üçün mizan-tərəzi qurmayacağıq!"***[121]

Bəzi rəvayətlərə görə, zalım hökmdarlar, paxıl dövlətlilər, yalançı rəhbər, zinakar qoca və əməli düz olmayan alimlər də sorğu-sualsız cəhənnəmə gedəcəklər.

4) Bəzi insanlar da sorğu-sualsız behiştə gedərlər.

a) İlahi əmrləri lazimi qaydada yerinə yetirib, günah işlərdən çəkinənlər.

b) Başqalarının kobud rəftarının qarşılığında əfv və yüksək nəzərlə keçən, paxıllıq etməyən və intiqam əhli olmayanlar.

c) Öz var-dövlətini Allah eşqinə xərcləyənlər və bu işləri yerinə yetirərkən məqsədləri yalnız Allah rizası olanlar.

Eyni zaman Mütəal Allah qiyamət günü cihada, həccə, başqalarının ailə səadəti naminə pullarını sərf edənlərdən və ehtiyacı olana çörək verənlərdən hesab çəkməyəcək.

---

[119] "Biharul-ənvar", II cild, səh-259.
[120] "Biharul-ənvar", VII cild, səh-260.
[121] "Kəhf" surəsi, ayə-105.

Qiyamətdə borcu olan şəxsin yaxşı işlərini savablarını tələbkara verərlər ki, razı qalsın. Əgər borclunun yaxşı işi yoxdursa, borcunun yeri dolana qədər tələbkarın günahlarını onun günahlarına əlavə edərlər və bu vasitə ilə Allah qisas alar.[122]

Hz.Əli (ə) günahları bir neçə dəstəyə bölmüşdür: *"Allah insanları bir-birinə zülm etdiklərinə görə bağışlamır".* Sonra İmam (ə) əlavə edərək buyurur: *"Allah-Təala öz izzət və cəlalına and içərək buyurur ki, o gün az və cüzi olsa belə, zülmkarın zülmünə qətiyyən göz yumulmayacaqdır".*[123]

Mütəal Allah qiyamət günü "həqqun-nas" barədə kamil surətdə, diqqətlə hesab çəkər. Hz.Əlidən (ə) nəql olunmuşdur: *"Allah qiyamət günü buyurar: "Bu gün sizin aranızda hökm edəcəyəm və heç kim mənim hüzurumda digərləri tərəfindən zülmə məruz qalmayacaq. Bu gün məzlumun haqqını zalımlardan alacağam. Zalımlardan yalnız o dəstə nicat tapar ki, məzlum öz haqqından keçsin".*[124]

***"De: "Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi"***[125] ayəsinin təfsirində İmam Sadiq (ə) buyurur: *"Qiyamət günü günahkar insana xitab olunar: "Yolunun və vəzifənin nə olduğunu bilirdinmi? Əgər desə: "Bilirdim", soruşarlar: "Niyə əməl etmirdin?" Əgər desə: "bilmirdim", ona deyərlər, "niyə öyrənmirdin?"*[126]

Başqa bir hədisdə belə deyilir: *"Allah-Təala bir nəfər əməli saleh və mömin bəndənin vasitəsi ilə onunla bir vilayətdə və ya bir məhəllədə yaşayan camaatı imtahana çəkərək onlardan soruşacaq: "Məgər filan mömin bir xilaf iş görməyib haqq yolu ilə gedirdi, sizin aranızda və sizin qonşuluğunuzda yaşamırdımı? Məgər onun dediyi sözləri və öyüd-nəsihətləri eşitmirdiniz? Gecələr ibadət etdiyini, gündüzlər yaxşı işlər gördüyünü müşahidə etmirdiniz?"*[127]

---

[122] "Biharul-ənvar", VII cild, səh-274.
[123] "Biharul-ənvar", VII cild, səh-265.
[124] "Biharul-ənvar", VII cild, səh-268.
[125] "Ənam" surəsi, ayə-149.
[126] "Biharul-ənvar", VII cild, səh-285.
[127] "Biharul-ənvar", VII cild, səh-285.

Qiyamət günü qurulan ədalət məhkəməsində bəziləri nicat tapmaq üçün deyərlər: "İlahi, sən bizə mal və gözəllik verdin. Onlar da bizim günah etməyimizə və yolumuzu azmağa vasitə oldu. Allah da o zaman malı, gözəlliyi və çətinlikləri olan halda yolunu azmayan və günaha mürtəkib olmayan saleh bəndələrini nümunə gətirərək buyurar: "Məgər Hz.Yusifin və Məryəmin gözəllikləri yox idi? Məgər Hz.Əyyub ən çətin xəstəliklərə düçar olmamışdı?" Beləliklə, qiyamət günü Allah dərgahında mühakimə olunan insanın heç bir üzrxahlığı qəbul olunmayacaq.

Qadınlar üçün nümunə ola biləcək imanlı qadınlardan biri də Fironun arvadıdır ki, illərlə onun sarayında yaşamasına baxmayaraq hər bir fiziki və mənəvi çətinliyə dözdü, lakin öz əqidəsini dünyanın heç bir cah-cəlalına dəyişmədi. Bunun tam əksinə olaraq Hz.Lut (ə) və Hz.Nuhun (ə) arvadlar illərlə ilahi vəhyin nazil olduğu nübuvvət xanədanında yaşamalarına baxmayaraq, öz imanlarını nəfslərinə qurban verərək küfrə giriftar oldular. Sonda Allahın qəzəbi zamanı onlar da digər kafirlər kimi əzaba düçar oldular.

Hər kəs özü-özünü hesaba çəksə, Allah qiyamətdə ikinci dəfə onu hesaba çəkməz. Allah öz hesabatını aparan bir şəxsdən hesabat aparmaq işindən çox uca məqamdadır. İmam Kazım (ə) buyurur: *"Öz-özlərindən qafil olanlar və hər gün öz günahlarına görə peşmançılıq hissi keçirməyənlər, öz vicdanları qarşısında cavab verməyənlər bizdən deyillər".*[128]

**Əməllərin yazılması və aşkar edilməsi**

Qiyamətin digər məsələlərindən biri də Quranda və bir çox rəvayətlərdə adı çəkilmiş kitab və insanın əməl dəftəridir. Əvvəlcə əməl dəftərlərinin yazılması haqqında olan ayələri qeyd edib, sonra onun açılmasına aid olan ayələri bəyan edəcəyik.

***"İnsanların başına gələn bir müsibətdən sonra onlara bir mərhəmət (asudəlik) dadızdırsaq, (ayələrimiz barəsində) dərhal hiylə qurmağa girişərlər. De: "Allah daha tədbirlidir". Şübhəsiz***

---

[128] "Cameuş-şəhadət", III cild, səh-92.

***ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri (əməl dəftərinizə) yazırlar!"***[129]

***"Xeyr, onun dediklərini (əməl dəftərinə) yazacaq, əzabını artırdıqca artıracağıq".***[130]

***"Hər kim mömin ikən yaxşı işlər görsə, onun zəhməti danılmayacaqdır (mükafatı tamamilə ödəniləcəkdir). Şübhəsiz ki, Biz onun üçün (gördüyü işləri mələklər vasitəsilə əməl dəftərinə) yazırıq".***[131]

***"Həqiqətən, ölüləri dirildən, onların öncə nə etdiklərini və (özlərindən sonra) nə qoyub getdiklərini (əsərlərini) yazan Bizik. Biz hər şeyi hesaba alıb açıq-aydın bir kitabda (lövhi-məhfuzda, yaxud əməl dəftərində və ya açıq-aşkar bir imamın yanında) təsbit etmişik".***[132]

***"Yoxsa onlar elə güman edirlər ki, Biz onların pıçıltılarını və xəlvəti danışıqlarını eşitmirik?! Xeyr, yanlarında olan elçilərimiz (onların bütün aşkar və gizli söhbətlərini) yazırlar!"***[133]

***"Onların etdiyi hər şey (əməllərinin yazıldığı) dəftərlərdədir! Hər bir kiçik və böyük (günah lövhi-məhfuzda) yazılmışdır!"***[134]

***"Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah (onların əməllərini bir-bir) sayıb yazmış, onlar isə (etdiklərini) unutmuşlar. Allah hər bir şeyə şahiddir!"***[135]

İndi isə əməl dəftərlərinin açılması haqqında olan ayələrdən bəzilərini qeyd edirik:

***"Əməl dəftərləri açılacağı zaman."***[136]

---

[129] "Yunus" surəsi, ayə-21.
[130] "Məryəm" surəsi, ayə-79.
[131] "Ənbiya" surəsi, ayə-94.
[132] "Yasin" surəsi, ayə-12.
[133] "Zuxruf" surəsi, ayə-80.
[134] "Qəmər" surəsi, ayə-52-53.
[135] "Mücadələ" surəsi, ayə-6.
[136] "Təkvir" surəsi, ayə-10.

***“(Qiyamət günü) hamı Allahın hüzurunda peyda olacaqdır. Zəiflər (iman gətirməyə) təkəbbür göstərənlərə (öz başçılarına) deyəcəklər: “Biz sizə tabe idik. İndi Allahın əzabını, azacıq da olsa, bizdən dəf edə bilərsinizmi?” Onlar belə cavab verəcəklər: “Əgər Allah bizə doğru yolu göstərsəydi, biz də sizə göstərərdik. İndi ağlayıb-sızlasaq da, səbir etsək də, fərq etməz (əzabdan xilas ola bilmərik). Bizim üçün heç bir sığınacaq (heç bir qurtuluş) yoxdur!”***[137]

***“Xeyr, əvvəlcə (ürəklərində) gizlətdikləri (küfr, nifaq və çirkin əməllər) onların qabağına çıxdı. Əgər geri qaytarılsaydılar, yenə də onlar qadağan olunduqları şeyə (küfr və günaha) əl qatardılar. Onlar, şübhəsiz ki, yalançıdırlar!”***[138]

***“O gün insana öncə (dünyada) nə etdiyi və (özündən sonra) nə qoyub getdiyi (bütün yaxşı və pis əməllər) xəbər veriləcəkdir! Doğrusu, insan öz-özünə şahiddir! O, hər cür üzrxahlıq etsə də, (qəbul olunmaz)!”***[139]

Qurani-Kərimin buyruğuna əsasən, Qiyamət günü insanlar əməllərinə görə iki dəstəyə bölünər:

1. Əməlisaleh insanların əməl dəftərləri sağ əllərinə verilər.

***“Əməl dəftəri sağ əlinə kimsə deyəcəkdir: “Alın, əməl dəftərimi oxuyun! Mən (dünyada ikən qiyamət) öz hesabıma yetişəcəyimə çox inanmışdım!” Bundan belə o, xoş güzəran içində, yüksək bir cənnətdə olacaqdır.”***[140]

Qiyamət günündə günahkarların əməl dəftərləri barədə Qurani-Kərimdə üç müxtəlif təbir gəlmişdir.

***“Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: “Kaş əməl dəftərim mənə verilməyəydi!”***[141]

***“Kimin əməl dəftəri arxa tərəfdən (sol əlinə) verilmişsə, o: “Ay öldüm!” –deyə şivən qopardacaq və Cəhənnəmə vasil olacaqdır!”***[142]

---

[137] “İbrahim” surəsi, ayə-21.
[138] “Ənam” surəsi, ayə-28.
[139] “Qiyamə” surəsi, ayə-13, 14, 15.
[140] “Haqqə” surəsi, ayə-19, 20, 21, 22.
[141] “Haqqə” surəsi, ayə-25.
[142] “İnşiqaq” surəsi, ayə-10, 11, 12.

***“Bu dünyada (Allahın dəlillərini, möcüzələrini görməyib gözü və qəlbi) kor olan axirətdə də kor olar və (haqq) yoldan daha da çox azar!”***[143]

Qurani-Kərimdə insanların pis və ya yaxşı cəhətləri barədə buyurulur:

***“Sağ tərəf sahibləri! (Əməl dəftərləri sağ əllərində olanlar!) Kimdir o sağ tərəf sahibləri? Sol tərəf sahibləri! (Əməl dəftərləri sol əllərinə verilənlər!) Kimdir o sol tərəf sahibləri?”***[144]

“Vaqiə” surəsinin axırıncı ayələrində göstərilir ki, əməl dəftərləri sağ tərəfdən verilən kəslərə behişt əhli salam deyir və təbrik edirlər.

Qeyd etdiyimiz ayələrdən belə nəticəyə gəlirik ki, bəlkə də Qurani-Kərimdə olan sağ və sol kəlmələri yaxşı və pisdən, səadət və bədbəxtçilikdən irəli gələn kinayədir. Bir sıra ayələr vardır ki, yaxşıların əməl dəftərlərini onların sağ əllərinə, günahkarların əməl dəftərlərini sol əllərinə veriləcəyini qeyd edir. Bu da onun zahiri mənasından başqa bir mənasıdır.

**Kitabların növləri**

Quran ayələrindən məlum olur ki, qiyamət günündə üç növ sənəd və kitab vardır:

1. Hər bir şəxsin öz şəxsi işlərinə aid olan kitabı vardır ki, Qurani-Kərimdə bu barədə buyurulur: ***“Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıq kitab kimi qarşısına qoyarıq.”***[145]

Bu ayədə qeyd olunan “tair”dən məqsəd insanın əməlidir.

2. Hər bir qrup və millət üçün də bir kitab vardır ki, Qurani-Kərimdə bu barədə buyurulur: ***“(Ya Peyğəmbər! O gün) hər ümməti diz çökmüş (yaxud bir yerə yığılmış) görəcəksən. Hər ümmət öz (əməl) dəftərinə tərəf çağırılacaqdır. (Onlara belə***

---

[143] “İsra” surəsi, ayə-72.
[144] “Vaqiə” surəsi, ayə-27, 41.
[145] “İsra” surəsi, ayə-13.

***deyiləcəkdir:) "Bu gün sizə (dünyada) etdiyiniz əməllərin əvəzi (mükafatı və cəzası) veriləcəkdir!"***[146]

3. Bir kitab da bütün məxluqat üçün nəzərdə tutulub ki, orada bütün yer əhlinin hər cürə əməlləri bir yerə yazılmışdır.[147]

Qeyd olunan rəvayətlərə görə, qiyamətdə əlliyə qədər dayanacaq vardır ki, bunlar insanın hər bir işinə görə daşıdığı məsuliyyətlə bağlı olunacaq sorğu-sual üçün nəzərdə tutulmuşdur və bu dayanacaqların hər birində dayanmaq müddəti min ildir.

Əlbəttə, bu uzun və üzüntülü olan mərhələ fasid və naqis adamlar üçündür, amma mömin adamlar üçün Hz.Peyğəmbərin (s) hədislərinə istinadən hesab müddəti vacib namazlardan hər hansı birinin qılınma müddəti qədərdir.[148]

Hz.Əlinin (ə) yanına gələn bir nəfər soruşur: "Ya Əmirəl-möminin, Qurani-Kərimdə bir-birinə zidd olan ayələrlə rastla-şırıq. Məsələn, bir ayədə oxuyuruq ki, qiyamət günü Allah insanların ağzına möhür vuracaq, bəzi ayələrdə isə oxuyuruq ki, insanlar ağızları açıq və fəryad çəkərək bir-birini lənətlə-yəcəklər".

Hz.Əli (ə) həmin şəxsin cavabında buyurur: *"Qiyamətdə dayanacaq və mərhələlər çoxdur. Bir mərhələdə ağızlar açıq olacaq və müşriklər yalandan söyləyəcəklər: "Allaha and olsun ki, biz dünyada müşrik olmamışıq".* Məhz onların bu cür yalan danışmaqları ağızlarının möhürlənməsinə səbəb olacaq, ağızları əvəzində onların dəriləri, əlləri və ayaqları etdikləri günahlar üçün şəhadət verəcəkdir. Buna əsasən, bir mərhələdə yalan danışmaq, inkar etmək nalə və fəryad səsi eşidilərsə, digər sonrakı mərhələdə ağızların möhürlənməsi və müdhiş bir sükut hökm sürəcəkdir.

Qiyamətdə yalan danışmağın mümkünlüyü barədə Əllamə Təbatəbai "Mücadələ" surəsinin 18-ci ayəsinin təfsirində belə buyurur: "O kəslər ki, dünyada yalan danışmağa adət ediblər, onlar qiyamətdə də yalan danışmaqdan əl çəkməyəcəklər.

---

[146] "Casiyə" surəsi, ayə-28.
[147] Əllamə Təbatəbai, "əl-Mizan", XIII cild, səh-348.
[148] "Biharul-ənvar", VIII cild, səh-123.

Əvvəllər olduğu kimi yalan danışacaq və yalandan da and içəcəklər. Belə güman edəcəklər ki, burada da yalan danışıb, hiylə işlətməklə özlərinə bəraət qazanacaqlar. Tədricən qiyamət səhnəsi ilə daha yaxından tanış olduqdan sonra görəcəklər ki, bütün pərdələr çəkilib, yaxşı-pis nə ki var, savab və pis əməlləri tam çılpaqlığı ilə zahir olub. Onda nə irad göstərməyə, nə də bəhanə gətirməyə yer olmayacaq". ***"(Ya Rəsulum!) Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman (kafirlərin halı) nə cür olacaq? O gün Allahı dananlar və Peyğəmbərə asi olanlar yerlə yeksan olmağı arzu edərlər və heç bir sözü Allahdan gizlədə bilməzlər!"***[149]

Belə məlum olur ki, kafirlərin qiyamətdə hesaba çəkilmələrinin müddəti adi vaxtla min ildir. Buna "Səcdə" surəsinin 5-ci ayəsində də işarə olunmuşdur. Ayədə deyilir: ***"O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınız (dünya ilinin) min ilinə bərabər olan bir gündə (qiyamət günündə) Ona doğru (Allah dərgahına) yüksələr."***[150]

Amma bəzi kafirlərin (cəmiyyətdə küfr və fəsada rəhbərlik edənlərin) hesabı əlli min il çəkər. Bu barədə Qurani-Kərimdə buyurulur: ***"Mələklər və ruh (Cəbrail) Onun dərgahına (dünya ili ilə müqayisədə) müddəti (miqdarı) əlli min il olan bir gündə qalxarlar."***[151] Küfr və zülm nə qədər çox olarsa, hesabın müddəti də bir o qədər uzun olar. İman və təqva nə qədər çox olarsa, o gündə hesab da çox asan olacaqdır.[152]

### Görülməyən işlərin hesabı

Quran ayələrindən və hədislərdən əldə edilən məlumatlara əsasən, qiyamətdə insanların günahlarına müvafiq olaraq, iki cür hesab və cəza növü mövcuddur:

1. Yerinə yetirdiyi işlər.
2. Niyyət edildiyi halda yerinə yetirilmədiyi işlər.

---

[149] "Nisa" surəsi, ayə-41, 42.
[150] "Səcdə" surəsi, ayə-5.
[151] "Məaric" surəsi, ayə-4.
[152] "Biharul-ənvar", VII cild, səh-128.

Dünyanın hüquq qanunlarına əsasən, insan cinayət tərkibli bir hadisə törətdikdən və yalnız cinayəti sübuta yetirildikdən sonra məsuliyyətə cəlb olunur. Əgər insan bir pis iş tutmaq niyyətində olarsa, o işə əncam verməmiş onun haqqında hüquqi qanunlara əsasən, cinayət işi açılmaz. Bunun əksinə olaraq, İslam həm insanın yerinə yetirdiyi işlər, həm də ürəyində tutduğu, lakin yerinə yetirə bilmədiyi bəzi niyyətlər və hədəflər barəsində hesab açmışdır. Yaxud əksinə, insan sidq ürəklə yaxşı, xeyirxah bir iş görmək qəsdində olub, o işi yerinə yetirməmiş olsa da belə, onun üçün yenə əməl dəftərində savab yazılır. Bu batini razılıq və fikri birlik insanın formalaşmasında nəzərə çarpan bir həqiqət olmasından əlavə daxildə də mühüm bir rolu oynayır. Çünki bədxah insanlara xəbərdarlıq edir, əgər fikrində hansısa çirkin bir işə razı olsan, sən də o əməlin cəzasında şərik olacaqsan. Həmçinin, düz yolda olan insanlara müjdə verir ki, nə vaxt ürəyin istəyən bir əməli yerinə yetirməyə nail olmadın, narahat olma, çünki Allah o fikrə və xoş arzuya xatir sənə mükafat verər.

Qurani-Kərimin "Ali-imran" surəsinin 183-cü ayəsində Mütəal Allah Hz.Peyğəmbərin (s) zamanında olan yəhudilərə xitabən belə buyurur: ***"Allah (Tövratda) bizə əmr etmişdir ki, odun yeyəcəyi (yandıracağı) bir qurban gətirməyincə heç bir peyğəmbərə inanmayaq!" –deyənlərə belə cavab ver: "Məndən əvvəl sizə peyğəmbərlər açıq-aşkar möcüzələr və dediklərinizi (dediyiniz qurbanları) gətirmişdilər. Əgər doğru danışırsınızsa, bəs nə üçün onları öldürdünüz?"***

Halbuki, İmam Sadiqdən (ə) yetişən bir hədisə əsasən həmin peyğəmbərləri qətlə yetirən yəhudilər özləri də İslamiyyətdən 500 il əvvəl dünyalarını dəyişmişlər. Həmin yəhudilərin əcdadları neçə yüz il əvvəl Allahın yer üzünə göndərdiyi peyğəmbərləri şəhid etmişdilər və sonra gələn nəsillər də öz qatil əcdadlarının çirkin əməllərinə haqq qazandırmaq istəyirlər. Ona görə də Allah Qurani-Kərimdə onları bu pis niyyətlərinə görə günahlandırır və axirət əzabı ilə xəbərdarlıq edir.

İslam tarixindən məlumdur ki, Hz.Saleh (ə) Səmud qövmünə Allah tərəfindən bir peyğəmbər kimi göndərilmişdi. O da öz

peyğəmbərliyini Səmud qövmünə isbat etmək üçün Allahın iradəsilə dağdan bir dişi dəvə çıxardı. Lakin ilahi qüdrətin aydın bir nişanəsi olan bu dəvəni Qəddar ibn Salif adlı cahil və fasiq şəxs öldürərək aradan apardı. Uca Allah bu müxalifləri Quranda xatırlayaraq buyurur: ***"(Saleh onlara) belə cavab verdi: "Ey camaatım! Bir deyin görək. Əgər mənim Rəbbimdən aşkar bir möcüzəm olsa, O mənə Özündən bir mərhəmət (peyğəmbərlik) lütf etsə, mən də Ona asi olsam, məni Allahın əzabından kim qurtara bilər? Siz mənə ziyandan başqa bir şey artırmayacaqsınız! Ey camaatım! Allahın bu dişi (maya) dəvəsi sizin üçün bir möcüzədir. Qoyun Allahın torpağında otlasın, ona bir pislik etməyin, yoxsa şiddətli bir əzaba düçar olarsınız!" Onlar (dəvəni) tutub (ayaqlarından) kəsdilər. (saleh də onlara) dedi: "Daha üç gün yurdunuzda yaşayıb kef çəkin. Bu elə bir vəddir (sözdür) ki, yalan çıxmaz!" (Salehin tayfasının məhvi barəsində) əmrimiz gəldikdə Bizdən bir mərhəmət olaraq Salehi və onunla birlikdə iman gətirənləri xilas etdik və o günün rüsvayçılığından qurtardıq. Həqiqətən, Rəbbin yenilməz qüdrət sahibi, qüvvət sahibidir!"***[153]

Hz.Əli (ə) buna istinadən buyurur: *"O zaman qətlə fərman verənlər və bu əmri dəstəkləyənlər Allahın əzabına hamılıqla düçar oldular".*[154]

Hz.Peyğəmbər (s) buyurur: *"Hər kəs günah edilən yerdə çarəsiz olarsa və qəlbində günahla müxalif olsa, elə bil ki, orada yoxdur və hər kəs günah edilən yerdə olmasa, amma qəlbində o günaha razı olsa, orada olan kəs kimidir. Bəli, orada olmaq və ya olmamaq təkcə bədənlə deyil, əksinə qəlbin razı olması və yaxud nifrət etməsi ilə ölçülür".*[155]

İmam Rza (ə) buyurur: *"Hər vaxt şərqdə bir nəfər öldürülsə, qərbdə bir nəfər onun qətlinə razı olsa, həmin razı olan şəxs Allah yanında günahkar qatil kimi tanınar".*[156]

---

[153] "Hud" surəsi, ayə-63, 64, 65, 66.
[154] "Nəhcül-bəlağə", Feyz, səh-650, xütbə-192.
[155] "Vəsailuş-şiə", XI cild, "Təfsiri-Nümunə"nin nəqlinə əsasən.
[156] Həmin mənbə.

İmam Əlinin (ə) yoldaşlarından biri qələbə qazandıqdan sonra dedi: "Kaş qardaşım burada olaydı və mənim qələbəmi görəydi". İmam (ə) buyurdu: *"Əgər onun ürəyi bizimlədirsə, elə bil ki, bu qələbədə bizimlə şərikdir".*

Daha üstünü budur ki, İmam (ə) buyurdu: *"Nəinki tək sənin qardaşın, bəlkə bu qələbədə hələ dünyaya gəlməmiş insanlar da şərikdirlər".*[157]

"Aşura ziyarətnaməsi"ndə oxuyuruq: *"Allah lənət eləsin o kəslərə ki, İmam Hüseynin (ə) şəhadət xəbərini eşitdilər, qəlbən o işi təqdir etdilər və zalımların əməllərinə heç bir etiraz etmədilər".*

Nəticə olaraq bunu deyə bilərik ki, insan hər an gərək düşünsün və özlüyündə dərk eləsin ki, hesab günündə, yerinə yetirmədiyi, lakin razı olduğu günah üçün də cavab verməli olacaq.

**Qiyamət günü cavabsız qalan suallar**

Qiyamət günündə insanlara elə suallar da veriləcək ki, onun cavabını insan, yalnız başını aşağı dikib xəcalət təri tökməklə və vicdan əzabı çəkməklə büruzə verəcək.

1. Müşriklik haqqında verilən sual:

Qurani-Kərimdə buyurulur: ***"Sonra qiyamət günü (Allah) onları rüsvay edəcək və: "Barələrində (möminlərlə) çənə-boğaz olduğunuz şəriklərim haradadır?" – deyə soruşacaqlar. Elm verilmiş kimsələr (peyğəmbərlər və möminlər) isə: "Bu gün kafirlər rəzalətə və əzaba (pisliyə) düçar olacaqlar!" – deyəcəklər".***[158]

***"(Allah) həmin gün onlara xitab edib belə buyuracaqdır: "Mənim şəriklərim olduqlarını iddia etdikləriniz (bütlər, tanrılar) haradadırlar?!"***[159]

***"O gün (qiyamət günü Allah müşriklərə) müraciət edib belə buyuracaqdır: "Şəriklərim olduqlarını iddia etdikləriniz (bütlər, tanrılar) haradadırlar?"***[160]

---

[157] "Nəhcül-bəlağə", Feyz, səh-63, xütbə-12.
[158] "Nəhl" surəsi, ayə-27.
[159] "Qəsəs" surəsi, ayə-27.
[160] "Qəsəs" surəsi, ayə-74.

***"O saatı (qiyamətin nə vaxt qopacağını) bilmək yalnız Ona aiddir. O bilmədən heç bir meyvə qabığından (tumurcuğundan) çıxmaz, heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz. (Allah) onlara (müşriklərə məzəmmət və istehza ilə): "Şəriklərim haradadır?" – deyəcəyi gün, onlar: "(Ey Rəbbimiz!) Biz Sənə ərz etdik ki, aramızda (Sənin şərikin olduğuna şəhadət verə biləcək) heç bir şahid yoxdur!" – deyə cavab verəcəklər".***[161]

***"(Müşriklərə) belə deyiləcək: "Şəriklərinizi çağırın!" (Müşriklər) ortaqlarını çağıracaq, lakin onlar (müşriklərə) cavab verməyəcəklər. Onlar mütləq əzabı görəcəklər. Əgər onlar (dünyada) doğru yola gəlmiş olsaydılar (axirətdə əzab görməzdilər)".***[162]

2. Qiyamət günü insanın cavab verə bilməyəcəyi suallardan biri də budur ki, kafirlər və günahkarlar cəhənnəm atəşində yandıqları halda fəryad çəkib deyəcəklər: ***"İlahi, bizi bu yanar oddan qurtar və dünyaya qaytar ki, biz saleh əməllərimizi yerinə yetirək".***

Allah onların cavabında buyuracaq: ***"Onlar orada fəryad edib deyəcəklər: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki (dünyada) edirdik!" (Onlara belə deyəcəyik:) "Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi (düşünəcək kimsənin düşünəcəyi) qədər ömür vermədikmi?! Hələ sizə (siz kafirləri Allahın əzabı ilə) qorxudan peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! Zalımların imdadına çatan olmaz!"***[163]

Lakin insan bu sualın müqabilində də cavabsız qalacaq. Çünki, anlayacaq ki, illərlə ömür sürdü və o ömrün bir neçə dəqiqəsində özünə gələ bilərdi, həmçinin günahdan əl çəkib tövbə edərdi.

3. Şeytana edilən tabeçilikdən sual.

---

[161] "Fussilət" surəsi, ayə-47.
[162] "Qəsəs" surəsi, ayə-64.
[163] "Fatir" surəsi, ayə-37.

Qurani-Kərimdə buyurulur: Allah insanlardan soruşar: ***“Ey Adəm övladı! Məgər mən sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin, o sizin açıq-aşkar düşməninizdir və (sizə buyurmadımmı ki) Mənə ibadət edin, doğru yol budur?!”***[164] Lakin bu suala da cavab tapa bilməyən insan xəcalətindən başını aşağı salacaqdır.

**Qiyamətdə şahidlik edənlər**

Qiyamətin mühüm məsələlərindən biri də insan əməllərinə şahidlik edənlərdir. İnsan elə bir məxluqdur ki, şahidlər çox olduqda o özündə daha çox məsuliyyət hiss edir, bir o qədər də təqva və imanları kamilləşir. Məsələni daha yaxşı anlamaq üçün nəzərinizə aşağıdakı əhvalatı çatdırırıq:

Bir gün Əqil ibn Əbu Talib Hz.Əlinin (ə) yanına gələrək ondan bir qədər artıq məvacib istədi. Hz.Əli (ə) buyurdu: “*Cümə günü gəl”*. Əqil cümə günü gəldikdə Hz.Əli (ə) onun əlindən tutub məscidə, cümə namazına apardı. Məsciddə olan çox saylı camaatı Əqilə göstərərək buyurdu: *“Beytul-maldan sənə əlavə maaş vermək, bütün bu camaatın haqqını oğurlamaq deməkdir”*. Bu mənzərəni müşahidə edən Əqil, tutduğu əməlindən peşman olaraq geri qayıtdı.

Qeyd etdiyimiz bu hadisədən də aydın olur ki, şahidlərin sayı nə qədər çox olsa, peşmançılıq və xəcalət də bir o qədər çox olar.

Beləliklə, məlum olur ki, insan nalayiq bir iş gördükdə nə qədər şahid və müşahidə çox olarsa, onda xəcalət hissi daha da çox olar və öz üzərində nəzarəti artırar.

Qurani-Kərimin buyurduğuna görə, qiyamətdə şahidlərin sayı çox olacaqdır. Bu barədə “Muminun” surəsində buyurulur: *“Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə (qiyamət günündə) yardım edəcəyik!”*[165]

---

[164] “Yasin” surəsi, ayə-60.

[165] “Muminun” surəsi, ayə-51.

**Birinci şahid - Allah;**

Qurani-Kərimdə buyurulur: ***"Həqiqətən, Allah iman gətirənlər (müsəlmanlar), yəhudilər, sabiilər (ulduzpərəstlər), xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında qiyamət günü (haqq ilə batili ayırd edəcək) hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə şahiddir! (Onların nə etdiklərini və nəyə layiq olduqlarını çox gözəl bilir!)"***[166]

Allah barədə bir sıra başqa sifətlər də varid olmuşdur ki, bunların hamısı Onun elminin, şahidliyinin və hüzurunun əhatəsinə dəlalət edir.

***"Ey insanlar! Sizi tək bir kəsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdandır, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"***[167]

***"Göylərdə və yerdə nə varsa, (hamısı) Allaha məxsusdur. Allah hər şeyi (elmi və qüdrətilə) ehtiva etmişdir."***[168]

**İkinci şahid - peyğəmbərlər;**

Qiyamət günü şahidlik edəcək müqəddəs zatlardan biri də peyğəmbərlərdir.

***"(Ya Rəsulum!) Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman (kafirlərin halı) nə cür olacaq?"***[169]

***"Qiyamət günü hər ümmətə özlərindən bir şahid (hər ümmətin öz peyğəmbərini) göndərəcəyik (tutacağıq). (Ya Rəsulum!) Səni də bunlara (öz ümmətinə) şahid gətirəcəyik. Biz Quranı sənə hər şeyi (dini hökmləri, halal-haramı, günahı və savabı) izah etmək üçün, müsəlmanlara (və ya Allahın vəhda-***

---

[166] "Həcc" surəsi, ayə-17.
[167] "Nisa" surəsi, ayə-1.
[168] "Nisa" surəsi, ayə-126.
[169] "Nisa" surəsi, ayə-41.

***niyyətini qəbul edən bütün insanlara) da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!"***[170]

Beləliklə, aydın olur ki, qiyamətdə hər bir ümmətin şahidi, həmin ümmətin şahidi olacaq. Bütün peyğəmbərlərin şahidi isə Hz.Muhəmməddir (s).

**Üçüncü şahid - məsum imamlar;**

Qurani-Kərimdə bu barədə buyurulur: ***"(Ey müsəlmanlar!) Beləliklə də, sizi orta (mötədil, ədalətli) bir ümmət etdik ki, (qiyamət günü) siz insanlara şahid olasınız, Peyğəmbər də sizə şahid olsun."***[171]

Burada "ümmət" dedikdə hər hansı bir icma yox, ayrı-ayrı fərdlər nəzərdə tutulur və peyğəmbərə də öz növbəsində həmin fərdlərə bir şahid və örnək kimi Allah tərəfindən təminat verilir.

Burada ümumdan söhbət gedə bilməz, çünki, İslam ümmətinin tərkibində şübhəsiz ki, münafiqlər də olub. Belə olan halda onların qiyamət günü kimi mühüm və məsuliyyətli bir gündə necə ləyaqətləri çatar ki, başqaları üçün şahidlik etsinlər. Bu məsələyə ağılla yanaşsaq görərik ki, burada ümmətin şahidliyindən mətləb, yalnız ümmətin ayrı-ayrı fərdləri bəyanındadır ki, onlar şahidlik şərtlərinə sahibdirlər. Yəni:

1. Xalq içərisində olub, onların işlərindən agah olanlar.
2. Xüsusi ədalətə sahib olub, kimsənin haqqında şahidlik edərkən səhvə və ədalətsizliyə yol verməyənlər.
3. Bu şəxslərin ləyaqəti və əhəmiyyəti qiyamət gününün əzəməti ilə müvafiq olsun. Xülasə, Allah məhkəməsində şahid, Allah övliyalarından başqa heç kəs ola bilməz.

**Dördüncü şahid - mələklər;**

Qurani-Kərimdə bu barədə buyurulur: ***"Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir".***[172]

---

170 "Nəhl" surəsi, ayə-89.
171 "Bəqərə" surəsi, ayə-143.
172 "Qaf" surəsi, ayə-21.

Mümkündür ki, bu mələklər, bizim dünyada əməllərimizi yazan bir dəstə məmur olsun, yaxud da başqa mələklər olsun.

**Beşinci şahid – Yer;**

Qurani-Kərimdə bu barədə buyurulur: ***"Məhz o gün (yer) öz xəbərlərini (başına gələnləri) söyləyəcəkdir."***[173]

O gün Yer də çoxlu zəlzələlərə və vulkan püskürmələrinə düçar olacaq, dağlar və qayalar parçalanıb dağılacaq, daşlar bir-birinə dəyib toz kimi olmaqla Yerin səthi ucsuz-bucaqsız bir düzəngaha dönəcək. Yer bu vəziyyətə düşməklə insanların əməllərinə şəhadət verəcək.

Yerin şahidliyinin digər bir mənası budur ki, Allah Öz iradəsi ilə yerin hər bir guşəsini danışdırar. Necə ki, dünyada iradəsi və qüdrəti ilə Hz.Musanın (ə) cansız və hərəkətsiz əsası böyük bir əjdahaya çevrildi. Həmçinin həmin qüdrət, bu dünyada torpaqdan meyvə, meyvədən nütfə (sperma), sonra insan dünyaya gətirir.

Yerin şahidliyi ilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə belə buyurulur: *"Namazlarınızı müxtəlif məkanlarda qılın. Çünki namaz qıldığınız məkanlar da Qiyamətdə əməllərinizə şəhadət verəcəklər."*[174]

Başqa bir hədisdə deyilir: *"Allahın Rəsulu (s) hər bir məntəqədə iki rükət namaz qılırdı və buyurardı: "Bu məkan bizim namazımıza şəhadət verər".*[175]

**Altıncı şahid – vicdan;**

Qurani-Kərimdə bu barədə buyurulur: ***"(Və ona belə deyərik:) "Oxu kitabını (əməl dəftərini). Bu gün haqq-hesab çəkmək üçün elə öz nəfsinin sənə şahidlik etməsi yetər!"***[176]

Qeyd etdiyimiz ayədən də məlum olur ki, qiyamət günü yerinə yetirdiyimiz əməllərimizə bütün vücudumuz və ruhumuz şahidlik edəcək.

---

[173] "Zilzal" surəsi, ayə-4.
[174] Şeyx Səduq, "İləluş-şəraye"
[175] "əl-Mizan", VI cild, səh-337.
[176] "İsra" surəsi, ayə-14.

**Yeddinci şahid - bədən üzvləri;**

Qurani-Kərimdə bu barədə buyurulur: ***"Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir."***[177]

Bəzən də insanların ağızlarına möhür vurarlar, təkcə əlləri və ayaqları danışar.

***"Bu gün (Allaha and olsun ki, biz müşrik, kafir deyildik, - dediklərinə görə) onların ağızlarını möhürləyərik. Etdikləri əməllər (qazandıqları günahları) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər."***[178]

***"Nəhayət, onlar Cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir."***[179]

***"Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" –deyəcəklər. (Dəriləri də) belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!"***[180]

Bu ayələrin təfsirində Əllamə Təbatəbai deyir: "Bədənin əzasının o zaman həqiqəti var ki, əzalardan hər biri dünyada şüura malik olub, insanın əməlindən xəbərdar olsun. Əgər belə olmasa, Allah qiyamətdə hər zaman əzalara şüur versə və ya o gündə onlara agahlıq və səs bəxş eləsə, şəhadət olmayacaqdır. Çünki, şahid gərək əməl əsnasında həm hazır olsun və həm alim olsun ki, hər hansı hadisəni əldə etsin və o gün üçün şahidlik versin. Beləliklə, bu aləmdə bizim bütün əzalarımız bir növ şüura, agahlığa və elmə malikdir. Əlbəttə ki, bu növ elmin və şüurun bizim elm və şüurumuzla fərqi vardır".[181]

***"(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki***

---

177 "Nur" surəsi, ayə-24.
178 "Yasin" surəsi, ayə-65.
179 "Fussilət" surəsi, ayə-20.
180 "Fussilət" surəsi, ayə-21.
181 "əl-Mizan", XVII cild, səh-402.

***qulaq, göz və ürək –bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır."***[182]

Əzaların şahidliyi yalnız ilahi əzaba layiq olan fasiq və günahkar insanlara aiddir. Bu şahidlik möminlərə aid deyil, onların əməl dəftərləri sağ əllərinə verilər. Onlar şad və xürrəm olaraq deyərlər: *"Başqaları da gəlib bizim əməl dəftərimizi oxusunlar".*[183]

**Səkkizinci şahid – zaman;**

Nəql olunan bir hədisdə Hz.Əli (ə) buyurur: *"Heç bir gün insana –"mən bu gün sənin üçün yeni bir günəm, mən də yerinə yetirdiyin bütün işlərə şahid olacağam və qiyamət günü onlara şahidlik edəcəyəm" –deyə, xəbərdarlıq etmədən keçməz".* Beləliklə, bu gündən kamil istifadə etməklə çalış ki, əbədi səadət yolunu əldə edəsən.[184]

**Doqquzuncu şahid - əməl;**

Qurani-Kərimdə bu barədə buyurulur: ***"O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaq. Allah sizi Öz əzabından çəkindirir, çünki Allah bəndələrə (Öz bəndələrinə) mərhəmətlidir!"***[185]

***"(Qiyamət günü hər kəsin) əməl dəftəri qarşısına qoyulacaq. (Ya Rəsulum! O zaman) günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O bizim heç bir kiçik və böyük günahımızı nəzərdən buraxmadan hamısını sayıb yazmışdır ki!" onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!)".***[186]

---

[182] "İsra" surəsi, ayə-14.
[183] "Kafi", "Təsliyətul-fuad" kitabının 181-ci səhifəsində.
[184] "Nurus-səqəleyn", V cild, səh-112, "Qaf" surəsinin 21-ci ayəsi barəsində.
[185] "Ali-İmran" surəsi, ayə-30.
[186] "Kəhf" surəsi, ayə-49.

***“Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!”***[187]

***“Allahın hüzurunda duracaqlarını inkar edən kimsələr, həqiqətən, ziyana uğramışlar. Belə ki, o saat (qiyamət) qəflətən başlarının üstünü aldığı zaman onlar günahlarını dallarında daşıyaraq deyəcəklər: “Dünyadakı təqsirlərimizə görə vay halımıza!” Bir baxın, daşıdıqları şey necə də pisdir!”***[188]

***“O gün (qiyamət günü) yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (və onlara): “Bu sizin özünüz üçün yığıb saxladığınız sərvətdir. Di dadın yığdığınızı (mal-dövlətinizin əzabını, acısını)” (-deyiləcəkdir!).”***[189]

***“Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən Şeytan toxunmuş (cin vurmuş) kimsənin qalxdığı kimi qalxarlar. Bunların belə olmaları: “Alış-veriş də sələm kimi bir şeydir!” –dedikləri üzündəndir. Halbuki Allah alış-verişi halal, sələmi isə haram etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmləri) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir. Amma (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!”***[190]

İmam Sadiq (ə) “Ali-imran” surəsinin 179-cu ayəsinin təfsirində buyurur: *“Dünyada paxıllıq və simiclik üzündən yığılan və islami vergiləri ödənməyən (xüms, zəkat) mallar qiyamətdə ilan şəklinə düşərək sahibinin boynuna dolanar”.*[191]

Qiyamətin əzabı nə intiqam, nə kin üzündəndir, nə də ki, müqavilə ilə veriləsi cəzalardır ki, danışmaqla yüngülləşdirəsən. Əksinə, qiyamətin əzabı bizim dünyadakı işlərimizin eynidir. Hz.Peyğəmbər (s) buyurur: “Dünya axirətin əkin tarlasıdır”.

---

187 “Yasin” surəsi, ayə-54.
188 “Ənam” surəsi, ayə-31.
189 “Tövbə” surəsi, ayə-35.
190 “Bəqərə” surəsi, ayə-275.
191 “Nurus-səqəleyn”, I cild, səh-343.

**Qiyamətdə şikayət edənlər**

Qiyamət günündə şikayət edənlər də olacaq, onlar fasiq və günahkar adamlardan şikayət edəcəklər.

**1. Allahır Rəsulu (s);**

Qurani-Kərimdə oxuyuruq ki, Hz.Peyğəmbər (s) qiyamətdə Allaha şikayət edərək buyurur: ***"Peyğəmbər də: "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!" –deyəcək."***[192]

Quranı özlərinə qanun və yaşayış kitabı qərar verməkdənsə, onu şərafətli tutaraq and kitabı qərar verdilər. İlahi, Quranı qarşılarına qoymaqdansa, arxalarına qoydular. Ondan "nur" almaqdansa, pul qazanmaq üçün vasitə etdilər. Onun ayələrini ürəklərinə həkk etməkdənsə, kağıza və daş üzərinə yazdılar. Onu hifz etməkdənsə, unutdular. Əmr olunmuş tövhid və həqiqi bəndəlik əvəzinə, zalımlara itaət olundu. Qurandan tərbiyələnənlər Allahın düşmənlərini qorxutmaqdansa, özləri onlardan qorxdular. Birlik yaratmaqdansa, bir-birlərindən ayrıldılar. Müsəlmanlar Quranın hüquqi ayələrindən, onun ictimai, əxlaqi və iqtisadi qanunlarından agah olmaq əvəzinə, daha çox şərq və qərbin hüquqlarından məlumat topladılar.

**2. Qurani-Kərim;**

Qiyamət günündə şikayət edənlərdən biri də Qurani-Kərimdir. Hz.Peyğəmbər (s) buyurur: *"Qiyamət günü üç şey insanlardan şikayət edər. Onlardan biri Qurani-Kərimdir, digəri məscid, üçüncüsü də Əhli-Beytim olacaq".* Mümkündür ki, Qiyamət günü Quran iki dəstədən (havadar və müxaliflərdən) şikayət etmiş olsun".[193]

Qurani-Kərimin havadarlarından şikayəti barədə olan bəzi ayələri nəzərinizə çatdırırıq: ***"(Ya Rəsulum!) Sənə kitabı (Quranı) nazil edən odur. Onun (kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna***

---

[192] "Furqan" surəsi, ayə-30.

[193] "Biharul-ənvar", VII cild, səh-222.

***vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", -deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər."[194]***

***"Allahın nazil etdiyi kitabda (Tövrat Peyğəmbərin vəsfinə dair) olanı gizlədənlərin və onun müqabilində az bir para alanların yedikləri qarınlarında ancaq oda dönəcəkdir. Qiyamət günü Allah onlarla danışmaz, (onları) təmizə çıxarmaz. Onları ağrılı-acılı bir əzab gözləyir!"[195]***

Qurani-Kərimin dilindən nəql etdiklərimiz bir həqiqətdir ki, havadarlar tərəfindən Quranın başına gəlmişdir.

İndi də Qurani-Kərimin müxaliflərindən şikayəti barədə olan bəzi ayələri nəzərinizə çatdırırıq: ***"Kafir olanlar (öz dostlarına): "Bu Quranı dinləməyin, o oxunduqda (eşidilməsin deyə) səs-küy salın ki, bəlkə, (bununla Məhəmmədə) qalib gələsiniz!" – dedilər".[196]***

***"O, kahin sözü deyildir! Nə az düşünürsünüz!"[197]***

***"Bu (Quran haqla nahaqqı) ayırd edən kəlamdır!"[198]***

***"(Kitab əhlinin möminləri məkkəlilərə: "Biz sizin peyğəmbərinizin vəsflərini öz kitablarımızda görmüşük", -söylədikləri zaman) kafir olanlar dedilər: ""Biz nə bu Qurana, nə də ondan əvvəlkilərə (Tövrata və İncilə) inanırıq!" (Ya Rəsulum!) Kaş sən o zalımları (haqq-hesab üçün) Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları (bir-birini təqsirləndirib məzəmmət etdikləri) və acizlərin (dünyada) özlərini yuxarı tutanlara (tabe olanların öz rəislərinə): "Əgər siz olmasaydınız, biz mütləq mömin olardıq!" –dedikləri zaman görəydin".[199]***

---

194 "Ali-İmran" surəsi, ayə-7.
195 "Bəqərə" surəsi, ayə-174.
196 "Fussilət" surəsi, ayə-26.
197 "Haqqə" surəsi, ayə-4.
198 "Tariq" surəsi, ayə-13.
199 "Səba" surəsi, ayə-31.

***“(Müşriklərə) ayələrimiz açıq-aydın oxunduğu zaman (qiyamət günü haqq-hesab üçün) Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: “bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!” – deyərlər. Onlara de: “Mən onu özbaşına (istədiyim kimi) dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam, (müsibəti) böyük günün (qiyamət gününün) əzabından qorxuram”.***[200]

**3. Məscid;**

Qiyamət günü şikayət edənlərdən biri də məsciddir. Hz.Peyğəmbərdən (s) nəql olunan bir hədisdə həzrət belə buyurur: *“Qiyamət günü məscid də Allahın dərgahında müsəlmanlardan şikayət edər və deyər: “İlahi, məni bağlı saxladılar və haqqımı zay etdilər””.*[201]

Digər bir hədisdə isə Hz.Peyğəmbər (s) məscidə getmək barədə belə buyurur: *“Allah məscidə tərəf atılan hər addım üçün on mükafat verər, on xətanı bağışlayar və on dərəcə mərhəmət edər”.*[202]

Hz.Əli (ə) buyurur: *“İnsan məsciddə həm Allah bəndələri ilə təmasda olur, həm Allahın qanunu ilə tanış olur, həm Allahın rəhməti ona da şamil olur”.*[203]

Bununla belə, yenə də məscidlər boşdur. Məscid, İslam mədəniyyətinin nəşr mərkəzi, bir-birləri ilə həmfikir olan insanların tanış olduqları yer, həmçinin bir-birindən sual-cavab etmək yeridir.

**4. Səmavi rəhbərlər;**

Qiyamət günü şikayət edənlərdən biri də Hz.Peyğəmbərin (s) məsum Əhli-Beytidir. O məsum şəxslər qiyamət günü şikayət edərək deyərlər: *“İlahi, bizi öldürdülər, özlərindən uzaqlaşdırdılar, avara və sərgərdan etdilər. İlahi, bizim rəhbərliyimizi qəbul etmək əvəzinə, zalımların, fəsad törədənlərin və israfçıların arxasınca getdilər. İlahi, bizim risalətimizin haqqı olan məvəddət*

---

[200] “Yunus” surəsi, ayə-15.
[201] “Vəsailuş-şiə”, III cild, səh-484.
[202] “Vəsailuş-şiə”, III cild, səh-483.
[203] “Vəsailuş-şiə”, III cild, səh-480.

*və məhəbbət etmək əvəzinə, əsrlər boyu minbərlərdə və namazlarda bizə lənət oxudular. İlahi, "anlamaz müqəddəslər" (xəvaric), "dünyapərəst əyyaşlar" (qasitin) və "beyət sındıran məqampərəstlər" (nakisin) var qüvvələri ilə bizimlə müxalifətçilik etdilər. İlahi, Peyğəmbərin (s) yeganə yadigarı olan Hz.Fatiməyə (s.ə) sillə vuraraq haqqını qəsb etdilər, özünü və övladını şəhid elədilər. İlahi, Kəbədə doğulan və Peyğəmbərin (s) vəsisi olan Hz.Əlinin (ə) mübarək başına qılınc vurdular və İmam Həsənin (ə) cənazəsini oxladılar, İmam Hüseynin (ə) bədənini atın tapdaqları altına atdılar, onun əhli-beytini əsir etdilər. Digər imamlara da xəyanət edərək qollarına zəncir vurub, zindanda saxladılar və sürgün etdilər. İmam Həsən Əsgərini (ə) mühasirədə saxladılar və vəziyyəti o yerə gətirdilər ki, naçar İmam Mehdi (ə) də qeybə çəkildi!"*

**Qiyamət günü həsəd aparan kimlərdir?**

İmam Baqir (ə) buyurdu: *"Qiyamət günü ən çox həsrət çəkənlər, ədalətdən dəm vurub əməl etməyənlərdir".*[204]

Qurani-Kərimdə bir qrup insanların dilindən buyurulur: ***"Onlar: "Əgər biz (peyğəmbərlərin öyüd-nəsihətinə) qulaq asıb ağlımızı başımıza yığsaydıq, cəhənnəm əhli içində olmazdıq!" – deyəcək".***[205]

Başqa bir ayədə belə buyurulur: ***"(Elə edin ki, sonradan) bir kəs: "Allaha itaət barəsində etdiyim təqsirlərə görə vay halıma! Həqiqətən, mən (Allahın hökmlərinə, Qurana, Peyğəmbərə və möminlərə) istehza edirdim!" –deməsin."***[206]

Bəzi rəvayətlərə əsasən, bu ayədə buyurulan "həsrət", o kəslərə aiddir ki, səmavi rəhbərlərdən uzaqlaşıb fasiq rəhbərlərin arxasınca getdilər və Peyğəmbərin (s) vəsilərini buraxıb başqalarının boynuna sarıldılar.[207]

---

[204] "Biharul-ənvar", II cild, səh-55.
[205] "Mülk" surəsi, ayə-10.
[206] "Zumər" surəsi, ayə-56.
[207] "Təfsiri-Safi", II cild, səh-471.

Digər bir hədisdə Peyğəmbərin (s) Əbu Zərr Ğəffariyə belə buyurduğu nəql olunur: *"Mənim risalət məqamımı qəbul etməyən kəslər, qiyamət gününün qaranlıqlarında kor və kar halında hazır olarlar və deyərlər:* ***"Allaha itaət barəsində etinasızlıq və səhlənkarlıq etdiyimizə görə vay olsun bizə!"***[208]

Qiyamətdə peşman və həsrət çəkən şəxslərin bir qismi də elm təhsili almağa imkanları olan halda, arxasınca getməyənlər olacaq.

Peşman olanların bir dəstəsi də o alimlərdir ki, camaat onun dediklərinə əməl etdiklərinə görə behişt əhli olarlar, amma özlərinin əməli olmadıqlarına görə cəhənnəm girərlər. Qurani-Kərim qeyd etdiyimiz günahkarların dilindən belə buyurur: ***"Və ya əzabı gördüyü zaman: "Kaş bir dəfə də (dünyaya) qayıda biləydim; yaxşı işlər görənlərdən olardım!" – deməsin!"***[209] Amma çox heyf ki, oradan geri qayıtmaq mümkün deyildir.

Qiyamət günü dünyada Allahdan qeyrisi üçün sərf olunan bütün işlər və zəhmətlər, onların həsrətinə və ziyanına səbəb olar: ***"O zaman tabe olmuşlar tabe olanlardan (bütpərəstlərin rəisləri bütpərəstlərdən) uzaqlaşacaq, (onların hamısı qiyamətdəki) əzabı görəcək və aralarındakı rabitə qırılacaqdır."***[210]

İmam Sadiq (ə) buyurmuşdur: *"Ayə öz mallarını yığıb cəmləyən, lakin ehtiyacı olanlara verməyən və dünyasını dəyişən şəxs barəsindədir. Onun ölümündən sonra həmin mallar başqalarının əlinə keçərək o mallara varis olublar. Ya onları Allah yolunda sərf ediblər, ya da öz istəkləri yolunda xərcləyiblər. Əgər Allah yolunda sərf ediblərsə, malın sahibinə əziyyət, varisə isə mükafat (savab) qalır. Amma günah yolunda sərf edibsə, malları toplayan şəxs, günahkarın irs aparmağına kömək edib. Bu da onun həsrət çəkməsinə səbəb olar".*[211]

Qiyamət günü əvvəlcə günahkarların məqsədi inkar etmək və yalan danışmaq olar. Elə güman edərlər ki, dünyadakı yalan və

---

[208] "Nurus-səqəleyn", IV cild, səh-395.
[209] "Zumər" surəsi, ayə-58.
[210] "Bəqərə" surəsi, ayə-166.
[211] "Təfsiri-Safi", I cild, səh-157.

inkarla öz canlarını qurtara biləcəklər. Quran bu barədə buyurur: ***“Allah onların hamısını dirildəcəyi gün onlar sizə (yalandan) and içdikləri kimi, Allaha da and içəcək və (bununla axirətdə) bir şey qazanacaqlarını zənn edəcəklər. Bilin ki, onlar əsl yalançıdırlar. Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar Şeytanın firqəsidirlər (Şeytana uyanlardır). Bilin ki, Şeytanın firqəsi – məhz onlar ziyana uğrayandırlar! Allahın və Onun Peyğəmbərinin əleyhinə çıxanlar (Cəhənnəmdəki) ən zəlil kimsələr içərisində olacaqlar!”*** [212]

Edilən günahı dünyada etiraf etmək, ilahi əfv və bağışlanmağa səbəb olar. Bu barədə olan hədislərin birində Hz.Əli (ə) belə buyurur: *“Günahkarların etirafı, onun şəfaət olunmasına və bağışlanmasına səbəb olar.”*

Başqa bir hədisdə Hz.Əli (ə) belə buyurur: *“Hər kəs Allah dərgahına üz tutaraq öz günahını və səhvini etiraf etsə, Allahın əfvinə layiqdir.”*

Qurani-Kərimin “Tövbə” surəsində oxuyuruq: ***“(Münafiqlərin) bir qismi də günahlarını etiraf etdi. Onlar (əvvəl etdikləri) yaxşı bir əməllə (sonradan etdikləri) pis bir əməli bir-birinə qarışdırmışlar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) pak etmiş, təmizləmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan. Onlardan ötrü dua et ki, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır). Allah (hər şeyi) eşidəndir, biləndir!”*** [213]

İslam tarixindən məlumdur ki, hicrətin doqquzuncu ilində baş verən Təbuk qəzvəsində bir qrup şəxs dünya malına bağlı olduqları üçün bu döyüşdə iştirak etmədilər. Lakin haqlarında məzəmmətedici ayələrin nazil olduğunu eşitdikləri zaman, döyüşə getmədikləri üçün peşman olaraq, Allah Rəsulunun (s) və müsəlmanların yanında xəcalət çəkdilər.

---

212 “Mücadilə” surəsi, ayə-18, 19, 20.
213 “Tövbə” surəsi, ayə-102-103.

Günahlarını etiraf etmək üçün peyğəmbər məscidinə daxil oldular və özlərini məscidin sütunlarına bağladılar. Hz.Peyğəmbər (s) döyüşdən qayıtdıqdan sonra onların peşmançılığını gördükdə belə buyurdu: *"Allahın hökmü yetişənə qədər onlar sütuna bağlı vəziyyətdə qalsınlar."* Yuxarıda qeyd etdiyimiz ayələrin nazil olmasından sonra Peyğəmbər (s) əmr verdi ki, onları sütunlardan açsınlar.[214] Hazırda o sütun Mədinədə Peyğəmbərin (s) mübarək qəbrinin kənarında "tövbə sütunu" və ya "Əbu Lübabə sütunu" adı ilə məşhurdur.

Qurani-Kərimdə buyurulur: ***"Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir!"***[215]

"Qeyd etdiyimiz ayənin təfsiri barəsində bir çox mənbələrdə qeyd olunur ki, qiyamət günü möminin günahları özünə göstərilər. O da etdiyi bu günahlara görə narahatçılıq keçirər. Amma iman, həya, gözəl əxlaq, düzgünlük, ixlas əhli və Allahın məsum övliyalarının yolunu tutduğu üçün xüsusi lütf və mərhəmətə nail olar. Allahın əmrilə onun günahları ibadətə çevrilər".[216]

Məşhur İslam alimi Əllamə Təbatəbai də "əl-Mizan" təfsirində Qiyamət günündə günahın yaxşı işlərə çevrilməsi barədə həddindən artıq çox rəvayətlərin olduğunu qeyd edir.[217]

## Mizan

Qiyamətlə bağlı maraq doğuran ən mühüm məsələlərdən biri də "mizan" (ölçü) məsələsidir. Qurani-Kərimlə yanaşı bir çox hədislərdə də mizanla bağlı geniş məlumatlar verilmişdir. Qurani-Kərimdə oxuyuruq: ***"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər..."***[218]

Mizan, Qiyamətdə insan əməllərinin ölçüsü üçün bir

---

[214] "Təfsiri-Nümunə", VIII cild, səh-115.
[215] "Furqan" surəsi, ayə-70
[216] "Təfsir-Nurus-səqəleyn", IV cild, səh-33; Təfsiri-Safi, II cild, səh-205
[217] XV cild, səh-269
[218] "Hədid" surəsi, ayə-25

vəsilədir və lazım deyil ki, dünyada gördüyümüz mizan və tərəzilər kimi olsun. Bu ölçü vasitəsilə Qiyamət günü insan əməllərini haqla ölçərlər: ***"O gün (qiyamət günü) çəki (əməllərin tərəzidə çəkilməsi) haqdır. Tərəziləri ağır gələnlər (yaxşı əməlləri pis əməllərindən çox olanlar) nicat tapanlardır!"***[219]

Başqa bir ayədə belə buyurulur: ***"Bu, haqq olan gündür. Kim dilərsə, (iman gətirib ibadət və itaət etməklə) Rəbbinə doğru bir yol tutar!"***[220]

Bir gün xanım Aişənin ağladığını görən Peyğəmbər (s) ondan ağlamağının səbəbini soruşdu. Xanım Aişə dedi: "Cəhənnəmi yadıma saldım və ona görə ağlayıram. Siz kişilər Qiyamət günü zövcələrinizi xatırlayarsınızmı?" Peyğəmbər (s) buyurdu: *"Sadəcə üç yerdə heç kim kimsə haqqında düşünməz. Birincisi, əməllərin çəkildiyi mizan tərəzisinin önündə. Hər kəs yaxşı əməllərinin ağır və ya yüngül olduğunu öyrənənə qədər. İkincisi, əməl dəftərləri paylandığı əsnada. Hər kəs əməl dəftərinin sağ tərəfindənmi, yoxsa sol tərəfindənmi verildiyini öyrənənə qədər. Üçüncüsü, cəhənnəmin ortasında qurulmuş Sirat körpüsündə. Hər kəs onun üzərindən keçib-keçə bilməyəcəyini öyrənənə qədər".*[221]

Rəvayətlərə əsasən, mizan mömin şəxslər üçündür. Müşrik və əməlləri də su üzərindəki köpük kimi mənasız olan və ya bir sıra günahlara bulaşdıqlarına görə yaxşı işlərini zay etmiş kəslər üçün heç bir ölçü və mizan olmayacaq.[222] Bu barədə Qurani-Kərimdə belə buyurulur: ***"Onlar o kəslərdir ki, Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını (qiyamət günü dirilib haqq-hesab üçün Onun hüzurunda duracaqlarını) inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz (qiyamət günü) onlar üçün daş-tərəzi qurmayacağıq!"***[223]

---

[219] "Əraf" surəsi, ayə-8
[220] "Nəbə" surəsi, ayə-39
[221] "Sünən" Əbu Davud
[222] Möhsün Qiraəti, "Məad", səh-232
[223] "Kəhf" surəsi, ayə-105

Həmçinin İmam Səccaddan (ə) nəql olunan bir hədisdə də bildirilir ki, müşriklər üçün ədalət tərəzisi olmaz və Qiyamət günü onların əməl dəftərləri də açılmaz, ölçü və hesab-kitab məsələsi yalnız müsəlmanlara məxsusdur.

Eyni zamanda insanları düzgün yoldan azdıran rəhbərlər üçün də Qiyamət günü ölçü və mizan olmayacaq. Çünki, onların həyata keçirdiyi əməllər hesab-kitaba və ölçüyə gəlməz dərəcədədir.

əl-Hakimin nəql etdiyinə görə, hər kəs cəhənnəmə gedər, ancaq sonra əməllərinin dərəcəsinə görə geri qayıdar. İlk çıxan şimşək kimi, sonrakı külək kimi, ondan sonrakı at qaçar kimi, daha sonrakı normal süvari kimi, ondan sonrakı sürətli yeriyən bir piyada kimi və ən geridə qalan isə normal piyada yerişi ilə oraya girib çıxar".

**Sirat**

Qurani-Kərimdə qırx dəfədən çox zikr edilən Sirat Qiyamətdə cəhənnəmin üzərində olan bir körpünün adıdır ki, qılıncdan iti, tükdən isə nazikdir. Səmavi kitab olan Qurani-Kərimin bildirdiyinə görə, bütün insanlar onun, yəni siratın üzərindən keçməlidir.

***"Sizdən elə bir kəs olmaz ki, oraya varid olmasın. Bu, Rəbbinin (əzəldən) buyurduğu qəti bir hökmdür. (Bütün insanlar Cəhənnəmin müdhiş mənzərəsini onun körpüsü üstündən keçərkən öz gözləri ilə görəcəklər. Cənnətliklər cəhənnəm odunun içindən yanmadan, sağ-salamat keçəcək, cəhənnəmliklər isə ora düşüb əbədi əzaba məhkum olacaqlar. Bir qisim insan da müəyyən müddət orada qalıb günahı təmizlənəcək, sonra Cənnətə qayıdacaqdır). Sonra Biz Allahdan pis əməllərdən çəkinənlərə nicat verəcək, zalımları isə orada diz üstə çökmüş halda saxlayacağıq!"***[224]

İslami mənbələrdə qeyd olunan rəvayətlərə əsasən, möminlər siratdan işıq sürəti ilə, digər bir qrup külək sürəti ilə, bəziləri isə at sürəti ilə keçəcəkdir. Bunlardan hər hansı birinin imanı və

---

[224] "Məryəm" surəsi, ayə-71-72

saleh əməlləri nə qədər çox olarsa, bir o qədər sürətlə keçər.[225] Qeyd olunan hədislərin birində oxuyuruq: *"Allah heç bir kəsi cəhənnəm atəşi ilə tanış etməmiş cənnətə aparmaz, nemətlərinin Allahdan olan nemət və fəzilətlər olduğunu bilərlər. Həmçinin, cənnəti görərək həsrət çəkib yanmamış heç kəsi cəhənnəmə aparmaz. Ta ki, çox acı, həsrət çəksin".*[226]

Sirat körpüsünün üzərində bir neçə dayanacaq olacaqdır ki, Allahın övliyalarından başqa digərləri oradan keçərkən o dayanacaqlarda cavab verəcəklər.

İmam Sadiq (ə) "Fəcr" surəsinin 14-cü ayəsinin təfsirində buyurur: ***"Sənin Rəbbin pusqudadır (Mirsaddadır)".*** *Məqsəd o keçid yerindəki sorğu-sualdır. O keçid yerlərində namazdan, qohumlara baş çəkməkdən, camaatın hüququndan və əmanətdən soruşular. Xüsusən də bir sıra insanlar dünyada özlərinə rəhbər seçərkən diqqətli olduqlarına, hər şəxsin arxasınca getmədiklərinə, fəqət Allah və Onun Rəsulunun (s) seçib bəyəndiyi şəxslərin rəhbərliyini qəbul etdiklərinə görə, orada əmin-amanlıqda olarlar".*[227]

Hz.Peyğəmbər (s) buyurur: *"Hər bir şey üçün keçid icazəsi lazımdır, Qiyamətdə isə siratdan keçmək icazəsi yalnız Əlilə (ə) əlaqəyə və ona itaətə bağlıdır".*[228]

Digər bir hədisdə Hz.Peyğəmbər (s) Hz.Əliyə (ə) xitabən belə buyurur: *"Sənə itaət və məhəbbət etmək behiştə getməyə, səninlə müxalifətçilik etmək isə cəhənnəmə daxil olmağa səbəb olar".*[229]

Başqa bir hədisdə Hz.Əli (ə) belə buyurur: *"Cənnət və cəhənnəmin arasında çəkilmiş sirat yolu mənəm".*

Qeyd etdiyimiz rəvayətlərdə məqsəd sirartı inkar etmək deyil, əksinə, oradan keçmək icazəsinin verilməsinin və meyarının, o həzrətə itaət və məhəbbət bəsləməkdən asılı olmasını bəyan

---

[225] "Nurus-səqəleyn", III cild, səh-353
[226] "Nurus-səqəleyn", III cild, səh-354
[227] "Biharul-ənvar", VIII cild, səh-65-69
[228] "Biharul-ənvar", 39-cu cild, səh-202
[229] "Biharul-ənvar", 39-cu cild, 32-ci hədis

etməkdir, yaxud da əksinə, o həzrəti inkar edib düşmənçilik bəsləmək siratdan keçə bilməməyə və süquta uğramağa səbəb olar.

**Qiyamətdə yalvarışlar**

Qiyamətdə günahkarların **birinci** olaraq imdad dilədiyi kəslər möminlər olacaqdır. Onlar möminlərdən imdad diləyərək belə deyəcəklər: ***"O gün münafiq kişi və qadınlar iman gətirənlərə: "(Bizi bir az) gözləyin ki, nurunuzdan bir qədər işıq alaq!" (Onlara istehza ilə) belə cavab veriləcəkdir: "Geriyə dönüb işıq axtarın!" (Bu sözdən sonra) onların (möminlərlə münafiqlərin) arasına içərisində mərhəmət, bayırında əzab olan qapalı bir sədd çəkiləcəkdir".*** [230]

Başqa bir ayədə belə buyurulur: ***"Cəhənnəm əhli cənnət əhlinə müraciət edib: "Üstümüzə bir az su tökün və ya Allahın sizə verdiyi ruzilərdən bizə bir qədər ehsan edin!" – deyəcək. Onlar isə: "Doğrusu, Allah bunları kafirlərə haram buyurmuşdur!" – deyə cavab verəcəklər".*** [231]

**İkinci - Günahkarlardan imdad diləmək;**

Möminlərdən ümidlərini kəsən günahkarlar, öz günahlarını başqalarının üstünə ataraq belə deyərlər: ***"(Kitab əhlinin möminləri məkkəlilərə: "Biz sizin peyğəmbərinizin vəsflərini öz kitablarımızda görmüşük", -söylədikləri zaman) kafir olanlar dedilər: "Biz nə bu Qurana, nə də ondan əvvəlkilərə (Tövrata və İncilə) inanırıq!" (Ya Rəsulum!) Kaş sən o zalımları (haqq-hesab üçün) Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları (bir-birini təqsirləndirib məzəmmət etdikləri) və acizlərin (dünyada) özlərini yuxarı tutanlara (tabe olanların öz rəislərinə): "Əgər siz olmasaydınız, biz mütləq mömin olardıq!" –dedikləri zaman görəydin."*** [232]

Rəhbərləri də onlara bu cavabı verəcəklər: ***"(Dünyada) özlərini yuxarı tutanlar da acizlərə belə cavab verəcəklər: "Əcəba, sizə doğru yol göstərən rəhbər gəldikdən sonra sizi ondan bizmi***

---

[230] Hədid surəsi, ayə-13
[231] Əraf surəsi, ayə-50
[232] Səba surəsi, ayə-31

***döndərdik? Xeyr, siz özünüz günahkar idiniz (könüllü surətdə küfrü qəbul etdiniz)".*** [233]

Fasiq rəhbərlərin bu cavabından sonra Allahdan onların əzabını ikiqat artırmağı istəyərlər: ***"Onlar deyəcəklər: "Ey Rəbbimiz! Biz ağalarımıza (böyüklərimizə) itaət etdik, onlarsa bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onlara ikiqat əzab ver, onları böyük bir lənətə (əzaba) düçar elə!"*** [234]

Onların istəyinə cavab olaraq Allah belə buyuracaq: ***"Hər birinizi ikiqat əzab gözləyir, lakin siz bilmirsiniz!"*** [235]

**Üçüncü - Şeytandan imdad diləmək;**

Çarəsiz qalan günahkarlar öz günahlarını Şeytanın boynuna atmaq istədikdə bu cavabı alarlar: ***"İş bitdikdə (cənnətliklər Cənnətə, cəhənnəmliklər Cəhənnəmə daxil olduqda) Şeytan (onu məzəmmət edən kafirlərə) belə deyəcək: "Allah (peyğəmbərlər vasitəsilə) sizə (pis əməllərinizə görə Cəhənnəmə düşəcəyiniz barədə) doğru vəd vermişdi. Mən də sizə (kömək edəcəyim haqda) vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm (heç bir gücüm-qüdrətim) yox idi. Lakin mən sizi (günah işlətməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz. İndi məni yox özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə (dünyada) sizin məni (Allaha) şərik qoşmağınızı da inkar etmişdim (qəbul etməmişdim). Həqiqətən, zalımları şiddətli əzab gözləyir!"*** [236]

**Dördüncü - Cəhənnəm məmurlarından imdad diləmək;**

Möminlərdən, fasiq rəhbərlərdən və şeytandan kömək ala bilməyən günahkarlar üzlərini cəhənnəm məmurlarına tutaraq onlara belə deyəcəklər: "Od içində olanlar cəhənnəm gözətçilərinə deyəcəklər: ***"Rəbbinizə dua edin ki, heç olmasa, bircə gün əzabımızı yüngülləşdirsin!"*** [237] Lakin onlardan da mənfi cavab alacaqlar.

---

[233] Səba surəsi, ayə-32
[234] Əhzab surəsi, ayə-67-68
[235] Əraf surəsi, ayə-38
[236] "İbrahim" surəsi, ayə-22
[237] "Ğafir" surəsi, ayə-49

**Beşinci - Allahdan yersiz imdad;**

Hər yerdən ümidlərini kəsən günahkarlar həyasızcasına Allaha deyərlər: ***"Onlar deyərlər: "Ey Rəbbimiz! Bizim azğınlığımız bizə qələbə çaldı və biz haqq yoldan sapan bir camaat olduq! Ey Rəbbimiz! Bizi oradan (cəhənnəm odundan) çıxart! Əgər biz bir də (Sənin xoşuna gəlməyən pis işlərə) qayıtsaq, şübhəsiz ki, zalım (özümüz-özümüzə zülm etmiş) olarıq!"***[238]

Allah onların istəyinə cavab olaraq belə buyuracaq: ***"Orada zəlil (məyus) vəziyyətdə durub qalın və Mənə heç bir şey deməyin! (Cəhənnəm odundan xilas edilməyinizi Məndən diləməyin!)" Çünki bəndələrimdən bir zümrə (möminlər) var idi ki, onlar: "Ey Rəbbimiz! Biz (Sənə) iman gətirdik. Artıq bizi bağışla, bizə rəhm et. Sən rəhm edənlərin ən yaxşısısan!" – deyirdilər. Siz isə onları məsxərəyə qoyurdunuz. Bu (məsxərə, lağlağı başınızı o qədər qatmışdı ki, hətta Məni yada salmağı belə sizə unutdurmuşdu".***[239]

Bəli, qiyamət günü hər bir şəxs öz haqqını alar. Necə kafirlər dünyada olarkən Quranı, peyğəmbərləri, imamları və möminləri eyni ilə özlərindən uzaqlaşdırırdılar, qiyamətdə də peyğəmbərlər, imamlar və möminlər onları özlərindən uzaq tutacaqlar.

**"Əraf" və "Əraf əhli"**

Cənnətlə cəhənnəm arasında olan yerə "Əraf" deyilir. Ərafa düşən kəs cənnətə baxdıqca, növbənöv nemətləri görüb heyfsilənər və ağlayar. Cəhənnəmə baxdıqda isə: "Heç olmasa kafirlər kimi bu cəhənnəm əzabına düşməkdən qurtardım" –deyə sevinər, Allaha şükr edər.

Əraf cənnətlə cəhənnəm arasında uca divar şəklində maneə kimi təsəvvür edilir. Cənnət və cəhənnəm əhli bu divarın arxasından bir-birini görməyəcək, amma bir-birinin səsini eşidə biləcək.

Bəzi rəvayətlərə görə, qiyamət günündə peyğəmbərlər və imamlar, xalis möminlər və şəhidlər həmin divarın üzərində du-

---

[238] "Muminun" surəsi, ayə-106-107

[239] "Muminun" surəsi, ayə-108-110

rub ümmətin əhvalına baxacaq, bəzi insanlara şəfaət edəcəklər. Qurani-Kərimdə buyurulur: ***“Onların ikisinin (cənnət əhli ilə cəhənnəm əhlinin) arasında pərdə və əraf üzərində isə insanlar vardır ki, onlar hamını üzündən tanıyıb cənnət əhlinə: “Sizə salam olsun!” – deyə, müraciət edərlər. Bunlar çox istədiklərinə baxmayaraq, hələ ora (cənnətə) daxil olmamış kimsələrdir. Onların nəzərləri cəhənnəm əhlinə çevrildiyi zaman: “Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!” – deyərlər. Əraf əhli üzdən tanıdıqları adamlara müraciət edib: “Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi” – deyəcək”.***[240]

Ərəb dilindən tərcümədə “yüksəklik, təpə, bel” mənalarını verən “ürf” sözünün cəmidir. Ərəblər atın yalına və xoruzun pipiyinə də (bədənin yuxarı hissəsində yerləşdiyinə görə) ürf deyirlər.

Bəzi rəvayətlərə görə isə Əraf xüsusi bir yerdir ki, nə cənnətə, nə də cəhənnəmə layiq olmayan adamlar ora aparılacaqlar. Məsələn, yetkinlik yaşına çatmayan, günahı və savabı hesaba alınmayan uşaqlar, əqli cəhətdən nöqsanlı insanlar, savabı ilə günahı tam bərabər gələn adamlar və s.

Başqa bir nəzərə əsasən isə Ərafa dörd növ insan düşəcəkdir:

1- Xeyirlə şər işi bir-birinə tən gələn adamlar.

2- Valideyninə ağ olub, sonra şəhid olan kimsə (valideyninə ağ olduğuna görə cənnətə düşməzlər, dünyadan şəhid kimi getdiklərinə görə də cəhənnəmə düşməzlər).

3- “Fitrət” zamanında, yəni iki peyğəmbərin dövründə yaşayan insanlar.

4- Kafirlərin hədd-buluğa çatmadan ölmüş uşaqları. Bir rəvayətdə onlar, Allahın istədiyi qədər orada qalar, sonra cənnətə gedərlər.

Ərafda nə cəhənnəm əzabı, nə də cənnət ləzzəti var. Əraf bunların arasında fərqli bir şəraitə malik məkandır. Yuxarıda adları çəkilən təbəqələr ərafda adi qaydada ömürlərini sürəcəklər.

Alimlərin bəziləri bu iki nəzəriyyəni birləşdirməyə çalışmış və belə bir fikir irəli sürmüşlər ki, qiyamət günündə yüksək

---

[240] “Əraf” surəsi, ayə-46-48.

dərəcəli möminlər çox sürətlə cənnətə daxil olacaqlar. Bunlardan daha aşağı səviyyədə olan şəxslərin isə cənnətə buraxılmaları yubadılacaq. Onlar öz əməllərinə müvafiq olaraq bir müddət əraf-da qalmalı olacaqlar. Yəni günahları nisbətən çox olan möminlər ərafda müvəqqəti saxlanılacaqlar. Sonra onlara yenə öz dərəcə-lərinə uyğun olaraq cənnətə daxil olmaq icazəsi veriləcək. Ümmətin başçıları və seçilmiş üzvləri də bu cür insanları tək buraxmamaq üçün ərafda onlarla bir cərgədə duracaqlar. Adi həyatda da çox zaman qoşunun körpüdən və sair maneələrdən keçidi zamanı sərkərdənin ən son cərgədə durduğunu və körpünü ən axırda keçdiyini görürük. Müqəddəs şəxslər də öz günahkar din-daşlarını tək buraxmamaq üçün ərafda onların yanında ola-caqlar.[241]

**İsrafil surunun üfürülməsi**

**A) Birinci üfürülüş**

Lüğəti mənada boru və üfrüləndə səs çıxaran buynuz mə-nasına gəlir. İbn Kəsirin "Təfsir" kitabında deyildiyinə görə, sur məfhumuna verilən bu məna yanında onu, "surət"in cəm forması olan "suvər" şəklində oxuyaraq, bədənlərə həyatı üfləmək və ya bədənləri canlandırmaq mənası da vardır.[242] Ancaq bu boru, qiya-mətin qopması əsnasında və daha sonra da insanların dirilərək məhşər yerində yığılmalarını təmin etmək məqsədi ilə Hz.İsrafilin üfürəcəyi qiyamət borusunun xüsusi adıdır. Surun mahiyyətinə gəlincə, Şərafəddin Gölçüğün "Kəlam" kitabında vurğuladığı kimi, onun mahiyyəti bilinmir. Surun mahiyyətini yalnız Allah bilir. Bundan ötrü axirətlə əlaqədar digər terminlərdə olduğu ki-mi, sur barədə də metafizik bir məlumatdan istifadə edərək, necə-liyi naslarla bilinməyən mövzularda fikir irəli sürmək düzgün deyil.[243]

---

[241] "Təfsiri-nümunə", VI cild, səh.189-190 (islam.az)

[242] İbn Kəsir, "Hadislerle Kurani Kerim Tefsiri", İstanbul, "Çağrı" neşr, 1990, II cild, səh-146.

[243] Şərafəddin Gölcük, "Kelam", Konya, Tekin Dağıtım, 1998, səh-412-413.

Sur anlayışının keçdiyi ayələrə nəzər saldıqda, bu borunun Hz.İsrafil tərəfindən iki ayrı zamanda istifadə ediləcəyi başa düşülür.[244] "Nəfhatul-fəza" deyilən ilk üfürmədə bütün varlıqların şiddətli qorxu ilə əhatə ediləcəyi bildirilir. Və bundan sonra hamısı öləcəkdir. Bu məsələni dəqiqliklə tədqiq edək.

Bu hadisə ilə əlaqədar olaraq aşağıdakı ayələrdə belə buyurulur: ***"(Öləndən sonra yenidən dirilmək üçün) sur çalınacaqdır. Bu vəd olunmuş gündür (təhdid günüdür)!"***[245]

***"Sur çalınacağı gün Allahın istədiklərindən (məhrəm mələklərdən, yaxud Allahın yanında həmişə diri olan şəhidlərdən) başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşər və onların hamısı müti (zəlil) vəziyyətdə gələr."***[246]

Bu Hz.İsrafilin sura ilk üfürməsidir. Hz.İsrafil ilk dəfə sura üfürəndə, yuxarıdakı ayələrdə qeyd olunduğu kimi, yer üzü, onun üstündəki bütün canlılar və Kainatın özü məhv olacaqdır. Sura üfürülməsi Allahın Quranda vəd etdiyi qiyamət saatının artıq gəlib çatdığını xəbər verir. Bu səs dünya həyatının bitməsinin və axirətin başlanğıcının səsidir. İnsanlar heç gözləmədikləri bir anda eşitdikləri bu səs daha əvvəl eşidilən səslərə əsla bənzəməyən bir səsdir. İnsanlar özlərinə verilən vaxtın son olduğunu bu işarədən anlayacaqlar. Bu səs küfr edənlərə hədiyyə qədər davamlı olaraq yaşayacaqları qorxu, dəhşət dolu çətin bir günün başlanmasının müjdəsidir. Uca Allah Qurani-Kərimdə buyurur: ***"Elə ki, sur çalındı, o gün çox ağır bir gün olacaqdır. (O gün) kafirlər üçün asan olmayacaqdır.***[247]

Seyid Qutubun qeydinə görə, "Müddəssir" surəsinin qiyamətlə əlaqədar ayə, Hz.Peyğəmbərə (s) peyğəmbərliyinin sıxıntı və çətinliklərinə qarşı səbir etməsini əmr edən, "Müddəssir" surəsinin 1-7 ayələrindən sonra nazil olub. O deyir: "Sura üfürülməkdən ilk dəfə burada söz açılır. Qulağa vuran dəhşətli səsdən

---

[244] İbn Kəsir, adı çəkilən əsər, II cild, səh-147.
[245] "Qaf" surəsi, ayə-20.
[246] "Nəml" surəsi, ayə-87.
[247] "Müddəssir" surəsi, ayə-8, 10.

ötrü sura üfləmək naqura oxşadılır. Bu ayə, əzabın keyfiyyətini məchul buraxdığından, insan bundan diksinir, nəfəsini tutaraq bir qorxu ilə marağa düşür, zehnində o çətin günü təsəvvür etməyə çalışır, ancaq bunu bacara bilmir və bu səbəbdən təəccüb, qorxu və dəhşət içində qalır. Elə ayənin məqsədi də budur və bu məqsədi bəyan edir.[248]

**1. Kainatda baş verəcək hadisələr**

Kainatın hər nöqtəsi Allahın varlığının, böyüklüyünün və gücünün ayrı bir dəlilidir. Bu nöqtələr ancaq Onun diləyi ilə, Onun dilədiyi müddətdə, Onun izni ilə yaranıblar. Bu tarazlığı yaradan və qoruyan Allah bütün bunları əlbəttə ki, dilədiyi şəkildə yox etməyə də qadirdir. Kainatın ölümü də yaradılması olduğu kimi baş verəcək, yəni Onun izni ilə, Onun təqdir etdiyi şəkildə gerçəkləşəcək. O gün insanların dünya həyatı boyunca əzəmətinə heyran qaldıqları hər şey parça-parça ediləcək. Bütün planetlər, ulduzlar, günəş və ay öz orbitlərindən çıxacaq, ulduzlar töküləcək, göy cisimləri bir-bir öləcək. Bütün bunlar Qurani-Kərimdə belə açıqlanır: *"O saat (qiyamət) yaxınlaşdı və ay parçalandı.*[249]

Məhəmməd Əsəd bu barədə deyir: "Bir çox müfəssirlərə görə bu ayə, Hz.Peyğəmbərin (s) müasirlərinin bir çoxu tərəfindən gözlənildiyi rəvayət edilən bir hadisəni qəsd etməkdədir. Bəzi səhabələrə qədər uzanan bir rəvayətdə deyildiyinə görə, bir gecə ay, elə bil ki, iki parçaya ayrılmış kimi göründü. Bu rəvayətlərin subyektiv həqiqiliyindən şübhələnmək üçün bir səbəb yoxdur. Fəqət o hadisənin mahiyyəti nə olursa olsun, yuxarıdakı ayənin həmçinin, gələcəkdə baş verəcək bir hadisəyə, yəni son saat zamanı meydana gələcək hadisələrlə əlaqəli olması da mümkündür".[250]

Zəməxşəri də bu mövqe barədə deyir ki, bu tip təfsir və şərh ilə ilk dövrün bəzi müfəssirləri razı idilər.[251]

---

[248] Seyid Qutub, "Quranda Qiyamət səhnələri", səh-78-79.
[249] "Qəmər" surəsi, ayə-1.
[250] Məhəmməd Əsəd, "Quran mesajı", İstanbul-2001, İşaret neşr, səh-1087.
[251] "əl-Kəşşaf", nəşr yeri yoxdur, səh-1415.

Ayədə bildirildiyi kimi, **“O gün artıq qaçacaq bir yer yoxdur”.** Dünya həyatı boyunca özünə Allahdan başqa dost və yardımçı axtaran insanlar da artıq yönəlib dönüləcək həqiqi dost və yardımçının təkcə Allah olduğunu anlayıblar. O gün insanların alçalmaz saydıqları görkəmli və möhtəşəm gördükləri ulduzların da ölüm günüdür. Ulduzların hər biri ətrafında nizam və tarazlıqla fırlandığı orbitlərdən çıxaraq dağılıb yayılacaqlar. Qurani-Kərimdə ulduzlar barəsində belə buyurulur: ***“Ulduzlar dağılıb səpələnəcəyi zaman.”***[252]

***“Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman.”***[253]

***“Ulduzlar sönəcəyi zaman.”***[254]

Seyid Qutub “İnfitar” surəsi ilə əlaqədar bunu deyir: “Burada təkrar o böyük gündə meydana gələcək dəhşətli təbiət və kainat mənzərələri təsvir edilməkdədir. Səma çatlayıb parça-parça olmuş, ulduzlar tökülüb dağılmış, dənizlər coşub axmış, qəbirlər deşilib altı üstünə gətirilmişdir! Hər tərəfi, hər şeyi dəhşət əhatə etmiş, göydə qorxu, yerdə qorxu, təbiətdə şiddətli bir hərəkət və sarsıntı meydana gəlmişdir”.[255]

Qiyamətdə Kainatın vəziyyəti ilə əlaqədar digər Quran ayələri də vardır. Məsələn: ***“Ay tutulacağı, günəşlə ay bir araya gətiriləcəyi (hər ikisinin qərbdən çıxacağı, nurunun gedəcəyi) zaman – məhz o gün insan: “Qaçacaq yer harasıdır?” –deyəcəkdir”.***[256] Yenə Seyid Qutubun ifadəsi ilə bu Quran səhnəsi həmin mənzərəni bizə göstərir: “Qiyamət gününün dəhşətini bu ayə təsvir edir. Bu səhnəyə, insanın hissləri, ruhu və təbiət varlıqları da qatılmaqdadır. Göy ildırıma bürünməkdə, ay tutulmaqda, günəş və ay yığılmaqda, kainatın nizam-intizamı “Təkvir” surəsində deyildiyi kimi pozulmaqdadır”.[257]

---

[252] “İnfitar” surəsi, ayə-2.
[253] “Təkvir” surəsi, ayə-2.
[254] “Mursəlat” surəsi, ayə-8.
[255] Seyid Qutub, “Quranda Qiyamət səhnələri”, səh-338.
[256] “Qiyamə” surəsi, ayə-8, 9, 10.
[257] Seyid Qutub, “Quranda Qiyamət səhnələri”, səh-103.

Bəli, Quranın dediyi kimi, Kainatın məhv olması labüd bir prosesdir. Kainatın genişliyini insan ağlının tam və real şəkildə qavraması mümkün deyil. Amma bir neçə rəqəmlə bu sirli dünyanın böyüklüyünü təxmini şəkildə anlamağa çalışa bilərik. Günəş Kainatı təşkil edən 200-250 milyard ulduzdan biridir. Günəş Yer kürəsindən 325-500 dəfə böyük olmasına baxmayaraq kainatdakı kiçik ulduzlardan sayılır. Günəş ölçüsü 125 min işıq ili olan Samanyolunun mərkəzinə 30 min işıq ili uzaqlıqdadır. Bu arada 1 işıq ili təxminən 9.460.800.000 lutometrdir. Dünya isə öz oxu ətrafında dövr edən bir kütlədir. Günəş saatda 72.000 km. sürətlə hərəkət edir. Samanyolu öz oxu ətrafında saatda 900.000 km. sürətlə fırlanır. Ancaq ağlı çaşdıran bu kainat qiyamət günü Allahın diləməsi ilə yerlə-yeksan olacaq, böyüklüyü tərif edilə bilməyən ulduzlar Quranda ifadə edildiyi kimi, "örtülüb silinərək, yox olacaqlar".

**2. Yer kürəsinin vəziyyəti**

Qeyd etmək lazımdır ki, Quranın ən çox toxunduğu məsələlərdən biri də, Qiyamət anı, Surun birinci üfürülüşü zamanı Yer üzərindəki baş verəcək hadisələrdir. Quran bu hadisələrə və fəlakətlərə çox yer ayırmış, həmçinin çox əhəmiyyət verib, incəliklərə kimi təsvir etmişdir. İndi isə bu mövzuları diqqətlə tədqiq edək. Üzərində yaşadığımız, suyundan içdiyimiz, üstündə yatdığımız Yer planeti günlərin bir günündə dəlisov bir öküzə, yaxud onu minənin qabırğalarını sındırmaq üçün yerə çırpan bədöv ata minəcək. Belə ki, Qurani-Kərimdə belə buyurulur: ***"Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman; Yer öz ağır yüklərini çıxardıb atacağı zaman; İnsan (təəccüblə): "Buna (bu yerə) nə olub?" –deyəcəyi zaman –məhz o gün (yer) öz xəbərlərini (başına gələnləri) söyləyəcəkdir, çünki (bunu) ona sənin Rəbbin vəhy etmişdir (buyurmuşdur)!"***[258]

***"O gün sarsılan sarsılacaq (surun birinci üfürülməsi ilə yer, göy lərzəyə gələcək), onun ardınca bir sarsıntı da olacaqdır! (Sur ikinci dəfə üfürüləcəkdir. İsrafil suru birinci dəfə***

[258] "Zilzal" surəsi, ayə-1-5.

***çaldıqda hər şey məhv olacaq, ikinci dəfə çaldıqda isə hamı diriləcəkdir. Bunların arası dünya vaxtı ilə qırx il çəkəcəkdir)".***[259]

***"Ey insanlar! Rəbbinizdən qorxun. (Allahın əzabından qorxub pis əməllərdən çəkinin, yalnız Ona ibadət və itaət edin). Həqiqətən, o saatın (qiyamətin) zəlzələsi müdhiş bir şeydir!"***[260]

***"Xeyr! Yer dağılıb parça-parça olacağı gün...".***[261]

Gördüyümüz kimi Quran Qiyamət günü yer üzünün vəziyyəti ilə əlaqədar çox dəhşətli bir mənzərəni gözlər önünə gətirir. "Zilzal" surəsinin təfsirində M.Əsəd deyir: "O günə qədər yer üzündə gizlədilən hər şey – ölülərin bədənləri və qalıqları da daxil olmaqla - sarsılacaqdır. Hesab günü yer üzü sanki insan tərəfindən edilən hər şeyə şahidlik edəcəkdir".[262]

İmam Qəzzali Allahın bu ayələri ilə əlaqədar deyir: "O gün insanların bundan əvvəl arxayınlıqla üzərində gəzdikləri yer ayaqlarının altından sürüşər. Cürbəcür bəhanələrlə inkar üçün cəhd göstərmiş və nə etmək lazım gəldiyini bildiyi halda ibadət etməkdən qaçan hər adam Allahdan başqa sığınıla biləcək bir gücün olmadığını sonunda çox yaxşı anlayar. Amma artıq özləri üçün nə geriyə dönüş, nə də etdiklərini əvəz etmə imkanı var, nə də yaşanacaq peşmançılıq insana bir fayda gətirəcək".[263]

Bunlardan əlavə Quranda Yer üzünün bu cür vəziyyəti də bildirilir: ***"Yer uzanıb dümdüz olacağı, qoynunda olanları bayıra atıb boşalacağı və Rəbbinin buyurduğunu haqq olaraq eşidib (Ona) itaət edəcəyi zaman (insan dünyada yaxşı və pis əməllərin cəzasını layiqincə alacaqdır)!"***[264]

Quran yalnız Yer kürəsinin ümumi vəziyyətinə toxunmur, bundan əlavə onun ayrı-ayrı hissələrinin vəziyyətinə də toxunur. Məsələn dağların vəziyyəti ilə əlaqədar olaraq Qurani-Kərimdə

---

[259] "Naziat" surəsi, ayə-6-7.
[260] "Həcc" surəsi, ayə-1.
[261] "Fəcr" surəsi, ayə-21.
[262] Məhəmməd Əsəd, "Quran mesajı", səh-1295.
[263] İmam Qəzzali, "Qiyamət və axirət", "Hakikat" neşr, İstanbul-2000, səh-28-30.
[264] "İnşiqaq" surəsi, ayə-3-5.

belə buyurulur: ***“Dağlar parça-parça olub dağılacağı zaman (toz kimi havada uçacağı)”.***[265]

***“O gün (qiyamət günü) dağları (yerindən qoparıb) hərəkətə gətirəcəyik. (O vaxt) yeri dümdüz görəcəksən, (möminləri və kafirləri) bir yerə toplayacaq, onların heç birini (başlı-başına) buraxmayacağıq”.***[266]

***“O gün (qiyamət qopanda) yer və dağlar lərzəyə gəlib titrəyəcək, dağlar (dağılıb) yumşaq qum təpəsinə dönəcəkdir”.***[267]

***“(Ya Rəsulum!) Səndən dağlar (qiyamət günü dağların nə cür olacağı) haqqında soruşurlar. Onda de: “Rəbbim onları ovxalayıb havaya sovuracaq. Dümdüz bir yer edəcək (heç bir şey bitməyən qupquru torpaq halına salacaq). Və sən orada heç bir eniş-yoxuş (əyrilik, kələ-kötürlük) görməyəcəksən!”***[268]

***“Dağlar isə didilmiş yun kimi olacaqdır!”***[269]

***“Yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı (əzilib toza dönəcəyi) zaman – məhz o gün (vaqe olacağına heç bir şübhə olmayan) qiyamət qopacaqdır!”***[270]

Müşahidə etdiyimiz kimi, Quranda qiyamət günü dağların vəziyyəti ilə əlaqədar olan ayələr çoxlu saydadır. Əbdüləziz Hatip öz kitabında, dağların qiyamət vaxtı vəziyyəti ilə əlaqədar deyir: “Sağlam paya kimi görünən dağlar hərəkət edərək bir-bir toz halına gələcəklər. Dağlar bir pambıq kütləsi kimi parça-parça atılacaq, yerlərə səriləcək, havaya yayılacaq, küləyin yürütdüyü tərəfə yüngül uçan parçalar halına gələcəkdir. Bu səhnələr başqa surələrdə müxtəlif ifadələrlə dilə gətirilmişdir. Bundan ötrü, necə ki, boşluğun varlığı haqqında söz edilə bilməz, elə də dağlar haqqında söz gedə bilməz, çünki onlar yoxdurlar. Və ya onlar havaya qalxmış toz zərrələri halına gətirilən zaman, işığın təsiri ilə ilğım kimi görünəcəklər”.[271]

---

265 “Mursəlat” surəsi, ayə-10.
266 “Kəhf” surəsi, ayə-47.
267 “Muzzəmmil” surəsi, ayə-47.
268 “Taha” surəsi, ayə-105-107.
269 “Qariə” surəsi, ayə-5.
270 “Haqqə” surəsi, ayə-14-15.
271 Əbdüləziz Hatip, ““Mülk”, “Nəbə” və “Saf” surələrinin təfsiri”, nəşr

Mevdudi isə Qurandakı dağlarla əlaqədar ayələr barəsində belə deyir: “Dağların hərəkət etməsi və ilğım olmaları bu mənaya gəlir: Dağlar bir anda yerlərindən qopacaq və toz kimi ətrafa elə dağılacaqlar ki, bunların daha əvvəl dağ olduğuna inanmaq çətin olacaq. Oralarda böyük qum təpələrindən başqa heç bir şey qalmayacaq. Beləliklə yer üzü dümdüz bir halda gələcək. Burada nə alçaqlıq görüləcək, nə də ki, yüksəklik”.[272]

“Məaric” surəsinin onuncu ayəsinin təfsirində isə Mevdudi deyir: “Dağlar müxtəlif rəngdə olduğu üçün köklərindən qoparılıb yüngül bir əşya kimi havada uçmağa başladıqda, elə bil atılmış rəngli yunlara oxşayacaqlar”.[273]

Yer üzünün böyük bir hissəsi dağlarla örtülüdür və bunların eyni anda yerlərindən qoparaq hərəkət etməsi, belə nəhəng ölçülərdəki torpaq sahələrinin yerin üzərində bir araya toplanması və yerin dümdüz bir hala gəlməsi əlbəttə ki, insanın görə biləcəyi ən qorxunc mənzərələrdən biri olacaq, insanın belə bir anı gözü önündə canlandırması olduqca çətin bir işdir.

Bu günə qədər dünyada qeydə alınmış ən böyük zəlzələ 9,2 bal gücündədir. Və bu gücdəki zəlzələ baş verdiyi bölgəyə qısa vaxt içində böyük bir fəlakət gətirir. Qiyamət günü yaşanacaq sarsıntı isə dünyada o günə qədər tayı-bərabəri əsla olmayan şiddətli bir sarsıntıdır. Bu sarsıntı bir dirək kimi yerləşərək yer üzünü şiddətli zəlzələlərdən qoruyan dağların da qarşısında tab gətirə bilməyəcək qədər böyükdür. Yer üzərindəki ən sağlam təməllərdən və sarsılmazlıq simvolu olan dağlar yerlərindən oynadılıb altındakı torpaqla birlikdə sürüşməyə başlayar.

Quran yalnız Qiyamət günündəki dağların vəziyyətindən danışmır. O, həmçinin dənizlərin vəziyyətini də o qorxulu gündə necə olacağını təsvir edir. Bütün bunlar Quranın Qiyamət gününün necə baş verəcəyini incəliyinə qədər təsvir etdiyini bizə göstərir. Heç bir digər dini kitablarda Qiyamət günü, bu qeybi

---

edilməmiş doktorluq işi, səh-172-173.

[272] Əbul Əla Mevdudi, “Tefhimal Kuran”, İstanbul, “Bengisu” neşr, 1997, VII cild, səh-214.

[273] Əbul Əla Mevdudi, “Tefhimal Kuran”, səh-33-37.

xəbər, belə təfərrüat və incəliklə xəbər verilib, təsvir edilmir. İndi isə dənizlərin Qiyamət günündəki vəziyyətlərinə nəzər yetirək. Sonuncu səmavi kitab olan Qurani-Kərim bu barədə buyurur: ***“Dənizlər od tutub yanacağı (və ya dolub daşacağı) zaman.”***[274]

***“Dənizlər (qaynayıb bir-birinə) qarışacağı zaman.”***[275]

Dünyanın 4/3-nü örtən və ən böyük su kütləsi olan dənizlərin bir anda qaynamağa, coşmağa başlaması həqiqətən də insanın gözündə çox çətin canlana biləcək bir mənzərədir. İnsanın o anın dəhşətini anlaya biləcək bir təcrübəsi yoxdur. Ancaq düşüncə sərhədlərini aşaraq bunu zehnində qismən canlandırmaq olar. Bu günə qədər təkcə vulkan partlayışı, duru yanacaq daşıyan bir tankerdə baş vermiş yanğın nəticəsində belə bir mənzərənin şahid olmuş, onu televizorlarda, rəsmlərdə görmüşük. Ancaq ayələrdə bizlərə verilən izahlar bu misallarla müqayisə edilməyəcək qədər möhtəşəmdir. Yalnız Allahın sonsuz böyüklüyünü, sonsuz qüdrətini bilməyimiz bizi yaşanacaq fəlakətin miqyası haqqında fikir sahibi edir. Allah kainatda yaratdığı və qoruduğu bu nizamı istədiyi şəkildə dəyişdirməyə və hər şeyi bir plan daxilində alt-üst etməyə qadirdir.

V.Poroxova dənizlərlə əlaqədar ayələri şərh edərkən, deyir: “O gün yerin bütün kütləsini çölə atması yerin altındakı təxminən 4.500 dərəcə istiliyindəki nüvənin imkan tapdığı hər yerdən çölə daşacağı mənasına gəlir. Buna şübhəsiz ki, dənizlərin altında olanlar da daxildir. Hər hansı bir kompüter proqramında lavaların dənizin içindəki çıxışını seyr edənlər bu qaynar maddənin dəniz suyunda yaratdığı ağlı donduran bir mənzərənin şahid olublar. Halbuki qiyamət günü gerçəkləşəcək görüntü və mənzərə daha fərqli, daha əhatəli və daha dəhşətli olacaq. Yer üzərində bütün dənizlər alovlar içində qalacaq, qarşısı alınmaz bir atəş və alov kütləsi insanlara yönələcək. O gün bütün dənizlər alışıb yanacaq”.

Qiyamət günü dənizlər yalnız qaynamayacaq, həmçinin daşacaqdır. O gün dənizlərin daşaraq insanlara fəlakət gətirməsi üçün müxtəlif səbəblər var. Bu böyük su kütləsinin sabit və

---

[274] “Təkvir” surəsi, ayə-6.
[275] “İnfitar” surəsi, ayə-3.

durğun bir şəkildə dayanması bəzi qanunlara bağlıdır. Ancaq o gün heç bir təbiət qanunu qüvvədə olmayacaq, göyləri, yerləri, quruları, dənizləri və insanları tarazlıqda saxlayan həssas hesablar və müvazinət yox olacaqdır. Tarazlıq yox olandan sonra dənizlər daşacaq və onadək bəlli olan sunamilərlə müqayisə olunmayacaq bir şəkildə bütün yer üzünə təsir edəcəkdir.

Quran ayələri Qiyamət günü dağların, ayın, günəşin, dənizlərin təsviri ilə kifayətlənmir, göylərin ogünkü vəziyyətini də ədəbi bir tərzdə, yüksək üslubda, insanlara təsir edəcək və onları valeh edəcək bir tərzdə təsvir edir. Bu ayələrin bir neçəsini nəzərdən keçirək: ***"Ulduzların sönəcəyi, göyün yarılacağı zaman."***[276]

***"O gün göy hərəkətə gəlib fırlanacaq (çalxalanacaq).***[277]

***"(O gün) göy parçalanacaq, (Allahın) vədi yerinə yetəcəkdir.***[278]

***"Və (göy) süst düşüb parçalanacaqdır!"***[279]

***"O gün göy ərimiş mis kimi olacaqdır."***[280]

***"(Qiyamət günü) göy yarılıb ərinmiş yağ (və ya dağ basılmış dəri) kimi qıpqırmızı olduğu (qırmızı bir gül rəngi aldığı) zaman (halınız necə olacaq)?"***[281]

***"(Müşriklər) Allahı layiqincə qiymətləndirmədilər (uca tutmadılar). Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylə isə Onun sağ əli büküləcəkdir (yerin də, göyün də hökmü ancaq Allahın əlindədir, bütün kainat Allahın qüdrətinə tabedir). (Allah müşriklərin Ona) aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!"***[282]

Qiyamətlə birlikdə gələn süqut və dəhşət təkcə yerdə gerçəkləşəcək hadisələrlə məhdudlaşmır. Bu hadisə göyü də əhatə edəcəkdir. Göy üzü insanın varlığına və davamlılığına həmişə arxayın olduğu bir tavan kimidir. Allahın bir dilək olmadan yüksəlt-

---

[276] "Mursəlat", ayə-8-9.
[277]"Tur" surəsi, ayə-9.
[278] "Muzəmmil" surəsi, ayə-18.
[279] "Haqqə" surəsi, ayə-16.
[280] "Məaric" surəsi, ayə-8.
[281] "Rəhman" surəsi, ayə-37.
[282] "Zumər" surəsi, ayə-67.

diyi və tutduğu, ucsuz-bucaqsız kosmosla öz arasında pərdə rolunu oynayan görkəmli bir tavan... Bu tavan dünyanı və üzərindəki canlıları saysız təhlükələrdən (ultrabənövşəyi şüalardan, kometa və meteorlardan, kosmosun dondurucu soyuğundan və s.) ən kiçik bir nöqsana yol vermədən yüz illərlə qorumuş, canlı aləmin davam etməsi üçün lazım olan ən əhəmiyyətli qoruyucu örtük olmuşdur. Qaranlıq kosmosdan keçib gələn işıq atmosferin daşıdığı xüsusiyyətlər sayəsində dünyaya lazımınca yayılmış, bütün planetləri işıqlandırmış və insan atmosferdəki həssas oksigen nisbəti sayəsində nəfəs alıb həyat tapa bilmişdir. Halbuki o gün göy bütün vəzifə və funksiyalarını itirər. Artıq onun da Allah dərgahında məlum olan əcəli gəlmişdir. Dünya tarixi boyunca saysız canlının həyatını davam etdirə bilməsi üçün ən vacib şərtlərdən biri olan hava bütün əhəmiyyətini və funksiyasını itirir. O gün var olan qanunlar alışdığımız qanunlardan fərqlidir. Saysız fizika qanunu ilə göydə sabit bir müvazinətlə duran atmosfer əriyib axmağa başlayacaq. Qiyamət günü göy Allahın diləməsi ilə sarsılıb çalxalanar, çatlayar və yarılar. Atmosfer o gün əriyər və yanmağa başlayar.

Qiyamət günü Quran göyün vəziyyətinin digər xüsusiyyətinə də toxunur. Bu "Nəbə" surəsinin 19-cu ayəsində belə bəyan olunur: ***"(O gün) göy qapı-qapı (mələklərin yerə enməsi üçün göydə yarıqlar) açılacaqdır."***

Əbdüləziz Hatip bu ayəni incəliklə şərh edərək deyir: "Felin keçmiş zamanda istifadə edilməsi, meydana gələcəyinin qətiliyindən ötrüdür. Çünki, baş verəcək olan, olmuş hadisə kimi qəbul edilir. Asim, Həmzə və Kisai, şəddəsiz olaraq "futihat" şəklində oxuyarkən, digər qiraət imamları şəddəli olaraq "futtihat" şəklində oxumuşlar. Bu ikinci şəkli qapıların çoxluğuna işarədir. Yəni göy yarılır və bu yarılmanın çoxluğundan ötrü elə bil bütünlüklə qapılar halına gəlir. Bu vaxtı "Kəənnəha əbvab" vəziyyətindədir. Bu vəziyyətdə "yerdən qaynaqlar fışqırır" ayəsinə oxşayır. Ya da, "Zatə əbvab - çox qapılar" mənasında olub bu vəziyyətdə isə "zatə" kəlməsi muzaf olaraq müqəddərdir. Qapıların bu şəkildə çox açılması iki səbəbdən ötrüdür:

a) Göyün heç bir maneəyə rast gəlmədən, hər tərəfdən səmavi fəlakətlərin yer üzünə göndəriləcəyi üçün;

b) Göylərin bütünlüklə elə bir qapılar halına gəlməsi, mələklərin də daha əvvəl görülməyən bir tərzdə enmələri üçün”.[283]

Mənim fikrimə görə, göyün ogünkü vəziyyəti haqqında ən gözəl təfsir budur. Çünki göyün o gün nə vəziyyətdə olacağı incəliklə burada tədqiq edilmiş, hər tərəfli şərh verilmişdir.

**3. Surun birinci üfürülüşü zamanı insanların vəziyyəti**

İndi isə keçək qiyamət günü insanların vəziyyətinə. Görəsən qiyamət saatı gələn zaman insanlar nə edəcəklər? Məsələnin təfsilatına varmaq üçün, Qurani-Kərimin ayələrinə müraciət etmək vacibdir. Bu barədə Qurani-Kərimdə çox sayda ayələr vardır. Məsələn, “Haqqə” surəsinin 4-cü ayəsində deyilir: ***“Səmud da, Ad da (ürəkləri dəhşətə salan) o qiyaməti yalan saymışdılar!”*** Bu ayədə keçən “əl-qariəh” kəlməsi ilə əlaqədar Elmalılı Hamdi Yazır deyir: “əl-Qariəh” insanların başlarına vuran, beyinlərdə partlayan hadisə deməkdir. Surədə bu söz xüsusilə ilə istifadə edilmişdir. Çünki qariəh, qiyamət deməkdir”.[284] Bu kəlmə anidən, gurultu ilə enəcək şimşək səslərini canlandırır. Sürətlənən kimi: yer və göy bir-birinə girəcək, göy yarılacaq, çökəcək və qiyamət qopacaqdır. Quran, qiyamət həngaməsini təsvir edərkən bu qorxunun bütün təbiəti əhatə edəcəyini, canlı-cansız varlıqları dəhşət içində buraxacağını, insanın o günün qorxusundan titrəyəcəyini bəyan edir. Deməli o böyük gün bütün insanlıq dəhşətli bir qorxu içində olacaq. Digər Quran ayələri insanların halı barədə bunları deyir: ***“O gün göy ərimiş mis kimi, dağlar da didilmiş yun kimi olacaqlar. Və dost dostu arayıb axtarmayacaqdır (hərə öz hayına qalacaqdır). Onlar bir-birinə göstəriləcəklər (lakin bir-birini tanısalar da, özlərini tanımamazlığa vurub bir-birindən qaçacaqlar). O günün əzabından qurtarmaq üçün günahkar istərdi ki, fidyə versin öz oğullarını, övrətini və qardaşını, (çətin günlərdə) ona sığınacaq verən əşi-***

---

[283] Əbdüləziz Hatip, “Mülk”, “Nəbə” və “Saf” surələrinin təfsiri”, səh.171-172.
[284] Elmalılı Hamdi Yazır, “Hak dini, Kuran dili”, “Zaman” qazetesi.

***rətini (qohum-əqrəbasını) və yer üzündə olanların hamısını – təki özünü (Allahın əzabından) qurtarsın!"***[285]

***"Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyi uşağını unudar, hər bir hamilə qadın bari-həmlini (vaxtından əvvəl) yerə qoyar (uşaq salar). İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Acaq Allahın əzabı çox şiddətlidir!"***[286]

***"O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! Hər kəs öz hayında olacaq, heç kəs heç kəsin halından xəbər tutmayacaqdır.***[287]

Digər Quran ayələri bu mövzuda deyir: ***"Həqiqətən, Biz sizi yaxın bir əzabla (qiyamət gününün əzabı ilə) qorxutduq. O gün insan öz əlləri ilə etdiyi (yaxşı, pis) əməlləri görəcək, kafir isə: "Kaş (bu əzabı görməmək üçün) torpaq olaydım!" – deyəcəkdir."***[288]

***"O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək (çəyirtkə kimi bir-birinə qatışacaq)"***[289]

Seyid Qutub insanların Qiyamət günü halları ilə əlaqədar deyir: "Bu səhnədə, əmizdirdiyindən imtina edən, baxdığı halda görməyən, hərəkət etməsinə baxmayaraq başa düşməyən bütün əmziklilər, qorxudan uşağını salan hamilə qadınlar və əslində sərxoş olmadıqları halda dəhşət və qorxu səbəbi ilə sərxoş olub yeriş tərzlərini itirən, ayaqları bir-birinə dolaşan, gözləri fal daşı kimi açılan insanların halını təsvir eləməkdədir. Bu dalğa-dalğa bir-biri üzərinə yığılan topluluqdan ibarət bir səhnədir. Göz, az qala bu səhnəni görür. Ancaq dəhşətli qorxu səbəbi ilə nəticəyə varmır. Bu qorxu elə bir canlıdır ki, heç bir böyüklük və həcm onu ölçə bilməz, ancaq insan ruhunun üstündəki təsiri ilə, əmizdirdiklərindən imtina edən əmziklilərə, uşağını salan hamilə qadınlara, sərxoş olmadıqları halda, Allahın əzabının şiddətindən

---

[285] "Məaric" surəsi, ayə-8-14.
[286] "Həcc" surəsi, ayə-2.
[287] "Əbəsə" surəsi, ayə-34-37.
[288] "Nəbə" surəsi, ayə-40.
[289] "Qariə" surəsi, ayə-4.

sərxoş adamlara baxılaraq ölçülə bilər. Bu səhnə, o saat zəlzələsi çox böyük bir şeydir buyuraraq, əsas xətləri ilə ifadə edilən bir qorxutma ilə başlamaqda, bunda qətiyyət göstərən və təfsilatlı olaraq ifadə edilən bir qorxutma ilə bitməkdədir.[290]

Məhəmməd Əsəd bu ayənin təfsirində deyir: "Hərfi mənada "İnsanları sərxoş görəcəksən", yəni sərxoş kimi nə etdiklərini və nə edəcəklərini bilməyən bir hərəkət tərzində görəcəksən. Bu aldadıcı mənzərə, "görmə" felinin –ayənin ilk cümləsində istifadə edilən "siz" cəm ifadəsindən sonra "təra" - "görəcəksən", tək formasında istifadə edilməsində özünü göstərən – sırf subyektiv xasiyyəti, ibarənin "sənə sərxoş kimi görünürlər" şəklində tərcümə etməyi təsdiqləməkdədir. Qiyamət günü bütün insanları çox dəhşətli bir qorxu saracaqdır. Amma kamil insanlardan başqa, onlar, digər insanları təsir altına alan bu qorxudan təsirlənməyəcəklər. Bunu "Ənbiya" surəsinin 103-cü ayəsi də təsdiq edir. Orada deyilir: ***"Onları ən böyük qorxu (İsrafilin suru axırıncı dəfə çalınıb cəhənnəmliklərin Cəhənnəmə atılması) hüznlü etməyəcəkdir. Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!" – deyəcəklər".***[291] Deməli biz Məhəmməd Əsədin sözlərindən belə bir nəticə çıxara bilərik ki, o dəhşətli gün kamil insanlara, yəni möminlərə təsir etməyəcəkdir.

Quran qiyamət günündə insanların nə halda olduğunu təsvir edərkən yalnız bu ayələrlə kifayətlənmir, bu barədə digər ayələr də vardır. Həmin ayələrdən bəzilərini bunlardır: ***"Doğru vəd (qiyamət günü) yaxınlaşdıqda küfr edənlərin gözləri (dəhşətdən) dərhal bərəlib: "Vay halımıza! Biz (dünyada) bundan qafil idik. Xeyr, biz zalım olmuşuq (peyğəmbərlərin dediklərinə inanmamaqla özümüz-özümüzə zülm etmişik)" – deyərlər".***[292]

***"Elə isə əgər küfr etmiş olsanız, uşaqları ağ saçlı qocalara döndərəcək gündən (qiyamət günündən) özünüzü necə qoruyacaqsınız?!"***[293]

---

[290] Seyid Qutub, "Quranda Qiyamət səhnələri", səh-392-393.
[291] Məhəmməd Əsəd, "Quran mesajı", səh-667.
[292] "Ənbiya" surəsi, ayə-97.
[293] "Muzzəmmil" surəsi, ayə-17.

Bu son ayə çox dəhşətverici və güclü təsirə malik ayədir. İnsanı lap şah damarından vurur. Qiyamət gününün qorxusu kiçik uşaqları da bürüyəcək. Bu günün həqiqi mahiyyətini bilməyən, bunun sonsuz əzabın ilk günü olmasını anlayacaq gücdə olmayan uşaqlarda da yetkin adamlardan fərqli bir qorxu var. İnsanlar müvəqqəti dünya həyatı boyunca etdikləri əxlaqsızlıqların peşmanlığı içindədir. Uşaqlar isə hələ nə olduğunu qavrayacaq bir ağılda deyil. Buna baxmayaraq gördükləri hadisələrin şiddətindən saçları ağappaq olur. Belə bir fiziki dəyişiklik o ağır günün böyüklüyünü anlamaq baxımından olduqca mühümdür. Çünki o günə qədər dünyada bir çox növdə fəlakətlər yaşanmışdır. Hər biri insanlara çox şiddətli qorxu vermiş və onları dərindən təsirləndirmişdir. Amma bu fəlakətlərin heç biri qiyamət günü meydana gələcək hadisələrlə müqayisə edildikdə uşaqların saçlarını ağardacaq qədər şiddətli deyildir. O insanların dünya həyatı boyunca yaşadıqları ən ağır, ən çətin bir gündür. Belə ki, qarşıya çıxan hadisələrin şiddəti qısa ömürləri boyunca qorxunun mahiyyətini və təhlükələrin nəticələrini tam dərk edə bilməmiş uşaqların da saçının qorxudan ağappaq olmasına səbəb olmuşdur.

Bu elə bir qorxulu fəlakət olacaqdır ki, "Ənbiya" surəsinin 97-ci ayəsində deyildiyi kimi, insanların gözündə dəhşət ifadəsi oxunacaq. Göz insanın yaşadığı qorxunun şiddətini göstərən orqandır. O günün qorxusunu yaşayacaq insanların qarşılaşdığı dəhşət səbəbi ilə gözləri hədəqəsindən çıxacaq. Burada işlədilən ***"gözlərinin hədəqəsindən çıxması"*** bənzətməsi insanın yaşadığı qorxunun şiddətini anladır. Bu andan insanların göz bəbəkləri böyüyər, ağı isə artaraq donuqlaşmağa başlayacaq. Qiyamətin gerçəkləşəcəyi an istisnasız olaraq insanların hamısı bu qorxunu yaşayacaqdır. Bu elə bir dəhşətli qorxu olacaq ki, insan bunu hətta təsəvvür edə bilməz. Məsələn "Haqqə" surəsində deyir: ***"Haqq olan qiyamət! Nədir qiyamət?! Nə bilirsən (haradan bilirsən) ki, nədir qiyamət?! (Qiyamətin nə olduğunu sənə nə öyrətdi?)"***[294] Burada Uca Allah Peyğəmbərə (s) müraciət edərək deyir ki, hətta o, qiyamət əzabının necə dəhşətli olduğunu

[294] "Haqqə" surəsi, ayə-1-3.

təsəvvür edə bilməz. Bu ayənin şərhində "Quran məalı"nda belə yazılıb: "Bu ayədə qiyamətdəki dəhşətli halın, gözlə görülmədikcə peyğəmbər tərəfindən belə tam olaraq bilinib təsəvvür edilməyəcəyinə işarə edilməkdədir".[295]

Bu elə bir dəhşətli hadisə olacaqdır ki, hətta kafirlər belə, özlərinin torpağa dönməsini arzu edəcəklər. Əgər biz "Nəbə" surəsinin 40-cı ayəsinə diqqət yetirsək, onda incə bir nüansla qarşılaşacağıq. Bu ayədə Uca Allah buyurur: ***"inna ənzərnakum".*** Əbdüləziz Hatip bu ayənin şərhində deyir: "inna –şübhəsiz ki, Biz" və "ənzərnakum" xəbərdar etdikləri, birinci şəxs cəm əvəzliyindən məqsəd Allahdır. Əzəmət və cəlal ifadə etmək üçün cəm əvəzliyi istifadə edilmişdir. Məqam və mövzu əzəmət, heybət və cəlal məqamı olduğu üçün bu üslub istifadə edilmişdir. Bu ayədəki xitab Məkkə müşriklərinin şəxsində, ta qiyamətə kimi gələcək olan və öldükdən sonra dirilməyi inkar edən bütün inkarçılaradır. Xüsusən də kafirlərə, çünki onlar qiyamət günü torpaq olmaq istəyəcəkdir. Yəni:

a) ya dünyada ikən torpaq olaraq qalıb, insan olmamağı və beləliklə mükəlləf tutulmamağı;

b) ya o gün dirilməyib məzarda torpaq qalmağı;

c) ya dirildilib hüquqları bir-birindən aldıqdan sonra torpaq halına gələn heyvanların halına qibtə edərək onlar kimi torpağa dönməyi istəyəcəklər;

d) ya qiyamət gününün şiddətindən və dəhşətindən elə qorxacaqlar ki, torpaq olub bu qorxunu və dəhşəti yaşamamağı istəyəcəklər".[296]

Gördüyümüz kimi bu ayənin şərhində, iki cür məna çıxır: bu ayə ya kafirlərin dirilməkdən sonrakı halı ilə əlaqədardır, ya da ki, qiyamət şiddəti baş verən zaman kafirlərin halları ilə bağlıdır. Fikrimcə, bu iki mənada da həqiqət payı vardır, çünki hər iki hala çox gözəl uyğun gəlir.

İnsanların qiyamət günü yaşadıqları hal və vəziyyətləri barədə çox şey demək olar. Qiyamət günü gələndə hər şey tərsinə

---

[295] "Qurani-Kərim məalı", D.İ.B. nəşr, Ankara-2002, səh-565.

[296] Əbdüləziz Hatip, "Mülk", "Nəbə" və "Saf" surələrinin təfsiri", səh-194-195.

dönər. İnsanlar qarşılaşdıqları günün qorxusundan dəyər verdikləri hər şeyi bir anda unudarlar. Əsas hədəf saydıqları şeylərin artıq bir mənasının olmadığını anlamalarıdır. Dəyər ölçüləri bir neçə saniyə içində dəyişər. Artıq mal-dövlətin, hətta övladın belə bir dəyəri yoxdur. Analıq və atalıq duyğuları da öz mənasını itirmişdir. Dünyada ən çox dəyər verdiyi adamları, hətta öz uşağını belə qiyamət gününün dəhşəti qarşısında unudacaqdır. Kimsə öz uşağının vəziyyətini soruşmayacaq, bunu ağlına da gətirməyəcək. Şübhəsiz ki, qiyamətin baş verəcəyi gün inanmayanlar üçün çox ağır bir gündür. Hələ körpəlik çağında olan uşaqlar belə o gün ailələri tərəfindən atılır. İnsanlar heç gözləmədikləri və əvvəllər tayını-bərabərini görmədikləri bu hadisələr qarşısında nə edəcəklərini bilmirlər, çaşıb qalırlar. Qorxu elə ani və şiddətli bir şəkildə gəlmişdir ki, hamilə qadınlar bu şokun təsiri ilə bətnlərindəki uşaqlarını salırlar. O çox ağır gündə yaşanacaq hadisələrin qorxusu və dəhşəti ilə qadınlar əmizdirdikləri uşaqları da unudacaqlar. Qiyamət günü dünyada ikən dəvətindən üz döndərənlərin, həqiqi dost və yaradıcı olan Allahı unudanların bir-birindən qaçıb qurtulmaq istədiyi bir gündür və hər kəs öz hayındadır.

Quran yalnız o dəhşətli gündə insanların vəziyyətini təsvir etməklə kifayətlənməmiş, hətta heyvanların vəziyyətini də təsvir etmişdir. “Təkvir” surəsinin 4 və 5 ayələrində bu barədə deyilir: ***“(Bədəvi ərəblərin çox əziz tutduqları) boğaz dəvələr başlı-başına buraxılacağı zaman, vəhşi heyvanlar (bir-birindən qisas almaq üçün) bir yerə toplanacağı zaman…”***

Mevdudi bu ayənin təfsirində deyir: “Ərəblərdə qiyamətin şiddəti haqqında təsəvvür yaratmaq üçün bu ən gözəl təbliğ metodu idi. Ərəbistanda qədimdə müasir dövrdə olduğu kimi avtobus və avtomobil yox idi. Ona görə balasını dünyaya gətirən dişi dəvə onlar üçün daha qiymətli idi. Boğaz dişi dəvəyə həddən artıq böyük bir ehtiram göstərilir, yaxşıca onu qoruyur, oğurlanmaması və ya balasının itməməsi üçün ciddi tədbir alınırdı. Bu növ hamilə dəvələr haqqında səhlənkar olmaq, bu cür şəxslərin başlarına necə fəlakət gəlirsə gəlsin soyuqqanlı olacağı mənasına gəlirdi. Bilindiyi kimi heyvanlar çox həssas varlıqlardır və hər

hansı bir təhlükə hiss etdiklərində bir yerə yığışaraq özlərini həmin təhlükədən qoruyurlar”.[297]

Ola bilər ki, ateistlərə, inanmayanlara, kafirlərə kainatın, yer üzünün, insanlığın və ümumiyyətlə bütün bəşəriyyətin məhv olması inandırıcı gəlməsin. Fəqət müasir elmi dəlillər bu cür düşüncə tərzinin səhv və aldadıcı olduğunu ifa edir. Dr.Əbdülqadir Cəlil Məhəmməd bu tezisi inkar edərək, deyir ki: “Dünyanın sonunu gələcəkdə baş verəcək hadisə kimi üç məlumat yolu da təsdiq edir. Onlardan biri təbiət elmləri – fizika, astrologiya, astronomiya, kosmologiya və geologiyadakı elmi araşdırmalardır. Astronomiya elminin elmi nəzəriyyəsi təsdiq edir ki, ulduzların meydana gəlməsi, yaşaması, puç olub yoxa çıxması və ya nəyəsə çevrilməsi hadisəsi inkaredilməzdir. Eləcədə, kosmologiya göstərir ki, hazırkı kainat, böyük partlayışla (Big bang) başlayıb və böyük parçalanma (Big crunch) ilə sona yetə bilər. Böyük parçalanma, ümumi nisbi nəzəriyyə və kainatdakı mövcud maddə miqdarı ətrafındakı bəzi əlavə fərziyyələrdən alınan əsil proqnozlardan biridir. Məsələlərin xarakterinə görə, ulduzların meydana gəlməsi, yaşaması, yox olub puça çıxması və nəyəsə çevrilməsi ətrafındakı astronomiya elminin izahları, kainatın formalaşması və sonu ətrafındakı kosmologiya elminin izahlarından daha mötəbər və inandırıcı hesab olunur. Alimlər və elmi nəzəriyyələr arasındakı bu fərqliliklərə baxmayaraq, nə vaxtsa günlərin bir günü Günəşin, Yerin və onun üzərindəki həyatın sona yetəcəyini inkar edən yoxdur.

Hər şeyin sona yetməsini və yoxa çıxmağını xəbər verən digər yol bəşər övladının arasındakı, “ümumi duyum” (Common Sense) yoludur. Yer üzərindəki hər bir insan bəşər övladının meydana gəlməsi və ölməsini, qalan canlı varlıqların meydana gəlməsini və ölümünü öz gözü ilə görür. Əslində termodinamikanın iki qanunu da bu sözləri təsdiq edir.”[298]

---

[297] Mevdudi, “Tefhimul Kuran”, VI cild, səh-251.

[298] Əbdülqadir Cəlil Məhəmməd, “2000-ci il dünyanın sonudurmu”, “Qütb” jurnalı, 8-ci nömrə, dekabr, 1993, səh-44.

Surun birinci üfürülüşü zamanı nə baş verəcəyini tədqiq edəndən sonra, Surun ikinci üfürülüşü zamanı nə olacağını tədqiq etmək lazımdır.

**B) İkinci üfürülüş**

Axirət inancının əsas nöqtəsi, yenidən dirilməyə inanmaqdır. Ölüm müşahidəyə dayandığı üçün onu inkar etmək mümkün deyildir. Ancaq ölən bir insanın bütün orqanlarının çürüyüb toz halına gəlməsindən sonra, o insanın bədəninin təzədən dirilib canlı hala gəlməsini bir məntiqi silsilə halında anlamaq qeyri-mümkündür. Bunun üçün tək yol vardır, o da imandır. Bundan ötrüdür ki, yenidən dirilməyə inanmaq, iman əsaslarının təməllərindən biri kimi qəbul edilmişdir. Yenidən dirilişi qəbul edən insan, onun tələbi içərisində yer alan həşri, yəni hesab üçün təyin olunmuş bir yerdə yığışmağı da qəbul edəcəkdir. Bu, iman tərəfindən, digəri qədər çətin iş deyildir.[299]

**1. Bə`s (diriliş)**

Lüğəti mənada "qaldırmaq, hərəkətə gətirmək, yuxudan oyatmaq və diriltmək" mənasına gələn "bə`s" İslam ədəbiyyatında qiyamətin qopmasından sonra ölülərin yenidən dirilib həyata qaytarılması mənasına gəlməkdədir. Diriliş İslamın tələb etdiyi iman əsaslarından biridir. Onun necəliyi Quran, sünnət və icma ilə sabitdir. Qurana görə İsrafilin (ə) ikinci dəfə Sura üfürməsinin ardından qəbirlər açılacaq, Allah insanları yenidən diriləcək və yerdən ot bitirdiyi kimi torpaqdan onları çıxaracaq, beləliklə bütün insanlar qəbirlərindən qalxacaq və sürətlə Rəblərinə tərəf qaçacaqlar.[300]

İman əsaslarında, "bə`s" ölümdən sonra dirilişə inanmaq şəklində ifadə edilir və Quranda bu ayədə istifadə edilmişdir: ***"(Ey insanlar) Sizi (yoxdan) yaratmaq və (qiyamət günü) və diriltmək (Allah üçün) ancaq bir nəfəri yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, görəndir!"***[301]

---

[299] Muhsin Dəmirçi, "Kuranın Temel Konuları", səh-334-335.
[300] Yavuz Yusuf Şevki, "Bə`s", İstanbul, DİA, V cild, səh-99.
[301] "Loğman" surəsi, ayə-28.

Ölümdən sonra dirilməyə, Axirət gününə iman qədim Yunanıstanda, qədim Misirdə, yəhudilərdə, xristianlarda, qədim türklərdə, atəşpərstlərdə də var idi. Təbii, bunlardakı axirət inancı özünəməxsus bir şəkildə, müxtəlif forma və növdə idi. Fəqət buna baxmayaraq, aydın xətlərlə dirilişə iman görünürdü.[302]

Məsələn, "Əhdi-Cədid"də (İncildə) deyilir: "Diriliş günü nə evlənirlər, nə ərə gedirlər, fəqət mələklər kimi Allahın göylərində olurlar".[303]

Və ya digər bir yerdə deyilir: "... və Sənin qəzəbinin zamanı gəldi və ölüləri mühakimə etmə dövrü gəldi və Sənin qullarının, peyğəmbərlərinin və müqəddəslərinin və Sənin adından qorxanların mükafatını vermək zamanı gəldi".[304]

Beləliklə yenidən dirilişə olan iman, İslamdan əvvəldə müxtəlif dinlərdə var idi. Fəqət cahiliyyə ərəblərinə gələndə, onlar ümumən axirətə inanmır, dünyaya, maddəyə yapışmağın ən bariz nümunəsini verirdilər. Düzdür, Hz.İbrahimin (ə) dininə sadiq həniflər var idi, fəqət bunların sayı barmaqla sayılası qədərdi. Ümumən cahiliyyə dövründə axirətə iman gücünü itirmişdi.

Allah Quranda dirilişin mütləq olacağını insana müxtəlif tərzdə, müxtəlif əqli dəlillər vermək sürəti ilə başa salmaqdadır. Bu dəlillərin başında yuxarıdakı ayədə olduğu kimi xüsusilə insanın özü və ətrafındakı varlıqlar nəzərə çatdırılır. İnsan, ətrafdakı varlıqlar və hadisələr Quranda həm Allahın, həm də axirətin qəti dəlilləri olaraq zikr edilir, çünki Allaha iman işin əvvəlini təşkil etməkdədir. İman məsələsində iki əsas nöqtə vardır. Bu da Allaha və axirətə inanmaqdır. Allaha və axirətə inana bilən, məcburi olaraq və zamanla digər iman əsaslarını istər istəməz qəbul edəcəkdir. Elə bunun üçün Allah Quranda insanın başa düşəcəyi, onun idrakının qəbul edə biləcəyi növdən açıq dəlillərlə insanı axirətə imana, dirilişi biləcəyi növdən açıq dəlillərlə insanı dirilişi qəbula dəvət etməkdədir. İndi isə görək Allah dirilişə dair hansı dəlillər gətirməkdədir.

---

[302] Şərafəddin Gölcük, "İslam Akaidi", səh-276.
[303] "Evanqelie ot Matfey", qlava 22, stix 30.
[304] "Apokalipsis", qlava 11, stix 15.

Quran dirilişin haqq olduğuna əsasən dörd dəlil gətirir:

1) ***"(Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!"***[305]

Bir şeyi yoxdan var edən onu ikinci dəfə də yarada bilər. Qiyaməti qətiyyətlə inkar edən Məkkə müşriklərindən biri çürümüş sümük parçasını Hz.Peyğəmbərin (s) qarşısında ovub tozunu göyə atır və sonra istehza ilə soruşur: "Havada toz kimi pərakəndə olan sümük zərrəciklərini kim bir yerə yığa bilər?" Bu ayə nazil olur və bu işin aləmlərin Rəbbi tərəfindən həyata keçəcəyi bəyan edilir. İnsan bəzən bütün işləri öz qüdrət və istedadı ilə müqayisə edir və onun mümkün ya qeyri-mümkün olduğunu düşünür. Hər hansı bir işin öz qüdrət və istedadından xaric olduğunu gördükdə, onu qeyri-mümkün hesab edir. Amma hər şeyi yoxdan yaradan və elmi hər şeyi əhatə edən bir varlıqla müqayisə etdikdə necə? Allahın yenilməz qüdrəti ilə müqayisə etdikdə biz onun mümkün və sadə bir iş olduğuna əmin olmalıyıq. Allahın qüdrət və əzəmətini, qiyaməti və xilqəti bəyan edən ayələrindən belə bir nəticəyə gəlirik ki, bütün hadisələr Allahın istək və iradəsi ilə həyata keçir və Onun üçün qiyamət günü insanı yenidən dirilməsi bir o qədər də çətin iş deyildir.[306]

*2)* ***"Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir!"***[307]

***"Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi? Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur!"***[308]

Çətin bir şeyi yaradan əlbəttə asanı da yarada bilər. Göylərin və yerin yaradılışı insanın yaradılışından daha çətindir. Bunlardan ötrü göyləri və yeri yaradıb onları dirəksiz olaraq fəzada tutan Allah, insanı öldükdən sonra yenidən dirilməyə də qadirdir.

---

[305] "Yasin" surəsi, ayə-79.

[306] Mürtəza Mütəhhəri, "Əbədi həyat və ya axirət dünyası", Qum-2000, "Məhdiyyə", səh-323-324.

[307] "Əhqaf" surəsi, ayə-33.

[308] "Yasin surəsi", ayə-81.

***“Məxluqları əvvəlcə yoxdan var edən, sonra da (qiyamət günü) yenidən dirildəcək Odur. Bu (iş) Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən yüksək sifət (Allahdan başqa heç bir tanrı olmaması, vəhdaniyyət sifəti) yalnız Ona məxsusdur. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Allahın sifətləri nə göydəkilərin, nə də yerdəkilərin sifətlərinə bənzəyər. Allah onların hamısından ucadır)”.***[309]

Bir də ki, kainatdakı hadisələr barəsində düşünmək kifayətdir. Qəti inamı əldə edən şəxs yaxşı başa düşür ki, bir şeyi bir dəfə asanlıqla yaradan, heç bir əziyyəti olmadan onu yenidən yarada bilər. Bundan əlavə yenidən yaratmaq ilk yaratma ilə müqayisədə qat-qat asandır.

Bunu da hafizədən silmək olmaz ki, əgər insan, bir növ ölüm hesab edilə biləcək yuxudan sonra yenidən həyata qayıtmağı barədə fikir irəli sürsə, baş verən hadisələr onu valeh edəcək. Azca tədqiq edərsə təzədən dirilişi başa düşməkdə çətinlik çəkməz. Çünki bunların baş verməsi insanların ölümdən sonra dirilmələrindən asan deyil, əksinə daha çətindir.[310]

3) Üçüncü dəlil isə budur: ***“Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa (ilk yaradılışınızı yada salın). Həqiqətən, Biz sizi (babanız Adəmi) torpaqdan, sonra mənidən (nütfədən), sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş (vaxtında doğulmuş) və düşməmiş (vaxtından əvvəl doğulmuş) bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət (adətən, doqquz ay) saxlayar, sonra sizi (oradan) uşaq olaraq (doğurub) çıxardarıq. Sonra yetkinlik çağına (otuz-qırx yaşlarına) yetişəsiniz deyə (sizi böyüdərik). Kiminiz (bu həddə çatmamış) vəfat edər, kiminiz də ömrün ən rəzil (ən ixtiyar) çağına çatdırılar ki, vaxtilə bildiyini (tamamilə unudub körpə uşaq kimi) bilməz olar. (Ey insan!) Sən yer üzünü qup-quru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə (cana) gəlib qabarar (yaxud xəmir kimi acıyar) və***

---

[309] “Rum” surəsi, ayə-27.
[310] Yavuz Yusuf Şevki, “Bə`s”, D.İ.A., V cild, səh-99.

***hər cür gözəl bitki bitirər (hər növ gözəl meyvədən, bitkidən bar gətirər)."***[311]

Ölü vəziyyətdə olan torpağı canlandıran, onu hər ölümünün ardından yenidən dirildən Uca Allah, insanı da öldükdən sonra dirildir. Digər Quran ayəsində deyilir: ***"Bəndələrə ruzi olsun deyə! Biz onunla (o su ilə) ölü bir məmləkəti cana gətirdik. (Qəbirlərdən dirilib) çıxmaq da belədir!"***[312]

4) Bundan başqa Quran insanın özünü də dəlil gətirir: ***"Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa (ilk yaradılışınızı yada salın). Həqiqətən, Biz sizi (babanız Adəmi) torpaqdan, sonra mənidən (nütfədən), sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş (vaxtında doğulmuş) və düşməmiş (vaxtından əvvəl doğulmuş) bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə göstərək."***[313]

Və ya digər ayədə belə deyilir: ***"Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?"***[314].

"Casiyə" surəsində isə belə deyilir: ***"(Qiyaməti inkar edənlər) belə deyirlər: "Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik (biri ölür, digəri anadan olur; biz ölürük, övladlarımız, nəslimiz isə yaşayır); bizi öldürən ancaq dəhrdir (zamanın gərdişi, ömür müddətidir; yaşa dolub qocalmağımızdır). Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar! (Hər şeyi zamanın, vaxtın boynuna yıxmaq doğru deyildir, çünki bütün canlı və cansız məxluqat kimi zamanın özünü də yaradan Allahdır). (Qiyamətə dair) ayələrimiz onlara açıq-aşkar olaraq oxunduğu (söyləndiyi) zaman onların dəlili: "Əgər doğru deyirsinizsə, (vəfat etmiş) atalarımızı (dirildib) gətirin görək!" – deməkdən başqa bir şey deyildir. (Ya Peyğəmbər!) De: "Allah sizi dirildir, sonra öldürür. Sonra da sizi qiyamət günü (dirildib) bir yerə yığacaqdır.***

---

[311] "Həcc" surəsi, ayə-5.
[312] "Qaf" surəsi, ayə-11.
[313] "Həcc" surəsi, ayə-5.
[314] "Muminun" surəsi, ayə-115

***Ona (qiyamətə) heç bir şəkk-şübhə yoxdur, lakin insanların çoxu (qiyamətin haqq, təkrar dirilmənin ilkin yaradılışından çox asan olduğunu) bilməz!"***[315]

Məgər ilk dəfə insanları bir damcıdan yaradan Allah onları yenidən ölümdən sonra diriltdə bilməzmi? Məgər ana rəhmində olarkən və dünyaya gələndən sonra insanlara qayğı göstərən, onları ağılla təchiz edən Allah, ondan ötrü yaradıb ki, insanlar günah işləsinlər və öz heyvani istəklərini təmin etsinlər və bütün bunlardan sonra izsiz-tozsuz, heyvanlar kimi yoxa çıxsınlar? Yoxsa kafirlər elə düşünürlər ki, Allah onları unudub və onları öz müdrik qanun və qadağanlarından məhrum edib? Bu nə dərəcə məntiqə uyğundur?

***"Yoxsa dünyada pis əməl edənlər (axirətdə) onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər? Onlar nə pis mühakimə yürüdürlər! (Dünyada naz-nemət içində yaşayan kafirlər: "Əgər qiyamət günü, axirət doğrudursa, Allah bizə orada da firavan həyat bəxş edəcəkdir!" –deyirlər. Xeyr, onların axirət həyatı çox pis olacaq, əzab içində keçəcəkdir. Dünyada aldıqları ləzzət, axirətdə burunlarından töküləcəkdir. Gözəl axirət həyatı yalnız dünyada Allah, din yolunda məşəqqətlərə dözən möminlərə məxsusdur)"***[316]

***"Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?!"***[317]

Bütün bu dəlillərlə yanaşı Qurani-Kərim dirilişin haqq olduğuna dair tarixi dəlillər də göstərir. Bu dəlillər də üç qisimdir:

1) Allah parça-parça olmuş, bu parçaları bir-birinə qarışmış olan ölmüş varlıqları yenidən diriltdiyini Quranda qeyd etməkdədir: ***"(Ya Rəsulum!) Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" – dedikdə (Allah): "Mə-***

---

[315] Casiyə surəsi, ayə-24-26.
[316] Casiyə surəsi, ayə-21.
[317] Sad surəsi, ayə-28.

***gər (ölüləri diriltməyimə) inanmırsan?" –buyurmuşdu. (İbrahim:) "Bəli, inanıram, lakin ürəyim xatircəm (arxayın) olmaq üçün (soruşdum)", -deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: "Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"***[318] İnsan, Hz.İbrahimin (ə) şəxsində və onun əlində cərəyan edən dörd növ quşun parçalandıqdan və parçaları bir-birinə qarışdırılıb ayrı-ayrı yerlərə qoyulduqdan sonra dirilişində, daha dünya həyatında ikən Allahın ölüləri necə diriltdiyinə şahid olmuşdur.

Məşhur İslam alimi Mürtəza Mütəhərri bu ayənin şərhində deyir ki: "Hz. İbrahimin (ə) qeyri-adi hərəkətinə deyil, təbiətin hər payız fəslində ölüb, yaz fəslində dirilməsinə işarə olunur. Belə ki, biz təbiətdə baş verən bu prosesin hər il şahidi oluruq. Qış mövsümündən sonra təbiətdə yenidən canlanma və dirçəlmə başlanır. Amma bir müddət keçdikdən sonra yenidən hər şey öz fəaliyyətini dayandırıb, solğun rəng alır. Axirət günündə bu fəaliyyətsizlik bütün aləmdə müşahidə olunacaq. Günəş və onun ətrafında dövr edən digər planetlər (qalaktika) öz hərəkət dairəsindən xaric olub məhvə doğru yönələcəkdir. Amma bütün bunlar həmişəlik deyil, müvəqqəti olacaqdır. Axirət dünyasında varlıqlar yenidən dünyadan bir qədər fərqli olaraq yeni həyata başlayacaqlar".[319]

2) "**Və yadınıza salın ki, siz: "Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq", – dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurmuşdu. Ola bilsin ki, şükr edəsiniz deyə, biz sizi ölümünüzdən sonra yenidən diriltdik."[320]**

Allahı açıq-aşkar görmək istəyənlərin, Allahın varlığının açıq-aşkar dəlili olan ildırımın vurması ilə ölmələri və sonra

---

[318] Bəqərə surəsi, ayə-260.
[319] Mürtəza Mütəhərri, Əbədi həyat və ya axirət dünyası, səh-325.
[320] Bəqərə surəsi, ayə-55-56.

Allahın yenə açıq-aşkar dəlili olan dirilmələri ilə, onları diriltməsi tarixdə insan həyatında baş verən dirilişə bir başqa misaldır.

3) Allah, ətləri tökülmüş, sümükləri çürümüş ölüləri də dirildir.

***“Yaxud (ya Rəsulum!) büsbütün alt-üst olmuş (xaraba qalmış) bir kəndin yanından keçən bir kəs kimisini (görmədinmi?) O: “Əcaba, Allah bu kəndi ölümdən sonra necə diriləcək?” -demişdi. Belə olduqda, Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan: “Nə qədər yatmışsan?” –deyə soruşdu. O da: “Bir gün, bəlkə, bir gündən daha az”, -deyə cavab verdi. Allah ona: “Bəlkə, yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi (uzunqulağının) sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da necə onların üzərini ətlə örtürük?” –deyə buyurdu. O kimsəyə bunlar aydın olduqda: “Artıq bildim ki, Allah hər şeyə qadirdir!” –dedi”.***[321]

Bu son ayədə adı çəkilən Hz.Üzeyirdir (ə). O, boş bir qəsəbədən keçən zaman, dirilişin necə baş verəcəyini düşünmüş, Allah da dirilişi onun özü üzərində və onun uzunqulağı üzərində tətbiq etmişdir. Hz.İbrahim (ə) və Hz.Musa (ə) ilə əlaqədar misallarla birlikdə bu ayə incələndikdə, diriliş haqqındakı şübhə və tərəddüdlər yox olur. Bu misallar bir yandan dirilişin mütləq olacağını insana xəbər verərkən, digər yandan bunun necə olacağını da göstərməkdədir. Ona görə də diriliş mütləq cismani olacaqdır.[322]

Bəzi filosoflar dirilişin ruhani olacağını demişlər, cismani dirilişi məntiqlə mümkün görməmişlər. Allah Quranda insanı əvvəlki halında, dünya həyatında olduğu şəkildə geri qaytaracağını açıq-aşkar bəyan etmişdir. Bu barədə Hz.Peyğəmbər (s) belə buyurmuşdur: *“Hər bir insanın bədənini torpaq yeyəcəkdir, ancaq “əzbuz-zənəb” deyilən quyruq soxumundakı sümük müs–təsna... insan bu sümükdən yaradılmış olduğu kimi, öldükdən son-*

---

[321] Bəqərə surəsi, ayə-259.
[322] Şerafəddin Gölçük, İslam Akaidi, səh-417.

*ra bundan həyat tapacaqdır”.*[323] Deməli ikinci yaradılış da birinci yaradılış kimi bədən və ruh bir yerə gəlmək şəklində cismani olacaqdır. Bütün naslar bunu təsdiq edir.

Bu məsələləri incələdikdən sonra digər bir məsələyə də toxunmaq istəyirəm. O da ki, birinci surun üfürülüşü ilə ikin surun üfürülüşü arasındakı zaman məsələsidir. Fəqət onu qeyd edək ki, birinci surun üfürülüşü ilə ikinci surun üfürülüşü arasında nə qədər zaman keçəcəyi barədə bizə hər hansı bir məlumat gəlməyib. Yalnız Əbu Hüreyrədən rəvayət edilən hədisdən başqa. Hədisdə keçən “qırx” rəqəmi ilə günmü, aymı, yoxsa ilmi qəsd edildiyi sualına o özü də “bilmirəm” deyə cavab vermişdir.

Bunu da deməyi vacib bilirəm ki, insanların çoxunun bilmədiyi axirət haqqında, bəzi insanlar davamlı olaraq danışmaqdan, onu inkar etməkdən həzz almış, bir neçə bəhanə gətirərək dirilişi qəbul etməməkdə qətiyyət göstərmişlər. Halbuki Allahın vədi qətidir. Qiyamət bir gün baş verəcək, insanlar şübhə və inkarla baxdıqları axirətdə özlərini hesab verən kimi tapacaqlar. Qurani-Kərimdə bu şəxslər barəsində belə buyurulur: ***“Kafir olanlar (öldükdən sonra) əsla dirildilməyəcəklərini iddia edirlər. (Ya Rəsulum!) De: “Bəli, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra da (dünyada) etdiyiniz əməllər sizə (bir-bir) xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır!”***[324]

Qurani-Kərim dirilişlə əlaqədar dəlilləri gətirəndən sonra, dirilişin necə olacağı haqqında da məlumat verir: ***“Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən (Cəbrail, Mikail, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərdən) başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar!”***[325]

***“Göyün və yerin Onun əmrində durması, sonra isə bircə dəfə (İsrafilin suru bir dəfə üfürməsi ilə ) çağıran kimi dərhal***

---

[323] Müslim, “Fitən”, bölüm 28, hədis-2955.
[324] “Təğabun” surəsi, ayə-7.
[325] “Zumər” surəsi, ayə-68.

***yerindən (qəbirlərinizdən dirilib) çıxmağınız da Onun qüdrət əlamətlərindəndir".***[326]

***"Onlar deyərlər: "Vay halımıza! Bizi yatdığımız yerdən (qəbir evindən) kim qaldırdı? (Onlara belə deyiləcək:) "Bu, Rəhmanın buyurduğu vəddir (qiyamət günüdür). Peyğəmbərlər doğru deyirlərmiş!"***[327]

Ayədə də bildirildiyi kimi, hər şey olub bitdikdən sonra surun səsi ikinci dəfə eşidilir. Bu ikinci səslə qəbirlərdə olanlar çölə çıxarılır. O gün Rəbbinin əmrinə qarşı dirənə biləcək, ya da bu əmri ləngidə biləcək heç bir güc və ya insan yoxdur. O gün torpağın altında olan insanlar dünya həyatı boyunca haqqında tez-tez eşitdikləri, fəqət bir çoxunun inkar etdiyi dirilişi qarşılarında görür və torpaqdan çıxarılırlar. Surun ikinci dəfə üfürülməsi ilə birlikdə dünyanın başlanğıcından bəri yaşamış bütün insanlar dirilmiş olacaqlar. Fəqət Quran ayələri yalnız insanların diriliş zamanı necə olacağını təsvir edərkən, bu ayələr ilə kifayətlənmir, məsələni incəliklə təsvir edib, bir tablo və mənzərə şəklində gözlərimizin önünə sərir. Qurani-Kərimdə bu barədə buyurulur: ***"O gün insanlar (qəbirlərindən qalxıb) heç bir başqa tərəfə meyl etmədən carçının (hamını məşhərə çağıran İsrafilin) ardınca gedəcəklər. Rəhmanın (əzəməti) qarşısında səslər kəsiləcək, yalnız pıçıltı eşidəcəksən!"***[328]

İnsanlar torpağın altından çıxdıqda özlərini çağıran səsə doğru yönəlib qaçmağa başlayırlar. Bu, çağırıldıqları yerə çatanadək davam edər. Bu çağırış daha əvvəlkilərə bənzəməyən bir çağırışdır.

***"O gün onlar (dünyada ibadət etdikləri) bütlərin yanına tələsirmişlər kimi qəbirlərdən tez-tələsik çıxacaqlar. Onların gözləri zəlilcəsinə yerə dikiləcək, özlərini də zillət bürüyəcəkdir. Bu onlara vəd olunmuş həmin qiyamət günüdür!"***[329]

---

[326] "Rum" surəsi, ayə-25.
[327] "Yasin" surəsi, ayə-52.
[328] "Taha" surəsi, ayə-108.
[329] "Məaric" surəsi, ayə-43-44.

Dünyada Allahın cızdığı sərhədləri tanımayan, Allaha itaət etməyən, lovğalanan və təkəbbür göstərən inkarçılar ayədəki ifadəyə əsasən burada çox mütidirlər. Nə baş verdiyini sorğu-sual etmədən qeydsiz-şərtsiz çağırışçıya itaət edərlər. Onlar yalnız bir söz deyə biləcəklər: ***"Onlar öz aralarında pıçıldaşıb bir-birinə: "Dünyada cəmi on gün qaldınız" deyə gizlicə danışacaqlar. Biz, onların aralarında nə danışacaqlarını daha yaxşı bilirik. O zaman onların ən ağıllısı: "Xeyr dünyada cəmisi bir gün qaldınız" deyəcəklər."***[330]

Mevdudi bu ayənin təfsirində deyir: "Bu cümlənin mənası belə ola bilər: "Öldükdən sonra qəbirdə ancaq on gün qaldınız". Qurani-Kərimin başqa yerlərində buna oxşar ifadələrə rast gəlinir. Yəni, qiyamət günündə insanlar dirildikdən sonra istər dünyadakı həyatları, istər öldükdən sonra qəbirdəki müddətlərinin çox qısa olduğunu düşünəcəklər. Məsələn, bir yerdə belə deyilib: ***"(Allah qiyamət günü kafirlərə) belə buyuracaqdır: "Yer üzündə neçə il qaldınız?". Onlar: "Bir gün, bir gündən də az, hər halda, sayanlardan (insanların əməllərini sayan mələklərdən) soruş!" –deyə cavab verəcəklər."***[331] Bir başqa yerdə belə deyilir: ***"O saat gəlib çatacağı (qiyamət qopacağı) gün günahkarlar (qəbirlərində və dünyada) bir saatdan artıq qalmadıqlarına and içərlər. Onlar (axirətdə belə yalan danışdıqları kimi, dünyada da batilə uyub haqdan) belə döndərilirdilər (yoldan çıxardılırdılar). Elm və iman sahibləri isə belə deyərlər: "Siz (qəbirlərinizdə) Allahın kitabında (əzəli elmində yazılmış) olan qiyamət gününə qədər qaldınız. Bu, (hamının dirildiyi) qiyamət günüdür, lakin siz (onun haqq olduğunu) bilmirdiniz!"***[332] Qeyd etdiyimiz ayələrdən də başa düşüldüyü kimi, insanlar istər dünyada, istər ölümdən sonra qiyamətə qədər olan məzardakı yaşayışlarının çox qısa olacağını hesab edəcəklər. Dünyadakı həyatları onlara çox qısa gələcəkdir, çünki hesab etdiklərinin tam tərsinə axirətdəki əbədi və sonsuz həyat onların gözlərini açacaqdır. Axirət üçün də heç

---

[330] "Taha" surəsi, ayə-103-104.
[331] "Muminun" surəsi, ayə-112-113.
[332] "Rum" surəsi, ayə-55-56.

bir hazırlıq görmədikləri və dünyadakı müvəqqəti yaşayışlarında gözəl bir əməl etmədikləri üçün peşman olacaqlar. Bir neçə günlük zövq və səfa üçün axirətdəki rahat həyatdan məhrum qaldıqlarını fikirləşəcəklər. İndi birdən-birə özlərinin yenidən həyata qaytarıldığını və bir borunun (Sur) səsi ilə məhşərə tərəf qaçdıqlarında ağıllarına müxtəlif fikirlər gələcək və filan xəstəxanada özümüzdən getdik, filan gəmidə batdıq və ya filan yerdə qəza keçirdikdən sonra nə qədər zaman keçdiyini təxmin etməyə çalışacaqlar. Zəkaları, dünyada öldükndən sonra birdən-birə yenidən necə həyata geri qaytarıldıqlarını başa düşməkdə çətinlik çəkəcəkdir. Dünyada imkansız olduğunu düşündükləri axirətin baş verdiyini görəndə ağıllarını itirəcək və nə edəcəklərini bilməyəcəklər. Bu səbəbdən onların hər biri özlərinin sadəcə bir neçə saat və ya bir neçə gün bayılıb qaldığını və birdən-birə özlərinin böyük bir toplum içində olduğunu zənn edəcəklər".[333]

Amma Quran qiyamət günü, diriliş zamanı kafirlərin özlərini necə aparacaqları barəsində yalnız bu ayələrlə kifayətlənmir, onların çıxışlarının nə tərzdə baş verəcəyinə dair də bizə məlumat verir: ***"Onlar (o gün) gözlərini zəlilanə aşağı dikib (ətrafa) səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar."***[334]

***"Göyün və yerin Onun əmrində durması, sonra sizi bircə dəfə (İsrafilin suru bir dəfə üfürməsi ilə) çağıran kimi dərhal yerdən (qəbirlərinizdən dirilib) çıxmanız da Onun qüdrət əlamətlərindəndir.***[335]

Seyid Qutub "Qəmər" surəsinin yeddinci ayəsini şərh edərkən deyir: "İndi bir anda çəyirtkə sürüsü kimi (məlum çəyirtkə sürüləri irəli sürülən bu səhnənin asanlıqla təsəvvür edilməsinə köməklik etməkdədir) qəbirlərindən çıxan insanlar, niyə çağırıldıqlarını bilməyərək çağırana tərəf qaçmaqdadırlar. O çağıran, bilinməyən, görünməyən bir şeyə çağırmaqda, onlar da gözləri zəlil-zəlil yerə dikilərək getməkdədirlər. Bu ifadə mənzərəni bitirərək ona son halını verməkdədir. Kafirlər, bu dalğın-

[333] Mevdudi, "Tefhimul Kuran", III cild, səh-225-226.
[334] "Qəmər" surəsi, ayə-7.
[335] "Rum" surəsi, ayə-25.

lıq, bu izdiham və bu hadisələr əsnasında bu çox çətin gündür! - deyərlər”.[336]

O gün kafirlər başlarını göyə qaldırıb, gözləri bir nöqtəyə zillənmiş, hipnoz olmuş kimi qaçarlar. Sadəcə Allahın istədiyi şəkildə hərəkət edib çağırış səsinin gəldiyi istiqamətə doğru yönələrlər. ***“(Ya Rəsulum!) Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma! (Allah) onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar. Belə ki, onlar başlarını yuxarı dikib durarlar, gözlərini də qırpa bilməzlər (gözləri dönüb özlərinə belə baxa bilməz). Onların qəlbləri də bomboş olar (ürəkləri duyğusuz olar, orada xeyirdən heç bir əsər-əlamət qalmaz).”***[337]

Məhəmməd Əsədin bu ayənin təfsirində dediyinə görə, hərfi mənada bu ayə “baxışları özlərinə dönməz (və ya dönməyəcək) kimi tərcümə edilir.[338] Burada isə çox böyük məna var, yəni insanlar elə bir çaşqınlıq və dəhşət içində olacaqlar ki, gözlər: özlərinə dönməyəcək, özlərini düşünə bilməyəcək, qorxudan və çaşqınlıqdan özlərini itirib, unudub və özlərindən gedəcəklər.

Beləliklə biz dirilişin necə baş verəcəyini tədqiq etdik. Doğrudur, dirilişlə əlaqədar Quranda çoxlu sayda ayə var. Amma təəssüf olsun ki, biz onların hamısını araşdıra bilmərik, çünki diriliş mövzusu özü ayrı bir tədqiqat tələb edir. Nəticədə onu deyə bilərəm ki, diriliş günü haqdır, onu inkar etmək olmaz. Onu inkar edən İslama görə kafir sayılır.

### 2. Həşr

Lüğəti mənada “bir dəstəni güc istifadə edərək olduğu yerdən başqa yerdə toplamaq” mənasına gəlir. Termin olaraq da, qiyamət günü dirilmənin ardından bütün varlıqların bir yerə yığılmasını və yığılma yerinə göndərilməsi mənasını ifadə edir. Sözü gedən yığılma və ya toplanma yerinə “məhşər” deyilir. Buna görə həşr, qiyamət halları arasında dirilişdən sonra ikinci mərhələni təşkil edir.

---

[336] Seyid Qutub, “Kuranda Ebedi Tasvir”, səh-129.
[337] “İbrahim” surəsi, ayə-42-43.
[338] “Quran” mesajı, səh-511.

Həşrin lüğəti mənasına əsasən bəzi kəlam alimləri onu bəzən dirilmə ilə eyni mənalı bir termin olaraq da istifadə etmişlər. Ancaq İslam alimlərinin çoxu həşri, dirilmədən sonra baş verəcək mərhələni ifadə edən bir termin olaraq qəbul etmişlər ki, bu görüş qiyamət mövzusunda olan naslara daha uyğun gəlir.[339]

Əsrin böyük müfəssirlərindən olan Mevdudi bu barədə deyir: "Əsl ifadə, "liəvvəlil-həşr"dir. "Həşr", ətrafa yayılmış şəxsləri toplamaq, bir yerə gətirmək, ya da ətrafa yayılmış şəxsləri toplayıb çıxarmaq deməkdir."[340]

Həşr, Qurana görə başda insanlar və cinlər olmaq ilə yanaşı, şeytanlar, mələklər, hətta özlərinə pərəstiş edilən bütlərin də dirilməsi mənasına gəlir. Bu an kafirlərin ömrü boyu qaçdığı, bilmədən gəldiyi, möminlərin isə hazırlanıb gözlədiyi hesab anıdır. O gün torpağın altından çıxan bütün insanlar dalğa-dalğa Allahın hüzuruna gələrlər. ***"Həqiqətən, (haqla batili) ayırd etmə günü (əzəldən müəyyən edilmiş)bir vaxtdır! Sur çalınacağı gün (qəbirlərinizdən çıxıb) dəstə-dəstə (məhşərə) gələcəksiniz."***[341]

***"Onlar Rəbbinin hüzuruna cərgə-cərgə (səf-səf) gətiriləcəklər. (Onlara belə deyiləcək:) "Siz Bizim yanımıza sizi ilk dəfə yaratdığımız kimi (lüt-üryan, mal-dövlətsiz) gəldiniz. Lakin siz elə güman edirdiniz ki, Biz sizə verdiyimiz vədi (öləndən sonra diriləcəyinizi) yerinə yetirməyəcəyik!"***[342]

Kafirlər özlərini qurtara bilmək üçün bir cəhd göstərməzlər, bu onların ağıllarına da gəlməz. Qəlbləri bomboşdur, öz aqibətlərinin hayındadırlar, insanların hesab vermək üçün qəbirlərindən qalxıb qaçmaları Rəbbinin hüzurunda bir nizam içində toplanmaları ilə başa çatır. Bu, insanların olduqca böyük bir çaşqınlığıdır, belə bir görüş vaxtının gələcəyinə əsla inanmırdılar. Halbuki onları hər yandan bürüyən o böyük gün gerçəkləşmişdir. Artıq çarəsizdirlər.

---

[339] Toprak Süleyman, Haşir, DİA. İstanbul, XVI, səh-417.
[340] Mevdudi, Tefhimul Kuran, VI cild, səh-369.
[341] Nəbə surəsi, ayə-17-18.
[342] Kəhf surəsi, ayə-48.

Əbdüləziz Hatip “Nəbə” surəsinin 17 və 18-ci ayələrinin təfsirində deyir: “Bu ayə “yavməl-fasli” ifadəsində xitab yalnız o zaman yaşamış insanlara deyil, bütün zamanlar boyu gələcək insanlığadır. Burada qeyd olunan “üfürülmə” isə diriliş və toplanışın işarəsi olan son üfürüşdür. “Fə tə`tunə”dəki “fa” hərfi “fəsihə”dır. Yəni, özündən əvvəl bir cümlənin üstü örtülü keçdiyinə işarə edir. Bu da, ya vaxtın axışını göstərdiyi üçün zikr edilməsinə ehtiyac hiss edilmədiyindən və ya sura üflənər-üflənməz, araya zaman girmədən insanların məhşərə cərgə-cərgə gələcəyinə işarə etmək üçündür. Quranda israrla edilən ***“Yalnız bir dəhşətli səs qopan (İsrafil axırıncı dəfə surunu çalan) kimi onlar hamısı (haqq-hesab üçün) qarşımızda hazır duracaqlar.”***[343] *və ya* ***“Göylərin və yerin qeybini (gözə görünməyən, heç kəsə bəlli olmayan məchul sirlərini) bilmək ancaq Allaha məxsusdur. Qiyamətin qopması (əmri) bir göz qırpımında, yaxud daha tez olar. Allah, həqiqətən, hər şeyə qadirdir!”***[344] fərmanları göstərir ki, böyük həşr bir anda meydana gəlir. Dar ağıl isə bu hədsiz dərəcə möhtəşəm və bənzərsiz məsələni ağılla qəbul etməyə səbəb olacaq və görünən bir nümunə istəyir”.[345]

Əgər bir diqqət yetirsək, onda görərik ki, “Kəhf” surəsində çox incə bir mətləbə toxunulub. Orada deyilir: ***“Siz Bizim yanımıza sizi ilk dəfə yaratdığımız kimi gəldiniz”.*** Bəli, İbn Useymin ifadəsi ilə: “O zaman insanlar aləmlərin Rəbbinin hüzuruna çılpaq ayaqlı, üstlərində paltar olmadan və sünnət edilməmiş halları ilə qalxacaqlar”.[346] Bu məsələni təsdiq edən hədis də vardır. Aişə binti Əbu Bəkr rəvayət edir: “Hz.Peyğəmbər (s), “insanlar qiyamət günü başı açıq, ayaqyalın və sünnətsiz olaraq həşr olunacaqlar. Mən də, “Ey Allahın Rəsulu, qadınlar və kişilər bir yerdə və bir-birlərinə baxaraqmı?” deyə soruşdum. O, belə

---

[343] “Yasin” surəsi, ayə-53.
[344] “Nəhl” surəsi, ayə-77.
[345] Abdulaziz Hatip, “”Mülk”, “Nəbə” və “Saf” surələrinin təfsiri”, səh-169-170.
[346] İbn Useymin, “Üç əsas”, Guraba, İstanbul-1999, səh-115.

cavab verdi: "Ey Aişə! O gün, hər kəsin bir-birinə baxmaqdan daha dəhşətli və vacib işləri vardır".[347]

Hazırda dünyada milyardlarla insan yaşayır. Bu saya indiyə qədər yaşamış və bundan sonra da yaşayacaq insanların sayını əlavə etsək, məhşər günü məzarlarından çıxıb toplanacaq insan izdihamı və bunun yaradacağı qeyri-adi mənzərə haqqında düşünmək elə də çətin olmaz. İnsanlar bir araya toplanacaq və bir-birini, hadisələri, olub keçənləri açıq şəkildə görüb anlayacaqlar. Çünki o gün Quran ayəsində də bildirildiyi kimi, qəti bir nəzər hakimdir: ***"(Ona belə deyiləcəkdir:) "Sən (dünyada) bundan (bu müdhiş günə uğrayacağından) qəflətdə idin. Artıq bu gün gözündən pərdəni qaldırdıq. Bu gün artıq gözün sərrastdır."*** [348]

İnsanın dünya həyatı boyunca tanıyıb bildiyi bütün insanlar oradadır. ***"O gün onların hamısını (haqq-hesab çəkmək üçün bir yerə) yığacaq, sonra müşriklərə: "Siz də, Allaha qoşduğunuz şərikləriniz (bütləriniz" də yerinizdə durun!" –deyəcək və onları (bir-birindən, yaxud başqalarından) ayıracağıq. Şərikləri (bütlər) dilə gəlib deyəcəklər: "Siz bizə ibadət etmirdiniz."***[349]

***"(Ya Peyğəmbər!) De: "Allah sizi dirildir, sonra öldürür. Sonra da sizi qiyamət günü (dirildib) bir yerə yığacaqdır. Ona (qiyamətə) heç bir şəkk-şübhə yoxdur, lakin insanların çoxu (qiyamətin haqq, təkrar dirilmənin ilkin yaradılışından çox asan olduğunu) bilməz!"***[350]

***"Allahdan başqa heç bir tanrı yoxdur. Olacağına şübhə edilməyən qiyamət günü hamınızı (bir yerə), əlbəttə, O toplayacaqdır. Allahdan doğru danışan kim ola bilər!?"***[351]

Onu da qeyd etmək lazımdır ki, insanlar məhşər günündə yer kürəsində toplanacaqlar. Fəqət yer kürəsi dümdüz şəklində olacaq. Bu barədə Qurani-Kərimdə buyurulur: ***"Dağları hərəkətə***

---

[347] İbn Mace, "Zöhd" 33.
[348] "Qaf" surəsi, ayə-22.
[349] "Yunus" surəsi, ayə-28.
[350] "Casiyə" surəsi, ayə-26.
[351] "Nisa" surəsi, ayə-87.

***gətirdiyimiz gün, yer üzünü düz görərsən. O gün heç birini sağ buraxmadan insanların hamısını bir araya gətirəcəyik".*** Bütün yer üzü dümdüz bir yaylaya çevriləcək. Sonra isə Allah İsrafilə ikinci dəfə üfürməyi əmr edəcək. Bundan sonra hər bir kəs öz qəbirlərindən diri olaraq qalxacaqlar.

Bütün bunlarla yanaşı Quran ayəsi məşhərə dair belə bir mənzərə gözlərimizin önünə sərir: ***"Siz Bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha və sizə verdiyimiz (var-dövləti, əhli-əyalı) arxanızda (dünyada) qoyub gəlmisiniz. Artıq sizin (vaxtı ilə) öz aranızda Allahın şərikləri iddia etdiyiniz şəfaətçilərinizi görmürük. Artıq aranızdakı (rabitə) qırılımış və (Allaha şərik) iddia etdikləriniz (bütlər) də sizdən qeyb olub getmişdir."***[352]

Bu ayənin şərhində deyilir: "Mələklərin deyəcəyi sözdən sonra, Allah qiyamət günü özünün nə deyəcəyini bildirməklə əlaqədar "və ləqad ci`tumunə" buyurmaqla şəriklərdən olan ailə çevrəsindən, dostlardan, mal, mülk və xidmətçilərdən mücərrəd olaraq, anaların dünyaya gətirdiyi tərzdə ilahi hüzura çıxılacağını qeyd etmişdir".[353]

İnsanın dünya həyatı boyunca tanıyıb bildiyi bütün insanlar oradadır. Tanınmış-tanınmamış, zəngin, fəqir, hər bir adam, qısası, qiyamət gününə qədər yaşayıb ölmüş olan bütün insanlar aralarında heç bir fərq olmadan Allahın hüzuruna toplanırlar. Amma artıq belə bir gündə, nə qazandıqları şan-şöhrətdən, nə də əldə etdikləri etibardan əsər-əlamət yoxdur. Həmin gün peşmanlıq yaşamayacaq yeganə bir cəmiyyət, möminlərin təşkil etdiyi bir topluluqdur. Həmin gün heç bir şey işə yaramayacaq, nə dost, nə tanış, nə vəzifə, nə ailə və "Ənam" surəsində deyildiyi kimi, Allah deyəcəkdir ki, "nə oldu sizin şərik və ortaqlarınız? Haradadır onlar? Mən onları görmürəm". Həmin gün mələklər əsgərlər kimi səf-səf duracaqlar. Bu barədə Qurani-Kərimdə belə buyurulur: ***"Ruhun (Cəbrailin) və mələklərin səf-səf duracağı***

---

[352] "Əhqaf" surəsi, ayə-94.

[353] Suat Yıldırım, "Fatihə və Ənam" surələrinin təfsiri, səh-173.

***gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!"*** [354]

Əbdüləziz Hatip bu ayəni şərh edərkən deyir: "Qiyamət günü məhşər meydanında rəhbərlərinə hörmət və qorxularından, itaət və təvazökarlıqlarından ötrü, o məsum və Allaha qulluqla məşğul mələklər belə danışa bilməzlərsə, gör onlardan başqalarının vəziyyəti necə olacaq? Məhşərdə durulacağı qeyd olunan bu dəstənin bir, yoxsa birdən çoxmu olduğu mövzusunda fərqli görüşlər olsa da, ***"vəl-mələku saffən-saffən"***[355] ayəsi bunların birdən çox sıralar halında olacağına dəlalət edir. ***"Lə yətəkilləmunə"*** – (danışa bilməzlər)..." felinin faili kimdir?

A) Ruh və mələklərdir. Şəxs əvəzliyinin ən yaxına qaytarılması "övla" olduğundan bu görüşə ikincisindən daha çox üstünlük verilir.

B) Aralarında Ruh və mələklərin də olduğu bütün yer və göy əhlidir.

Qısacası bütün bu varlıqların heç biri nə bir şəfaət, nə bir istək, nə də başqa hər hansı bir məqsəd üçün bir söz danışa bilməzlər".[356]

Qurani-Kərim bununla yanaşı, həşr gününə dair məlumatları da bizə xəbər verir: ***"Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məşhərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir"***[357]

Mevdudi bu ayənin təfsirində deyir: "Qiyamət günündə surun üfürülməsi ilə hər bir kəs basdırıldığı yerdən qalxar-qalxmaz bu iki mələklərdən biri o insanı İlahi məhkəməyə doğru aparacaq və Allaha təslim edəcəkdir".[358] Quranın həşr barəsində verdiyi digər məlumatına görə, o gün heç kəsin bir-biri ilə işi olmayacaqdır.

---

[354] "Nəbə" surəsi, ayə-38.
[355] "Fəcr", ayə-22
[356] Əbdüləziz Hatip, ""Mülk", "Nəbə" və "Saf" surələrinin təfsiri", səh-192-193.
[357] "Qaf" surəsi, ayə-21.
[358] Mevdudi, "Tefhimul Kuran", VI cild, səh-60.

***“Bu gün bir-birinizə nə bir xeyir (fayda), nə də bir zərər verə bilərsiniz. Zalımlara isə: “Dadın (dünyada) yalan hesab etdiyiniz cəhənnəm odunun əzabını!” – deyəcəyik”.***[359]

Həmin gün insanlara ibadət etdikləri bütlər düşmən olacaqlar: ***“İnsanlar məhşərə toplanacaqları zaman bunlar (bu bütlər) onlara (müşriklərə) düşmən olacaq və onların ibadətini inkar edəcəklər”.***[360] Qeyd etdiyimiz bu ayə, ona dəlalət edir ki, həşr günü, hətta cansız bütlər də dirilib dil açacaqlar.

O gün bəndənin Rəbbinin hüzurunda etdiklərini inkar etmək fürsəti və ya imkanı olmayacaq. İşlədiyi bütün xeyirlər və şərlər ortaya çıxarılmışdır. Həqiqətləri inkar etsə belə şahidlər adil olacaq və onu inkar edəcəklər. Rəbbimizin hüzurundakı bu böyük nizam içərisində hər ümmət öz imamı və kitabı ilə gələcəkdir. Həmçinin o gün hər kəs qorxu içində Rəbbinə tərəf gələcəkdir: ***“Sur çalınacağı gün Allahın istədiklərindən (məhrəm mələklərdən, yaxud Allahın yanında həmişə diri olan şəhidlərdən) başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşər və onların hamısı Onun hüzuruna müti (zəlil) vəziyyətdə gələr.”***[361]

Bəli, bu, Quran ayələrinə əsasən Allah üçün çox asandır. ***“Sur (ikinci dəfə) çalınan kimi qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışarlar.”***[362]

***“O gün yer onlardan ayrılıb parçalanacaq (yarılacaq), onlar sürətlə (torpağın altından, qəbirlərdən çıxacaqlar). O bizim üçün asan olan həşrdir (Bütün yaranmışların bir yerə toplanacaqları məhşər günüdür).”***[363]

Bu ayə kafirlərin əvvəlki üç ayədə dediklərinə verilən bir cavabdır. Onlar, “Necə ola bilər ki, biz öldükdən sonra toz-torpaq oluruq, ondan sonra yenidən necə diriləcəyik? Belə bir şey məntiqə ziddir”, deyirdilər. Onların bu etirazlarına belə cavab

---

359 “Səba” surəsi, ayə-42.
360 “Əhqaf” surəsi, ayə-6.
361 “Nəml” surəsi, ayə-87.
362 “Yasin” surəsi, ayə-51.
363 “Qaf” surəsi, ayə-44.

verilmişdir: "Həşr, yəni məhşərə gəlmiş keçmiş bütün insanların dirildilib bir yerə gətirilmələri bizim üçün çox asandır. Hz.Adəmdən (ə) başlayaraq qiyamətə qədər dünyaya gəlmiş bütün insanlar Bizim bir əmrimizlə cəm olunarlar. Sizin naqis beyniniz bu həqiqəti qəbul etmirsə, qoy onda etməsin, kainatı Yaradanın qüdrəti üçün isə bu heç də imkansız deyildir".[364]

Quran ayələrində Allah israrla Onun hüzuruna geri dönəcəyimizi dəfələrlə vurğulayır. ***"Hamı (dirildikdən sonra) cəm edilib (haqq-hesab üçün) hüzurumuza gətiriləcəkdir."***[365]

***"Sur (ikinci dəfə) çalınan kimi qəbirlərindən qalxıb sürətlə Rəbbinin yanına axışarlar".***[366]

***"De: "Sizi yer üzünə yayıb-səpələyən Odur. (Qiyamət günü) Onun hüzuruna toplanacaqsınız!"***[367]

Ayədə keçən "zəra`" kəlməsi, yaratmaq və çoxaltmaq mənasına gəlir. İnsanı yaradıb çoxaldaraq yer üzünə yayan Allahdan başqası deyildir. Bu dəlil bir yandan Allahın varlığını və qüdrətini isbat edərkən, digər tərəfdən də öldükdən sonra dirilmənin bir misalını və dəlilini gözlər önünə sərir. İnsanı bu şəkildə yaradıb yer üzünə ailələr, qəbilələr, millətlər şəklində yayan Allah, onların zərrələrini vücudlarında yenidən toplamağa qadir olduğu kimi, bütün insanları məhşər meydanında haqq-hesab etmək üçün bir yerə gətirməyə də qadirdir. Ayədə bir-birinə zidd iki səhnə vardır. Birinci səhnə baş vermiş, onun ziddi olan ikinci səhnə də həyata keçməyi gözləməkdədir. Bu iki səhnə, gecə ilə gündüz, qış ilə baharı var etməkdən aciz ola bilməz. İnsanları nəsillər, qəbilə və millətlər halında yer üzündə çoxaldıb yayan, onları yenidən yaradıb toplamaqda aciz qala bilməz.

Bundan başqa Quranın bizə bildirdiyinə görə, insan həşr günü Allahın hüzuruna tək-tənha gələcək. Quran gözlərimizin önünə belə bir səhnə sərir: ***"Onların hamısı qiyamət günü Onun hüzuruna bir-bir gələcək".***[368]

---

[364] Mevdudi, "Tefhimul Kuran", VI cild, səh-71.
[365] "Yasin" surəsi, ayə-32.
[366] "Yasin" surəsi, ayə-51.
[367] "Mülk" surəsi, ayə-24.
[368] "Məryəm" surəsi, ayə-95.

Tək-tənha qalmaq insanların dünya həyatında ən çox çəkindikləri, xüsusilə çətinlik anlarında onları qorxudan hisslərdən biridir. Təkbaşına buraxılmaq dünya şərtlərində də insanlar üçün ən böyük əzablardan biridir. Halbuki axirət günü sadəcə tənhalıq olmayacaq. Bu tənhalıq tərifini asanlıqla verə bilməyəcəyimiz bir tənhalıqdır.

Bütün bu ayələrlə yanaşı, Quran bizim gözlərimizin önünə insanların həşr günü nə vəziyyətdə olacağını, möminlərlə kafirlərin özlərini necə hiss edəcəklərini, nə halda olacaqlarını bizə məlumat verib, dərin bir mənzərə və səhnə gətirir. Bu məsələni incəliklə tədqiq edək.

**Həşr zamanı və məhşərdə insanların vəziyyəti**

Qurani-Kərim insanların həşr günü və məhşərdəki vəziyyətləri ilə bağlı bir çox ayələrlə bizim gözlərimizin özünə səhnələr gətirir. Bu cür ayələr Quranda çox saydadır. Və təəssüflər olsun ki, hamısını tədqiq etmək imkanı bizim əlimizdə yoxdur. Fəqət bəzi ayələri nəzərdən keçirə bilərik. Quran bizə bildirir ki, insanlar hissə-hissə məhşərə gələcəklər. ***"O gün hər ümmətdən ayələrimizi təkzib edənləri dəstə-dəstə yığarıq. Sonra onlar (bir yerə cəm edilib məhşərə) sürüklənərlər."***[369]

***"Sur çalınacağı gün (qəbirlərinizdən çıxıb) dəstə-dəstə (məhşərə) gələcəksiniz!"***[370]

***"Bir gün (qiyamət günü) bütün insanları öz imamları (ardınca getdikləri rəhbərləri, yaxud peyğəmbəri və ya əməl dəftərləri) ilə birlikdə (hüzurumuza) çağıracağıq. Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar (şad olarlar). Onlara tük (xurma çərdəyinin yarığındakı tel) qədər haqsızlıq edilməz."*** [371]

Ayələrdə keçən "bölük-bölük" ifadəsini iki tərzdə başa düşmək olar. Hər cəmiyyətin öz rəhbəri ilə birlikdə qrup-qrup gəlməsi. Buna da "İsra" surəsinin 71-ci ayəsi dəlildir. İkinci mənası isə müxtəlif qruplar və vəziyyətlər halında gəlməsi. Buna da

[369] "Nəml" surəsi, ayə-83.
[370] "Nəbə" surəsi, ayə-18.
[371] "İsra" surəsi, ayə-71.

Hz.Peyğəmbərin (s) hədisi dəlildir. Hz.Peyğəmbər (s) bu barədə belə buyurur: "İnsanlar həşr günü üç qrupa bölünəcəklər. Birinci qrup, piyada vəziyyətdə məhşərə gedəcəkdir. Bu o kəslərdir ki, onlar yüngül cəza çəkəcəklər. İkinci qrup at üstündə məhşərə gələcək. Bunlar saleh əməl işləyənlərdir. Üçüncü qrup sürünərək məhşərə gələcək. Bunlar günahkar və kafirlərdir.[372] Bu hədisi Quran ayəsi təsdiq edir: ***"Siz (ey insanlar) üç zümrəyə ayrılacaqsınız".***[373]

Seyid Qutub insanların üç zümrə halında olacağı barəsində deyir: "Siz üç sinif olduğunuz zaman!

1) "Sabiqun" (haqqa qulluqda, iman və itaət yarışında qabağa keçənlər) və ya "muqərrəbun" (Allah yanında yaxınlığa, ən yüksək mərtəbə və məqama nail olmuş şəxslərdir) deyilən şəxslərdən ibarətdir ki, bunların çoxu əvvəlkilərdən, azı isə sonrakılardandır.

2) "Əshabul-meymənə" və ya "əshabul-yəmin" (əməl dəftərləri sağ tərəfindən verilənlər və ya andına da sadiq, əhdinə vəfakar, işinə sahib bəxtiyarlar) deyilən şəxslərdən ibarətdir ki, bunların bir çoxu əvvəlkilərdən, bir çoxu da sonrakılardandır.

3) "Əshabul-məşəmə" və ya "əshabul-şimal" (əməl dəftəri sol tərəfindən verilənlər və ya uğursuz, bədbəxt şəxslərdir) deyilən şəxslərdən ibarətdir".[374]

Gördüyümüz kimi Quran ayələrinə görə, insanlar bölük-bölük, hissə-hissə həşr olunacaqlar. Hər kəsin öz adı vardır, hər kəs özünəməxsus şəkildə həşr ediləcək. Elmalılı Hamdi "bölük-bölük" sözünün mənasını başa salarkən deyir: "azinə" bölük-bölük bu söz "izə"nin cəmidir ki, "mənsub olmaq" mənasına gələn "əzv" kökündəndir. Hər biri bir bölüyə mənsub olaraq, parça-parça, dağınıq halda deməkdir".[375] Yəni o gün, həşr günü insanlar müxtəlif kateqoriyalara bölünəcəklər. Və hər kateqoriya özünəməxsus tərzdə həşr olunacaqdır. Bunu biz aşağıdakı bölümlərdə müşahidə edəcəyik.

---

[372] Canan İbrahim, "Kutubu-sittə", tərcümə və şərhi, XIV cild, səh-362.
[373] "Vaqiə" surəsi, ayə-7.
[374] Seyid Qutub, "Quranda ədəbi səhnələr", səh-176-177.
[375] Elmalılı Hamdi, "Haqq dini Quran dili", VIII cild, səh-344.

**a) Kafirlərin həşri**

Kafirlərin həşr günü vəziyyəti ilə əlaqədar bir neçə Quran ayəsi vardır. Onların bəzilərini nəzərdən keçirək.

***"O gün onlar (dünyada ibadət etdikləri) bütlərin yanına tələsirmişlər kimi qəbirlərindən tez-tələsik çıxacaqlar. Onların gözləri zəlilcəsinə yerə dikiləcək, özlərini də zillət bürüyəcəkdir. Bu onlara vəd olunmuş həmin qiyamət günüdür!"*** [376]

***"(Ya Rəsulum!) Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma! (Allah) onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar!"*** [377]

***"Surun (ikinci dəfə) çalınacağı və günahkarları (qorxudan, yaxud susuzluqdan) gözləri göm-göy göyərmiş (və ya gözləri kor olmuş, üzləri qapqara qaralmış) halda məhşərə gətirəcəyimiz gün".*** [378]

***"Onlar (o gün) gözlərini zəlilanə aşağı dikib (ətrafa) səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar".*** [379]

***"Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar (yaxud qəbir evində şiddətli əzaba düçar olar) və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!"*** [380]

"Taha" surəsinin 102-ci ayəsində istifadə edilən kəlmə "zurqandır" ki, "əzraq" cəm formasıdır. Bəzi şəxslər bu kəlməni "gömgöy" olaraq istifadə etmişlər. Yəni qorxu və dəhşətdən onların qanı quruyacaq və gözləri gömgöy olacaqdır. Bəzi şəxslər də bu kəlməni, qorxu və dəhşətin daha şiddətli vəziyyətini nəzərə alaraq, gözlərin donması mənasında istifadə etmişlər. Onsuz da bir şəxsin üzü sapsarı və ya ağappaq olanda gözləri də donacaqdır".[381] Günahkarlar Allahın qüdrəti ilə baş verən bütün hadisələri görmələrinə baxmayaraq, görmə qabiliyyəti sadəcə bu nöqtələrə diqqətini cəmləyəcək. Digər cəhətdən isə onlar bir kordan fərqli olmayacaqlar.

---

376 "Məaric" surəsi, ayə-43-44.
377 "İbrahim" surəsi, ayə-42.
378 "Taha" surəsi, ayə-102.
379 "Qəmər" surəsi, ayə-7.
380 "Taha" surəsi, ayə-124.
381 Mevdudi, "Tefhimul Kuran", III cild, səh-225.

İmam Qəzzali bu ayəni özünəməxsus bir tərzdə təfsir edir: “Ayədəki “kor olaraq” mənası kafirlərin, möminlərin önündə və sağ tərəfində parlayan nurdan məhrum olmaları mənasındadır. Tamamən kor olarlar demək deyildir. Yəni qaranlıqda qalıb, görə bilməyəcək vəziyyətdə olarlar deməkdir”.

Qurani-Kərim bizə kafirlərin xəcalətlərindən başlarını qaldıra bilməyəcəklərini, üzlərinin qapqara olaraq həşr olunacaqlarını, lal və kar bir vəziyyətdə həşr ediləcəklərini bildirərək xəbər verir: ***“(O gün) üzlər (bütün insanlar) əzəli, əbədi olan (məxluqatın hər işini yoluna qoyan, onları dolandıran) Allaha təslim olub zəlil bir görkəm alar. Zülmə (günaha) yüklənən (Allaha şərik qoşan, küfr edən) ziyana düşüb mətləbinə yetişməz (ümidsizliyə uğrayar)”.***[382]

***“Günah qazananlara günahları qədər cəza verilər. Onları zillət basar (bürüyər). Onları Allahdan (Allahın əzabından) heç kəs qurtara bilməz. Onların üzü, sanki gecənin zülmət parçaları ilə örtülmüşdür. Onlar cəhənnəmlikdirlər, özləri də orada əbədi qalacaqlar!”***[383]

***“O gün bir çox üzlərə isə toz-torpaq qonacaq, onları zülmət (his) bürüyəcəkdir. Onlar pis əməllərə uyan kafirlər, pozğunlardır!”***[384]

Elmalılı Hamdi “Əbəsə” surəsinin təfsirində deyir: “Necə üzlər vardır ki, o gün üzərilərini bir tor-toz istila etmiş, o tozu his kimi bir qaralıq əhatə etmişdir. Üzlərdə elə tor-toz ilə qaranın bir araya gəlməsi isə qorxu və zəlillik ilə ələm və əzabın ən qorxulu bir şəkildə ortaya çıxışıdır. Məhz onlar, belə tozlu qara üzlülər - kafirlər və günahkarlardan ibarətdir. Onlar həm küfr edib, həm də günah işləyərək küfrlə günahı bir yerə toplamışlar, Uca Allah da bunu onlara tor-toz içində üzüqarası etmişdir. Buna görə də insan o gün gəlmədən öz istəyi və iradəsi ilə bütün bunları düşünüb Allahdan qorxaraq, küfr və günahdan çəkinərək Allahın əmrlərini

---

[382] “Taha” surəsi, ayə-111.
[383] “Yunis” surəsi, ayə-27.
[384] “Əbəsə” surəsi, ayə-40, 41, 42.

tutub, iman və İslam ilə təmizlənməyə çalışmalı və o gün ağlaya-ağlaya, gülə-gülə o son muradına çatmalıdır”.[385]

Digər ayədə isə kafirlərin üzləri barəsində belə buyurulur: ***“Küfr edənlər əzabın yaxınlaşdığını gördükləri zaman üzləri eybəcər kökə düşəcək (qaralacaq) və onlara: “Sizin (dünyada) istədiyiniz (və həmişə istehza edib inanmadığınız) əzab budur!” – deyiləcəkdir”.***[386]

Bu ayədəki “saət” ifadəsi, “pisləşdi”, “çirkinləşdi” mənasına gəlir. Qiyaməti yaxından gördüklərində, kafirlərin üzləri:

a) üzüntü, kədər və sıxıntıdan pisləşir;

b) o gün içlərindəki çirkinliklər üzlərinə vuracaq, surətləri mümkün olduğu səviyyədə çirkinləşəcəkdir.

Ayədəki, “Onların üzləri” yerinə, “o inkar edənlərin üzləri” deyilməsi, yəni şəxs əvəzliyinin yerinə bir cümlə ilə vəsf edilmələrinin səbəbi: a) onları nankor və inkarçı olmaqla pisləmək; b) surətlərinin çirkinləşməsinin əsl səbəbinə aydınlıq gətirməkdir ki, o, da nankorluq və inkardır”.[387]

Qeyd etdiyimiz bu ayələrdən belə bir nəticəyə gəlirik ki, insan bu dünyada necə yaşayacaqsa, qiyamət günündə də elə bir vəziyyətdə həşr olunacaqdır. Kafir də dünyada etdiyi pis əməllərinə görə, cəza olaraq, çirkin bir halda, zəlil bir vəziyyətdə həşr olunacaq.

**b) Möminlərin həşri**

Quran ayələrinin verdiyi xəbərlərə görə, möminlərin həşri çox gözəl olacaq. Onlar üzü nurlu, parlaq bir şəkildə həşr olunacaqlar. Hətta elə bir görkəmdə olacaqlar ki, ətrafdakıların nəzərini özlərinə cəlb edəcəklər. Onlar üçün o gün heç bir qorxu olmayacaq. Bu, Qurani-Kərimin möminlərə müjdəsidir. Bu barədə Qurani-Kərimdə buyurulur: ***“Bəzi üzlərin ağ, bəzi üzlərin isə qara olacağı gündə (qiyamət günündə) üzü qara olanlara:***

---

[385] Elmalılı Hamdi, “Haqq dini Quran dili”, VIII cild, səh-542.

[386] “Mülk” surəsi, ayə-27.

[387] Əbdüləziz Hatip, “”Mülk, “Nəbə” və “Saf” surələrinin təfsiri”, səh-130-131.

***“İman gətirəndən sonra kafirmi oldunuz? İndi, kafir olduğunuza görə dadın əzabı!” –deyiləcəkdir. Üzü ağ olanlar isə Allahın mərhəməti içərisində olub orada (Cənnətdə) həmişəlik qalacaqlar!”***[388]

***“O gün bir çox üzlər parlayacaq, güləcək, sevinəcəkdir”.***[389]

Elmalılı Hamdi bu ayənin təfsirində deyir: “Neçə-neçə üzlər o gün səhər aydınlığı kimi açılaraq parıldayar. Bu, zamanın axışından və buradakı ayələrin əvvəlki ayələrə qarşılıq olmasından başa düşüldüyünə görə bu, Allaha hörmət, iman və İslam ilə Allahın əmrlərini icra edərək təmizlənməyin nəticəəsidir”.[390]

Möminlərin üzlərindəki bu işıq və nur onların fərqləndirici vəsfi və işarəsi olacaqdır. Möminləri kafirlərdən məhz bu işarə ilə mələklər ayırd edə biləcək və məhşərə aparacaqlar. Onlar üzlərindəki nur ilə tanınacaqlar.

**Mühakimə**

Qəti dini dəlillər axirətdə insanların dirildilib məhşər yerində bir yerə yığılmalarının ardından mühakimə mərhələsinin başlayacağından söz açır. Bundan əvvəl də insanlara, mühakimədə əsas referans olan əməl dəftərləri veriləcək və hər insan öz əməl dəftərində yazılı olanlar barədə hesaba çəkiləcəkdir. Bu hesabın nəticəsində möminlər cənnətə, kafirlər də cəhənnəmə girəcəkdir.

İnsanlar məhşər yerində mühakiməni gözləyən zaman qorxu içində olacaqlar. Amma möminlər bu qorxudan istisnadır. ***“O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə (Onun qüdrətinə, əzəmətinə) baxacaqdır! O gün neçə-neçə üzlər tutulub qaralacaq, (Sahiblərinin) bel sümüklərinin (dəhşətli bir əzabla) qırılacağını anlayacaqdır!”***[391]

Məhşər çox sıxıntılı, həyəcanlı və qorxuludur. Hər kəs tezliklə “Məhkəmə-i Kübra”nın, böyük məhkəmənin qurulmasını və hesabın çəkilməsini istəyir. Hz.Peyğəmbər (s) məhşər yerini

---

[388] “Ali-İmran” surəsi, ayə-106-107.
[389] “Əbəsə” surəsi, ayə-38-39.
[390] Elmalılı Hamdi, “Haqq dini Quran dili”, səh-541.
[391] “Qiyamə” surəsi, ayı-22-25.

təsvir edərkən buyurub: *"Qiyamət günü günəş elə alçalacaqdır ki, insanlara bir mil qədər yaxınlaşacaqdır. İnsanlar da əməllərinə görə tər içində olacaqlar. Kimi topuqlarına qədər, kimi dizlərinə qədər, kimi sinəsinə qədər, kimi də elə bir tər içində olacaqdır ki", - deyib əli ilə ağzına işarə etdi".*[392]

Dünyadakı həyatımızdan keçən hər bir gün bizi o məhşər gününə bir az da yaxınlaşdırmaqdadır. Keçən hər saat, hər dəqiqə, hətta hər saniyə ölümə, yenidən dirilməyə və hesaba doğru atılmış növbəti addımdır. Bu irəliləyişi saxlamağın ya da geri çevirməyin yolu yoxdur. Bütün insanlar bu yolu keçəcəkdir. Allah öz kitabında buyurur: ***"Şübhəsiz ki, onların (axır) dönüşü Bizədir! Onlarla haqq-hesab çəkmək də Bizə aiddir!"***[393]

Artıq verilən vaxt dolmuş, hesab anı gəlmişdir. İnsanın dünya həyatı boyunca işdə, evdə, məktəbdə, əyləncədə, harada olursa olsun, bütün etdiklərinə Allah şahiddir. İnsana "şah damarından" daha yaxın olan Allah hər kəsin hər anını görmüş, onu nəzarət altına almışdır. O, çox ağır gündə hər kəsə etdikləri və etməyib təxirə saldıqlarını bildirəcəkdir. ***"Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah (onların əməllərini bir-bir) sayıb yazmış, onlar isə (etdiklərin) unutmuşlar. Allah hər bir şeyə şahiddir!"***[394]

***"O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (qəbirlərindən məhşərə) dəstə-dəstə çıxacaqlar! (Cənnətliklər sağ tərəfdə, cəhənnəmliklər isə sol tərəfdə olacaqlar). Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onun əvəzini görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onun əvəzini görəcəkdir (cəzasını çəkəcəkdir)."***[395]

Allah bu ayələrlə insanları hesab anı üçün hazırlıq görməyə çağırmışdır. Vicdanını işlədən, Rəbbinin çağırışına itaət edənlər üçün o gün heç bir qorxu yoxdur. Kafirlər isə əvəzi olmayan bir peşmanlıqla yaşayarlar.

---

[392] Cemal Uşşaq, "Hədislə Peyğəmbər yolu", səh-696.
[393] "Ğasiyə" surəsi, ayə-25-26.
[394] "Mucadələ" surəsi, ayı-6.
[395] "Zilzal" surəsi, ayə-6-8.

**Əməl dəftərlərinin verilməsi**

Məhşər yerində hər kəs toplandıqdan sonra böyük məhkəmə qurulacaq, dünyada katib mələklər tərəfindən tutulan əməl dəftərləri o gün sahiblərinə veriləcək və hər kəs nə etdiyini, nə etmədiyini bu dəftərlərdə təyin və təxmin edəcəkdir.

Hər insanın dünya həyatında etdiyi yaxşı və pis əməl, bir dəftərə qeyd olunmaqdadır. Buna da əməl dəftəri, kitab, suhuf və ya siccin deyilir. ***"Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıq kitab kimi qarşısına qoyarıq."***[396]

***"Sən nə bilirsən (haradan bilirsən) ki, Siccin nədir? (Və ya: Siccin nədir, bilirsənmi?) O, yazılı bir kitabdır!"***[397]

Bizim əməllərimizin yazıldığı əməl dəftərləri, qapalı vəziyyətdə və gizli bir yerdə saxlanılır. Onlar bir sirdirlər. Onlar haqqında heç bir insanın məlumatı yoxdur. Tövbə edənin günahları silinir. Amma insan tövbə etməyibsə, onun günahları əməl dəftərlərində mühakimə gününə kimi qalacaqdır. Ondan sonra bütün insanlara bu dəftər əyan olacaqdır. Biabırçılıq hesab günü hər kəsə əyan olacaqdır.

Qurani-Kərimə görə hər insanın sağında və solunda, əməllərini qeyd etməklə vəzifəli iki mələk vardır. ***"Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) təsbit edən (qeydə alan) iki mələk oturmuşdur!"***[398]

Bu mələklər, insanların etdikləri xeyr-şər, yaxşı-pis hər cür inanc, düşüncə, söz və əməllərini anında bu dəftərlərə qeyd edirlər. Quran bu mələklər üçün "kiramən katibin", "hafaza", "rusul", "raqib", "ətiq" deyə adlar verməkdədir. ***"Hər kim mömin ikən yaxşı işlər görsə, onun zəhməti danılmayacaqdır (mükafatı tamamilə ödəniləcəkdir). Şübhəsiz ki, Biz onun üçün (gördüyü işləri mələklər vasitəsilə əməl dəftərinə) yazırıq".***[399]

---

[396] "İsra" surəsi, ayə-13.
[397] "Mutəffifin" surəsi, ayə-8-9.
[398] "Qaf" surəsi, ayə-17.
[399] "Ənbiya" surəsi, ayə-94.

***“Yoxsa onlar elə güman edirlər ki, Biz onların pıçıltılarını və xəlvəti danışıqlarını eşitmirik?! Xeyr, yanlarında olan elçilərimiz (onların bütün aşkar və gizli söhbətlərini) yazırlar!”***[400]

***“Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!”***[401]

İnsanın dünya həyatı boyunca etdiyi hər şey sağ və sol tərəfində olan mələklər tərəfindən qeyd edilir. Hesab anı üçün hazırlanan dəftərlər din günündə insanlara veriləcəkdir. İnsan həmin gün etdiklərinin heç birini inkar edə bilməz, çünki yaşadığı hər an əməl dəftərinə qeyd edilmişdir. Hər bir kəs öz dəftərindən axirət üçün nələr hazırladığını öyrənir.

Möminlər əməl dəftərlərini sağ, kafirlər isə sol əllərinə alacaqlar. Kimsənin zərrə qədər haqsızlığa məruz qalmadığı və bir xardal dənəsi qədər əməlin də hesaba çəkildiyi bu anda möminlərlə kafirlərin davranışları çox fərqlidir. Möminlər böyük sevinc içində dəftərlərini alıb oxumaq üçün yanında olanlara uzadarlar. Allah bu barədə Qurani-Kərimdə belə buyurur: ***“O gün (ey insanlar) siz (haqq-hesab üçün Rəbbinizin hüzuruna) gətiriləcəksiniz. Sizin heç bir sirriniz (Allahdan) gizli qalmayacaqdır! Əməl dəftəri sağ əlinə verilən kimsə deyəcəkdir: “Alın, əməl dəftərimi oxuyun! Mən (dünyada ikən qiyamət günü) öz hesabıma yetişəcəyimə (möhkəm) inanmışdım!”***[402]

Bir məsələni də qeyd etmək vacibdir ki, əməl dəftəri Qurani-Kərimdə “quş” və “imam” mənasında da keçir.

**“Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıq kitab kimi qarşısına qoyarıq”.**[403] Bu ayədə keçən “əlzəmnahu tairahu fi unuqih” ifadəsinin kəlmə mənası “....quşunu boynuna asdıq...” deməkdir. Bir çox məalda bu, həmin ayənin qarşılığı şəklində verilməkdədir. Ancaq, belə bir ifadənin Azərbaycan dilində heç bir qarşılığı yoxdur. Çünki bu, ərəblərdə istifadə edilən bir deyimdir.

---

[400] “Zuxruf” surəsi, ayə-80.
[401] “Qaf” surəsi, ayə-18.
[402] “Haqqə” surəsi, ayə-18, 19, 20.
[403] “İsra” surəsi, ayə-13.

***"Bir gün (qiyamət günü) bütün insanları öz imamları (ardınca getdikləri rəhbərləri, yaxud peyğəmbəri və ya əməl dəftərləri) ilə birlikdə (hüzurumuza) çağıracağıq. Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar (şad olarlar). Onlar tük (xurma çəyirdəyinin yarığındakı tel) qədər haqsızlıq edilməz."***[404] Bu ayədə keçən imam kəlməsi "başçı" mənasına gəldiyi kimi, Quranda da əhəmiyyətli məlumatların qeyd edildiyi "sicil" mənasında istifadə edilmişdir.[405]

Qeyd etdiyimiz kimi, əməl dəftəri sağ tərəfdən verilənlər sevinəcəklər. Kimin ki, əməl dəftəri sol tərəfdən verildi, o cəhənnəmə düşəcəkdir.

***"Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: "Kaş əməl dəftərim mənə verilməyəydi! Hesabımın nə olduğunu bilməyəydim! Kaş o (ölüm) qəti (əbədi) olaydı! (Bir daha dirilib bu əzabı görməyəydim!) Mal-dövlətim mənə heç bir fayda vermədi (Allahın əzabını məndən dəf edə bilmədi). Mülküm (səltənətim) də məhv olub getdi!"***[406]

Həmçinin digər Quran ayəsinə görə, əgər əməl dəftəri arxa tərəfdən verilərsə, o şəxs də cəhənnəmə düşəcəkdir.

***"Kimin əməl dəftəri arxa tərəfdən (sol əlinə) verilmişsə, O: "Ay öldüm!" –deyə şivən qopardacaq və Cəhənnəmə vasil olacaqdır!"***[407]

Bütün bunlarla yanaşı, Quran cənnətlikləri "sağçılar", cəhənnəmdəkiləri isə "solçular" adlandırır. ***"Sağ tərəf sahibləri (əməl dəftərləri sağ əlinə verilənlər). Kimdir o sağ tərəf sahibləri? (Nə xoşbəxtdir onlar!) Sol tərəf sahibləri (əməl dəftərləri sol əllərinə verilənlər). Kimdir o sol tərəf sahibləri? (Nə bədbəxtdir onlar!)***[408]

Qurani-Kərimdəki "əshabul-yəmin" ("əshabul-meymənə") və "əshabuş-şimal" ("əshabul-məş`əmə") ifadələri: "sağçılar" və

---

[404] "İsra" surəsi, ayə-71.
[405] Ömer Özsoy, "Konulara görə Kuran", səh-275.
[406] "Haqqə" surəsi, ayə-25-29.
[407] "İnşiqaq" surəsi, ayə-10, 11, 12.
[408] "Vaqiə" surəsi, ayə-8-9.

“solçular” şəklində tərcümə edildiyində, müasir siyasi tərəflər olan sağcılıq və solculuq cərəyanları ilə qarışdırmamaq lazımdır. Bu ayədəki “sağçılar” və “solçular” ilə qəsd edilən, ehtimal ki, əməl dəftərləri sağlarından verilən xoşbəxtlər və əməl dəftərləri sollarından verilən bədbəxtlərdir. Bundan başqa, “yəmin” və “şimal” ifadələri “sağ” və “sol” mənalarına gəldikləri kimi, “uğur” və “uğursuzluq” mənalarına gəlməkdədirlər.[409]

Türk müfəssiri Elmalılı Hamdi “sağ” və “sol” əməl dəftərləri barəsində yazır: “Ayədə keçən “yəmin” kəlməsi, bir neçə ayə sonra gələcək olan “şimal” sözünün antonimi olduğundan “sağ əl, sağ tərəf” deməkdir ki, sağlamlıq, təmizlik, uğur, xeyir, qazanc kimi mənaları da vardır. Kitabın insana sağ tərəfdən verilməsi ifadəsində çox mühüm nöqtələr vardır. Əvvəla, insanın, bir işini öz əlilə etməsi, öz gücü və vasitəsi ilə istədiyi kimi etməsi, qazanması deməkdir. Sağ əlilə etməsi sağlam, təmiz, uyğun, öz halında yaxşı etməsi, sol əlilə etməsi də əksinə etməsi; arxaya etməsi isə səhlənkarlıq göstərməsi, başqasından umması mənasına gəlir. Onun üçün yaxşı əməlləri yazan mələklər sağda, şər əməlləri yazan mələklər isə soldadır, deyildiyi kimi, “mələk sağdan, şeytan soldan gəlir”.[410]

Əməl dəftərlərinə aid bir çox Quran ayələri vardır. Fəqət onların hamısını burada qeyd etmək iqtidarında deyilik. Çünki bu çox geniş mövzudur. Amma bəzi Quran ayələri ilə bu mövzunu bitirmək istəyirik:

***“(Qiyamət günü hər kəsin) əməl dəftəri qarşısına qoyulacaq. (Ya Rəsulum! O zaman) günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: “Vay halımıza! Bu necə bir kitab imiş! O Bizim heç bir kiçik və böyük günahımızı nəzərdən buraxmadan hamısını sayıb yazmışdır ki!” Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!)”***[411]

---

[409] Ömər Öz Soy, “Konulara göre Kuran”, səh-252.
[410] “Haqq dini Quran dili”, səh-85.
[411] “Kəhf” surəsi, ayə-49.

***“Xeyr (belə yaramaz)! Amma siz (bütün bunlara baxmayaraq) haqq-hesab gününü yalan sayırsınız! Sizin üstünüzdə gözətçi mələklər (əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır”.*** [412]

***“Kimin əməl dəftəri sağ əlinə verilmişsə, onunla yüngül haqq-hesab çəkiləcək. Və o, (Cənnətdəki) ailəsinin (yaxınlarının) yanına sevinclə qayıdacaqdır! Kimin əməl dəftəri arxa tərəfdən (sol əlinə) verilmişsə, o: “Ay öldüm!” – deyə şivən qopardacaq”.*** [413]

Beləliklə, Quran ayələri bizim gözlərimizin önünə dəhşətli səhnələr gətirərək yaxşı və xeyirli əməllərə çağırır ki, Qiyamət günü sağ əhlindən olaq, sol əhlindən yox.

### Hesab

Bu, axirət həyatında əməl dəftərlərinin verilməsindən sonra yaşanacaq mərhələdir. Allah qarşısında məsuliyyət daşıyan insanların, dünyadakı inanc və davranışlarına görə axirətdə hesaba, sorğu-suala çəkilmələri mənalarını ifadə etməkdədir. Quranda hesaba çəkmə qırxa yaxın ayədə “hesab”, altı ayədə “yəvmulfasl”, on üç ayədə də “yəvmud-din” kimi kəlmələrlə ifadə olunmuşdur. Bundan başqa “hökm” qavramı da müxtəlif fel və isim kimi qırx iki ayədə Allaha izafə edilmək surəti ilə bu mövzunu qüvvətləndirməkdədir. Bütün bu naslar göstərir ki, axirətdə baş verəcək hesab, inkarı mümkün olmayan bir həqiqətdir. Hesabın bu dərəcə böyük bir əhəmiyyətə malik olduğunu Martin Lihgs belə vurğulayır: “Qiyaməti gözləmək, məhkəməni gözləməkdir. Quran da özünü, “əl-Furqan” (bu bir surənin adıdır) - düzü səhvdən ayıran bir amil, hakim olaraq vəsf edir”.[414]

Qurana görə hesab həm peyğəmbərlərə, həm də digər mükəlləflərə yönəldiləcəkdir. Bu barədə belə buyurulur: ***“(Özlərinə) peyğəmbər göndərilən ümmətləri (peyğəmbərlərə tabe olub-olmadıqları barədə) sorğu-suala çəkəcək, göndərilən peyğəm-***

---

[412] “İnfitar” surəsi, ayə-9, 10, 11.
[413] “İnşiqaq” surəsi, ayə-7, 8, 9, 10,11.
[414] Martin Lings, “Hz. Muhəmmedin Hayatı”, səh-5.

***bərləri də (dinimizi onlara təbliğ edib-etməmələri haqqında) mütləq sorğu-suala çəkəcəyik".***[415]

Peyğəmbərlər ilahi təbliği insanlara çatdırıb-çatdırmadıqlarından, mükəlləf insanlar da peyğəmbərlərin onlara etdikləri dəvətləri necə cavab verdiklərindən sorğu-sual olunacaqlar.

Bilindiyi kimi bütün mükəlləflərin mühakimə səlahiyyəti hesab gününün yeganə sahibi olan Allaha məxsusdur.

"Yəvud-dun – "Din günü" - işlərin qarşılığının veriləcəyi və ya dinin bildirdiyi halların həyata keçəcəyi bir zaman parçasıdır. O halda "maliki yəvmid-din" vəsfi, hər kəsin, etdiyi əməllərin əvəzini alacağı gündə, Allahın, hər şey və hər kəs üstündə tam bir hakimiyyət və mülkiyyətini ifadə edir. Bu məna digər ayələrdə də vardır: ***"Göyləri və yeri haqq olaraq yaradan Odur. Onun: ""Ol!" deyəcəyi gün (hər şey) dərhal olar. Onun sözü haqdır. Surun (İsrafilin surunun) çalınacağı gün hökm Onundur. Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!"***[416]

***"O gün heç kəs heç kəsin karına gələ bilməz. O gün əmr Allahındır! (İş ancaq Allaha qalmışdır)"*** [417]

Hesab günü sorğu-sual sırasında bütün insanlar yanlarındakı iki mələklə birlikdə gələcəkdir. ***"Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir".***[418] O gün bəndənin Rəbbinin hüzurunda etdiklərini danmağa fürsəti yoxdur, işlədiyi bütün xeyirlər və şərlər ortalığa çıxarılmışdır. Həqiqətləri inkar etsə belə şahidlər adil olacaq və onu inkar edəcəklər. Rəbbimizin hüzurundakı bu böyük nizam içərisində hər ümmət öz imamı (rəhbəri) və kitabı ilə gələcəkdir. Hz.Adəmdən (ə) bəri yaşamış bütün cəmiyyətlərin bir araya gələcəyi şəraitdə sorğu-sualdakı nizam və hesabdakı ciddilik Allahın böyüklüyünün, sonsuz ədalətinin və əzəmətinin nəzərə çarpacaq göstəricisidir.

---

[415] "Əraf" surəsi, ayə-6.
[416] "Ənam" surəsi, ayə-73.
[417] "İnfitar" surəsi, ayə-19.
[418] "Qaf" surəsi, ayə-21.

***“(Ya Peyğəmbər! O gün) hər ümməti diz çökmüş (yaxud bir yerə yığılmış) görəcəksən. Hər ümmət öz (əməl) dəftərinə tərəf çağırılacaqdır. (Onlara belə deyiləcəkdir:) “Bu gün sizə (dünyada) etdiyiniz əməllərin əvəzi (mükafatı və ya cəzası veriləcəkdir!”***[419]

Bu, mütləq ədalətli məhkəmə olacaq. Burada insana yalnız onun yaxşı əməlləri, Allaha ibadəti və bağışlanmaq üçün etdiyi duaları yardım edəcək.

***“Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab (ortaya) qoyulacaq (hərənin əməl dəftəri öz əlinə veriləcək), peyğəmbərlər və şahidlər (əməlisaleh insanlar və ya mələklər araya) gətiriləcəklər. Onlar (bəndələr) arasında ədalətlə hökm olunacaq və onlara haqsızlıq edilməyəcəkdir!”***[420]

***“Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik.”***[421]

***“O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!”***[422]

Mal və övlad heç kimə xeyir verməyəcək. Təkcə şəxsin öz daxili zənginliyi və daxili gözəlliyi ona xeyir verəcəkdir.

Hesab günü haqq ilə batili ayıran gündür: ***“(Mələklər isə onlara belə deyəcəklər): “Bu, (dünyada) yalan hesab etdiyiniz (haqq ilə batili, möminlə kafiri) ayırd etmə günüdür!”***[423]

Bu günün başqa bir xüsusiyyəti də həm dünyada, həm də axirətdə qardaşlarından yardım görəcəyini umanların hesaba bunun əksinə olaraq tək-tənha çəkilmələridir. ***“Onların hamısı qiyamət günü Onun hüzuruna bir-bir gələcək.”***[424]

---

[419] Casiyə surəsi, ayə-28.
[420] Zumər surəsi, ayə-69.
[421] Ənbiya surəsi, ayə-47.
[422] Şüəra surəsi, ayə88-89.
[423] Saffat surəsi, ayə-21.
[424] Məryəm surəsi, ayə-95.

***“Ey insan! Sən (ölənə qədər) Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan! (Sənin qısa ömrün gündən-günə səni Allaha yaxınlaşdırır. Ölümün gəlib çatması Allah dərgahına qovuşmaq deməkdir. Öləndən sonra Allahın hüzuruna gedib dünyada etdiyin yaxşı, pis əməllərin əvəzini tamamilə alacaqsan. Yaxşı əməllər etmisənsə, xoş halına. Pis əməllər etmisənsə, vay halına!”***[425]

Yalançı tanrılardan və dostlardan yardım almağı ummaları kimi, kafirlərin başqa bir yanılması da dünyada gizlində işlədikləri günah və pisliklərin hesab günündə ortaya çıxmayacağını sanmalarıdır. Halbuki Allah onların dünyada etdikləri gizli və aşkar hər bir hərəkətlərinə də şahiddir. ***“O gün siz (Allahın hüzuruna) gətiriləcəksiniz. Sizin heç bir sirriniz gizli qalmayacaqdır”.***[426]

***“Hər kəsə öz əməlinin cəzası veriləcəkdir! Allah onların nə etdiklərini ən yaxşı biləndir”.***[427]

***“Bütün sirlərin aşkar olacağı o qiyamət günü insanın nə (əzabı dəf edəcək) birisi, nə də bir köməkçisi olar!”***[428]

İnsanları onların var-dövləti qurtarmayacaqdır, yalnız Allah yolunda xərclədikləri istisna olmaqla. Onlara köhnə hakimiyyətləri də yardım etməyəcəkdir, yalnız Allaha tabe olmaq üçün istifadə edənlərdən başqa. O gün heç kəs heç kəsə köməklik edə bilməyəcək, heç kəs heç kəsə şəfaət edə bilməz, yalnız Allahın icazə verdiyi kəslər istisna olmaqla.

Quranın bildirdiyinə görə, o gün insanın özündən başqası ilə maraqlanmağa nə halı, nə də imkanı vardır. İnsan dünyada ikən onun üçün əziz olan və güvəndiyi ailəsini belə düşünməz: ***“Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar. (Qiyamət günü heç bir qohumluq fayda verməz, qohumlar bir-birini tanımaz; hərə öz hayında olar)”.***[429]

---

[425] İnşiqaq surəsi, ayə-6.
[426] “Haqqə” surəsi, ayə-18.
[427] “Zumər” surəsi, ayə-70.
[428] “Tariq” surəsi, ayə-9-10.
[429] “Muminun” surəsi, ayə-101.

***“Və dost dostu arayıb axtarmayacaqdır (hərə öz hayına qalacaqdır)”.***[430]

Hesab günü haqqı inkar edənlər, o günün dəhşətindən ötrü, bir-birlərinə lənət oxuyacaqlar: ***“(İbrahim onlara) dedi: “Sizin Allahı qoyub bütləri tanrı qəbul etməyiniz yalnız dünyada (dolanıb keçinmək xatirinə) aranızda olan dostluğa (məhəbbətə) görədir. Sonra da qiyamət günü bir-birinizi inkar edəcək, bir-birinizə lənət oxuyacaqsınız. Məskəniniz cəhənnəm odu olacaq, özünüzü də (Allahın əzabından qurtarmağa) kömək edən kimsələr tapılmayacaqdır!”***[431]

Dünyada olduğu kimi axirətdə də əməllərin hesab edilib bitməsi Allahın ədaləti ilə qüsursuz olaraq görüləcəkdir. O gün qurulacaq “Hassas tərəzilər”də, və ya “mizan”da, hər kəs haqq etdiyi əvəzi tapacaqdır. Quranda din günündə qurulan həssas tərəzilərin məlumatı belə verilir: ***“Biz qiyamət günü üçün ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik”.***[432]

***“(O gün) tərəzisi ağır gələn (yaxşı əməlləri pis əməllərdən çox olan) kimsə, (Cənnətdə) xoş güzəran içində olacaqdır! Tərəzisi yüngül gələn (yaxşı əməlləri pis əməllərindən az olan) kimsənin isə, məskəni Haviyə (Cəhənnəmin dibi) olacaqdır! Sən nə bilirsən ki, o (Haviyə) nədir?!”***[433]

Dünya həyatı boyunca edilən hər əməl ən kiçik təfərrüat və fərqlər belə diqqətdən yayınmadan bu tərəzilərə qoyular. Bu tərəzinin əqrəbi sonsuz əzaba və ya sonsuz qurtuluş və xoşbəxtliyə götürəcək qərarı müəyyən edir. Qurani-Kərimdə bu barədə belə buyurulur: ***“Biz qiyamət günü üçün ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik”.***[434]

---

[430] “Məaric” surəsi, ayə-10.
[431] “Ənkəbut” surəsi, ayəsi-25.
[432] “Ənbiya” surəsi, ayə-47.
[433] “Qariə” surəsi, ayə-6-10.
[434] “Ənbiya” surəsi, ayə-47.

O gün bütün bir ömür boyunca istifadə etdikləri, özlərinə aid sandıqları, bədən üzvlərinin də insana xəyanət etməsi o gün yaşanacaq psixoloji böhranı daha da artıracaqdır. ***“Allahın düşmənləri Cəhənnəmə toplanacaqları gün onlar (əvvəlincisindən axırıncısınadək tutulub) bir araya gətiriləcəklər. Nəhayət, onlar Cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. Onlar öz dərilərinə: “Nə üçün əleyhimizə şəhadət verirsiniz?” –deyəcəklər. (Dəriləri də) belə cavab verəcəkdir: “Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!”***[435]

Allah dünyada xatırlatdığı bu həqiqətləri axirətdə ən açıq şəkildə insanların hamısına göstərər. Allahın vədinin nəticələrinin nə olduğunu haqqı inkar edənlər o gün açıq-aydın anlayacaqlar. Artıq zövq və istəklərin bir hökmü yoxdur, nüfuza malik yeganə həqiqət Allahın hökmüdür. Allaha qarşı zülm içində olan bu insanlara etdiklərinin əvəzi verilmişdir. Allahın hökmünə görə əzab və sıxıntı içində əbədi yaşayacaqlar. İnsanların da haqq etdikləri sonsuz həyat bütün parlaqlığı və gözəllikləri ilə din günündə bəşəriyyətə göstəriləcək.

[435] “Fussilət” surəsi, ayə-19-21.

# II FƏSİL
# BƏRZƏX ALƏMİ

İki şeyin arasındakı maneə və ya fasiləyə "bərzəx" deyilir. Qurani-Kərim bu dünya ilə qiyamət gününədək olan fasiləni bərzəx adlandırmışdır. "Muminun" surəsinin 100-cü ayəsində deyilir: ***"Bəlkə, (indiyə qədər) zay etdiyim ömrün müqabilində yaxşı bir iş görüm! (Yaxud, bu günə qədər tərk etdiyim imana qayıdıb saleh bir əməl edim!) Xeyr, bu onun dediyi boş (faydasız) bir sözdür. Onların önündə dirildiləcəkləri (dirildilib haqq-hesab üçün Allahın hüzurunda duracaqları) günə (qiyamət gününə) qədər maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır".***

Bu dünya ilə qiyamət arasında olan fasiləni (bərzəx aləmini) bəyan edən başqa bir neçə Quran ayəsi vardır. Bu ayələrə istinad edərək İslam alimləri belə bir nəticəyə gəlmişlər ki, dünya ilə qiyamət arasında başqa bir aləm vardır və onun adı "bərzəx aləmidir". Buna həm də "Qəbir aləmi" də deyirlər.

Ayənin məzmunundan belə məlum olur ki, insanlardan bəziləri dünyalarını dəyişdikdən sonra dünyada gördükləri nalayiq işlərə görə peşimançılıq çəkər və yenidən dünyaya qayıtmaq istərlər, amma onların istəkləri qəbul olunmayıb rədd cavabı alarlar.

Bərzəxdə bu dünyanın zəruriyyətlərindən olan başağrı və dişağrı kimi dərdlər yoxdur. Maddi olmayan (mücərrəd) bərzəx aləmi axirət kimi də deyil, yəni burada günahkarlar üçün mütləq zülmət və itaət əhli üçün mütləq nur yoxdur. İmamdan (ə) bərzəxin vaxtı barədə sual olunanda buyurub: *"Ölüm saatından başlamış qəbirdən ayağa qaldırılanadək".*

Rəvayətlərdən birində Həzrət Məhəmməd (s.ə) buyurur: *“Qəbir, ya behişt bağlarından biri, ya da, cəhənnəm quyularından biridir (əmələ bağlı olaraq).”*

**Misali aləm və misali bədən**

Olduğumuz aləmə oxşadığına görə Bərzəxə “misali aləm” də deyirlər. Bu oxşarlıq zahiri formaya görədir, maddilik və digər xüsusiyyətlərə görə isə fərqlidirlər. Ölümdən sonra elə bir aləmə daxil oluruq ki, bu dünya ona nisbətən ana bətnini xatırladır.

Bərzəxdə bədən də misali bədəndir, yəni formaca bu dünyadakı bədənin eynidir, lakin maddi deyildir. Bu bədən havadan da lətifdir. Və ona mane olan, onun qarşısını alan bir şey yoxdur. Qərar tuduğu nöqtədə hər şeyi görür və onun üçün divarın bu tərəfi, o tərəfi yoxdur. İmam Sadiq (ə) buyurur: *“Misali bədəni görsəniz, elə həmin dünyəvi bədəndir, deyərsiniz. Əgər vəfat etmiş adamı yuxuda görsəniz, həmin dünyəvi bədəndə müşahidə edərsiniz, halbuki, onun maddi cismi qəbirdədir. Siz gördüyünüzsə misali bədəndir. Bərzəx bədəninin bu günkü gözlərimiz şəklində gözləri var, amma bu gözlərin piyi, eləcə də göz ağrısı onda yoxdur”.*

Bu gözlər Qiyamət gününədək görür, özü də yaxşı görür və dünyadakı gözlər kimi zəifləyib eynəyə möhtac olmur.

**İki şərt daxilində güzgüdəki surətə oxşatma**

Hikmət sahibləri və kəlam alimləri iki şərt daxilində bərzəx bədənini güzgüyə düşmüş surətə oxşatmışlar: birincisi o, güzgüdə yox, öz zatı əsasında dayanır; ikincisi isə onun dərki, şüuru vardır.

Onun oxşarı yuxudakı şəxsdir ki, bir göz qırpımında uzun məsafələri ötüb Məkkəyə, Məşhədə gedir. O aləmdə növbənöv yeməli, içməli, nuş ediləsi nemətlər və gözəl surətlər, nəğmələr vardır ki, dünya sakinlərində o vücudlara taqət yoxdur. Ruhlar həmin misali bədənlərlə bütün sadalanmışlardan bəhrələnir və ruzi yeyirlər.

**Bütün qidalar bir qidada toplanmışlar**

Əlbəttə, o aləmin bütün nemətləri maddi yox, lətifdir. Rəvayətlərdə buyurulmuşdur ki, vahid bir şey möminin istəyi ilə müxtəlif növlərə çevrilə bilər. Məsələn, bir meyvə sənin istəyinlə başqa meyvə olar.

Peyğəmbərdən (s) rəvayət olunmuşdur ki, (Həmzənin (ə) şəhadətindən sonra) buyurdu: *"Seyyidüş-şühəda əmim Həmzəni gördüm ki, qarşısında Behişt meyvələrindən bir tabaq var idi. O meyvələrə meyl edirdi, onun istəyi ilə birdən nar üzümə döndü, üzümdən yedi, yenidən üzüm xurmaya çevrildi".*

**Bərzəx savabı və bərzəx cəzası hədislərdə**

Bərzəx aləminin savab və cəzalarından söz açan hədislər çoxdur. Bir neçə rəvayəti qeyd edirik:

"Biharul-Ənvar"ın III cildində Əli ibn İbrahim Qumminin təfsirindən rəvayət olunur ki, Əmirəl-möminin Əli (ə) buyurub: "Dünyanın sonuncu, axirətin ilk günü Adəm övladının qarşısında sərvəti, övladı və əməli mücəssəm olar. Üzünü sərvətinə tutub deyər: And olsun Allaha, mən sənə qarşı həris və (ehsan etməkdə) paxıl oldum, səndən mənə nə qaldı? Sərvət deyər: Kəfən əndazəsində məndən götür. Sonra üzünü övladlarına tutub deyər: And olsun Allaha, sizi sevdim və haminiz oldum, sizdən mənə nə qaldı?

Əməl deyər: Mən qəbirdə və Qiyamətdə sənə ilahi hüzura yetənədək yoldaş olacağam. Əgər bu şəxs Allah dostudursa, gözəl libasla, xoş ətirli onun yanına gələr və deyər: Müjdə olsun sənə, ruhuna reyhan, nəim Cənnəti, xoş gəlmisən, Soruşar ki, sən kimsən? Deyər: Sənin dünyadakı saleh əməlinəm, Behiştə hərəkət et. O, öz qüsl verənini tanıyar, cənazəsini götürənlərə and verər ki onu tez aparsınlar. Qəbirə daxil olduğu zaman saçlarını yolan iki sorğu mələyini qəbirdə hazır görər.

Dişləri ilə yeri eşən bu mələklərin səsi şimşəyi xatırladar, gözlərindən sanki, qığılcım saçar, ona deyərlər: Yaradanın kimdir, Peyğəmbərin kimdir, hansı dindənsən?

Cavab verər: Yaradanım Allah, Peyğəmbərim Muhəmməd (s), dinim İslamdır.

Deyərlər: Allah səni sevdiyin və razı olduqlarında sabit saxlasın. Sonra onun qəbrini göz işlədikcə genişləndirər və ona Behiştdən bir qapı açar.

Deyərlər: Kamına çatmış xoşbəxt cavan kimi nur gözlərlə yat.

Amma öz Allahına düşmən olsa, əməli ən pis paltarda, ən pis qoxuyla yanına gələr və deyər: Müjdə olsun sənə Cəhənnəmin yandırıcı suyu və Cəhənnəmə varid olmağınla.

O, qüsl verəni görər və cənazəni aparanlara and verər ki, onu gecikdirsinlər. Qəbirə daxil olandan sonra mələklər gəlib onun kəfənini açarlar və deyərlər: Allahın kimdir? Peyğəmbərin kimdir? Hansı dindənsən? Deyər: Bilmirəm. Deyərlər: Bilmirsən və doğru yolu tapmırsan. Bu an dəmir əsayla onu elə vuralar ki, insan və cindən savayı bütün canlılar dəhşətə gələr. Sonra Cəhənnəmdən bir qapı açıb, deyərlər: Ən pis halda yat. Ona nizə dəliyi kimi dar yer verər və digər ucuyla elə sıxarlar ki, beyni dırnağıyla dırnaq əti arasından çıxar. Uca Allah ilan, əqrəb və sair həşəratları onun canına salar, onu çalarlar. Allah-Təala onu Qiyamətdə qəbirdən qaldıranadək bu əzab davam edər. Həmin şəxs Qiyamətin başlamasını arzulayar.

**İnsanların bərzəx surətləri dünyadakı kimidir**

Şeyx Tusi Həzrət Sadiqdən (ə) bir hədis nəql edib ki, hədisin axırında İmam (ə) buyurur: *"Allah-Taala insanın ruhunu çıxarıb, onu əsil (dünyadakı) surətində bərzəxin Behiştinə göndərər. Orada yeyər, içər və əgər yeni bir adam daxil olarsa, onları həmin dünyadakı surətində tanıyar".* Digər bir hədisdə buyurub: *"Möminlərin ruhları bir-birləri ilə görüşüb, bir-birlərindən sual edərlər, bir-birlərini tanıyarlar. Birini görəndə "bəli, bu "filankəsdir" deyərlər".*

**Ruhlar yeni gələnlərdən hal-əhval tuturlar**

Digər hədisdə buyurulub: *"Ruhlar bədən şəklində, Behişt bağlarında qərar tutarlar. Bir-birlərini tanıyar və bir-birlərindən sual edərlər. Yeni bir ruh gələndə, deyərlər: Onu rahat burax, o, ölüm vəhşətindən çıxıb gəlib. Sonra ondan "filankəslər necə ol-*

*du?" – deyə soruşarlar. Əgər desə ki, mən gələndə salamat, diri idi, arxayınlaşarlar. Ümid edərlər ki, həmin adam da onlara qovuşacaq. Əgər desə ki, filankəs ölüb, ruhlar "süqut etdi" deməklə, onun Cəhənnəmə gedəcəyinə işarə edərlər (yoxsa onlara qovuşardı)".*

**Ruhların öz yaxınlarını ziyarət etmələri**

"Bihar"ın III cildində "Kafi" və digər kitablardan bəzi hədislər nəql olunur ki, onların xülasəsi budur: Bərzəx aləmində ruhlar öz yaxın adamlarının ziyarətinə, görüşünə, əhvalını soruşmağa gedərlər. Bəziləri hər gün, bəziləri iki gündən bir, bəziləri üç gündən bir, bəziləri hər cümə, bəziləri ayda bir dəfə, bəziləri ildə bir dəfə ziyarətə nail olarlar. Bu fərq onların məqamları ilə əlaqədardır. Rəvayətdə deyilir ki, mömin şəxs öz yaxınlarından yalnız fərəhləndirici şeylər görər. Kafirlərin gördükləri isə təkcə narahatlıqlarına səbəb olan hadisələrdir.[436]

[436] erfan.ir/az

# III FƏSİL
# HƏDİSLƏRDƏ QİYAMƏTİN ƏLAMƏTLƏRİ

## Hz. İsa və Hz. Mehdi haqqında

Mehdi və Dəccalla bağlı hədislərə və həmin hədislərin açıqlamasına keçməzdən öncə, bir-biri ilə əlaqəli və hətta bir-birini tamamlayan bu iki təbiri açıqlamaqda bir fayda vardır. Dəccal və Mehdi təbirlərinin bir-birindən ayrılmadığını və hətta bir-birini tamamladığını desək mübaliğə etmiş olmarıq. Bir çox hədislərdə bunlar bərabər zikr edilirlər. Hədislərdə 30-a qədər yalançı dəccalın çıxacağı ifadə edilir. Ancaq Mehdinin sayca çoxluğu barədə söz yoxdur. Fəqət mütləq gələcəyi bildirilir.

**İsa inancı:** Quranda Hz. İsanın (ə.s) ölmədiyi və öldürülmədiyi xəbəri ilə birlikdə Hz. İsanın (ə.s) ikinci dəfə yer üzünə gəlməsi də xəbər verilir. Bu ayələrdən biri "Zuxruf" surəsinin 61-ci ayəsidir. Bu surənin 57-ci ayəsindən başlayaraq Hz. İsadan (ə.s) bəhs edilir: "***Məryəm oğlu (İsa) misal çəkilincə sənin qövmün sevincdən güldü. (Müşriklərə xitabən: "Siz və Allahdan başqa ibadət etdikləriniz Cəhənnəmdə yanacaq odunsunuz!" ayəsi nazil olduqda, onlar öz cahillikləri üzündən: "Yəhudilər Üzeyrə, xaçpərəstlər İsaya, Bəni Məlih qəbiləsi mələklərə ibadət edirlər. Əgər bu tanrıların hamısı cəhənnəm odunda yanacaqsa, biz də öz bütlərimizin odda yanmasına razıyıq!" - deyə sevindilər).***

***Onlar dedilər: "Bizim tanrılarımız yaxşıdır, yoxsa o (İsa)?!" Onlar bunu sənə yalnız (səninlə) mübahisə etmək (çənə-boğaz olmaq) xatirinə dedilər. Şübhəsiz ki, onlar höcətləşən (çənə-boğaz olan) bir qövmdürlər!***

***O (Məryəm oğlu İsa) ancaq nemət (peyğəmbərlik) verdiyimiz və (Allahın qüdrəti ilə atasız yaradıldığı üçün) İsrail oğullarına örnək (ibrət) etdiyimiz bir bəndədir.***

***Əgər istəsəydik, yer üzündə sizin əvəzinizə mələklər yaradardıq (onlar da Bizə ibadət edərdilər).***

***Şübhəsiz ki, o, (İsanın zühuru) qiyamətin (o saatın) bir əlamətdir. Ona (qiyamətə) şəkk etməyin və Mənə tabe olun. Bu, doğru yoldur!***"

61-ci ayədə hz. İsanın (ə.s) qiyamət saatı üçün bir əlamət olduğu bildirilir. Bu ayənin Hz. İsanın (ə.s) axırzamanda yer üzünə qayıtmasına açıq bir işarə olduğunu söyləyə bilərik. Çünki Hz. İsa (ə.s) Quranın endirilməsindən təxminən altı əsr əvvəl yaşamışdır. Buna görə də bu ilk həyatının "qiyamət saatı üçün əlamət", yəni qiyamət əlamətinin olduğunu deyə bilmərik. Ayə Hz. İsanın (ə.s) axırzamanda, yəni qiyamətdən əvvəlki son zaman dilimində yenidən yer üzünə gələcəyinə və bunun da bir qiyamət əlaməti olacağına işarə edir.

Bu ayədə keçən "hu", yəni "o" əvəzliyinin Qurana işarə etdiyini söyləyənlər var. Ancaq Quranın digər ayələrinə nəzər saldıqda, "o" əvəzliyinin Quran üçün istifadə edildiyi hallarda mütləq bir əvvəlki və ya sonrakı ayədə Qurandan bəhs edildiyi görünür və ya ayədə keçən digər ifadələrdən Qurana işarə edildiyi tamamilə aydın olur.

Halbuki, "Zuxruf" surəsindəki ayələrə diqqət yetirdikdə, "qiyamət saatı üçün bir elmdir" ifadəsinin əvvəlində və ya sonra gələn ayələrdə Qurandan bəhs edilmədiyi görünür. Ayələrdə Hz. İsadan (ə.s) bəhs edilir. Buna görə də "o" əvəzliyi də Hz. İsaya (ə.s) işarə edir.

Həmçinin tanınmış İslam alimləri də ayədə keçən "o" əvəzliyinin həm ayələrə, həm də səhih hədislərə görə hz. İsaya (ə.s) işarə etdiyini açıqlayırlar. "Hz. İsanın (ə.s) zühur etməsi qiyamət saatının gəlməsini bildirən əlamətlərdən biridir. Yer üzünə enişi dünyanın sonunun gəldiyinə və axirətin başlanğıcına dəlildir".

İmam Təbəri ayənin təfsirində İbn Kəsrin bu mövzudakı açıqlamasını da dəlil olaraq istifadə etmişdir. İbn Kəsir "Qiyamət

günündən əvvəl Hz.İsanın (ə.s) ədalətli dövlət başçısı və ədalətli hakim olaraq yer üzünə enəcəyinə dair Peyğəmbərimizin (s) hədisləri mövcuddur” deyərək, bu ayənin Hz. İsanın (ə.s) dünyaya ikinci dəfə gəlməsinə dəlil olduğunu ifadə etmişdir.

Mövzu ilə bağlı hədislərə nəzər salaq.

عن أبي هريرة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ: وَالّذِي نَفْسِي بِيَدِهِ لَيُوشِكَنَّ أنْ يَنْزِلَ فيكُمْ ابْنُ مرْيَمَ حَكَماً مُقْسِطاً، فَيَكْسِرُ الصَّلِيبُ، وَيَقْتُلُ الْخِنْزِيرَ، وَيَضَعُ الْجِزْيَةَ، وَيَفِيضُ الْمَالُ حَتّى لاَ يَقْبَلَهُ أحَدٌ حَتّى تَكُونَ السَّجْدَةُ الْوَاحِدَةُ خَيْراً مِنَ الدُّنْيَا وَمَا فيهَا. ثُمَّ يَقُولُ أبُو هُرِيْرَةَ: اِقْرَءُوا إنْ شِئْتُمْ: وَإنْ مِنْ أهْلِ الْكِتَابِ إلاَّ لَيُؤْمِنَنَّ بِهِ قَبْلَ مَوْتِهِ - اية...

**1.** Əbu Hüreyrə belə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Nəfsim əlində olan Allaha and olsun! Məryəm oğlu İsanın, aranıza (bu şəriətlə hökm edəcək) ədalətli bir hakim olaraq enəcəyi, xaçlıları qırıb, donuzları öldürəcəyi, cizyəni (Əhli-Kitabdan) qaldıracağı vaxt yaxındır. O zaman, mal elə artar ki, kimsə onu qəbul etməz; tək bir səcdə, dünya və içindəkilərin tamamından daha xeyirli olar”.*

Sonra Əbu Hüreyrə əlavə edərək dedi: “İstəsəniz bu ayəni oxuyun: ***“Kitab əhlindən (yəhudilərdən və xaçpərəstlərdən) elə bir kəs olmaz ki, ölümündən əvvəl (can verdiyi zaman) ona (İsaya) iman gətirməsin, lakin o, (İsa) qiyamət günündə onların (kitab əhlinin) əleyhinə şəhadət verəcəkdir”***[437]

**Açıqlama:**

**1-** İnancımıza görə, Hz. İsa ölməmişdir, səmaya çəkilmişdir. Hədisdə də görüldüyü kimi, qiyamətə yaxın, yer üzünə enəcək, müsbət işlər həyata keçirəcək: Dəccalın ortaya çıxardığı mənəvi təxribatı aradan götürəcəkdir. Onun gəlməsilə birlikdə bolluğun, rifahın artacağının ifadə edilir, onun islahatı mənəvi və maddi cəhətdə olacaq, iqtisadi düzəlmələri də gerçəkləşdirəcəkdir.

[437] “Nisa” surəsi, ayə-15). Buxari, “Sehr” 102, “Məzalim” 31, “Ənbiya” 49; Müslim, “İman” 242, 155; Əbu Davud, “Məlahim” 14, 4324; Tirmizi, “Fitən” 54, 2234.

Xaçlıların qırılması, xristianlığın ləğv edilməsi, yer üzündən qaldırılması deməkdir. Bu gün insanlığın iztirab qaynağı olan Qərbin arxasında kilsənin yer aldığı düşünülərsə, kilsənin ləğvi, Qərbin diz çökdürülməsi, eqoizmdən qurtarılması, gerçək insaniyyətə qovuşdurulması deməkdir. Dünyanın siyasət və iqtisadiyyatına hakim olan Qərbin haqqa gəlməsi insanlığın sülhə qovuşması deməkdir. Günümüzdə, dünyanın harasında olursa olsun, insanları narahat edən bütün ictimai fitnələrin, təlatümlərin arxasında Qərbin əli mövcuddur. Bəşəri iztirabların təməlində bu "Qərbli əli" yatır.

Xaçın qırılmasının əsasında donuz ətinin yeyilməsi gəlir. Xristianlar donuz yemə icazəsini "dinlərindən" alırlar. Din ləğv edilincə, digər bir çox batil inancların kökündə "donuz yemə" adətləri də ləğv olacaq deməkdir. Daha bir rəvayətdə "...ədavətlər, həsədlər də mütləq gedəcəkdir" deyilməsi də diqqət çəkicidir. Müsəlmanlarla xristianlar arasında, əsrlər deyil, eralar boyu davam edən düşmənçiliklərin qalxacağı da ifadə edilir. Bütün bunların başında düyün olaraq kilsə gəlir. Onun Hz. İsa tərəfindən ləğvi, çox şeyin birdən dəyişəcəyinə işarədir.

**2-** Cizyənin tərk edilməsi, xristianların müsəlman olması deməkdir. Çünki müsəlmandan cizyə alınmaz, zəkat alınar. Bu halda dünyada tək din qalar, cizyə verəcək kimsə qalmaz deməkdir. Bu ibarədən belə bir məna çıxaran da olmuşdur: "Mal elə çoxalar ki, cizyə yolu ilə alınan malın sərfi üçün bundan istifadə edəcək fəqir qalmaz. Varlılq səbəbi ilə, cizyə sərf edilmədən tərk edilir". İyaz deyir ki: "Cizyə məsələsindən murad, cizyənin kafirlərə təqrir edilməsi də ola bilər. Bütün kafirlərdən alınacaq cizyə ilə də bolluq hasil ola bilər".

Nəvəvi İyazın açıqlamasına qatılmadan: "Hz. İsa, İslamdan başqa heç bir dini qəbul etməyəcəkdir" deyir. Həqiqətən Əhməd ibn Hənbəlin məsələ ilə bağlı bir təhricində "Dava bir olar" buyurulmuşdur.

Yenə Nəvəvi, Hz. İsanın cizyəni aradan qaldırmasıyla bağlı olaraq deyir ki: "Bu şəriətdə cizyənin məşruluğuna rəğmən Hz. İsanın onu qaldırmasının mənası, onun məşruiyyəti Hz. İsanın en-

məsilə bağlıdır" deməkdir. Hədis buna dəlalət edir. Hz. İsa cizyə hökmünü nəsx edəcək deyil. Peyğəmbərimiz (s), bu sözüylə nəsxi bəyan edir. İbn Bəttal: "Biz cizyəni, mala olan ehtiyacımız səbəbilə Hz. İsanın enməsindən öncə qəbul edirik, amma Hz. İsanın enməsindən sonra mala ehtiyacımız olmayacaq. Çünki onun zamanında mal bol olacaq. O qədər ki, kimsə mal qəbul etməyəcək. Bu da ehtimaldır: Cizyənin yəhudi və xristianlardan qəbul edilməsinin məşru olması, onların əlindəki kitabın vəhy olma şübhəsini daşıması və zənlərinin qədim şəriətlə bağlı olması səbəbilədir. Hz. İsa enincə, dəlillərinin kəsilməsi və vəziyyətlərinin ortaya çıxması səbəbilə qeyd edilən şübhə aradan qalxar və onlar bütə inanan digər müşriklər kimi olarlar və beləcə, onlarla müamələ, cizyələrini qəbul etməmək şəklində olması münasib olar".

Hz. İsa endiyi zaman onu hər kəs İsa olaraq biləcək, tanıyacaq kimi bir məna mövcuddur. Halbuki axırzaman şəxsi hər kəsin qəti bir şəkildə bilməsi  mövzuya aid deyildir. O şəxslərin yaxınları, mənəvi mərtəbəsi yüksək olan hal sahibləri bilsə də, başqaları bilməz. Əks vəziyyətdə imtahan sirrinə aid olmaz.

Hz. İsanın enməsilə, Yerin xəzinələrinin ortaya çıxacağı, ancaq "qiyamətin yaxınlığı səbəbilə" kimsənin iltifat etməyəcəyi şəklindəki şərhlər də bu baxımdan  qənaətbəxş deyildir.

**3-** "Tək səcdənin dünya və içindəkilərdən xeyirli olması" o zaman, "sədəqəni kimsənin qəbul etməyəcəyi üçün Allaha yaxınlaşma yolunun sadəcə ibadət və namaz olacağı" şəklində açıqlanmışdır. Bəzi alimlər: "İnsanlar dünyaya elə nifrət edərlər ki, tək bir səcdə onlara dünya və içindəkilərdən daha sevimli olar" şəklində şərh gətirmişlər.

İbn Cövzi deyir ki: "Sondakı ayə ilə insanların düzələcəklərinə və imanlarının qüvvətinə və xeyirli əməllərə yönəlmələrinə işarə edir. Elə bir düzəlmə və qüvvətli bir imana çatacaqlar ki, onlar tək səcdəni dünya və içindəkilərə tərcih edəcəkdir".

**4-** Ayə barədə fərqli təvil və şərhlər edilmişdir.

***** Bu hədisdən anlaşılacağına görə, "ona iman edəcək" ibarəsindəki əvəzliklə, ölümündən öncə ibarəsindəki əvəzlik Hz.

İsaya bağlanır. Yəni məna belə olur. “Hz. İsa ölməzdən öncə, Əhli kitabdan hər kəs Hz. İsaya inanacaqdır”. İbn Abbas da bu təvildə cəzm etmişdir. Ondan gələn bir rəvayətdə: “Heç bir yəhudi və nəsrani, İsaya iman etmədən ölməz. Lakin ölüm anındakı imanın faydası yoxdur” buyurulmuşdur.

* Müfəssirlər də bu məsələdə fərqli şərhlər vermişlər. Bəzisinə görə, ona iman edəcəklərdəki əvəzlik Allaha və ya Muhəmmədə (s) aiddir. Ölümündən öncəki əvəzlik də Hz. İsaya aiddir. Bu durumda, Əhli Kitabın gərçək İslam inancına girərək öləcəkləri anlaşılır. Başqa bir təvilə görə: “Nə Yəhudi, nə xristian, Hz. İsaya (doğru şəkildə) iman etmədən ölməz”. Nəvəvi bu görüşü belə açıqlayır: “Buna görə ayənin mənası belədir: “Əhli Kitabdan hər fərd, ölüm gəlib (ayə və hədisdə xəbər verilən) ruhun çıxmasından öncə, hazırlıq anında həqiqətləri gözlə gördükdən sonra Hz. İsanın Allahın qulu, Allahın bir cariyəsinin oğlu olduğuna inanacaq. Ancaq o halda bu iman, bu məaldakı ayədə də ifadə edildiyi üzrə ona fayda verməyəcəkdir: “Yoxsa Allah qatında məqbul olan tövbə, ömürləri boyunca günahları işləyib də, nəhayət hər biri ölüm gəlib çatdığında ***“Mən indi tövbə etdim” deyənlərin və ya kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq”***[438] buyurulmuşdur.

Nəvəvi bu təvili daha uyğun bilir. “Çünki deyir, öncəki təvildə “Əhli Kitabla sadəcə Hz. İsanın enmə zamanında hazır olan əhli kitab qəsd edilmişdir. Quranın zahiri isə bütün Əhli Kitaba şamildir: İstər Hz. İsanın enmə zamanındakılar olsun, daha öncə yaşayanlar olsun fərq etməz”.

* Bəzi İslam alimləri: “Digər peyğəmbərlər deyil də Hz. İsanın enməsi, yəhudiləri rədd etmə hikmətinə əsaslanır. Çünki onların iddiasına görə, Hz. İsanı öldürdülər. Allah isə onların yalanlarını bəyan etdi” demişdir.

* Bu da söylənmişdir: “Hz. İsa, Hz. Muhəmməd və ümmətinin sifətini görüncə Allaha dua edib, özünü də bu ümmətdən olmasını istəmiş, Allah da duasını qəbul etmişdir. Beləcə, onun hə-

[438] “Nisa” surəsi, ayə-18.

yatını, axırzamanda enmə vaxtına qədər təxirə salmışdır. Vaxtı gəlincə yer üzünə enib, Dəccalı öldürəcəkdir. Onun enişi Dəccalın zühur zamanına təsadüf edəcəkdir”.

İbn Həcər öncəki görüşü daha uyğun bilir.

* Hz. İsa enincə, yer üzündə nə qədər qalacağı, ixtilaflıdır:

** Bəzi rəvayətlərdə yeddi il qalacaqdır.

** Bəzi rəvayətlərdə, endikdən sonra evlənəcəyi və 19 il daha yaşayacağı ifadə edilmişdir.

** Bir başqa rəvayətdə isə 40 il qalacağı söylənmişdir.

* Hz. İsa ilə bağlı bir rəvayət də belədir: *“Hz. İsa, üzərində qızıl torpaq rəngində iki libas olduğu halda enər; xaçı qırar, donuzu öldürər, cizyəni qaldırar, insanları İslama çağırar. Allah onun zamanında, İslam xaric bütün dinləri ortadan qaldırar. Yer üzünə əmniyyət gələr. Aslanlar dəvələrlə otlar. Uşaqlar ilanlarla oynar”.*

* Hz. İsanın səmaya çəkilməsindən öncə ölüb-ölmədiyi barədə də ixtilaf edilmişdi. Bu məsələdə əsas olan aşağıdakı ayədir: ***“O vaxt Allah buyurdu: “Ya İsa, həqiqətən, Mən sənin ömrünü tamam edib Öz dərgahıma qaldıraram, səni kafirlərdən pak edərəm (tərtəmiz ayıraram). Sənə iman gətirənləri qiyamət gününə qədər kafirlərə qalib edərəm. Sonra isə mənim hüzuruma qayıdacaqsınız. O zaman ixtilaf etdiyiniz məsələlər barəsində aranızda Mən hökm edəcəyəm!”***[439]

* Hz. İsa səmaya çəkildiyi zaman neçə yaşında olduğu da ixtilaflıdır; onun 33 və ya 120 yaşında olduğu da deyilmişdir.

وعن جابر رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ:لاَ تَزَالُ طَائِفَةٌ مِنْ أَمَّتِي يُقَاتِلُونَ عَلى الْحقِّ ظَاهِرِينَ الى يَوْمِ الْقِيَامَةِ. فَيَنْزِلُ عِيسى ابْنُ مَرْيَمَ فَيَقُولُ أمِيرُهُمْ: تَعالَ صَلِّ لَنَا. فَيَقُولُ:َ . إنَّ بَعْضَكُمْ عَلى بَعْضٍ أُمَراءُ، تَكْرِمُ اللّٰهُ تَعالى لِهذِهِ الأمَّةِ.

**2.** Cabir ibn Abdullah nəql edir: “Rəsulullah (s) buyurdu*: “Ümmətimdən bir qrup, haqq üçün müzəffər şəkildə mücadələyə qiyamət gününə qədər davam edəcəkdir. O zaman İsa İbn Məryəm də enər. Bu zaman müsəlmanların rəisi: “Gəl bizə namaz*

[439] “Ali-İmran”, ayə-55.

*qıldır!" deyər. Fəqət Hz. İsa: "Xeyir! deyər, Allahın bu ümmətə bir ikramı olaraq siz bir-birinizə əmirsiniz!"*[440]

**Açıqlama:**

**1-** Öncəki hədisin açıqlamasında Hz. İsa ilə bağlı gərəkli məlumatı dərc etdik.

**2-** Hədis, qiyamətə qədər, yer üzündə İslamın davam edəcəyini, həm də açıqdan açığa mübarizə aparacaq bir güc və qüvvətə sahib olaraq davam edəcəyini ifadə edir. Bu ifadə İslama qarşı olan güclərin davam edəcəyini də bildirir. Ancaq, İslamın qəti bir məğlubiyyətlə hər tərəfdə söndürülmüş, gizlilik içində, qeyri-müəssir, məhdud fərdlər arasında davamı surətində deyil, müzəffəranə, açıqdan-açığa mücadiləsini edə bilən bir görkəm içərisində davam edəcəyini xəbər verməkdədir. Bu xəbəri nəbəvi, möminlərin gələcək haqqında fikirləşmələri üçün yetərli bir müjdədir. Tarix boyu müsəlmanlar müxtəlif işgəncə, həqarət, mühacirət, məğlubiyyət və s. zillətləri dadmışlarsa da, heç bir zaman qəti bir məğlubiyyətlə yox edilməmişlər. Hz. Peyğəmbər (s), bu halın qiyamətə qədər davam edəcəyini, yer üzünün bəzi bölgələrində söndürülmüş olsalar belə, digər bir qisim bölgələrində tövhid bayrağının dalğalanacağını xəbər verməkdədir.

Həmçinin hədislərdə müsəlmanların başçısının Hz. İsaya namaz qılmaq üçün başa keçməyi təklif etməsi, Hz. İsanın isə bundan imtina edərək İslam rəhbərinin bu işə daha layiq olmasını və Allah tərəfindən seçildiyinin bildirilməsi, həmin rəhbərin Hz. Mehdi olduğuna ehtimal yaradır. Belə ki, bir çox şiə və sünni qaynaqlı mənbələrdə həmin şəxsin məhz Hz. Mehdi olduğu açıq bəyan edilir. Bu hədisdə də "əmirsiniz" sözü Məsum İmamlara şamil edilir.

**Mehdi inancı**

Qruplaşmalara psixoloji şəraiti hazırlayan, dindən gələn amil Mehdi inancıdır. Hz.Peyğəmbərdən (s) bir çox müxtəlif yollarla gələn rəvayətlər, qiyamətə yaxın, ictimai pozğunluqların artması

---

[440] Müslim, "İman" 247

nəticəsində dinsizliyin siyasi hakimiyyət quracağı bir dövrdə Mehdinin çıxıb və ya Hz. İsanın enib iman əhlinin başına keçərək şər qüvvələrə qarşı mübarizə aparıb zəfər qazanacağını xəbər verir. Bu Mehdi inancı da, bir çox əsrlərdə, cəmiyyətdə şər və fəsadı artıran şəxslərə qarşı çıxıb mübarizə aparan bəzi fərdlərin ətrafında xalqın "Mehdi"dir deyə toplanmalarına səbəb olmuşdur.

Qeyd edilməli məsələlərdən biri də budur ki, əhli-sünnə və şiə məzhəblərinin nəzərində Mehdinin varlığı qəti dəlillərlə sabitdir. Fərq yalnız bundan ibarətdir ki, şiə məzhəbində Mehdi Məsum imamların (ə) sonuncusu – 12-ci imamı və 11-ci imam Həsən Əskərinin (ə) oğludur. O, hicri-qəməri təqvimi ilə 255-ci ilin Şaban ayının 15-də dünyaya göz açıb. Zəmanəsinin zalım hakimlərinin təqiblərinə görə Allah-Təala onu qeybə çəkmişdir. Axır zamanda isə o zühur edəcək.

Əhli-sünnə məzhəbinin görüşünə görə isə Mehdi hələ doğulmayıb, axırzamanda doğulacaq.

Gələcəyinin mütləq olduğu xəbər verilən Mehdi bir çox hədislərdə fərqli şəkillərdə tərif edilməkdədir. Sünni və şiə mənbələrinə əsasən Mehdinin Əhli-Beytdən, yəni Peyğəmbərin (s) nəslindən olacağı bildirilir. Az bir qisimdə isə "Mehdinin Hz. İsadan başqası olmadığı" söylənilmişdir. Mehdi və Hz. İsanın təkrar yer üzünə enməsi kimi bir-birindən ayrı olan məfhumların beləcə bəzi rəvayətlərdə iç-içə girdiyi müşahidə edilməkdədir.

Hədislərə əsasən, Dəccaldan öncə yer üzündə otuza qədər yalançı dəccalın zühur edəcəyi bildirilmişdir. Hətta Hz. Peyğəmbər (s) bəzən Dəccaldan elə bir tərzdə söz açıb ki, öz müasirləri "dövrlərində Dəccalın fitnəsinə düşməkdən qorxublar. Rəsulullah (s) belə deyirdi: "Hz. Nuhdan sonra, ümmətini Dəccala qarşı xəbərdar edib qorxutmayan peyğəmbər yoxdur. Mən də sizi xəbərdar edirəm. Məni görüb, sözlərimi eşidən kimsələrin Dəccala qoşulmaları mümkündür." Rəsulullahın namazlarından sonra duasında "Dəccalın fitnəsindən Allaha pənah aparması" da mövzumuz baxımından burada qeyd edilәsi dəyərli bir nöqtədir.

Bu halda Dəccalın fitnəsini bitərəf etmək vəzifəsilə gələcək

olan Mehdi, Dəccalın zühurundakı mübhəmliyə tabedir, çıxacağı yer və zaman üçün qəti bir şey demək olmaz. Vəziyyət belə olduqda, hər dövrdə və İslam aləminin hər küncündə şər insanlara "Dəccal", dinə xidmət edənlərə də bir növ "Mehdi" nəzərilə baxılması, din baxımından qüsur olmamalıdır. Bu barədəki hədislərin mübhəm və bənzətmə ilə gəlməsi də əsasən məsələnin belə anlaşılmasına imkan vermək üçündür.

وعن ابن مسعود رَضِيَ اللّهُ عَنْه: أنَّ رَسولَ الله (ص) قالَ: لَو لمَ ْيَبْقَ مِنَ الدّنْيا إلاّ يَوْمٌ وَاحِدٌ لَطَوَّلَ اللهُ ذلك اليَوْمَ حتى يَخرجَ رَجُلٌ مِنْ وُلْدي

**1.** Abdullah ibn Məsud nəql edir: "Rəsulullah (s) buyurdu: *"Dünyanın bir günlük ömrü belə qalmış olsa, Allah o günü uzadıb, məndən olan bir şəxsi o gündə göndərəcək"*.

وعن أم سلمة رَضِيَ اللّهُ عَنْها قالت: قَالَ رَسُولُ اللّهِ (ص): الْمَهْدِيُّ مِنْ عِتْرَتِي مِنْ وَلَدِ فَاطِمَةَ رَضِيَ اللّهُ عَنْه.

**2.** Ümmü Sələmə nəql edir: "Rəsululah (s) buyurdu: *"Mehdi mənim zürriyyətimdən, qızım Fatimənin övladlarındandır"*.[441]

**Açıqlama:**

**1-** Mehdi, axırzamanda gəlib, müsəlmanların dinlərini islah edəcəyinə inanılan şəxsə deyilir. Kəlimə olaraq hidayət kökündən gəlir. Allahın hidayətinə çatmış mənasını daşıyır, ancaq hidayət gətirəcək mənasını da ifadə edir.

Mehdi haqqında çox sayda hədis bizə gəlib çatmışdır. Alimlər bunu mütəvatir olaraq qəbul edirlər. Sadəcə İbn Xəldun bu hədislərin zəif olduğunu iddia etmişdir. Onun bu görüşünü İslam alimləri qəbul etməmişlər. Əbu Davud Əzimabadinin izah etdiyi kimi, Rəsulullahdan sonra, müsəlmanlar Əhli-Beytə mənsub bir şəxsin çıxıb dini gücləndirəcəyinə, ədaləti hakim qılacağına, müsəlmanların ona tabe olub İslam bölgələrində hakimiyyət

[441] Əbu Davud, "Mehdi" 1, 4284.

quracağına, bu kimsəyə Mehdi deyəcəyinə inanmışdır. Bu inanc məşhur olmuşdur.

Dəccalın, Mehdinin çıxması və bunlardan sonra qiyamət əlaməti olaraq bəzi hadisələrin zühuru səhih rəvayətlərdə gəlmişdir. Bəzi rəvayətlərə görə, Mehdidən sonra Hz. İsa gələcəkdir. Bəzilərinə görə də, ikisi eyni zamanda çıxacaq və Hz. İsa Mehdiyə yardımçı olacaq, birlikdə Dəccalı öldürəcəklər, Hz. İsa Mehdinin arxasında namaz qılacaqdır.

Qeyd edək ki, Dəccal məfhumuna əsasən əhli-sünnə mənbələrindəki hədislərində danışılır. Bu hadisə imam Mehdinin hakimiyyətindən öncə baş verəsidir.

Buxari nəql edir ki, həzrət Peyğəmbər (s) buyurmuşdur: *"Dəccal Mədinə ətrafında görünüb üç dəfə savaş hazırlığını bildirəcək və ətrafına kafirlər, münafiqlər toplanacaq."*

Əhli-sünnə mənbələrində Dəccalın bəzi sifətləri zikr olunmuşdur: Rəblik iddiası edər, ömrü uzundur, yanında su və od var, kora və dəri xəstəsinə şəfa verər, ölünü dirildər, biri öldürüldükdə onu ayağa qaldırar, onda behişt və atəş var, bəyaz su və oddan çeşməsi var, istəkləri qəbul olar. Dəccalda bəzi sifətlərin olduğu ehtimal edilir:

a) Dəccal qeyri-adi işlər görən, sehr-caduya malik real şəxsdir.

b) Dəccal dedikdə İblis nəzərdə tutulur;

v) Ehtimal olunur ki, "Dəccal" şiə rəvayətlərində adı çəkilən Süfyanidir.

Əhli-Beyt (ə) rəvayətlərində bu hədislər yoxdur. Buna əsasən qarşıda həm Dəccal, həm də Süfyani ilə bağlı hədislərdən bəzisini sizə təqdim edəcəyik. Şiə alimlərinin nəzərlərinə əsasən əksər Dəccal hədisləri əslən yəhudi olan Kə`bul-Əhbar tərəfindən nəql olunmuşdur. Bu şəxsin bütün hərəkətləri isə şübhə doğurmuşdur.

Əhli-sünnə mənbələrində qeyd edilən və mütəvatir dərəcəsinə çatdığı qəbul edilən hədislər Əbu Davud, Tirmizi, İbn Macə, Bəzzar, Hakim, Təbərani, Əbu Yəla əl-Movsuli kimi məşhur imamlar tərəfindən qəbul edilmişdir. Bu hədisləri Hz. Əli, İbn

Abbas, İbn Ömər, Təlhə, İbn Məsud, Ənəs, Əbu Səid əl-Xudri, Ümmü Həbibə, Ümmü Sələmə, Səvban, Qurrə ibn İyaz, Əli əl-Hilali, Abdullah ibnu Haris İbn Cəz kimi səhabələr rəvayət etmişdir.

Bu rəvayətlərin sənədləri arasında zəif olanları varsa da, həsən və səhih olanları daha çoxdur. Əsasən mövzu ilə bağlı təvatür dərəcəsinə çatan rəvayətlərin varlığında zəiflər nəzərə alınmaz.

Günümüzdə, daha çox qərb mənşəli təlqinlərlə yaranan bir fikir, İslamda Mehdi inancının yoxluğu iddiasını yaymağa çalışmaqdadır. Dini qaynaqlara sığmayan və ya qaranlıq təbliğatın təsirilə səthi nəzər salan bir qisim insanlar tərəfindən mənimsənilən bu iddiaya görə, Mehdilik inancı İslamda yoxdur, sonradan gəlmişdir. Bunların ən böyük söykənəcək yerləri İbn Xəldundur. Fikirlərinin isbatı üçün özlərindən bir qisim dəlillər də irəli sürməkdədirlər. Belə ki:

**1)** Qurani-Kərim Mehdidən bəhs etmir.

**2)** Buxari və Müslim kimi ən mötəbər qaynaqlarda Mehdi ilə əlaqəli hədislər mövcud deyildir.

**3)** Mehdi ilə əlaqəli xəbərlər xəbəri-vahiddir.

**4)** Bu inanc, hər dində görülən bir əfsanədən ibarətdir, bir qisim pis niyyətlilərin istismarına açıq qapıdır və s. İndi bunları qısacada olsa açıqlamağa çalışacağıq:

### 1) Quranda Mehdi məsələsi:

"Qurani-Kərimdə Mehdidən bəhs edilmir" iddiası həm doğrudur, həm də yanlış. Əgər bunu, Dəccal və ya Süfyani məsələsində olduğu kimi, kəlimə olaraq götürsək yoxdur, bu baxımdan doğrudur. Ancaq, Mehdini məfhum olaraq Quranda axtarsaq, "yoxdur!" demək mümkün deyil.

Əgər Qurani-Kərim övliyaları və digər şəxsiyyətləri yalnız ad ilə tanıtmış olsaydı bu sual yerində bir sual olardı. Amma Qurani-Kərimə diqqət yetirəcək olsaq, Allah-Təala Quranda şəxsləri fərqli-fərqli üslublarla tanıtmışdır. Çünki şəxslərin tanıdılmasının yalnız bir yolu yoxdur. Quran şəxsləri tanıdarkən ümumiy-

yətlə üç üslubdan: isimlə tanıtma; sayla tanıtma və sifətlərlə (vəsflərlə) tanıtma üslublarından istifadə etmişdir.

Bu səbəbə görə Qurana bağlı və şüurlu insanlar tərəfindən əsl Mehdinin və sifətlərinin ayırd edilməsi üçün O Həzrətin sifət və xüsusiyyətlərinin bəyan olunması kifayətdir. Bu sifət və xüsusiyyətlərin də bir hissəsi Qurani-Kərimdə və digər bir hissəsi də səhih hədislərdə göstərilmişdir. Bu sifət və xüsusiyyətlərlə insanlar həm mehdilik mövzusunu müdafiə edəcək və həm də yalançıların iddiası su üzünə çıxmış olacaq.

Mehdini məfhum olaraq ələ aldıqda, dindəki pozğunluqları islah edici, cəmiyyətə çökən zülmü, pislikləri aradan qaldırıcı, ədaləti hakim edən bir xilaskar şəklində anlayırıq. Yuxarıda qeyd edilən hədislərdən də anlaşılan məhz budur.

Bu mənada Qurani-Kərimdə əhd ayələri var. Yəni hər peyğəmbərin, özündən sonra gələcək bir xilaskarı ümmətinə xəbər verdiyi, o xilaskar gəldiyi təqdirdə, ona inanacaqları barədə onlardan qəti söz aldığı bəzi ayələrdə bildirilmişdir. Onlardan birində deyilir: ***“(Ey kitab əhli!) Yadınıza gətirin o vaxtı ki, Allah peyğəmbərlərdən: “Sizə verdiyim kitab və hikmətdən sonra, sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz”, – deyə əhd almış və onlara: “Bunu təsdiq edib, ağır olan əhdimi qəbul etdinizmi? – demişdi. Onlar da: “Təsdiq etdik!” – deyə cavab vermişdilər. (Bu zaman) Allah: “Elə isə (bir-birinizə) şahid olun! Mən də sizinlə bərabər şahidlərdənəm”, – deyə buyurmuşdu! Bundan (bu təsdiqdən) sonra üz döndərən kəslər fasiqlərdir (böyük günah sahibləridir)”.***[442]

“Ənbiya” surəsinin 105-ci ayəsində deyilir: ***“Biz kitabdan (Tövratdan, yaxud lövhi-məhfuzdan) sonra Zəburda da yer üzünə yalnız Mənim əməli saleh bəndələrimin varis olacağını yazmışdıq”.***

İmam Muhəmməd Baqir (ə) bu ayə ilə əlaqədar belə buyurmuşdur: *“Bunlar axırzamanda zühur edəcək Hz. Mehdinin səhabələridir”.*[443]

---

[442] “Ali-İmran” surəsi, ayə-81-82.
[443] “Məcməul-Bəyan” təfsiri, həmin ayənin şərhi.

Alimlər bu ayədən başqa digər Qurani və nəbəvi naslara əsaslanıb Hz. Adəmdən etibarən bütün peyğəmbərlərdən, həm özlərindən sonra gələcək peyğəmbər və həm də xüsusilə Hz. Muhəmməd haqqında qəti sözlər bildirmişlər. Hər peyğəmbərdən alınan sözlər barədə qeyd etdiyimiz ayə düzgün olmasa da, İbn Abbas və Hz. Əlidən qeyd edilən bu bəyan səhihdir: "Allah, göndərdiyi hər peyğəmbərdən "Muhəmməd göndərildiyi təqdirdə ona inanacağına və ona yardım edəcəyinə dair əhd aldı". Hədisin davamında "Cənabı Haqqın hər peyğəmbərə ayrıca: "Ümmətlərindən" özləri sağ ikən Muhəmməd göndərildiyi təqdirdə ona iman edib yardımçı olmaları barədə də əhd almalarını əmr etdiyi" bildirilməkdədir.

Qurani-Kərimin "Nur" surəsində Allah buyurub: "***Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar, deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini (İsrail övladını yer üzündə kafirlərin yerinə gətirdiyi kimi onları da müşriklərin yerinə gətirəcəyini), möminlər üçün onların Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir!***"[444]

"Ruhul məani" təfsirində imam Əli ibn Hüseyndən (ə) nəql edilir ki, bu ayənin təfsirində buyurmuşdur: "*Onlar bizim dostlarımızdır, Allah bu işi bizdən olan bir kişinin əli ilə vücuda gətirəcək. O kişi bu ümmətin Mehdisidir. O, bir şəxsdir ki, Peyğəmbər (s) onun haqqında buyrumuşdur: "Əgər dünyadan bir gün qala, Allah o günü uzadacaq, mənim itrətimdən olan bir kişi ki, adı mənim adım ilə eynidir, yer üzünün hakimi olacaq, yer üzünü ədalətlə dolduracaq, necə ki, zülm ilə dolmuşdu*".

"Tövbə" surəsində də Allah islam dinini bütün dinlərə üstün edəcəyini buyurmuşdur: "***Müşriklərin xoşuna gəlməsə də, onu (islamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək***

[444] Nur surəsi, ayə-55

***üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!***”[445]

Bu qələbənin bir mərhələsi peyğəmbərin vaxtında, bir mərhələsi ondan sonra, axırıncı mərhələsi imam Mehdinin (ə) vaxtında kamil surətdə baş verəcəkdir. Çünki, ayə deyir; islamı bütün dinlərə, yəni yer üzündə olan bütün dinlərə qalib edəcəyik. Bu barədə Peyğəmbərdən (s) hədis var. Həzrət buyurur: “*Yer üzündə bir ev də olsun qalmayacaq, məgər onların hamısına islam daxil olacaq*”.

İmam Sadiq (ə) buyurur: “*And olsun Allaha, bu ayənin məzmunu hələ də kamil surətdə vücuda gəlməyib, onun vücuda gəlməyi həzrəti Mehdinin (ə) qiyamından sonra olacaqdır ki, yer üzündə bir nəfər də kafir qalmayacaq*”.

Həqiqətən istər İncildə, istər Tövratda olsun, onların məruz qaldığı bütün təhriflərə baxmayaraq Rəsulullahı xəbər verən ayələr hələ də mövcuddur. Hüseyini Cisri “Risalə-i Həmidiyyə” adlı əsərində bu ayələrdən 110-nu göstərmişdir. İncil və Tövratdakı ayələr ümumiyyətlə bilinən, duyulan bir mövzudur, maraqlanan əldə edə bilər. Bizə görə ən maraqlısı, səmavi kitablar deyincə, yada gəlməyən, zərdüştlərin, brahmanların, buddistlərin müqəddəs kitablarında da Hz. Peyğəmbərdən bəhs edilmiş olmasıdır. Bizim inancımız o kitabların əsillərinin səmavi olduğudur. Hətta Fəxri Aləmin (s) onlarda zikri, əsillərinin səmavi olduğu barədə bizə yəqinlik verir. O cümlədən, Osmanlıların son zamanlarında Asiya dövlətlərini gəzən məşhur səyyah Əbdürrəşid İbrahimin xatirələrində görürük ki, bir buddist rahib müqəddəs kitablarında Hz. Muhəmmədin zikr edildiyini və Muhəmmədin peyğəmbərliyini inkar etməyin mümkün olmadığını söylədiyini nəql edir. Muhəmməd Hamidullahın “Rəsulullah Muhəmməd” adlı kitabında bu məsələnin o kitablardan dərin şəkildə təhqiqini görməkdəyik. Hz. Adəmdən bəri hər peyğəmbərin, ümmətini;

**1**- Özündən sonra gələcək peyğəmbərə inanması.

**2**- Gəldiyi zaman Muhəmmədi (s) tanıması barədə xəbərdar

---

[445] Tövbə surəsi, ayə-33

etdiyi, əhd aldığı, hətta onun vəsflərini öyrətdiyi barədə razı ola bilməyimiz üçün adı keçən kitabdan bəzi abzaslar təqdim edəcəyik.

Müəllif, öncə Hz. Adəmdən və onun oğlu Şisdən (ə) söz açır.

"Təbiidir ki, biz Hz. Adəmin və həmçinin onun oğlu Şis peyğəmbərin sahib olduqları kitabların içindəkilərini bilməməkdəyik. Bizə qədər gələn ən qədim məlumat İdris peyğəmbər haqqındadır. İslami mənbələr bu peyğəmbərin yazını icad etdiyini söyləməkdədir. Yəhudanın bir məktubuna nəzərən, vəziyyət belədir[446]:

"Adəmdən sonra gələn İdris də bunları öncədən xəbər vermişdir: "Bilin ki, Rəbb on minlərcə vəli ilə gəlib hər şey haqqında ən son hökmünü verəcəkdir: Allaha qarşı gələrək işlədikləri günahkar hərəkətlərdən, ona qarşı işlədikləri günah, sərt sözlərdən ötrü üsyan edənləri hesaba çəkəcəkdir".

Xristian müfəssirlər bu sözlərdən "gələcək olan bir şəxsin varlığına dair bir gələcəkdən xəbər (bəşarət)" nəticəsi çıxarırlar. Ancaq İdris peyğəmbərin bu gələcəkdən xəbərinin qalan qismi təəssüf ki, tamamən yox olmuş və hal-hazırda əlimizə çatmamışdır.

**2) Hədislərdə Mehdi məsələsi**

لا تقوم الساعة حتى يظهر المهدي (عليه السلام).

Peyğəmbər (s) buyurur: *"Mehdi (ə) zühur etməyənədək qiyamət baş verməyəcək."*

قال رسول الله (صلى الله عليه وآله): لا تَقُومُ السَّاعَةُ حتَّى تَمْتَلِئَ الأَرْضُ ظُلْمًا وَعُدْوَانًا، ثُمَّ يَخْرُجُ رَجُلٌ مِن عِتْرَتِي فَيَمْلَأُهَا قِسْطًا وَعَدْلًا كَمَا مُلِئَتْ ظُلْمًا وَعُدْوَانًا.[447]

*"Yer üzü zülm və istibdadla dolmayanadək qiyamət qopmayacaq. Sonra zürriyyətimdən bir kişi çıxıb zülm və istibdadla dolmuş dünyanı ədalətlə dolduracaqdır."*

---

[446] İncil, "Yəhudanın məktubu", 14 və 15-ci cümlələr
[447] Məhəmməd Reyşəhri, "Mizanul-hikmət", c. I, səh. 174

عنه (صلى الله عليه وآله): سيكون بعدي خلفاء، ومن بعد الخلفاء امراء، ومن بعد الامراء ملوك، ومن بعد الملوك جبابرة، ثم يخرج رجل من أهل بيتي يملأ الأرض عدلا كما ملئت جورا.

*“Məndən sonra xəlifəlik, xəlifəlikdən sonra əmirlik, əmirlikdən sonra padşahlıq, padşahlıqdan sonra isə zülmkarlıq olacaqdır. Sonra Əhli-beytimdən bir kişi çıxıb zülmlə dolmuş dünyanı ədalətlə dolduracaq.”*

عنه (صلى الله عليه وآله): لو لم يبق من الدنيا إلاّ ليلة لملك فيها رجل من أهل بيتي.

*“Əgər dünyanın sonuna bir gecə qalmış olsa belə, Əhli-beytimdən biri çıxıb (dünyaya) rəhbərlik edəcəkdir”.*

قال رسول الله (صلى الله عليه وآله): لا تذهب الدنيا ولا تنقضي حتى يملك رجل من أهل بيتي يواطئ اسمه.

*“Əhli-beytimdən adı adımdan olan bir kişi çıxıb rəhbərlik etməyənədək dünya dağılmayacaqdır”.*

قال الإمام الصادق (عليه السلام): للقائم غيبتان: إحداهما طويلة، والاخرى قصيرة، فالاولى يعلم بمكانه فيها خاصة من شيعته، والاخرى لا يعلم بمكانه فيها (إلاّ) خاصة مواليه في دينه.

*İmam Sadiq (ə): “Qaimin iki qeybət dövrü vardır. Onlardan biri uzun dövr, digəri isə qısa dövr olacaqdır. Onun birinci qeyb dövründə xüsusi şiələri tərəfində yeri bilinəcəkdir. Lakin sonrakı qeyb dövründə onun yeri bilinməyəcək. Bunu yalnız onun yolunda xüsusi dostları olanlar bilərlər.”*

قال الإمام الباقر (عليه السلام): إن للقائم غيبتين: يقال في إحداهما هلك، ولا يدرى في أي واد سلك.

İmam Baqir (ə): *“Həqiqətən Qaimin iki qeybi vardır. Qeyb dövrünün birində onun həlak olmasından danışarlar. Onun harada olduğunu bilən olmaz”.*

قال الإمام الصادق (عليه السلام): إن لصاحب هذا الأمر غيبتين: إحداهما تطول، حتى يقول بعضهم مات، ويقول بعضهم قتل، ويقول بعضهم ذهب، حتى لا يبقى على أمره من أصحابه إلا نفر يسير[448].

İmam Sadiq (ə): *"Bu işin sahibinin (imam Mehdinin) iki qeybəti var. Onun biri uzun dövrdür. (Bu dövr elə uzun çəkər ki,) hətta bəzilər o, ölüb, bəziləri öldürülüb, bəziləri isə baş götürüb gedib deyərlər. Hətta onun bu işinə əshabından bir nəfər etiqad edər".*[449]

**Məcusilikdə xəbər**

Mövcud dinlərdən Məcusilik bəlkə də ən qədim bir dindir. Bu dinə mənsub olanlar Məkkədə heç olmamaqla bərabər, Məkkəli karvanların sıx-sıx gəldikləri Şərqi və Şimali Ərəbistanda çoxluq təşkil edirdilər. Zərdüştün kitabı olan Avesta, Zənd dilində idi, fəqət yox olmuşdu. Bunun daha sonra Pazənd dilində edilmiş təfsirləri (bunun bəzi parçaları bizə qədər gəlmişdir) səhlənkarlıq nəticəsində tərk edilmiş və hətta bu din mənsubları ilə Məzdəkin ortaya atdığı dinin mənsubları arasında çıxan dini döyüşlərdə yox olub getmişdi. Zərdüşt hər halda Tək Allah, yəni Ahuramazda inancını insanlara təlim etmiş və fəqət ərəblər onu ikiliyin (dualizmin) və Qhuvədhvagdasın (ən yaxın və məhrəm əqrəbalarla edilən nikahın, yəni bacı, ana və qızları ilə bir kişinin evlənməsinin yadlarla edilən evliliklərə üstün tutulub savab qəbul edilməsi) qurucusu olaraq bilirlər. Bu tərz bir tətbiqat, istər onun xüsusilə təlim edib öyrətdiyi bir şey olsun, istər olmasın VII miladi əsrin əvvəlində bu din, "atəşə səcdə", biri xeyir digəri şər olmaq üzrə aralarında davamlı bir mübarizə və savaşın olduğu "iki tanrı inancı" şəklində təhrif olaraq pozulmuşdu.

Modern araşdırmalar göstərmişdir ki, Zərdüşt tək Allaha inanmışdı. Mələklərə, onun seçdiyi kimsələrə İlahi vəhyin gələ biləcəyinə, cənnətə və digərlərinə iman edirdi. Zənd Avestanın bu

---

[448] Əllamə Məclisi, "Biharul-ənvar", c. 52, səh. 129.
[449] Həmin mənbə.

gün əlimizdə olan parçalarında bütləri qıracaq olan Suşyant (mənası: Hər kəsə, aləmlərə rəhmət) adında biri ilə həm Astvat Ereatın (mənası: xalqı ayağa qaldıran) gələcəyini öncədən xəbər vermişdir.[450]

### Brahmanizmdə xəbər

Əvvəlki digər dinlər kimi Brahmanizmdə də "irəlidə gələcək bir kimsə" inancı vardır. Məsələn, Asravaveda adını daşıyan dini kitablarında, bu kimsənin adı da verilmişdir: "Naraşansah Astivişyad" yəni, "alqışlanacaq olan, tərifə layiq kişi". Onun minəcəyi araba çox sürətli qaçan dəvələr tərəfindən cənnətə çatana qədər qaçırdılacaqdır və s... Vişnu-Puran adlı kitabın 24-cü bölümündə deyilir ki, Vedalar (yəni həqiqi elm kitabları) tərəfindən öyrədilən hərəkət və fellər, hüquqi müəssisələr varlıqlarını tam yox edəcəkləri zaman bu qaranlıq eraların sona çatması yaxınlaşacaq və Tanrının son tənasüxü bir "cəngçi müharib" şəklində təzahür (təcəlli) edəcəkdir. Bu "müharib", Sambla Dibda (Qublu Adada) arif və məşhur bir ailədən dünyaya gələcək, atasının adı Vişnuyasa (Allahın köləsi Abdullah), anasının adı isə Somti (əmin olunan kimsə, Əminə) olacaqdır və s.

Brahmanizmdə Allahın yer üzünə insan şəklində enəcəyinə inanılır. Bunların Purana deyilən müqəddəs kitabları vardır. Quranda keçən "Zübürul-əvvəlin" təbirini verən bir məna daşıyır: Qədim yazılar... Qeyd olunan ayənin bu kitaba işarə etmiş ola biləcəyi ehtimaldır: ***"Şübhəsiz, bu Quranı Aləmlərin Rəbbi nazil etmişdir. İnsanları xəbərdar etmək üçün onu, Ruhul-Əmin (Cəbrail) açıq ərəb dilində endirdi. Onun bəhsi zübürul-əvvəlində (əvvəlki kitablarda) vardır". "Həqiqətən, o (Quranın nazil olacağı xəbəri, mənası və hökmləri; Peyğəmbərin vəsfi), əvvəlkilərin (keçmiş peyğəmbərlərin) kitablarında da mövcuddur".***[451]

### Budduizmdə xəbər

Budda dahi dini tamamlamadığını ifadə edir. Ona görə, Maitreya (bir digər oxunuşa görə: Matteya) yəni "hər kəsə,

[450] "Yəşt" 13, XXVIII. 129.
[451] "Şüəra" surəsi, ayə-196.

aləmlərə rəhmət” (Rəhmətən lil-Aləmin) gəlib bu işi görəcəkdir”.[452]

**Bütün dinlərdə “Gələcək bir qurtarıcı” inancı**

Əhd ayəsində hər peyğəmbərin ümmətinə gələcək bir peyğəmbəri xəbər vermək, günümüzdə elmi araşdırmalarla təhqiq edilmişdir. Yer üzünün tarixən bir-birilə əlaqəsi olmayan ən ucqar nöqtəsindəki insanların mədəniyyətlərində aparılan araşdırmalar, aralarında müştərək inancların varlığını ortaya çıxarmışdır. Məsələn, Amerika yerliləri ilə Afrika və ya Avstraliya yerliləri arasında o qədər bənzər mədəni dəyərlər, inanclar, əfsanələr təsbit edilmişdir ki, başda alman etnoloq Wilhelm Schmidt olmaqla bir çoxlarını: “Əvvəldə insanlıq tək bir cəmiyyət idi. Bu cəmiyyət olduqca üstün bir mədəniyyət səviyyəsinə çatdıqdan sonra, bir qisim səbəblərlə yer üzünə dağıldılar. Bu müştərək ünsürlər, o qədim mədəniyyətin xatirələridir” mənasında, Qurani-Kərimin tərzinə uyğun elmi bir nəzəriyə irəli sürməyə getmişdir”. Həqiqətən Qurana görə insanlıq Hz. Adəmdən artmış və əvvəldə “Tək bir ümmət” həyatı yaşamışdır: [453] كَانَ النَّاسُ اُمَّةً وَاحِدَةً . ***(İnsanlar tək bir ümmət idilər...)*** Razi və digər İslam alimlərinə görə bu cəmiyyət Hz. Nuha qədər davam etmişdir.

Biz burada mövzudan kənara çıxmadan xatırlatmaq istərdik: İnsanlığın bu müştərək mədəniyyəti arasında yer alan dəyərlərdən biri, “Bir xilaskarı gözləmək inancı”dır. Bu inanc sadəcə səmavi mənşəli hər kəscə bilinən yəhudi və xristianlara məxsus deyildir. Demək olar ki, Yer üzündəki bütün “ibtidai” dinlərdə də mövcuddur. Qərblilər Amerikanı kəşf etdikləri zaman, xüsusilə Braziliya yerlilərində dəniz yoluyla gələcək bir xilaskar inancı təsbit etmişlər. Sosioloqların Cultes du Cargo (gəmi aqidəsi) deyə istilahlaşdırdıqları bu inanc Malayziyada da görülmüşdür.

Dinlər tarixini araşdıranlar qədim Misir mədəniyyətindən, Çin, Hind, İran, Amerika və Afrikaya çatıncaya qədər bütün mə-

---

[452] Buddanın müqəddəs kitabı.

[453] “Bəqərə” surəsi, ayə-213

dəniyyətlərdə ədaləti bərqərar edəcək bir xilaskarın gələcəyi inancına rast gəlmişlər.

Cahanşümül bu bəşəri hadisəni, biz bəzi dayazların etdiyi kimi İslam dinində mövcud olan "Mehdi müntəzir" inancını, "digər dini əfsanələrdəkinin eyni olan əslsiz bir əfsanə" olaraq açıqlama vasitəsi etməyə qəti olaraq qarşıyıq. Əksinə, bu cahanşümül hadisə Qurani-Kərimdə keçən və yuxarıda qeyd etdiyimiz əhd hadisəsini dəstəkləyir. Peyğəmbərə göndərilmiş hər toplum, peyğəmbərindən, özündən sonra gələcək bir xilaskar xəbərini almışdır. Qurani-Kərim peyğəmbərsiz ümmət olmadığını, bütün insanlara peyğəmbər göndərildiyini bildirdiyinə görə, yer üzünün bütün cəmiyyətlərində bir xilaskar gözləmə inancının varlığından daha təbii bir şey yoxdur.

Bu səbəblə, Muhəmməd ümməti Mehdi ilə müjdələnmişdir. Yəni ümmətin fəsada düşdüyü, dinin arzu etdiyi ədalət, mal, can əmniyyəti, azadlıq kimi ideal şərtlərin aradan getdiyi; zülmün, haqsızlığın və ədalətsizliyin, dinsizlik və səfahətin, istibdad və istilanın hakim olduğu şərtlərdə, bunun davam etməyəcəyi, bu şərtlərin zaman içində bir Mehdinin zühuru şəklində təcəlli edərək İlahi rəhmətlə sona çatacağı bildirilmişdir. İslamda Mehdi inancı Dəccal inancıyla bərabər zikr edilir. Dəccal zülm, ədalətsizlik, dinsizlik kimi pis şərtlərin, ictimai fəsadın simvoludur, cəmiyyətdə ən çox maddi-mənəvi pisliklərə, iztirablara səbəb olacaqdır. Mehdi isə onun pisliklərini aradan qaldıracaq, zülmün kökünü kəsəcək, ədaləti gətirəcək, dinsizlik, səfahət yerinə həqiqi İslamı ihya edəcəkdir. Hər ikisi ilə bağlı hədislər məna baxımından mütəvatir dərəcəsinə çatmışdır.

Bu inanc sayəsində, pislər dayanmış, zalım və despotlar (xalq tərəfindən Dəccal qəbul edilərək, xalqın bir Mehdinin ətrafında toplanmasına meydan vermə qorxusu ilə) böyük ölçüdə sıraya gəlmiş olmalıdırlar.

Qərbli müstəmləkəçilərin yazdıqlarından, onların yuxusunu qaçıran bir mətləbin, Qərb hakimiyyətinə düşən "yerli qövmlər"dəki bu gözlənilən Mehdi inancı olduğu anlaşılmaqdadır. Sosioloqların kitablarında, Afrikadakı milliyyətçi və anti-impe-

rialist hərəkətlərin, daima Mehdi elan edilən yerli liderlər ətrafında təşkilatlanıb dirçəlməyə cəhd ediblər. Bu məqsədlə edilən bir təhlil yazısında, Sudan, Somali, Seneqal, Nigeriya, Kamerun və s. yerlərdə 19-cu əsrdə və bu əsrin ilk yarısında Qərbli müstəmləkəçilərə qarşı zühur edən Mehdi hərəkatları və liderlərini tanıtdıqdan sonra müəllif, yazısını bu xəbərdarlıqla tamamlayır: “Bütün bu mülahizələr, bizi Mehdi hərəkatının tropik Afrikada sona çatmadığını düşünməyə sövq edir. Gələcəkdə yeni Mehdi hərəkatları gözləməliyik”. Mehdi hərəkatlarındakı təhlilləri ilə tanınmış bir başqa qərbli sosioloq bu hərəkatların qərblilərin gətirdiyi yeniliklərə qarşı olmayıb, bu yeniliklər vasitəsilə qurulan istismar sisteminə qarşı olduğunu bildirir və belə bir sonluqla təhlilini tamamlayır: “Bu təhlildən əldə ediləcək bəzi nəticələr, yeni dövlətlərin yeni liderlərinin işinə yaraya bilər”. Əsasən yazının, Afrikada qərbli mənfəətləri təsdiqləməkdə hakimiyyətdə olan yerli liderlərə yol göstərmək, onları ayıq olmağa sövq etmək üçün qələmə alınmış olduğu, ilk sətirlərdən etibarən anlaşılır.

Əlbəttə, bu düşüncə, hakimiyyətlərinin üzərində Demokl qılıncı kimi sallanan bir inancın ciddi şəkildə insanların qəlblərində yer etməsini istəməyəcəkdir.

### Mehdi və Dəccalın şəxsi məcazdırmı?

Əvvəldə də qeyd etdiyimiz kimi, Əhli-Beyt (ə) rəvayətlərində Dəccalla bağlı bu hədislər yoxdur. Şiə mənbələrinə əsasən axırzamanda zühur edəcək fitnələrin başında Süfyani və digər adlar dayanır. Onların bəzilərinə qarşıda toxunacağıq.

Dəccal anlayışı, axırzamanda Hz.İsa (ə) və Hz.Mehdiyə (ə) qarşı olub, insanlar arasında inkarın yayılması üçün mübarizə aparan, insanları pisliyə sürükləyən ən böyük mənfi gücü ifadə edir. Hədislərdə ümumiyyətlə bir şəxs olaraq təsvir edilir, ancaq bu bir adam ola biləcəyi kimi, şiddətə və vəhşiliyə istiqamətləndirən, şeytanı xüsusiyyətlərə sahib və insanları zülmə uğradan bir ideologiya da ola bilər. İnsanları inkara sürüyən, din əxlaqından uzaqlaşdıran, insanlar arasında fitnə və qarışıqlıq çıxmasını təmin edən hər cür ideologiya və düşüncə sistemi, Dəccalı təmsil

edir. Dəccalı təmsil edən bu sistem ümumiyyətlə Dəccaliyət olaraq adlandırılır.

Dəccaliyət, din əxlaqına qarşı olaraq ortaya çıxmış bütün batil fəlsəfələri və fikirləri əhatə edən bir ideoloji sistemdir. Dəccal, insanları din əxlaqından uzaqlaşdırmaq üçün bütün bu fəlsəfələri istifadə edəcək. Bu gün yer üzündəki din əleyhdarı ən böyük fitnələrdən biri, materializm və materializmdən törəyən müxtəlif ideologiya və axınlardır. Darvinizm, ortaya atıldığı tarixdən etibarən din əleyhdarı ideologiya və axınların təməl dayaq nöqtəsi halına gəlmiş, bu ideologiyaları müdafiə edənlər tərəfindən sanki bir din halına gətirilmişdir. Dəccalın da ən çox istifadə edəcəyi ideologiya olacaq.

Bu ideologiya, eyni zamanda sanki bir sehr kimi kütlələrə təsir edər, bütün axmaqlığına və səhvinə baxmayaraq təqibçiləri olan, hətta öz içində müxtəlif təriqətləri olan bir fikir sistemidir.

Seyid Məhəmməd Sədr deyir: “Dəccal İslam və onun əsasları ilə düşmənçilik edən bir simvoldur. O, hər bir insanı qul etmək məqsədindədir...”.[454]

Mehdiyə gəldikdə isə onun bir insan fərdi olacağında sünni və şiə alimləri ittifaq etmişlər.

**Dəccal haqqında**

وعن أبي سعيد الخدري رَضِيَ اللّٰهُ عَنْه قال: حَدّثَنَا رَسُولُ اللّٰهِ: حَدِيثاً طَوِيً عَنِ الدَّجَّالِ، فَكَانَ فِيمَا حَدّثنَا بِهِ أنْ قَالَ: يأتي الدَّجَّالُ، وَهُوَ مُحَرّمٌ عَلَيْهِ أنْ يَدْخُلَ نِقَابَ الْمَدِينَةِ، فَيَنْتَهِي الى بَعْض السِّباخِ، فَيَخْرُجُ إلَيْهِ رَجُلٌ هُوَ يَوْمَئِذٍ خَيْرُ النَّاسِ فَيَقُولُ: أشْهَدُ أنَّكَ الدَّجَّالُ الّذِي حَدّثَنَا عَنْكَ رسُولُ اللّٰهِ: حَدِيثَهُ. فَيَقُولُ الدَّجَّالُ: أرَأيْتُمْ أنْ قَتَلْتُ هذا ثُمَّ أحْيَيْتُهُ، هَلْ تَشُكُّونَ في الأمْرِ؟ فَيَقُولونَ: . فَيَقْتُلُهُ ثُمَّ يُحْيِيهِ. فَيَقُولُ حِينَ يُحْيِيهِ: وَاللّٰهِ مَا كُنْتُ قَطُّ أشَدُّ بَصِيرَةً مِنِّي الْيَوْمَ، فَيَقُولُ الدَّجَّالُ: أقْتُلُهُ؟ وَ لا يُسَلَّطُ عَلَيْهِ.

**1.** Əbu Səidi Xudri nəql edir: “Rəsulullah (s) bizə Dəccal haqqında uzun bir hədis rəvayət etdi. Bizə anlatdıqları daxilində belə də demişdi: *“Dəccal, Mədinə keçidlərinə girməsi özünə haram qılınmış olaraq çıxacaq. Birdən (Mədinə yaxınlığındakı)*

---

[454] Tarixu ma bədəz-zuhur”, səh.141-142

*bəzi əkinsiz yerlərə qədər gələr. O gün insanların ən xeyirlisi olan (və ya ən xeyirlilərindən) bir kimsə onun qarşısına çıxar və "Sən Rəsulullahın (s) bizə xəbər verdiyi Dəccalsan!" deyər. Dəccal da (öz adamlarına): "Mən bunu öldürüb sonra da diriltsəm nə deyərsiniz? Bu işdə şübhəyə düşərsinizmi?" deyər. Oradakılar: "Xeyr!" deyərlər. Dəccal onu öldürər və sonra dirildər. Diriltdiyi zaman həmin şəxs: "Allaha and olsun. Sənin haqqında heç bir vaxt bugünkündən daha bəsirətli olmamışdım!" deyər. Dəccal onu təkrar öldürümmü deyərək öldürmək istəyəcək, fəqət icazə verilməyəcək".*[455]

**Açıqlama:**

**1-** Hədisin bəzi tərzlərində, ravilərə görə burada zikr edilən kimsənin Xızırın (ə) ola biləcəyi bildirilmişdir. Ancaq İbn Ərəbi, bunu "dəlilsiz bir iddia" olaraq vəsf etmişdir. Bəzi rəvayətlərdə bunun sehr olduğu bildirilmişdir.

**2-** Dəccalın sualı ümumi olduğu təqdirdə, cavab verənlərin möminlər ola biləcəyi güman edilir. Bu durumda onların, "Xeyr!" cavabını belə anlamaq lazımdır; "Xeyr! Sizin Dəccal və yalançı olduğunuz barədə şübhəmiz yoxdur!" Bir rəvayətdə Dəccalla həmin şəxs arasındakı mübarizə açıqlanmışdır. "Dəccalın əmri ilə həmin şəxsə bir qisim əziyyətlər edilir; qarnına zərbələr vurulur. Sonra Dəccal: "Mənə iman etmirsənmi?" deyə soruşur. O, "sən yalançı Məsihsən!" deyir. Sonra Dəccal əmir verir və onun əmri əsasında həmin şəxs mişarla ikiyə bölünər. Dəccal iki parçanın arasında gəzər və "Qalx!" deyər. Adam bütöv olaraq qalxar.

Bir başqa rəvayətdə Dəccal, onu ikiyə böldükdən sonra tərəfdarlarına: "Mən bunu diriltsəm rəbbiniz olduğuma inanarsınızmı?" deyə soruşur. Onlar: "Bəli!" deyə cavab verərlər. Dəccal dəyənəyini alıb hər iki parçaya vurar və o ayağa qalxar. Dostları bu halı görüncə, onu təsdiq edərək sevgilərini bildirərlər və onun, rəbləri olduğu barədə qənaətə gələrlər".

Bu rəvayət zəifdir. Dəccalın o şəxsə münasibəti, rəvayətlərdə fərqli şəkildə qeyd edilir. Bir rəvayətdə qılıncla biçdiyi ifadə

---

[455] Buxari, Fitən 27, Fəzailul-Mədinə 9; Müslim, Fitən 112, 2938.

edilmişdir. İbn Ərəbi, öldürülənin biri qılıncla, digəri mişarla olmaq üzrə iki ayrı şəxs olduğunu söyləyərək rəvayətlər arasındakı fərqliliyi təvil etmişdir. İbn Ərəbi deyir: "Dəccalın əlində zühur edən ecazkar hadisələr: Yağış yağması, ona inananların bolluğa çatması, inkar edənlərin darlığa, qıtlığa düşmələri, Yerin xəzinələrinin onu təqib etməsi, yanında cənnət və atəşin olması, suların axması və s. Bütün bunlar Allah tərəfindən bəxş edilən bir imtahandır, şübhəyə düşənlərin həlak edilməsi, yəqin sahiblərinin (mutəyəqqin) qurtarılması üçün bir sınaqdır.

Dəccalın əlindən zühur edəcəyi ifadə edilmiş olan ecazkar hadisələr bir qisim təvil və izaha möhtac mütəşabih ifadələr olaraq anlaşılmalıdır. Məsələn, "Dəccalın çıxacağı zamanda texnika və elmin təkamülü səbəbilə, yağışın yağdırılması, yerdən insanlığın mənfəətinə çox şeyin asan şəkildə əldə edilə bilməsi, bütün bunlara imkan verən elm, texnika və maddi gücün böyük ölçüdə Dəccalla simvollaşdırılan cəbhəni tutanların əlində olacağı, zamanla o sirləri, Mehdi simvolu ilə ifadə edilən xeyir cəbhəsinin ələ keçirərək məhv olmaqdan özlərini qoruyacaqları" şəklində izah oluna bilər. Amma unutmayaq ki, Rəsulullahın gələcəklə bağlı xəbərləri əksər hallarda bənzətməlidir. İzah edilərkən hiss edilən, zənn edilən mənada, ehtimal olaraq ifadə edilir, həqiqəti isə Allah bilər.

وعن حذيفة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ مَعَ الدَّجَّالِ إذَا خَرَجَ مَاءً وَنَاراً، فأمَّا الّذِي يَرَى النَّاسُ أنَّهُ نَارٌ فَمَاءٌ عَذْبٌ، وَأمَّا الّذِى يرى النَّاسُ أنّهُ مَاءٌ فَنَارٌ تَحْرِقُ، فَمَنْ أدْرَكَ ذلِكَ مِنْكُمْ فَلِيَقَعْ في الّذِى يرى أنّهُ نَارٌ. فإنّهُ مَاءٌ بَارِدٌ عَذْبٌ.

**2.** Hüzeyfə ibn Yəmani nəql edir: *"Rəsulullah (s) buyurdu: "Dəccal çıxdığı vaxt yanında su və atəş vardır. Ancaq xalqın atəş olaraq gördüyü dadlı sudur; xalqın su olaraq gördüyü isə yandırıcı bir atəşdir. Sizdən kim o günə çatarsa, xalqın atəş olaraq gördüyünə düşməsin. Çünki o, dadlı soyuq sudur".*[456]

---

[456] Buxari, Fitən 26, Ənbiya 50; Müslim, Fitən 105, 2935; Əbu Davud, Melahim 14, 4315.

**Açıqlama:**

Bu hədis, Dəccalla bağlı xəbərlərin simvol və təşbih (bənzətmə) ifadə etdiyini, dəyərləndirmələrin nisbi olduğunu anlamada daha açıqdır. Çünki, Dəccal özü ilə atəş gətirəcək. Fəqət bunun atəş olması bəşəri bir dəyərləndirmədir; insanlara görə atəşdir, İlahi ölçülərə görə isə o atəş deyil, dadlı sudur. Rəsulullahı dinləyən möminlərin o atəşi üstün tutması lazımdır. Çünki insanlar nəzərində dadlı olan "su"yu isə, Allah nəzərində atəşdir. Bu, Dəccalın İslam tərəfindən rədd edilən, nəfspərəstlərin xoşuna gələcək hər növ rahatlıq, israf, mənasız söz və haramlar, Allaha qarşı üsyanlar edib, insanları buna zorla sövq etməyə çalışacağının, inkar edənlərin onun qəhrinə uğrayıb "atəş"inə atılacağının ifadəsidir. Atəşi isə, insanların diri-diri yandırıldığı sobalar, edamlar, həbsxanalar, işdən olmalar və s.-dir. Amma dini üçün, Allah rizası üçün bunlara qatlanıb Dəccalın "dadlı suyu"na yəni ikram, təltif və tərifinə, verəcəyi mövqe, maqam və ünvana iltifat və etibar etməyənlər, o dünya atəşində yansalar da axirətdə əbədi lütfə, İlahi ikrama nail olacaqlar.

وعن أبي سعيد الخدري رَضِيَ اللّٰهُ عَنْه: أنَّهُ سَألَ رَسُولَ اللّٰهِ (ص) عَنِ الدَّجَّالِ. فَقَالَ: هُوَ يَومُهُ هذَا قَدْ أكَلَ الطَّعَامَ، أَعْهَدُ إلَيْكُمْ فِيهِ عَهْداً لَمْ يَعْهَدْهُ نَبِيٌّ الى أُمَّتِهِ أَ إن عَيْنَهُ الْيُمْنَى مَمْسُوحَةٌ جَاحِظَةٌلاَحَدَقَةَ بِهَا كَأَنَّهَا نُخَامَةٌ في حَائِطٍ وَعَيْنَهُ الْيُسْرَى كَأَنَّهَا كَوْكَبٌ دُرِّيٌّ. وَمَعَهُ مِثْلُ الْجَنَّةِ وَالنَّارِ. فَنَارَهُ جَنَّةٌ وَمَاؤُهُ نَارٌ. أَ وَبَيْنَ يَدَيْهِ رَجُلانِ يُنْذِرَانِ أهْلَ الْقُرَى فإذَا خَرَجَا مِنَ الْقَرْيَةِ دَخَلَها أوَّلُ أصْحَابِ الدّجّالِ.

**3.** Əbu Səidi Xudrinin nəql etdiyinə görə, Hz.Peyğəmbərdən (s) Dəccal haqqında soruşmuş və o həzrət də bu cavabı vermişdir: *"O (Dəccal) çıxdığı gün (eyni ilə bir insan kimidir) yemək yeyər. Mən sizə, onun haqqında, məndən öncəki peyğəmbərlərdən heç birinin öz ümmətinə demədiyini deyəcəyəm: Onun sağ gözü məsh edilmişdir (görməz), pəltəkdir, göz hədəqəsi yoxdur, sanki hədəqəsi çevrilmiş kimidir. Sol gözü də incidən bir ulduz kimidir. Onun yanında sanki cənnət və atəşin bir misli vardır. Ancaq həqiqətdə atəşi cənnət, suyu da atəşdir. Xəbəriniz olsun! Onun yanında iki kişi vardır; kənd xalqını xəbərdar edərlər. Bu ikisi kənddən çıxınca Dəccalın əshabından ilki oraya girər".*

Hədisin mənbəyi göstərilməsə də, hədisdə yer alan məfhumlar "Səhiheyn" və digər qaynaqlarda əksəriyyət tərəfindən nəql edilmişdir.

وعن ابن عمر رَضِيَ اللّٰهُ عَنْهما قال: قَالَ رَسُول اللّٰهِ (ص) يَوْمَ حَجَّةِ الْوَدَاعِ: اسْتَنْصَتِ النَّاسَ. فَحَمِدَ اللّٰهَ وَأثْنَى عَلَيْهِ، ثُمَّ ذَكَرَ الْمَسِيحَ الدَّجَّالَ فأطْنَبَ في ذِكْرِهِ. وَقَالَ: مَا بَعَثَ اللّٰهُ مِنْ نَبِيٍّ إلاَّ أنْذَرَهُ أُمَّتَهُ، أنْذَرَهُ نُوحٌ عَلَيْهِ السَّلامُ أُمَّتَهُ، وَالنَّبِيُّونَ بَعْدَهُ، وَإنَّهُ يَخْرُجُ فِيكُمْ فَمَا خَفِيَ عَلَيْكُمْ مِنْ شَأنِهِ، فَلَيْسَ يَخْفَي عَلَيْكُمْ أنَّ رَبَّكُمْ لَيْسَ بأعْوَرَ، وإنَّهُ أعْوَرُ الْعَيْنِ الْيُمْنَى كَأنَّ عَيْنَهُ عِنَبَةٌ طَافِيَةٌ.

**4.** Abdullah ibn Ömər nəql edir: "Rəsulullah (s) Vida həcci sırasında (bir ara): "Xalq susub dinləsin!" buyurdu. Sonra Allaha həmd və səna edib, arxadan Məsih və Dəccaldan söz açaraq buyurdu: *"Allahın göndərdiyi hər peyğəmbər, ümmətini onunla xəbərdar etdi. Nuh (ə) ümmətini onunla xəbərdar etdi, ondan sonra gələn peyğəmbərlər də. O, sizin aranızdan çıxacaq. Onun halı sizdən gizli qalmayacaq. Rəbbinizin tək gözlü olmadığı sizə qapalı deyildir. O isə sağ gözü kor dur. Onun gözü, sanki (salxımdan) çölə çıxmış bir üzüm dənəsi kimidir. (İki gözünün arasında kafir yazılmış olacaqdır. Bunu hər müsəlman oxuyacaqdır)."*[457]

## Süfyani və axırzaman fitnələri

خَمْسٌ قَبْلَ قِيَامِ الْقَائِمِ عَلَيهِ السَّلاَمُ: الْيَمَانِى وَ السُّفْيَانِى وَ الْمُنَادِى يُنَادِى مِنَ السَّمَاءِ وَ خَسْفُ بِالبَيْدَاءِ وَ قَتْلُ النَّفْسِ الزَّكِيَّةِ.

**1**. Ömər ibn Hənzələdən rəvayət edilir ki, İmam Cəfər Sadiq (ə) belə buyurdu: *"Qaimin (Mehdinin) qiyamından öncə beş şey baş verəcək: Yəmaninin qiyamı, Süfyaninin qiyamı, asimandan gələn səda, Beyda çölündə (Süfyani ordusunun) torpağa batması, Nəfsi Zəkiyyənin qətlə yetirilməsi".*[458]

---

[457] Buxari, Fitən 27; Müslim, Fitən 100-103. 169-2933.
[458] "Ğeybət" Numani, fəsil 14, hədis 9; "Kəmalud-Din", səh. 650, bab 57, hədis 7.

**Açıqlama:**

Bir çox şiə və sünni rəvayətlərindən belə anlaşılır ki, Süfyani imam Mehdiyə qarşı çıxmaq qəsdində olan inadkarlardandır. Süf yani qaniçən, Əməvi əsilli, Əhli-Beytə (ə) nifrət bəsləyən bir şəxsdir. Böyük fitnə və bəlalar törədəcək, çoxlu insan qətlə yetirəcək, hörmətləri aradan aparacaq. Bütün bunları o və onun Şamdan İraqa və Mədinəyə göndərəcəyi qoşunu edəcək. Onun İraqa göndərəcəyi qoşun çoxlu qırğınlar törətdikdən sonra Şama qayıdacaq. Mədinəyə göndərəcəyi qoşun isə Beyda adlanan çöldə yerə batacaq.

Müslim Həzrət Peyğəmbərdən (s) belə nəql edir: "Bir şəxs Allah evinə pənah gətirər. Həmin vaxt ona doğru qoşun gön dərilər. Bu qoşun Beydaya çatdığı vaxt yerə batar".

Beyda içində heç bir şey (bitki və s.) olmayan və Məkkə ilə Mədinə arasında yerləşən çölün adıdır. Bu çöl Zül-Huleyfənin bir milliyində (1.860 metrliyində) Məkkə istiqamətində yerləşir. Zahirən "Beyda" sözü "həlak", "məhv etmə" (ibadə) sözündən götürülmüşdür.

Hədislərin birində bu ərazidə namaz qılmaq qadağan edil mişdir. Səbəb kimi isə oranın qəzəb olunmuş bir ərazi olması gös tərilmişdir.[459]

Hədislərdə İmam Mehdinin Nəfsi-Zəkiyyənin qətlindən son ra zühur edəcəyi bildirilir. Belə ki, İmam Sadiq (ə) buyurur: *"Qaimin qiyamı Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi arasında fasilə 15 gecədən çox deyil."*[460] Bəzi hədislərdə qeyd edilir ki, Nəfsi-Zəkiyyə İmam Mehdi tərəfindən təbliğ əmri alan şəxsdir və bu şəxs rükn və məqam arasında şəhadətə çatacaq".[461]

Səmavi güclü səs isə Mübarək Ramazan ayının iyirmi üçüncü gecəsində, cümə günündə Cəbrailin edəcəyi səmavi nidadır: "Ey Allah bəndələri, dediyimi eşidin: Bu Ali Muhəmmədin (s) Mehdisidir ki, Məkkə torpağında zahir olmuşdur. Elə isə ona cavab verin".[462]

---

[459] "Məcməul-Bəhreyn" səh.198.

[460] Əliəsğər Rizvani, "Əsrin İmamı Mehdi ilə tanışlıq", səh.212.

[461] "Biharul-ənvar", c.52, səh.307.

[462] "İlzamun-Nasib" c.2, səh.200.

Bu, ən aydın və ən aşkar əlamətlərdən biridir. Hamının öz dilində başa düşəcəyi və eşidəcəyi bir səs olacaq. Necə ki, Zürarənin İmam Sadiqdən (ə) nəql etdiyi hədisdə buna işarə edilmişdir.[463]

Bu səs möminlər üçün ən böyük müjdə və sevinc olacaq. Qızlar evlərindəki pərdə arxasından bu səsi eşidəcəklər və atalarını və qardaşlarını Mehdiyə yardıma getməyə təhrik edəcəklər. Bununla eyni vaxtda o həm də zalımlar və təkəbbür sahibləri üçün böyük bir təhdid olacaq. Belə ki, onları qorxu və təlaş bürüyəcək.[464]

Qəti əlamətlərdən biri də Yəmaninin çıxmasıdır. O, insanları haqqa və doğru yola dəvət edəcək. İmam Baqirdən (ə) nəql edilən bir hədisdə deyilir: *“Bayraqlar içərisində Yəmaninin bayrağı qədər doğru yolda olan bayraq olmayacaq. O, hidayət bayrağıdır, çünki o (camaatı) sizin sahibinizə tərəf çağıracaq. Yəmani xüruc etdiyi zaman bütün müsəlmanlara silah satmaq haram olacaq. Yəmani çıxdığı zaman ona tərəf tələs. Onun bayrağı hidayət bayrağıdır. Heç bir müsəlmana ona qarşı gəlməsi (onunla müharibə etməsi) halal deyil. Kim belə etsə Cəhənnəm əhlidir. Çünki o haqqa və doğru yola dəvət edəcək”.*[465]

لاَ يَقُومُ الْقَائِمُ إلاَّ عَلَى خَوْفٍ شَدِيدٍ وَفِتْنَةٍ وَبَلاَءٍ وَطَاعُونَ قَبْلَ ذَلِكَ وَسَيْفٍ قَاطِعٍ بَيْنَ الْعَرَبِ وَاخْتِلاَفٍ شَدِيدٍ فِي النَّاسِ وَتَشَتُّتٍ فِي دِينِهِمْ وَتَغَيُّرٍ مِنْ حَالِهِمْ حَتَّى يَتَمَنَّى الْمُتَمَنِّي الْمَوْتَ صَبَاحًا وَمَسَاءً مِن عَظَمِ مَا يَرَى مِنْ كَلْبِ النَّاسِ وَأَكْلِ بَعْضِهِمْ بَعْضًا فَخُرُوجُهُ إِذَا خَرَجَ يَكُونُ عِنْدَ الْيَأْسِ وَالقُنُوطِ مِنْ أَنْ يَرَوْا فَرَجًا.

**2**. İmam Muhəmməd Baqir (ə) buyurub: *“Mehdi yalnız o zaman zühur edəcək ki, camaat möhkəm qorxu və dəhşət içində olar, zəlzələlər, fitnə və bəlalar xalqı bürüyər, taun xəstəliyi yayılar. Ərəblərin arasına qırğın düşər. Camaat içində şiddətli ixtilaf yaranar, insanların dinində parçalanma meydana çıxar. İnsanların halı o qədər dəyişər ki, hətta səhər-axşam ölməyi arzu edərlər. Camaatın böyük bir qismi it sifətini alar, adamlar bir-*

[463] “Kəmalud-Din” səh.650, bab 57, hədis 8.
[464] “Ğeybət” Numani, fəsil 14, hədis 13.
[465] “Biharul-ənvar”, c.52, səh.232.

*birinin ətini yeyərlər. Onun zühuru insanların fərəc barədə ümidlərini itirdikləri vaxt baş verər”.*[466]

عَنْ بَشِيرِ بن غَالِب: قَالَ أَمِيرُ الْمُؤْمِنِينَ صَلَوَاتُ اللهِ وَسَلاَمُهُ عَلَيهِ: يَقْبَلُ السُّفْيَانِي مِنْ بِلاَدِ الرُّومِ مُنْتَصِرًا فِي عُنُقِهِ صَلِيبٌ وَهُوَ صَاحِبُ القَوْمِ.

**3.** Bəşir ibn Qalib Əmirəl-möminin Əlidən (ə) belə rəvayət edir: *“Süfyani Rum ölkələrindən yardım alacaq, boynunda xaç olaraq bir qövmə sahib olacaq (və ya o qövmlə yoldaş olacaq)”.*[467]

عن أبي عبد الله الصادق صلوات الله وسلامه عليه قال: كَأَنِّي بِالسُّفْيَانِي أَوْ صَاحِبِ السُّفْيَانِي قَدْ طَرَحَ رَحْلِهِ فِي رُحْبَتِكُمْ بِالكُوفَةِ فَنَادَى مُنَادِيهِ مِنْ جَاءَ بِرَأْسِ رَجُلٍ مِنْ شِيعَةِ عَلِيٍّ فَلَهُ أَلفُ دِرْهَمٍ فَيَثِبُ الْجَارُّ عَلَى جَارِهِ يَقُولُ هَذَا مِنْهُمْ فَيَضْرِبُ عُنُقَهُ وَيَأْخُذُ أَلفَ دِرْهَمٍ.

**4.** İmam Sadiq (ə) buyurur: *“Sanki mən Süfyanini (yaxud onun köməkçilərini) görürəm ki, sizin yamyaşıl, xürrəm ölkənizdə – Kufədə özlərinə iqamətgah seçmişdir. Onun carçısı car çəkib deyir ki, hər kəs “Əli şiəsinin başını gətirsə, ona min dirhəm hədiyyə veriləcəkdir!” Bu zaman qonşu qonşuya hücum edər və “bu şəxs onlardandır!” deyər, boynunu vurub min dirhəm mükafat alar”*[468].

**Mehdi dövründə dünya**

İmam Mehdi zühur etdikdən sonra insanların fiziki həyatında elə bir dəyişiklik olmayacaq. Yəni insan fiziki baxımdan necə varsa, elə də qalacaqdır. Onlar üçün doğum və ölüm həmişəki kimi qaçılmaz qalacaqdır, istedad və xüsusiyyətləri isə qeyri-adi tərzdə dəyişməyəcəkdir. Əlimizə çatan dini mənbələri mütaliə edərkən belə bir nəticə əldə edə bilərik ki, İmam Mehdinin zühurundan sonra aşağıda qeyd edəcəyimiz islahatlar aparılacaq, bəşəriyyətin həyatında müsbət dəyişikliklər baş verəcəkdir:

---

[466] Yusif Məqdisi Şafii, “Əqdüd-dürər fi əxbaril-Müntəzər”, səh. 133.
[467] “Kitabul-ğeybə”, səh.463. Şeyx Tusi.
[468] “Kitabul-ğeybə”, səh.450. Şeyx Tusi.

## Mehdinin zühurundan öncə və sonra baş verənlər

Həzrətin bəzi tərbiyəvi və əxlaqi xüsusiyyətlərini nəzərdən keçirək:

Rəvayətlərdə nəql olunur: *"Mehdi qiyam edəndə əlini bəndələrin başına qoyar, onların ağıllarını təmərküzləşdirər, əxlaqlarını kamala çatdırar. Həzrətin diqqəti və hidayəti sayəsində düşüncələr çiçəklənər, bir çox ictimai fəsadların səbəbi olan dar baxışlar, əxlaqi çirkinliklər aradan qalxar».*

*"Mehdi (ə) dövlətində bütün xalqa hikmət və elm öyrədilər".*

*"Mehdi qiyam etdiyi vaxt Allah-Təala bəndələrin qəlbinə ehtiyacsızlıq hissi salar".*

*"Mehdi qiyam edəndə sinələrdən kinlər çıxar".*

*"O, xalqı Allahın kitabına, peyğəmbər sünnətinə, Əli vilayətinə və düşmənlərə arxa çevirməyə çağırır".*

"Peyğəmbər (s) buyurur: *"Onun yolu və sünnələri mənim yolum və sünnəmdir. Xalqı mənim din və ayinimə gətirər və onları Allahın kitabına dəvət edər".*

## Rəcət

Rəcətin lüğəvi mənası qayıtmaqdır. Şiə terminologiyasında isə Allah-Təala Hz.Mehdi (ə) zühur edərkən həzrət Peyğəmbərinin (s) ümmətindən bəzi vəfat etmiş şəxsləri yenidən həyata qaytaracağına deyilir. Bu inancın doğruluğunu Qurani-Kərim təsdiqləyir.

Şiə məzhəbinin böyük alimi Seyid Mürtəza Ələmulhuda rəcət inancını belə izah edir: "Şiə əqidəsincə, Allah-Təala İmam Zaman (ə) zühur edərkən zühurdan öncə vəfat etmiş bir qrup insanı yenidən həyata qaytaracaq ki, İmamın zühurunu dərk edə, ona yardımçı olmaq səadətinə nail olsunlar. Həmçinin, Allah-Təala İmam Zamanın (ə) düşmənlərindən bir qrup şəxsdən intiqam almaq və onlara haqqın üstünlüyünü, haqq ardıcıllarının ucalıqlarını göstərmək məqsədi ilə onları yenidən həyata qaytaracaq".

Rəcət məsələsinin baş verməsində heç bir tərəddüd yoxdur və şiənin bütün alimləri ricətə inam məsələsini Əhli-Beytin (ə) xüsusi məziyyətlərindən hesab etmişlər.

Əllamə Məclisi (r) "Biharul-Ənvar" kitabında yazır: "Rəcətə inam bütün dönəmlərdə şiə məzhəbinin yekdil inancı olmuş və heç kəs bunu inkar edə bilməz".

Seyid Mürtəza, Şeyx Müfid şiə məzhəbində rəcət inancının hamı tərəfindən qəbul etdiyinə inanır.

Şeyx Hürr Amili yazır: "Xeyli şiə yazarları rəcətə aid olan hədisləri kitablarında (bu kitabların sayı 70-dən çoxdur) qeyd etmişlər. Bu məsələ, uyğun inancın şiənin əsas prinsiplərindən biri olmasını göstərir".

Şeyx Səduq da rəcətə inamı Şiənin xüsusiyyətlərindən hesab etmişdir.

Qurana və hədislərə müraciət edən zaman başa düşürük ki, ruhun maddi bədənə qayıtması əvvəllər də olmuşdur. Ona görə də bu hadisənin baş verməsi qeyri-mümkün deyildir. Qadir Allah təbii ki, bu qüdrətə malikdir.

***"Sayları minlərlə olduğu halda ölümün qorxusundan (və cihaddan qaçmaq üçün) öz evlərindən çıxan kəslərə (ibrət gözü ilə) baxmadınmı? Onda Allah onlara dedi: "Ölün! (Allah onların ölümünü istədi, onlar da dərhal öldülər)". Sonra onları diriltdi (ki, ölümdən qaçmağın mümkün olmamasını başa düşsünlər). Doğrudan da Allah insanlara qarşı lütf və bəxşiş sahibidir. Lakin insanların çoxu şükür etmirlər".***[469]

***"Ölümünüzdən sonra sizi (yenidən) diriltdik ki, bəlkə şükür edəsiniz".***[470]

***"Buna görə də dedik: "(Kəsilmiş inəyin) üzvlərinin bir parçasını ona (öldürülmüş şəxsin bədəninə) vurun (ki, dirilərək öz qatilini tanıtdırsın)". Allah ölüləri bu cür dirildir və Öz (tövhid və qüdrət) nişanələrini sizə göstərir ki, bəlkə düşünəsiniz".***[471]

Hədislərin birində oxuyuruq ki, Əbu Bəsir İmam Baqirin (ə) xidmətində idi. Həzrət (ə) ondan soruşur: "İraq əhli rəcəti inkar edirmi?". Əbu Bəsir deyir: "Bəli". Həzrət (ə) buyurur: *"Məgər*

---

[469] "Bəqərə" surəsi, ayə-243.
[470] "Bəqərə" surəsi, ayə-56.
[471] "Bəqərə" surəsi, ayə-73.

*onlar "Nəml" surəsinin 83-cü ayəsini oxumayıblar?". **"Hər bir ümmətdən bizim ayələrimizi təkzib və inkar edən dəstələri toplayacağımız o gün, onlar(ın ilki və sonuncuları) bir yerdə cəm edilər və tutulub saxlanılar".***

Həmçinin Həmmad nəql edir ki, İmam Sadiq (ə) məndən soruşdu: *"İnsanlar "Nəml" surəsinin 83-cü ayəsi haqqında nə deyirlər?"* Dedim: "Deyirlər ki, bu ayə Qiyamət haqqındadır". Həzrət (ə) buyurdu: *"Bu cür deyildir. Bu ayə rəcət haqqındadır. Məgər Allah Qiyamət günü bəzilərini həşr edəcək və qalanlarını boş buraxacaqdır?"*

Rəcət haqqında çox sayda hədislərimiz vardır. Əllamə Məclisi deyir: "Necə ola bilər ki, kimsə İmamların (ə) haqlı olduğunu qəbul edir, 40-dan çox İslam aliminin nəql etdiyi 200 səhih hədisə ki, 50 kitabda toplanmışdır, şübhə ilə yanaşır?!" Nümunə olaraq, İmam Sadiqdən (ə) gələn hədisə nəzər salaq: *"O zaman ki, bizim Qaim (ə) zühur edər, hər bir mömininin qəbrinin yanında bir mələk nida edəcəkdir ki, "ey filankəs! Sənin İmamın zühur etmişdir. Əgər istəyirsənsə, qalx ona qoşul və əgər istəyirsənsə Haqqın kəramətində olasan, elə burada qal!"*

Rəcətin digər bir hikməti isə İmamın (ə) zühur dövründə bütün ixtilafların kökünün kəsilməsi üçün barələrində ixtilaf olan bəzi zalımların dirildilərək öz barələrində etiraflar etmələri olacaq.

**İmamın ictimai səciyyələri haqqında**

*"Yer üzünü zülm-sitəm bürüdükdən sonra onu ədalətlə doldurar".*

*"Mehdi (ə) sizə göstərər ki, ədalətli yol necədir".*

*"Ədaləti hamını əhatəyə alar".*

*"And olsun Allaha, Mehdi (ə) ədaləti evlərə isti-soyuğun daxil olduğu kimi daxil edər".*

*"Qeyri-qanuni rabitələr, məstedici içkilər, sələmçilik aradan qalxar, xalq ibadət-itaətə üz tutar, əmanətlər qorunar, şər insanlar məhv edilər, saleh insanlar qalxar".*

*"Mehdi qiyam edəndə həqiqi dostluq, həqiqi səmimiyyət ayaq tutub gəzər, hər bir ehtiyaclı öz iman qardaşının cibindən*

*ehtiyac duyduğu qədər götürər və qardaşı bu işi ona qadağan etməz".*

*"Sizə həzrət Mehdinin (ə) gəlişi ilə müjdə verirəm. Göy və yerin sakinləri ondan razı olar. O, sərmayələri düzgün şəkildə bölər. (Bir şəxs Peyğəmbərdən bu bölgünün necəliyi haqqında soruşdu və həzrət buyurdu) Yəni xalq arasında bərabər bölər".*

*"Mehdi (ə) xalq arasında elə bir bölgü aparar ki, bir nəfər də olsa, ehtiyaclı tapılmaz, kimsə zəkata möhtac olmaz".*

**İndi isə zühur dövrünün səciyyələri ilə tanış olaq:**

*"Mehdi qiyam etdiyi vaxt batil dövlətlər məhv olar".*

*"Həmin gün İslam hökumətindən savayı heç bir hökumət olmaz".*

*"Heç şübhəsiz ki, gecə və gündüzün çatdığı hər bir nöqtəyə Muhəmməd (s) ayinləri çatacaq və yer üzündə şirkdən əsər qalmayacaq".*

*"Mehdi (ə) dövləti dünyanın şərqini və qərbini dəvət edər".*

*"Allahın düşmənlərini öldürər ki, Allah razı olsun".*

*"Mehdi (ə) qiyam etdiyi vaxt "Əşhədu Əlla İlahə İlləllah və Əşhədu Ənnə Muhəmmədən Rəsulullah" fəryadının çatmadığı yer qalmaz".*

*"O, qiyam qaldıranda ədalətlə hakimlik edər, onun dövründə zülmün kökü kəsilər və yollar əmin-aman olar".*

*"O, azğınlar arasında qılınc çəkər və kimsədən tövbə qəbul etməz. Vay Mehdi (ə) ilə düşmənçilik edənin halına".*

*"Allah-təala həzrət Mehdi (ə) vasitəsi ilə bu ümməti büdrəmələrdən sonra islah edər".*

*"Mehdinin tərəfdarları Allah razı olanadək öz qılınclarını yerə qoymazlar".*

*"Mehdi qiyam edən zaman qan-tər axar, mübarizə meydanlarında atlara süvar olunar".*

**Zühur dövrünün iqtisadi səciyyələrinə nəzər salaq:**

*"Həmin zamanda mənim ümmətim bu vaxtadək heç bir ümmətin bəhrələnmədiyi nemətlərdən bəhrələnər. Yer üzü başdan-başa məhsul verər və heç nəyi onlara əsirgəməz. Hər kəs həzrət*

*Mehdinin (ə) yanına gəlib ondan mal istəsə, həzrət yubanmadan onun istədiyini əta edər".*

*"Mehdinin (ə) dövlətində sələmçilik aradan götürülər".*

*"Mehdi (ə) bütün ölkələrdəki nümayəndələrinə tapşırar ki, şəhərlər abad edilsin".*

*"Yer üzü Mehdinin (ə) əli ilə abad, xürrəm olar".*

*"Yerin təkindəki bütün mədən və xəzinələr həzrətin hökuməti zamanı aşkarlanıb, istixrac olar. Yer üzündəki bütün xarabalıqlar həzrət tərəfindən abad edilər".*

*"Yer bütün olanlarını cücərdər, mal-qara bol olar".*

*"Həzrətin zühuru zamanı səmadan bol yağış yağar, torpağın təkində göyərməyən bir şey qalmaz".*

*"Var-dövlət hesaba alınmadan bölünər".*

*"Mehdi qiyam edən zaman zalım hakimlərin mənimsədiyi və ya həvalə etdiyi torpaqlar geri qaytarılar".*

*"Həzrət xalq arasında elə bir bölgü aparar ki, heç bir ehtiyaclı qalmaz".*

**Uyğun dövrün elmi səciyyələrinə nəzər salaq:**

*"Elm və bilik 27 hərfdən, şöbədən ibarətdir. Peyğəmbərlər onun yalnız ikisini xalq üçün gətirmişlər. Xalq bu günədək 27 hərfdən ikisini tanımışdır. Mehdi qiyam etdiyi vaxt qalan 25 şöbə də aşkar olar".*

*"Mehdi qiyam edəndə Allah-Təala bizim şiələrin qulaqlarını və gözlərini o qədər gücləndirər ki, onlarla Mehdi arasında vasitəçiyə ehtiyac qalmaz. Onunla danışar və onun danışdıqlarını eşidərlər, o öz yerində insanlar isə ucqarda olduqları vaxt onları görər".*

*"Mömin şəxs Mehdinin zamanında şərqdə olduğu halda qərbdəki qardaşını görər. Eləcə də, qərbdə olan kəs şərqdəki qardaşını müşahidə edər".*

(Merac hədisində buyurulur:) *"Külələri ona müti edərəm, şimşəkli buludlar ona ram olar. Onu səmalara səfər üçün vasitə ilə səmalara ucalmağa müvəffəq edərəm".*

**Hüzur dövrünün mühakimə səciyyələrinə nəzər salaq:**

*“O (Mehdi (ə)) xalq arasında həzrət Davud kimi mühakimə edər”.*

*“Həzrət Mehdi (ə) həzrət Davud və Süleyman kimi hakimlik edər və dəlil tələb etməz”.*

*“Həzrət Tövrat əhli ilə Tövratla, İncil əhli ilə İncillə, Zəbur əhli ilə Zəburla, Quran əhli ilə Quranla mühakimə aparar”.*

*“Hətta qadınlar da evlərdə Allahın kitabı və peyğəmbər sünnəsi əsasında mühakimə edərlər”.*

*“Onun hökmlərində rüşvətə yol yoxdur”.*

**Hüzur dövründə həyatvericilik səciyyələri:**

*“Həzrət kitab və sünnədə tərk olunmuş hökmləri dirildər”.*

*“Allah-təala Mehdinin (ə) vasitəsi ilə bidətləri və azğınlıqları aradan qaldırar, sünnələr dirildilər».*

*“Allah-təala onun vasitəsi ilə ölü torpaqları dirildər, dini onun əli ilə aşkarlayar, müşriklərə xoş gəlməsə də, haqqı gerçəkləşdirər”.*

*“Bütün bidətlər aradan qaldırılar, bütün sünnələr canlandırılar”.*

İmam Sadiq (ə) bir Quran ayəsinin təfsirində buyurur: *“İnsanların kafir olması ilə yer öləndən sonra Allah-təala onu Mehdi vasitəsi ilə dirildər”.*

**İmam Mehdinin (ə) fərdi səciyyələri:**

*“Mehdi (ə) Allah qarşısında təvazökardır”.*

*“Mehdi (ə) Allah qarşısında mütidir”.*

*“Mehdi (ə) Allah qarşısında hamıdan təvazökardır”.*

*“O yaxşılıqlara və xeyirxahlıqlara tələsir, mübariz və çalışqandır”.*

*“Onda Musanın kamalı, İsanın şövkəti, Əyyubun dözümü var”.*

*“Allahın kitabına və peyğəmbər sünnəsinə elm Mehdi (ə) qəlbində kök atmışdır”.*

*“Allah-Təala mənim övladlarım və pak fitrətim arasından elə birini ayağa qaldırır ki, başdan ayağa ədalət, bərəkət və*

*paklıqdır. O ən kiçik haqsızlığa göz yummaz. Allahın fərmanına itaət edər, kimsə ilə qohumluq hesabı yoxdur, daşı daş üstünə qoymamışdır (dünya malından bir şey götürməz)".*

*"Mehdinin (ə) aramlıq və vüqarı, halal-haramı tanıması, ona ehtiyac və onun ehtiyacsızlığı ilə tanıyacaqsınız".*

*"O xalqın ən biliklisi, hikmətlisi, ən pəhrizkarı, ən dözümlüsü, ən bağışlayanı və ən abididir. Gözləri yuxuya getsə də, qəlbi daim oyaqdır, mələklər onunla söhbət edir. Duası daim qəbul olur. Əgər daşa nifrin etsə, daş ikiyə bölünür".*

*"Mehdi (ə) iki bariz nişanəsi ilə tanınır: sonsuz biliyi və dualarının qəbul olması ilə".*

*"Onun biliyi hamıdan çox, mərhəməti hamıdan genişdir".*

*"And olsun Allaha ki, onun libası cod yeməyi bərk və yavanlıqsızdır".*

*"O özü ilə əhd etmişdir ki, xalqın istədiyi tək onlar gedən yolla getsin, onlar geyən libasdan geysin, onların miniyi kimi miniyə süvar olsun, aza qane olsun. zülmlə dolmuş yer üzünü Allahın yardımı ilə ədalətlə doldurar. Allaha Onun layiq olduğu kimi pərəstiş edər və qapısında keşişçi dayandırmaz".*

*"Təqvanı əsas götürər və bəsirətlə addım atar".*

**İdarəçilik səciyyələri:**

*"Mehdi (ə) bağışlayandır və çox bağışlayar. Öz dövlət məmurları ilə ciddi rəftar edər, çarəsizlərlə mehriban olar".*

*"Həzrət Mehdi (ə) öz tərəfdarlarını bütün şəhərlərə yayar və onlara göstəriş verər ki, ədalət və ehsanla rəftar etsinlər. Onları dünya ölkələrinə hakim təyin edər və şəhərlərin abad olmasını tapşırar".*

*"Öz valilərini şəhərlərə göndərər və göstəriş verər ki, xalq arasında ədaləti bərpa etsinlər".*

*"O, Allahın fərmanını dəqiq yerinə yetirər. Kimsə ilə qohumluq hesabı yoxdur, daşı-daş üstə qoymaz. Allah-Təala onun vasitəsi ilə haqq və həqiqət qapılarını açar, batil qapılarını bağlayar".*

*"Haqqı vacib edər".*

*“Dünyada bidət qalmaz, mövcud bidətlər aradan qaldırılar. Bütün sünnələr yerinə yetirilər”.*

*“Mehdi (ə) öz yaxınları ilə məşvərət edər”.*

*“Həzrət Mehdinin (ə) vəzirləri qeyri-ərəb olar. Onların arasında bir nəfər də ərəb tapılmaz. Amma onlar ərəbcə danışar və ən yaxşı vəzirlər olarlar”.*

*“Allahın kitabına əməl edər, harada pis iş görsə, onu çirkin sayıb inkar edər”.*

*“O, himayədar və xeyirxahdır”.*

*“O, salehlər kimi rəftar edər”.*

*“O, xalqa onların özündən daha qayğılı, ata-analarından daha qayğılı, Allah qarşısında hamıdan təvazökardır. Xalqa nəyi əmr edərsə, özü hamıdan qabaq ona əməl edər. Xalqa qadağan etdiyi şeydən əvvəlcə özü çəkinər”.*

*“Mehdi (ə) zühur edəndə doğru yolu üstələmiş nəfs istəklərini səmavi hidayətə qaytarar. Düşüncələri bir vaxt rəylərin qalib gəldiyi Qurana yönəldər. Sizə elə bir şəxs hakim olacaq ki, bugünkü hökumətlərin soyundan deyil. Sizin Mehdi (ə) göstərəcək ki, hökumətdə ədalətli rəftar necə olur. Kitab və sünnədən tərk edilənlərə həyat verəcək”.*

## Qiyamət öncəsi fitnələr

وعن حذيفة رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): وَالّذِي نَفْسِي بِيَدِهِ لاَ تَقُومُ السَّاعَةُ حَتّى تَقْتُلُوا إمَامَكُمْ وَتَجْتَلِدُوا بِأسْيَافِكُمْ وَيَرِثَ دُنْيَاكُمْ شِرَارُكُمْ.

**1.** Hüzeyfə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Nəfsim əlində olan Allaha and olsun! İmamınızı öldürmədikcə, qılınclarınızı bir-birinizə qaldırmayınca, dünyanıza düşmənləriniz varis olmadıqca qiyamət qopmaz”.*[472]

**Açıqlama:**

Burada müsəlmanların yaxşılığı əmr etmək və pisliklərdən çəkindirməyi tərk etməyin nəticəsi olaraq qarşılaşacaqları ictimai pozğunluq ifadə edilir:

---

[472] Tirmizi, Fitən 9, 2171

1. İmamları öldürüb qarışıqlığa düşmək.

2. Daxildə mübarizə.

3. Şər kimsələrin qəhr və zülmlə, idarəçiliyi ələ keçirmələri və qəsbkarlıqla maddi qazanclar təmin etmələri.

Bu hədisə şiə əqidəsi tərəfindən yanaşıldıqda, həmin qətlə yetirilən şəxslərin Məsum İmamlar (ə) olduğunu demək olur. Belə ki, İmamlardan (ə) heç bir öz əcəli ilə dünyadan köçməmiş, zəmanəsinin zalımları tərəfindən qətlə yetirilmişlər. Həmçinin onların yaşadıqları dövrlərdə daxili çəkişmələr geniş vüsət almış, hakimiyyətlər əsasən zülmkar xəlifələrin əlində olmuşdur.

وعن أبي هريرة رَضِـيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): لاَ تَقُومُ السّاعَةُ حَتّى يَكّثُرَ الْهَرْجُ. قَالُوا: وَمَا الْهَرْجُ؟ قَالَ: الْقَتْلُ، القَتْلُ.

**2.** Əbu Hüreyrə nəql edir: “Rəsulullah (s): *“Hərc (kütləvi narazılıq) artmadıqca qiyamət qopmaz!” buyurdu. Yanındakılar: “Hərc nədir ey Allahın Rəsulu?” deyə soruşdular. “Öldürmək! Öldürmək!” buyurdu”.*[473]

وعن أنس رَضِـيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): يَكُونَ بَيْنَ يَدَى السَّاعَةِ فِتَنٌ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ، يُصْبِحُ الرَّجُلُ مُؤْمِناً وَيُمسِي كَافِراً. وَيُمْسِي مُؤْمِناً وَيُصْبِحُ كَافِراً، وَيَبِيعُ أَقْوَامٌ دِينَهُمْ بِعَرَضٍ مِنَ الْدُّنْيَا.

**3.** Ənəs ibn Malik nəql edir: “Rəsulullah (s) buyurdu: *“Qiyamət qopmazdan öncə gecə qaranlığının parçaları kimi fitnələr olacaq. O vaxt kişi mömin olaraq sabaha çatar, axşamı isə kafir olaraq başa vurar. Mömin olaraq axşama çatar, kafir olaraq isə sabaha qovuşar. Bir çox kəslər az bir dünya mənfəəti müqabilində dinlərini satarlar”.*[474]

**Rəsulullahdan sonra Qiyamət yaxındır**

***“İnsanların haqq-hesab vaxtı (qiyamət günü) yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və (qiyamətə inanmaqdan) üz döndərirlər…”.*** [475]

---

[473] Müslim, Fitən 18, 157

[474] Tirmizi, Fitən 30, 2196

[475] “Ənbiya” surəsi, ayə-1.

Qiyamət günü haqqında heç məlumatı olmayana rast gəlmək çətindir. Az da olsa, hər birimiz dünyanın sonu və qiyamətin qopacağı barədə nələrsə eşitmişik. Heç şübhəsiz ki, onun dəhşətindən də az və ya çox xəbərdarıq. Bəs qiyamət günü nə vaxt olacaq? Qiyamətin qopacağı gün nə zamandır?

Əlbəttə, ilahi kitablarda bu gün barədə geniş danışılsa da, onun konkret tarixi ilə bağlı məlumat verilmir: ***“Camaat səndən o saat (qiyamətin nə vaxt qopacağı) barədə soruşar. (Ya Peyğəmbər!) De: “Onu ancaq Allah bilər!” Nə bilirsən, bəlkə də, o saat (qiyamət) yaxındır”.***[476]

عن سهل بن سعد رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): بُعِثْتُ أنَا وَالسَّاعَةَ كَهَاتَيْنِ، وَأشَارَ بِأصْبُعَيْهِ، السَّبَّابَةِ وَالّتِي تَلِيهَا.

**1.** Səhl ibn Sad nəql edir: “Rəsulullah (s): *“Mən qiyamət yaxın olduğu halda göndərildim!” buyurdu və şəhadət barmağı ilə orta barmağını yan-yana göstərdi”.*[477]

وعن المستورد بن شدّاد الفِهْرِي رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص) بُعِثْتُ في نَفْسِ السَّاعَةِ فَسَبَقْتُهَا كَمَا سَبَقَتْ هذِهِ لِهذِهِ، أصْبُعَيْهِ السَّبَّابَةِ والْوُسْطَى.

**2.** Müstəvrid ibn Səddad əl-Fihri nəql edir: “Rəsulullah (s): *“Mən qiyamətin qopacağı saatda göndərildim. Orta barmağı ilə şəhadət barmağına işarə edərək “ancaq, bunun bunu keçməsi kimi mən qiyamət saatını keçib bir az əvvəl gəldim!” buyurdu”.*[478]

**Açıqlama:**

**1-** “Bu hədisdən məqsəd qiyamətin qopma zamanının lap yaxın olduğunu ifadə etməkdir" deyir.

**2-** Şəhadət barmağıyla orta barmağı yan-yana gətirib “bu ikisi kimi” demiş olması, fərqli izahlara səbəb olmuşdur:

***** Müqayisə uzunluq baxımından göstərilmişdir; orta, bir az uzundur.

---

[476] “Əhzab” surəsi, ayə-63.
[477] Buxari, Riqaq 39, Təfsir, Naziat 1, Talaq 25; Müslim, Fitən 132, 2950.
[478] Tirmizi, Fitən 39, 2214.

* İkisi arasında bir başqa barmaq olmadığı kimi, qiyamətlə Onun arasında başqa  peyğəmbər yoxdur.

* Qiyamət hadisəsinin lap yaxın olduğu ifadə edilmişdir.

* Peyğəmbərliyin gəlişi, qiyamətin gəlişinə, orta barmağın uzunluğu nisbətində az bir müddət qalıb.

* Rəsulullahın dəvəti qiyamət anına qədər davam edəcək, bir-birindən ayrılmayacaq, eynilə o iki barmaq bir-birindən ayrılmadığı kimi.

**3-** Qurtubi "ət-Təzkirə"də bunları qeyd edir: "Hədisin mənası qiyamət hadisəsinin yaxınlığını ifadə edir. Bu hədislə, "Qiyamətin nə zaman qopacağını, soruşulan, soruşandan daha artığını bilmir" hədisi arasında ziddiyyət yoxdur. Lakin qeyd etdiyimiz hədisdən murad Peyğəmbərlə (s) qiyamət arasında başqa bir peyğəmbərin olmadığını bəyan etməkdir. Eynilə şəhadət barmağı ilə orta barmaq arasında bir başqa barmaq olmadığı kimi. Bu bəyandan qiyamətin vaxtını bilmək mənası çıxmaz. Fəqət hədisin zahirindən qiyamətin yaxınlığı anlaşılır. Əlamətləri isə bu ayədə ifadə edildiyi kimi, ard-arda gəlməkdədir: ***"Onlar (kafirlər) ancaq o saatın (qiyamət saatının) qəfildən başlarının üstünü almasınımı gözləyirlər? Onun əlamətləri artıq gəlmişdir. (Qiyamət saatı) onlara gəlib yetişdiyi zaman ibrət almaları (peşman olub tövbə etmələri) onlara nə fayda verər?!"***[479]

Zəhhaq, ayədə gəlməyə başladığı xəbər verilmiş olan əlamətlərdən birincisinin Hz. Muhəmmədin (s) göndərilməsi olduğunu söyləmişdir.

Ayədən də anlaşıldığı kimi, əlamətlərin daha öncə gəlməsi insanları xəbərdarlıq və irşaddır; qəflətdən tənbehdir, tövbəyə təşviq, axirətə hazırlıqdır.

## Qiyamətdən öncə bir atəşin çıxması

عن أبي هريرة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص):لاَ تَقُومُ السَّاعَةُ حَتّٰى تَخْرُجَ نَارٌ مِنْ أَرْضِ الْحِجَازِ تُضِيءُ أَعْنَاقَ الإبِلِ بِبُصْرَى.

[479] "Muhəmməd" surəsi, ayə-18

**1.** Əbu Hureyrə nəql edir: “Rəsulullah (s) buyurdu ki: *“Hicaz bölgəsindən bir atəş çıxmadıqca qiyamət qopmaz. Bu atəş Busradakı dəvələrin boyunlarını işıqlandırar”.*[480]

وعن ابن عمر رَضِيَ اللّٰهُ عَنْهما قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): تَخْرُجُ نَار مِنْ حَضْرَمَوْتَ، أوْ مِنْ بَحْرِ حَضْرَ مَوْتَ قَبْلَ يَوْمِ الْقِيَامَةِ تَحْشُرُ النَّاسَ. قَالُوا: يَا رَسُولَ اللّٰهِ فَمَا تَأمُرُنَا؟ قَالَ: عَلَيْكُمْ بِالشَّامِ.

**2.** Abdullah ibn Ömər nəql edir: “Rəsulullah (s): *“Qiyamətdən öncə Həzramövtdən bir atəş çıxacaq, insanları toplayacaq” buyurmuşdur.* (Orada olanlar): “Ey Allahın Rəsulu (o günə çatsaq) nə etməyimizi əmr edirsiniz?” deyə soruşdular.

Buyurdu: *“Sizə Şamı (qorumağı) tövsiyə edirəm”.*[481]

**Müasirlərin ömrü**

عن أبي الزبير عن جابر رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): مَا مِنْ نَفْسٍ مَنْفُوسَةِ الْيَوْمَ تَأتِي عَلَيْهَا مِائَةُ سَنَةٍ وَهِىَ حَيَّةٌ يَوْمَئِذٍ، يَعْنِى نَقْصَ الْعُمُرِ.

**1.** Əbu-Zübeyr Cabirdən nəql edir: “Rəsulullah (s) buyurdu ki: *“Bu gün doğmuş (canlı olan) heç bir nəfs yoxdur ki, yüz il sonra ölməmiş olsun”.*

(Ravi deyir ki): “Bununla ömrün qısalması qəsd edilmişdir”.[482]

**Açıqlama:**

Hədis müxtəlif yollardan gəlmişdir. Fərqli rəvayətlərdə hədisi açıqlayan əlavələr mövcuddur. Hədis o gün doğmuş olan bir uşağın yüz ildən çox yaşamayacağını ifadə edir. Bununla ümmət fərdlərinin ömrünün qısa olacağı bəyan edilir.

وعن أنس رَضِيَ اللّٰهُ عَنْه قال: سَألَ رَجُلٌ رَسُولَ اللّٰهِ (ص)، مَتَى السَّاعَةُ؟ فَسَكَتَ هُنَيْهَةً، ثُمّ نَظَرَ الى غُلامٍ بَيْنَ يَدَيْهِ مِنْ أزْدِ شَنُوءَةَ. فقَالَ: إنَّ عُمُرَ هذَا لَمْ يُدْرِكْهُ الْهَرَمُ حَتّى تَقُومَ سَاعَتُكُمْ. قَالَ أنسٌ رَضِيَ اللّٰهُ عَنْه: وذلِكَ الْغُلامُ مِنْ أقْرَانِي يَوْمَئِذٍ.

---

480 Buxari, Fitən 24; Müslim, Fitən 42, 2902
481 Tirmizi, Fitən 42, 2218
482 Müslim, Fəzailus-Səhabə 218, 2538; Tirmizi, Fitən 64, 2251

**2.** Ənəs nəql edir: “Bir nəfər Rəsulullahdan (s): “Qiyamət nə zaman qopacaq?” deyə soruşdu. Həzrət (s) bir müddət sükutdan sonra yanında duran Əzdi Şənuə qəbiləsinə mənsub bir uşağa baxıb: *“Bu dəliqanlı piri fani olmadan öncə qiyamətiniz qopacaqdır!”* buyurdu”.

Ənəs deyir ki: “Uşaq o gün mənim qoruyucum idi”.[483]

**Açıqlama:**

Bu hədisdə Həzrət, hər kəsin ölümünü özü üçün “qiyamət” olaraq dəyərləndirir. Hədisi dünyanın əcəli olan qiyamətdən əlavə, öz əcəlimiz olan şəxsi qiyamətimizlə əlaqələndirməyə bir xəbərdarlıq olaraq dəyərləndirə bilərik. Dünyanın əcəli İlahi elmdə qorunur, Allahdan başqa kimsə bilməz. Amma bəşəri əcəlimiz, şəxsi qiyamətimiz, zaman olaraq qismən bəllidir. Sabah barədə bir zəmanət olmadığına görə bu və ya bu şəkildə hər an gələ bilər. Elə isə “Qiyamət” hadisəsindən insan nəfsi bir dəhşət alıb ibrətə meyl edirsə, bu ibrətin hər an gəlməsi ehtimalı olan əcəlindən, qopması ehtimal olan şəxsi qiyamətindən almalıdır.

**Yalançıların zühuru**

عن أبي هريرة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص):لاَ تَقُومُ السَّاعَةُ حَتّى يَنْبَعِثَ دَجَّالُونَ كَذَّابُونَ قِرِيباً مِنْ ثَلاثِينَ، كُلُّهُمْ يَزْعَمُ أَنَّهُ رَسُولُ اللّٰهِ.

**1.** Əbu Hureyrə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Otuza qədər yalançı dəccallar çıxmadıqca qiyamət qopmaz. Bunlardan hər biri Allahın elçisi olduğunu zənn edər”.*[484]

**Açıqlama:**

**1-** Əvvəldə açıqladığımız kimi دَجْل kəlməsi ərəbcədə “təlbis” (geydirmə, örtmə) mənasına gəlir. “Kizb” yəni “yalan” mənasına da ifadə edilir. Çünki “kizb” də həqiqətin örtülməsidir. Dəccal bu halda yalançı deməkdir. Peyğəmbər olmadığı halda peyğəmbərliyini iddia edən mənasındadır. Bu mənada azğın məzhəblərin qurucuları bir-bir Dəccal olacaqlar.

---

[483] Müslim, Fitən 138, 2953

[484] Tirmizi, Fitən 43, 2219; Əbu Davud, Məlahim 16 4333, 4334, 4335

2- Yalançı dəccalların uşağını xəbər verən hədislər fərqli mənalarda gəlmişdir. Bunların hər birində mövzunu açıqlayıcı bəzi ünsürlərinə rast gəlinir.

* “Müsnədi-Əhməd” də Huzeyfədən gələn bir rəvayətdə bu yalançıların 24 ədəd olacağı, bunlardan dördünün qadın olacağı, hər birinin özünü peyğəmbər zənn edəcəyi qeyd olunmuşdur.

* Yenə “Müsnədi-Əhməd”də gələn bir rəvayətdə: *“...Mən peyğəmbərlərin sonuncusuyam, məndən sonra peyğəmbər yoxdur”* ibarəsi mövcuddur.

* Təbəraninin bir rəvayətinə görə yalançıların sayı 70-dir.

İbn Hacər deyir: “Ehtimaldır ki, onlardan peyğəmbərlik iddiası edənlər 30 və ya otuz yaxındır. Bu miqdardan artığı sadəcə yalançıdır, batilə dəvət edərlər, fəqət peyğəmbərlik iddiası etməzlər”.

Son dövr müəllifləri İslam aləminin hər tərəfində Qərblilərin təhrikilə çıxmış olan din qılığı altındakı Qərbçi cərəyanların liderlərini də Rəsulullahın xəbər verdiyi bu dəccallar zümrəsindən saymışlar: Qadiyanilik, Bəhailik, Nurçuluq və s. kimi. Bunlarda ayəyə və sünnətə müxalif iddialar mövcuddur.

### Günəşin Qərbdən çıxması

عن أبي هريرة رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص):لاَتَقُومُ السَّاعَةُ حَتّى تَطْلُعَ الشّمْسُ مِنْ مَغْرِبِهَا، فإذَا طَلَعَتْ وَرَآهَا النّاسُ آمَنُوا أَجْمَعُونَ، وَذلِكَ حِينَ لاَ يَنْفَعُ نَفْساً إيمَانُهَا لَمْ تَكُنْ آمَنَتْ مِنْ قَبْلُ أوْ كَسَبَتْ في إيمَانُهَا خَيْراً.

**1.** Əbu Hureyrə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Günəş batdığı yerdən doğmadıqca qiyamət qopmaz. Qərbdən doğunca insanlar görər və hamısı da iman edər. Ancaq daha öncə inanmamış və ya imanında xeyir qazanmamış kimsəyə bu iman fayda verməz”*[485]

---

[485] Buxari, Riqaq 39, İstisqa 27, Zəkat 9; Müslim, İman 248, 157; Əbu Davud, Melahim 12, 431

**Açıqlama:**

**1.** Qiyamətin böyük əlamətlərindən biri də günəşin qərbdən doğmasıdır. *"Batdığı yerdən"* deməkdir. Bu halda hədis açıq-aydın bir şəkildə qiyamətdən öncə, günəşin batdığı yerdən doğacağını ifadə etməkdədir.

**2-** Bəziləri hədislərdə qiyamət əlamətləri olaraq zikr edilən əlamətləri iki qrupa ayırır:

1)- Qiyamətin yaxınlaşdığını xəbər verənlər: Dəccalın çıxması, Hz.İsanın (ə) enməsi, Yəcuc və Məcucun zühuru və s.

2) Qiyamətin üsulunu xəbər verən əlamətlər: Dumanın çıxması, günəşin batdığı yerdən doğması, "dəbbətul-ərzin" çıxması, insanları toplayan bir atəşin zühuru. Bu halda günəşin qərbdən doğması hadisəsi qiyamətin üsuluna əlamətdir. Bu hasil olunca, qopmayacağı iddiası ləğv olar. Qiyamət qətilik qazanar. Bu səbəblədir ki, istər-istəməz hər kəs inanacağından ötrü bu iman ixtiyari olmaz, icbari olar və məqbul olmaz. Həqiqətən qeyd edəcəyimiz ayədə də bu son vəziyyətdə imanın qəbul edilməyəcəyi ifadə edilmişdir: ***"Onlar əzabımızı gördükdə dedilər: "Biz yalnız Allaha iman gətirdik, (Rəbbimizə) qoşduğumuz şərikləri (bütləri) isə inkar etdik!" Amma əzabımızı gördükləri zaman iman gətirmələri –Allahın Öz bəndələri barəsində öncə olub-keçmiş (tətbiq edilmiş) adətinə (qayda-qanununa) uyğun olaraq -heç bir fayda vermədi. (Əzab gəlməmişdən qabaq iman gətirmək lazımdır, əzabı gördükdə gətirilən imanın heç bir faydası olmaz). Kafirlər elə oradaca ziyana uğradılar (məhv oldular).***[486]

İbn Hacər əlamətlərin əvvəli və sonrası barədə edilən bəzi münaqişələri qeyd etdikdən sonra Dəccalın çıxması, Hz.İsanın (ə) enməsi, Yəcuc və Məcucun zühuru kimi hadisələrin günəşin qərbdən doğması hadisəsinə müqəddimə olduğunu, bu hadisənin son hadisələrdən olduğunu izah edir və davamında deyir: "Dəccalın çıxması böyük əlamətlərin ilkidir, Yerin böyük qismində əhvalın dəyişdiyini elan edən bir hadisədir, bu, Hz.İsanın (ə) vəfatı ilə sona çatacaq. Günəşin qərbdən doğması isə aləmi ülvi-

[486] Mumin surəsi, ayə-84, 85

nin (səmanın) halının dəyişdiyini elan edən ilk böyük əlamətdir, bu da qiyamətin qopması ilə sona çatacaq.

“Günəşin qərbdən doğması ilə qiyamətin qopması arasında nə qədər zaman keçəcək?” deyə ağla gələ biləcək bir suala cavab ola biləcək fərqli rəvayətlər var. İbn Hacər bunlara da yer verir:

* Abdullah ibn Ömərdən nəql edilən bir rəvayətə görə: “Günəş qərbdən doğduqdan sonra insanlar yüz iyirmi il yaşayacaq”.

* Əbul-Aliyədən gələn bir rəvayətdə: “Qiyamətin ilk əlaməti ilə son əlaməti arasında altı aylıq müddət vardır. Bunlar eyni ilə bir təsbehin dənələri kimi bu müddət içərisində ard-arda gələcəklər”.

İbn Hacər qeyd edilən müddətlə bağlı bu iki fərqli rəvayəti belə təvil edir: “Əgər müddət öncəki hədisdə olduğu kimi yüz iyirmi il olsa belə, bu çox tez keçəcək və onun müddəti daha əvvəlki yüz iyirmi aylıq bir zamanı əhatə edəcəkdir.

* Bir rəvayətdə də belə gəlmişdir: *“Yəcuc və Məcucdan sonra çox keçmədən günəş batdığı yerdən doğar. İnsanlara bir carçı belə səslənər: “Ey iman edənlər! Sizlərin etdiyi (xeyir və tövbə) qəbul edildi. Ey kafirlər sizlərə də tövbə qapısı bağlandı, qələmlər qurudu, dəftərlər örtüldü”.*

Bir başqa rəvayətdə belə deyilir: *“Günəş qərbdən doğduğu vaxt qəlblər içində daşıdıqları ilə möhürlənər, yazan mələklər artıq çəkilər. Mələklərə heç bir əməl yazmamaları əmr edilər”.*

Bir başqa rəvayət belədir: *“Əməllərin möhürləndiyi qiyamət əlaməti, günəşin batdığı yerdən doğmasıdır”.*

Bu rəvayətlər sənəd etibarı ilə zəif olsa belə bir-birini qüvvətləndirir.

وعن أبي ذَرٍّ رَضِيَ اللّٰهُ عَنْه قال: دَخَلْتُ الْمَسْجِدَ حِينَ غَابَتِ الشّمْسُ. فقَالَ رَسُولُ اللّٰهِ (ص): يَا أَبَا ذَرٍّ، هَلْ تَدْرِي أيْنَ تَذْهَبُ هذِهِ؟ قُلْتُ: اللّٰهُ وَرَسُولُهُ أعْلَمُ. قَالَ إنَّهَا تَذْهَبُ حَتّي تَسْتَأذِنَ رَبَّهَا في السُجُودِ، فَيُؤذَنُ لَهَا وَكأنّهَا وَقَدْ قِيلَ لَهَا: اُطْلُعِي مِنْ حَيْثُ جِئْتِ، فَتَطْلُعُ مِنْ مَغْرِبِهَا. ثُمّ قَرَأ: وذلِكَ مُسْتَقَرٌّ لَهَا، وَهِيَ قِرَاءَةُ ابْنُ مَسْعُودٍ.

**2.** Əbu Zərr nəql edir: “Günəş batdığı vaxt məscidə girdim. Peyğəmbər (s) buyurdu: “Qiyamət əlamətlərinin ilki günəşin batdığı yerdən doğması və quşluq vaxtında insanlara “Dəbbətul-

ərz"in çıxmasıdır. Bunlardan hansı öncə çıxarsa digərinin çıxması buna yaxındır"[487].

Sonra Peyğəmbər (s) buyurdu: "Ey Əbu Zərr! Bu (günəş batınca) hara gedir, bilirsənmi?"

"Allah və Rəsulu daha yaxşı bilir!" dedim.

"O, Rəbbindən səcdə etmək üçün izin istəməyə gedir. Ona izin verilir və sanki belə deyilir: *"Get gəldiyin yerdən təkrar doğ."* O da batdığı yerdən doğar".

Sonra Əbu Zərr dedi ki: Həzrət belə qiraət etdi: ***"Bu onun qərar tutduğu yerdir".***[488]

Əbu Zərr əlavə olaraq dedi: Bu İbn Məsudun qiraətidir".

**Aşıqlama:**

**1-** Daha öncəki mətn buradakına nəzərən bütündür. Mövzumuz olan mətində bəzi çatışmazlıqlar mövcuddur. Bu səbəbdən öncəki mətni məal olaraq qeyd edirik:

"Əbu Zərr nəql edir: "Mən Rəsulullah (s) ilə birlikdə məsciddə idim. O sırada günəş batırdı. Mənə: "Ey Əbu Zərr, günəşin hara getdiyini bilirsənmi?" deyə soruşdu.

"Allah və Rəsulu daha yaxşı bilir!" dedim. Bununla əlaqədar olaraq buyurdu: "Ərşin altında səcdə etməyə gedir. (Səcdə üçün) icazə istədikdə ona izn verilər. Səcdə etdiyi halda özündən bunun qəbul edilməyəcəyi zaman yaxındır. O zaman da izn istər, fəqət verilməz. Ona: "Gəldiyin yerə dön və batdığın yerdən doğ!" deyilər. Bu ayə bunu ifadə edir: ***"Günəş də (qüdrət əlamətlərimizdən biri kimi) özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmüdür)".***[489]

Rəsulullah (s) əlavə etdi: *"Bu (durma hadisəsi) nə zamandır, bilirsənmi? Bu, insana imanının fayda verməyəcəyi, artıq inancsız hala gəldiyi zamandır".*

---

[487] Müslim, Fitən 118

[488] Yasin surəsi, ayə-38

[489] Yasin surəsi, ayə-38

## Qiyamətin başqa əlamətləri

عن أبي سعيد رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللهِ (ص): وَالّذِي نَفْسِى بِيَدِهِ لاَ تَقُومُ السَّاعَةُ حَتّى تُكَلِّمَ السِّبَاعُ الإنْسَ، وَحتّى يُكَلِّمَ الرَّجُلَ عَذَبَةُ سَوْطِهِ وشِرَاكُ نَعْلِهِ وَتُخبِرَهُ فَخِذُهُ بِمَا أَحْدَثَ أَهْلُهُ بَعْدَهُ.

**1.** Əbu Səid nəql edir: "Rəsulullah (s) buyurdu: *"Ruhumu qüdrət əlində tutan Allaha and olsun ki, vəhşi heyvanlar insanlarla danışmadıqca, şəxslə qamçısının ucundakı dəri, ayaqqabısının bağı danışmadıqca, özündən sonra əhlinin nə etdiyini dizləri xəbər vermədikcə qiyamət qopmaz".*[490]

قَالَ رَسُولُ اللهِ (ص):لاَ تَقُومُ السَّاعَةُ حَتّى تَضْطَرِبَ أَلْيَاتُ نِسَاءِ دَوْسٍ حَوْلَ ذِي الْخَلصَةِ، وَذُو الْخَلَصَةِ: طَاغِيَةُ دَوْسٍ الّتِى كَانُوا يَعْبُدُونَ فِي الْجَاهِلِيّةِ.

**2.** Rəsulullah (s) buyurdu: *"Dəvs qəbiləsinin qadınlarının qıçları, Zulxalasa*[491] *bütünün ətrafında titrəmədikcə qiyamət qopmaz".*[492]

**Açıqlama:**

**1-** Hədisin bəzi vəchlərində Zul-xalasa bütünün yeri də zikr edilmişdir: Təbalə Taiflə Yəmən arasında Yəmənə altı günlük məsafədə bir yerdir. Mamər rəvayətində: "Bu gün orada qapalı bir bina mövcuddur" demişdir.

**2-** İbnut-Tin Dəvs qadınlarının qıçlarının titrəməsi təbiri ilə əlaqəli olaraq deyir: "Hədisdə Dəvs qadınlarının qeyd edilən bütə gedərkən heyvana mindiklərinə dəlil vardır: "qıçlarının titrəmə-si"ndən məqsəd budur". Ancaq İbn Hacər bir başqa mənanın ehtimal olduğunu deyir: "Bəlkə də onlar bütün ətrafında təvaf edərkən izdiham yaranır, sıxlıq səbəbilə arxaları bir-birlərinə də-yər". Bu mənada olan bir digər rəvayət belədir: *"Bəni-Amirin qadınlarının çiyinləri Zul-xalasa bütünün ətrafında bir-birinə dəymədikcə qiyamət qopmaz".* Bir digər hədisdə "Lat və Üzzaya təkrar inanmadıqca qiyamət qopmaz" buyurulmuşdur.

---

490 Tirmizi, Fitən 19, 2182
491 Zul-xalasa – Dəvslilərin cahiliyyə dövrində inandıqları (Təbalədəki) bütdür.
492 Buxari, Fitən 23; Müslim, Fitən 51, 2906

Şərhçilər təkrar bütə inanmağa başlanacağını xəbər verən bu hədisləri dəyərləndirərkən deyirlər: “Bu hədislərdən məqsəd yer üzündən həqiqi dinin tamamən silinəcəyini xəbər vermək deyildir. Çünki İslamın qiyamətə qədər davam edəcəyini xəbər verən rəvayətlər vardır. Ancaq zamanla din zəifləyəcək və başlanğıcda olduğu kimi qərib qalacaq”.

Bunu ifadə edən hədisləri əvvəldə qeyd etdik.

وعن حذيفة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): لاَ تَقُومُ السَّاعَةُ حَتّى يَكُونَ أَسْعَدُ النَّاسِ بِالدُّنْيَا لُكَعَ بْنَ لُكَعٍ.

**3.** Hüzeyfə ibn Yəman nəql edir: “Rəsulullah (s) buyurdu: *“İnsanların dünyaca ən bəxtiyarını adilər təşkil etmədikcə qiyamət qopmaz”.*[493]

**Açıqlama:**

“Luk`ə ibn Luk`ə” təbirini “adi” deyə tərcümə etdik. Ən adi və ya ayaq dəsti deyə tərcüməsi də caizdir. Bununla elmsiz, mürüvvətsiz kimsələr nəzərdə tutulur. Hədisdə mövzu olan xoşbəxtlik dünyəvi xoşbəxtlikdir. Mal, mülk, sərvət, ad-san və məqam sahibi olmaq kimi. Qiyamətə yaxın ictimai nizamın pozulması nəticəsində ləyaqətsiz şəxslər himayədarlıqla, qeyri-qanuni qazanclarla bir qisim imkanlara nail olacaqlar. Hədis bu pozğunluğu xəbər verir.

وعن أنس رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): لاَ تَقُومُ السَّاعَةُ عَلى أحَدٍ يَقولُ: اللّٰهُ اللّٰهُ.

**4.** Ənəs nəql edir: “Rəsulullah (s) buyurdu: *“Qiyamət “Allah, Allah!” deyən bir kəsin üzərinə qopmayacaqdır”.*[494]

**Açıqlama:**

**1-** Hədisin bir başqa nəqlində: “Yer üzündə “Allah, Allah!” deyən qaldıqca qiyamət qopmaz” buyurulmuşdur. Buna görə, yer üzündə “Allah, Allah” deyən insan olduqca qiyamət qopmaya-

---

[493] Tirmizi, Fitən 37, 2210

[494] Müslim, İman 234, 148; Tirmizi, Fitən 35, 2208

caqdır. Bir başqa ifadə ilə, gün gələcək yer üzündə "Allah, Allah" deyən insan qalmayacaq. Bu səbəblə də qiyamət qopacaqdır. Hədisin zahirində bu məna vardır. Halbuki yuxarıda da izah olunduğu kimi başqa hədislərdə qiyamətə qədər yer üzündə Allaha ibadət edənlərin əksik olmayacağı bildirilir. İrəlidə qeyd edəcəyimiz hədisdə də "qiyamətin insanların ən şərləri üzərinə qopacağı" ifadə edilmişdir.

Alimlərə görə: "Qiyamətin qopmasından məqsəd qiyamətin yaxınlaşmasıdır. Bir başqa deyimlə, Yəmən tərəfindən əsib möminlərin ruhunu qəbz edəcəyi bildirilən küləyin gəlmə vaxtıdır. Bu küləklə "Allah, Allah" deyən bütün möminlərin ruhu qəbz ediləcək, qiyamət də yerdə qalan şərlərin üzərinə qopacaqdır. O dəhşətli hadisəni onlar gözləri ilə görüb, felən yaşayacaqlar".

وفي أخرى للشيخين: لا تَقُومُ السَّاعَةُ حَتّى يَقُومَ رَجُلٌ مِنْ قَحْطَانَ يَسُوقُ النَّاسُ بِعَصَاهُ.

**6.** "Səhiheyin"də gələn bir digər rəvayətdə: "Qəhtandan insanları əlindəki dəyənəklə idarə edən bir adam çıxmadıqca qiyamət qopmaz" buyurulmuşdur".[495]

**Açıqlama:**

Qəhtandan çıxacaq olan bu şəxsin mahiyyəti ixtilaflıdır: Adil və ya zalım olması bəlli deyildir. Adı da zikr edilməmişdir. Hədisin verdiyi zahiri mənaya görə Qəhtani zalım bir kimsədir. İnsanları qoyun sürüsü kimi sopa ilə idarə edəcəkdir. Qurtubi: "Dəyənəklə sövq etmə" təbiri Qəhtaninin xalqa zorla qələbə çalmasından və xalqın da ona boyun əyməsinə eyhamdır, deyir və davamında: "Bəlkə hədisdə sopanın özü məqsəd deyildir, amma onun xalqa sərt və mərhəmətsiz davranacağına bir işarədir" deyə qeyd edir.

Bəzi alimlər bu Qəhtaninin digər bir hədisdə adı keçən Cəhcah ola biləcəyini, belə ki, "Cahcah" bağıran mənasına gəl-

[495] Buxari, Fitən 23, Mənaqib 7; Müslim, Fitən 60, 2910

diyi üçün bunun, sopaya müvafiq bir sifət olduğunu söyləmişdir. İbn Hacər bu ehtimalı bəzi əlamətlərin rədd etdiyini izah edir. Bu əlamətlər bunlardır:

* Qəhtaninin mütləq bir şəkildə Qəhtandan olacağı ifadə edilmişdir. Bu vəziyyətə görə azad bir şəxsdir.

* Cəhcahın isə Məvalidən olacağı bildirilir. Həmçinin Mehdidən sonra onun surəti üzrə olacağı bildirilir.

* İbn Hacərin qeyd etdiyi dəlillərdən birinə görə bir rəvayətdə həbəşlilərin Kəbəni qiyamətə yaxın dağıdacaqları, bundan sonra Qəhtaninin hücum edərək onları məhv edəcəyi bildirilmişdir.

* İbn Hacər bir digər əlamət olaraq, bu hədisi Müslimin kitabından götürdüyünü göstərir və "Müslim Qəhtani hədisini "iki incə ayaqlı ("zus-siveyqateyn") həbəşlinin Kəbəni dağıdacağını" xəbər verən hədisin ardından qeyd etmişdir. Ehtimal ki, Müslim bununla Qəhtaninin həbəşlilərin dağıntılarını təmir etmək üçün ortaya çıxan müsbət bir şəxs olduğuna işarə etmək istəmişdir" deyir.

قَالَ رَسُولُ اللّٰهِ (ص): لاَ تَقُومُ السَّاعَةُ حَتّٰى يَحْسِرَ الْفُرَاتُ عَنْ جَبَلٍ مِنْ ذَهَبٍ، يَقْتَتِلُ عَلَيْهِ النَّاسُ فَيُقْتَلُ مِنْ كُلِّ مِائَةٍ تِسْعَةٌ وَتِسْعُونَ. فَيَقُولُ كُلُّ رَجُلٍ مِنْهُمْ: لَعَلِّي أَنْ أَكُونَ أَنَا أَنْجُو.

**7.** Rəsulullah (s) buyurdu: *"Fərat çayı qızıl bir dağ üzərindən axmadıqca qiyamət qopmaz. Onun üçün insanlar bir-biri ilə döyüşərlər. Yüz nəfərdən doxsan doqquzu öldürülər. Onlardan hər biri: "Hər halda döyüşü mən qazanacağam" deyər".*[496]

**Açıqlama:**

**1-** Hədisin Buxaridə gələn bir nəqlində: *"...Kim o hadisəyə şahid olarsa, ondan heç bir şey almasın"* əlavəsi də var . İbn Hacər *"Ondan heç bir şey almasın"* ifadəsinə əsasən, ortaya çıxacaq bu qızılın dinar (şəklində basılmış pul) qızıl qəlibləri və

---

[496] Buxari, Fitən 24, Müslim, Fitən 29, 2894; Əbu Davud, Melahim 13, 4313, 4314; Tirmizi, Cənnət 26, 2572, 2573

ya qızıl tozu şəklində ola biləcəyini, hamısının caiz olduğunu söyləyir.

**2-** Bir rəvayətdə qızıldan dağ, bir başqa rəvayətdə "qızıldan xəzinə (kənz)" ifadəsi istifadə edilmişdir. Dağla çoxluğun kinayə edildiyi izah edilir.

وعن أنس رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): لاَ تَقُومُ السَّاعَةُ حَتّى يَتَقَارَبَ الزَّمَانُ فَتَكُونُ السَّنَةُ كَالشَّهْرِ، وَالشَّهْرُ كَالْجُمْعَةِ، وَالْجُمْعَةُ كَالْيَوْمِ، وَالْيَوْمُ كالسَّاعَةِ، وَالسّاعَةُ كَالضَّرَمَةِ مِنَ النَّارِ.

**8.** Ənəs ibn Malik nəql edir: "Hz. Peyğəmbər (s) buyurdu: *"Zaman yaxınlaşmadıqca qiyamət qopmaz. Bu yaxınlaşma elə olar ki, bir il bir ay kimi, ay bir həftə kimi, həftə də bir gün kimi, gün saat kimi, saat da bir talaşanın yanması kimi qısa olar".*[497]

**Açıqlama:**

"Zamanın yaxınlaşması" təbiri üçün bu açıqlama qeyd edilir: "Bu, zamanın bərəkətinin azlığına və hər yerdə faydasının azalmasına işarədir. Yaxud da, insanların qarşılaşdıqları müsibətlərə maraqları və qəlblərinin böyük fitnələrlə məşğuliyyəti kimi səbəblərlə gecə və gündüzlərinin necə keçdiyini dərk edə bilməmələrinə işarədir".

قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ اللّٰهَ تَعالى يَبْعَثُ رِيحاً مِنَ الْيَمَنِ أَلْيَنَ مِنَ الْحَرِيرِ، فَلا تَدَعُ أحَداً في قَلْبِهِ مِثْقَالُ حَبَّةٍ مِنْ إيمَانٍ إلاَّ قَبَضَتْهُ.

**9.** Rəsulullah (s) buyurdu: *"Allah-Təala ipəkdən daha yumşaq bir küləyi Yəməndən göndərər. Bu külək qəlbində zərrə qədər iman olan heç kimsəni buraxmadan hamısının ruhunu qəbz edər".*[498]

وعن ابنِ مسعود رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): لاَ تَقُومُ السّاعَةُ إلاَّ عَلى شِرَارِ النَّاسِ.

---

[497] Tirmizi, Zöhd 24, 2333
[498] Müslim, İman 185, 117

**10.** Abdullah ibn Məsud nəql edir: “Rəsulullah (s): *“Qiyamət sadəcə şər insanların üzərinə qopacaqdır!” buyurdu”.*[499]

**Açıqlama:**

**1-** Son iki hədis qiyamətin tam qopmasından əvvəl Yəmən tərəfindən əsəcək bir küləklə bütün möminlərin öləcəyi, geriyə pis və şər insanların qalacağını, qiyamətin də onların üzərinə qopacağını izah edir.

Bəzi rəvayətlərdə qiyamətə yaxın, möminlərin ruhunu qəbz edəcək olan küləyin Şam tərəfdən əsəcəyi ifadə edilmişdir. Bu iki fərqli rəvayəti İmam Nəvəvi belə iki yöndən izah edir:

**1)** “Bu küləklərin biri Yəmən, digəri də Şamdan olmaqla iki dənə olması mümkündür.

**2)** Qeyd edilən külək bu iki bölgənin birindən başlayıb digərinə çatar, oradan da hər tərəfə yayılar, bu da bir ehtimaldir”.

**2-** Küləyin ipəkdən yumşaq olmasını bəzi alimlər, *“Allahın, mömin qullarına bir ikram və lütf olaraq ruhlarını əziyyətsiz alacağı”* şəklində izah etsə də, bəziləri “Möminlərin ruhlarının məşəqqətlə alınması, onların lehinədir. Beləcə günahlarından tam təmizlənmiş olaraq axirətə gedərlər” deyərək etiraz etmiş və bu mənanı dəstəkləyən rəvayətləri dəlil göstərmişlər.

وعن ابن زُغْبِ الإيادي قال: نَزَلْتُ عَلى عَبْدِ اللّٰهِ بنِ حَوَالَةَ الأزْدِيّ رَضِيَ اللّٰهُ عَنْه. فقَالَ لي: بَعَثَنَا رَسُولُ اللّٰهِ (ص) لِنَغْنَمَ عَلى أقْدَامِنَا فَرَجِعْنَا وَلَمْ نَغْنَمْ شَيْئاً، وَعَرَفَ الْجَهْدَ في وُجُوهِنَا فقَامَ فِينَا. فقالَ: اللّهُمّ فلاَ تَكِلْهُمْ اليّ فأضْعَفَ عَنْهُمْ، وَلا تَكِلْهُمْ الى أنْفُسِهِمْ فَيَعْجِزُوا عنْهَا، وَلا تُكِلْهُمْ الى النَّاسِ فَيَسْتَأثِرُوا عَلَيْهِمْ. ثُمَّ وَضَعَ يَدَهُ عَلى رأسِي، ثُمَّ قَالَ: يَا ابْنَ حَوَالَةَ إذَا رَأيْتَ الْخِلافَةَ نَزَلَتِ الأرْضَ الْمُقَدَّسَةَ فَقَدْ دَنَتِ الزَّزِلُ وَالبَلابِلُ وَالأمُورُ الْعِظَامُ، وَالسَّاعَةُ يَوْمَئِذٍ أقْرَبُ الى النَّاسِ مِنْ يَدِى هذِهِ مِنْ رَأسِكَ.

**11.** İbn Zuğb əl-İyadi nəql edir: “Abdullah ibn Həvalə əl-Əzdinin yanına getdim. Mənə, “Rəsulullah (s) bizi, qənimət alaq deyə piyada olaraq göndərdi. Biz də heç bir qənimət əldə etmədən geri döndük. Yorğunluğumuzu üzümüzdən anlayaraq: *“Ey Allahım, onları mənə yük etmə; mən onları üzərimə almaqda acizəm! Onları özlərinə də yük etmə, bu işdə özləri də acizdirlər.*

[499] Müslim, Fitən 131, 2949

*Onları digər insanlara da yük etmə özlərini onlardan üstün tutarlar!”* buyurdu. Sonra əlini başımın üstünə qoydu və dedi: *“Ey İbn Həvalə! Xilafətin (Mədinədən) Ərzi Müqəddəsə (Şama) endiyini görərsən, bil ki, artıq zəlzələlər, kədərlər, böyük hadisələr yaxındır. O gün qiyamət insanlara, bu əlimin başına olan yaxınlığından daha yaxındır”.*[500]

**Açıqlama:**

**1-** Xilafətin Şama enməsi demək, xilafət mərkəzinin Mədinədən Dəməşqə yəni bugünkü Şamu-Şərifə köçürülməsi deməkdir. Xilafətdən məqsəd də peyğəmbər xilafətidir. Həqiqətən bu hadisə Əməvilər zamanında həyata keçmişdir. İslam dövlətinin mərkəzi Mədinədən Şama köçürülmüşdür.

**2-** Hədisdəki məna budur: “İnsanların işlərini mənə həvalə etmə, mən onu yerinə yetirməkdə acizəm, özlərinə də buraxma, şəhvətlərinin və şərlərinin çoxluğu səbəbilə onlar da aciz qalarlar. Onları insanlara da həvalə etmə, onlar da özlərini bunlara tərcih edərlər və əmanət edilən bu işi yerinə yetirməzlər. Onlar sənin qullarındır, ağalar kölələrinə necə davranırlarsa, Sən də qullarınla elə davran!”

وعن علي رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إذَا فَعَلَتْ أُمَّتِي خَمْسَ عَشْرَةَ خَصْلَةً حَلَّ بِهَا الْبَلاءُ. قِيلَ: وَمَا هِيَ يَا رَسُولَ اللّٰهِ؟ قَالَ: إذَا كَانَ الْمُغْنَمُ دُوَلاً، وَالأمَانَةُ مَغْنَماً، وَالزَّكَاةُ مَغْرَماً، وَأطَاعَ الرَّجُلُ زَوْجَتَهُ، وَعَقَّ أُمَّهُ، وَبَرَّ صَدِيقَهُ، وَجَفا أبَاهُ، وَارْتَفَعَتِ الأصْوَاتُ في الْمَسَاجِدِ، وَكَانَ زَعِيمُ الْقَوْمِ أرْذَلَهُمْ، وَأُكْرِمَ الرَّجُلُ مَخَافَةَ شَرِّهِ، وَشُرِبَ الْخَمْرُ، وَلُبِسَ الْحَرِيرُ، وَاتُخِذَتِ الْقَيْنَاتُ وَالْمَعَازِفُ وَلَعَنَ آخِرُ هذِهِ الأمَّةِ أوَّلَهَا، فَلْيَرْتَقِبُوا عِنْدَ ذلِكَ رِيْحاً حَمْراءَ وَخَسَفاً أوْ مَسْخاً وَقَذْفاً.

**12.** Hz. Əli (ə) nəql edir: “Rəsulullah (s) bir gün: *“Ümmətim on beş şeyi yerinə yetirməyə başlayınca ona böyük bəlanın gəlməsi vacib olar!”* buyurdu. (Yanındakılar): “Ey Allahın Rəsulu! Bunlar nələrdir?” deyə soruşdular. Həzrət saydı:

***** *Qənimət (yəni milli sərvət, fəqir-füqəraya çatmadan sadəcə zəngin və mövqe sahibi olan şəxslər arasında) dövr edilən bir mal halına gələrsə;*

[500] Əbu Davud, Cihad 37, 2535

** Əmanət (edilən şeyləri əmanət alan şəxslər, məsul və səlahiyyətlilər, məmurlar) qənimət (mal yerini tutub, talayıb nəfslərinə halal) qıldıqları zaman.*

** Zəkat ödəməni ibadət bilməyib bir cəza hesab etdikləri zaman.*

** Ər anasının hüququna riayət etməyib, qadınına itaət etdiyi zaman;*

** Atasından uzaqlaşıb qayınatasına yaxınlaşdığı zaman;*

** Məscidlərdə səslər yüksəldiyi zaman.*

** Qövmə onların ən alçağı rəis olduğu zaman;*

** (Dövlətin zəifliyi səbəbilə təhdid və zülmlə insanları söndürən zorba) şəxsə zərəri toxunmasın deyə hörmət etdiyi zaman;*

** (Çeşidli adlarla emal edilən) içkilər (sərbəst) içildiyi zaman;*

** İpək (haram bilinməyib kişilər tərəfindən) geyildiyi zaman;*

** (Sənət, balet, konsert kimi çeşidli adlar altında; bar, kazino, rəqs və salonlarda və hətta televizor və film kimi çeşidli vasitələrlə yayğın şəkildə) müğənni qadınlar və çalğı alətləri aşar edildiyi zaman;*

** Bu ümmətin sonradan gələn nəsilləri, öncədən gəlib keənərə (çeşidli itthamlar və bəhanələrlə) həqarət etdiyi zaman artıq qızıl küləyi, zəlzələni, yerə batışı və ya göydən daş yağmasını gözləyin".*[501]

**Açıqlama:**

**1-** Bu hədisi, ümmət ümumiyyətlə, qızıl külək hədisi olaraq bilinir. Hədisdə Həzrət, qiyamətə yaxın İslam ümmətinin ictimai həyatında hakim olacaq ən çox ictimai xəstəlikləri diqqətə çəkəkdədir. Bu sayılanlardan hər biri həqiqətən ictimai bir xəstəikdir. Bəşəriyyətin yaradılış hikmətinə əsasən bu xəstəliklərə hər dövrdə hər yerdə rast gəlinir. Ancaq çərçivəsi dar, gücü zəifdir. Lakin, məlum olan budur ki, qiyamət öncəsi zəruri bir hal olaraq, bunlar həm genişlik, həm də fövqəladə hal qazanaraq cəmiyyətin orqanizmində yer tutacaq. Bəşəriyyəti bütövlükdə bir üzvə, bir

[501] Tirmizi, Fitən 39, 2211

heyətə bənzətsək, bu böyük bəşəri üzvlər eynən bir insan kimi, orqanizmə yerləşən bu qədər ağır xəstəliklərə dayanaraq, on beş növ xəstəliklə, ağır xəstə yatan müalicəsiz bir bədən kimi, ölüm ona daha xeyirli və bəlkə də bir qurtuluş olacaqdır. Qiyamət bir baxıma sağalmaz şəkildə ictimai xəstəliklərlə aludə olmuş bəşəriyyətin ölümüdür.

وعن ابنِ عمرو بنِ العاص رَضِيَ اللّٰهُ عَنْهما قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): أَوَّلُ الآياتِ خُروجاً طُلُوعُ الشَّمْسِ مِنْ مَغْرِبِهَا، وَخُرُوجُ الدَّابَّةِ عَلى النَّاسِ ضُحى، فأَيَّتُهُمَا كَانَتْ فَالأُخْرَى على أَثَرِهَا.

**13.** İbn Əmr ibn As nəql edir: "Rəsulullah (s) buyurdu: *"Çıxış etibarı ilə, qiyamət əlamətlərinin ilki günəşin batdığı yerdən doğması, quşluk vaxtı insanlara "dəbbətul-ərzin" görünməsidir. Bunlardan hansı öncə çıxarsa, digəri də onun həmən ardındadır".*[502]

**Açıqlama:**

**1-** Bu hədis ilk çıxacaq qiyamət əlaməti barədə varid olmuşdur. Diqqət edilərsə, zikr edilən iki əlamətdən hansının daha öncə olacağı barədə qəti bir ifadə yoxdur. Ancaq biri digərinin izindədir; biri çıxınca digəri həmən onu təqib edəcəkdir. İlk çıxacaq əlamətin hansı olacağı barədə üləmalar arasında ixtilaf vardır.

**2-** Burada hədisdə keçən "dəbbətul-ərzdən" bəhs etmək istəyirik. "Dəbbətul-ərz" təbir olaraq yer heyvanı deməkdir. Qurani-Kərimdə ("Nəml", ayə-82) və bir çox hədisdə qiyamətə yaxın, qiyamət əlamətlərindən biri olaraq "dəbbətul-ərzin" çıxacağından bəhs edilmişdir. Bir çox kitablarda bununla əlaqəli fərqli açıqlama və təsvirlər mövcuddur. Bəziləri bunlardır:

***** Bununla cəhalətdə heyvanlar mənziləsində olan pislər qəsd olmuşdur.

***** Bəziləri: "Hədisdə keçən, "Cəssasədir" demişdir.

***** Hz. Əli: "Saqqallı olan bir adamdır" demişdir.

---

[502]Müslim, Fitən 118, 2941; Əbu Davud, Məlahim 12, 4310

***** Bir hədisdə: “Dəbbətul-ərz” Musanın əsası və Süleymanın möhürü yanında olaraq çıxacaq, möhür ilə möminin üzünü parladacaq, əsa ilə kafirin burnunu qıracaq, insanlar süfrəyə toplanacaq, mömin kafir tanınacaq” deyilir.

* Bəzi təfsir alimlər isə onun Qiyamətdən əvvəl rəcətdə qayıdacaq İmam Əli (ə) olduğunu qeyd edirlər.

***** Bəzi alimlər: “Dəbbə”, əmr bilməruf nəhy anilmünkər tərk edilincə çıxacaq” demişdir.

***** Bəzi müfəssirlər onun Səfa dağından çıxacaq böyük bir heyvan olduğunu söyləmişdir.

***** Bəziləri onun, birincisi Hz. Mehdi, ikincisi Hz. İsadan sonra, üçüncüsü də günəş qərbdən doğduqdan sonra olmaqla üç dəfə çıxacağını söyləmişdir.

وعن معاذ بن جبل رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): عُمْرَانُ بَيْتُ المَقْدِسِ خَرَابُ يَثْرِبَ، وَخَرَابُ يَثْرِبَ خَرُوجُ الْمَلْحَمَةِ، وَالْمَلْحَمَةُ فَتْحُ الْقُسْطَنْطِينِيّةِ: وَفَتْحُ الْقُسْطَنْطِينِيّةُ خُرُوجُ الدَّجَّالِ. ثُمَّ ضَرَبَ بِيَدِهِ عَلى فَخِذِ الّذِى حَدَّثَهُ؛ ثُمّ قَالَ: إنّ هذَا الْحَقُّ كَمَا أنّكَ قَاعِدٌ ههُنَا.

**14.** Muaz ibn Cəbəl nəql edir: “Rəsulullah (s) bir gün: *“Beytul-Məqdisin abad edilməsi Yəsribin xarabaya çevrilməsidir. Yəsribin xarabaya çevrilməsi savaşın ortaya çıxmasıdır. Savaş İstanbulun fəthidir, İstanbulun fəthi Dəccalın çıxmasıdır!”* buyurdu. Sonra əlini (Rəsulullah), danışmaqda olduğu şəxsin (yəni Muazın) dizinə vurdu və: *“Bu söylədiyim qəti olaraq həqiqətdir. Eynən sənin burada oturmağın haqq olduğu kimi” buyurdu.”*[503]

**Açıqlama:**

Burada bir-biri ilə əlaqəli olaraq baş verəcək bəzi hadisələr diqqəti cəlb edir. Əbu Davud bu hədisi “İmaratul-Melahim” başlığı altında qeyd edir. Buna görə, qeyd edilən hadisələr məlhəmə deyilən böyük savaşların çıxmasına əlamətdir; o da Dəccalın çıxmasına...

* Beytul-Müqəddəs, Məscidul-Əqsa deyilən Qüds şəhərindəki müqəddəs məsciddir.

---

[503] Əbu Davud, Məlahim 3, 4294

* Yəsrib, Mədineyi-Münəvvərənin cahiliyyə dövründəki qədim adıdır.

Hədisi bəzi şərhçilər: "Məscidul-Əqsanın abadlığı Mədinənin xarabaya çevrilməsinə səbəbdir" deyə izah etmişlər. Ancaq bəziləri "səbəb"i qəbul etməz, "Məscidul-Əqsanın abadlığı, Mədinənin xarabaya çevrildiyi zaman mümkündür" şəklində açıqlama verir.

Bəzi şərhçilər, "Beytul-Müqəddəsin abadlığı"ndan xarabaya çevrilməsindən sonra yenidən abad edilməsinə işarə olduğunu demişlər. "Çünki deyirlər, axırzamanda o xaraba olar, kafirlər sonra abad edərlər".

* Hədisdə keçən məlhəmə yəni böyük savaşdan, Şam ilə Rum arasında çıxacaq böyük bir savaş anlaşılsa da, İbn Mələk "Şamla Tatarların arasında baş verəcək savaşın qəsd edildiyini" söyləyir.

Bəzi alimlər bunlardan hər birinin özündən sonra baş verəcək bir hadisənin əlaməti olduğunu izah edirlər.

Rəsulullah Muaza bu söylədiklərinin həqiqəti ifadə etdiyini bildirmişdir. Həqiqətən də hamısı həyata keçir.

وعن عبداللّهِ بن بسر رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): بَيْنَ الْمَلْحَمَةِ وَ فَتْحِ الْمَدِينَةِ سِتُّ سِنِينَ وَيَخْرُجُ الْمَسِيحُ الدَّجَّالُ في السَّابِعَةِ.

**15.** Abdullah ibn Busr nəql edir: "Rəsulullah (s) buyurdu: *"Məlhəmə ilə Mədinənin fəthi arasında altı il var. Yeddinci ildə də Məsih Dəccal çıxar".*[504]

## Surun üfürülməsi və həşr

عن أبي سعيد رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): كَيْفَ أَنْعَمُ وَقَدِ الْتَقَمَ صَاحِبُ الْقَرْنِ الْقَرْنَ وَحَنَا جَبْهَتَهُ وَاصْغاً سَمْعَهُ يَنْتَظِرُ أَنْ يُؤْمَرَ فَيَنْفُخَ. فَكَأَنَّ ذَلِكَ ثَقُلَ عَلَى أَصْحَابِهِ رَضِيَ اللّهُ عَنْهم، فقَالُوا: كَيْفَ نَفْعَلُ أَوْ كَيْفَ نَقُولُ؟ قَالَ: قُولُوا: حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ، تَوَكَّلْنَا عَلَى اللّهِ، وَرُبَّمَا قَال: عَلَى اللّهِ تَوَكَّلْنَا.

---

504 Əbu Davud, Melahim 4, 4296; İbn Mace, Fitən 35, 4093

**1.** Əbu Səid əl-Xudri nəql edir: “Rəsulullah (s): *“Surun sahibi (İsrafil (ə)) sur deyilən borusunu ağzına almış, üzünü çevirmiş, qulağını açmış və üfləmə əmrini gözləyərkən mən necə dünya nemətlərindən istifadə edə bilərəm?”* buyurmuşdur. Bu, sanki əshabına çox ağır gəlmişdi: “Yaxşı biz nə edək (və ya nə deyək) ey Allahın Rəsulu?” deyə soruşdular.

Onlara: *“Həsbinallahi və ni'məl vəkil (Allah bizə yetər, o nə gözəl vəkildir!), Allaha təvəkkül etdik. (bəlkə də “təvəkkülümüz Allahadır!” demişdi) deyin!”* deyə əmir etdi”.[505]

**Açıqlama:**

əl-Qazi Peyğəmbərin bu hədisdə: “Qiyaməti qoparacaq olan İsrafil surunu ağzına dayamış, üfləmə əmri gözləyərkən yəni qiyamət bu qədər yaxınlaşmışkən, mən necə rahat yaşaya bilərəm?” demək istədiyini söyləyir. Qiyamət və ölüm hadisələrinin anılmasında, xatırlanmasında insanlara bir dərs, bir nəsihət var. Rəsulullah bu dərsi verir.

سُئِلَ رَسُولُ اللّٰهِ (ص) عَنِ الصُّورِ، قَالَ: قَرْنٌ يُنْفَخُ فيهِ.

**2.** Rəsulullahdan (s) sur haqqında soruşuldu: *“Bu, içinə üflənən bir buynuzdur!”* deyə cavab verdi”.[506]

**Açıqlama:**

**1-** Rəvayətin Tirmizidəki nəqlində bu sualı bir bədəvinin verdiyi bildirilir.

**2-** Sur haqqında Mücahiddən gələn bir açıqlamaya görə sur buynuz kimi bir şeydir. Yəmən ləhcəsində “sur” kəlməsi buynuz mənasında bir təbirdir. Bəzilərinə görə bu kəlmə surət kəlməsinin cəmidir. Yəni ölülərin surətləri, bunlara ruh üflənər. Ancaq doğru olanı əvvəlki açıqlamadır. Çünki hədislərdə bu bəzən “buynuz” mənasında olan “qərn” kəlməsiylə ifadə edilmişdir.

Alimlər ayələrin təhlilindən İsrafilin sura üç dəfə üfləyəcəyini qeyd etmişlər.

---

[505] Tirmizi, Qiyamət 9, 2433
[506] Əbu Davud, Sünnət 24, 4742; Tirmizi, Qiyamət 9, 2432

“Birincisi nəfhai-fəzadır: Bunda göylərdə və yerdə kim var-sa, Allah-Təalanın dilədiyi şəxslərdən başqa, hamı dəhşətdən sarsılacaqdır. Qurani-Kərimin bu barədə buyurulur: ***“Sur çalınacağı gün Allahın istədiklərindən (məhrəm mələklərdən, yaxud Allahın yanında həmişə diri olan şəhidlərdən) başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşər və onların hamısı Onun hüzuruna müti (zəlil) vəziyyətdə gələr.”***[507]

İkincisi nəfhai-saqdır: Bunda Allahın dilədiklərindən başqa hamı yıxılıb öləcəkdir. Bu barədə Qurani-Kərimdə buyurulur: ***“Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən (Cəbrail, Mikail, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərdən) başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar!”***[508]

Üçüncüsü nəfhai-qiyamdır. Bu surun üflənməsi ilə bütün insanlar dirilib qəbirdən qalxacaq və məhşər yerinə hesab vermək üçün qaçacaqlar. Bu barədə Qurani-Kərimdə buyurulur: ***“Sur (ikinci dəfə) çalınan kimi qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışarlar. Onlar deyərlər: “Vay halımıza! Bizi yatdığımız yerdən (qəbir evindən) kim qaldırdı? (Onlara belə deyiləcək:) “Bu, Rəhmanın buyurduğu vəddir (qiyamət günüdür). Peyğəmbərlər doğru deyirmişlər! Yalnız bir dəhşətli səs qopan (İsrafil axırıncı dəfə surunu çalan) kimi onlar hamısı (haqq-hesab üçün) qarşımızda hazır duracaqlar.”***[509]

قَالَ رَسُولُ اللّٰهِ (ص) مَا بَيْنَ النَّفْخَتَيْنِ أَرْبَعُونَ. قِيلَ أَرْبَعُونَ يَوْماً؟ قَالَ أَبُو هريرة: أَبَيْتُ. قِيلَ أَرْبَعُونَ شَهْراً؟ قَالَ أَبُو هريرة أَبْيَتُ، قِيلَ أَرْبَعُونَ سَنَةً. قَالَ: أَبَيْتُ. ثُمّ يَنْزِلُ مِنَ السَّمَاءِ مَاءٌ فَيَنْبُتُونَ كَمَا يَنْبُتُ الْبَقْلُ، وَ لَيْسَ شَىْءٌ مِنَ الإنْسَانِ يَبْلَى إلاَّ عَظْمٌ وَاحِدٌ وَهُوَ عَجبُ الذَّنَبِ، وَمِنْهُ يُرْكَبُ الْخَلْقُ يَوْمَ الْقِيَامَةِ.

**3.** Rəsulullah (s) buyurur: *“İki sur arasında qırx vardır!”*

Oradakılar ravidən: “Qırx günmi?” deyə soruşdular. Lakin o: “Bir şey deyə bilmərəm!” cavabını verdi. Təkrar: “Qırx aymı?”

[507] Nəml surəsi, ayə-87
[508] Zumər surəsi, ayə-68
[509] Yasin surəsi, ayə-51, 52, 53

dedilər. O yenə: “Bir şey deyə bilmərəm!” cavabını verdi. “Qırx ilmi?” dedilər. O yenə: “Bir şey deyə bilmərəm!” cavabını verdi və (Rəsulullahın hədisinin davamını söylədi).

*“Sonra Allah səmadan su endirəcək və insanlar yerdən səbzi bitən kimi bitəcəklər. İnsanda bir sümük xaric hər şey çürüyər. Bu çürüməyən “azbuz-zənəb” deyilən quyruq sümüyüdür. Qiyamət günü yenidən yaradılış bundan tərkib tapacaq”.*[510]

**Açıqlama:**

**1-** İsrafilin sura neçə dəfə üfləyəcəyi barədə ixtilaf edilib. Əvvəlki hədisin açıqlamasında “üç” deyənləri əsas götürdük. İki və hətta dörd deyənlər də olmuşdur. İbn Hacər dörd deyənlərin görüşünü zəif hesab edir.

**2-** Bu rəvayət iki üfləmə arasında keçəcək müddət barədə bir fikir verir: Arada bir müddət var, amma miqdarı bəlli deyil. Rəsulullah (s) söyləmiş olsa belə, ravi bu və ya digər səbəbdən dəqiq bilməmişdir. Bəzi rəvayətlərdə “qırx il”, “qırx həftə” kimi qeydlər verilsə də İbn Hacər onların zəif olduğunu bildirir.

**3-** Hədisdə insanın quyruq sümüyündə “azbuz-zənəb” deyilən bir sümük xaric bütün bədəninin çürüyəcəyi izah edilmişdir. Bəzi rəvayətlərdə suala “azbuz-zənəb” haqqında məlumat verilmişdir. Bu, xardal dənəsi böyüklüyündə son dərəcə kiçik bir zərrədir. Qiyamət günü insanın yenidən yaradılışı çürüməyən bu sümükdən başladılacaqdır. Bəzi alimlər: “Burada Allahdan başqa kimsənin bilmədiyi bir sirr var. Çünki yoxdan var edən Allah, ikinci dəfə yaradılışda, yaradılışı quracağı bir əslə möhtac deyildir” demişdir.

**4-** Hədisdə ümumi bir üslubla çürümənin hər insana şamil olacağı ifadə edilmişdir. Halbuki başqa rəvayətlərdə peyğəmbərin, şəhidlərin çürüməyəcəyi bildirilir.

وعن كعب بن مالك رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص) إنَّمَا نَسَمَةُ الْمُؤْمِنِ طَيْرٌ يَعْلِقُ في شَجَرِ الْجَنَّةِ حَتّى يُرْجِعَهُ اللّٰهُ الى جَسَدِهِ يَوْمَ يَبْعَثُهُ.

---

[510] Buxari, Təfsir, Zümər 3, Ammə 1; Müslim, Fitən 141, 2955; Müvətta, Cənaiz 48, 1, 239; Əbu Davud, Sünnət 24, 4743; Nəsai, Cənaiz 117, 4, 111

**4.** Kəb ibn Malik nəql edir: “Rəsulullah (s) buyurdu: *“Möminin ruhu cənnət ağacında bəslənən bir quş olar. Yenidən dirilmə günündə Allah onu cəsədinə döndərincəyə qədər orada bəslənir”.*[511]

**Açıqlama:**

**1-** Rəvayət Nəsaidə belədir: *“Möminin ruhu cənnət ağacında bir quş olar. Allah qiyamət günü cəsədinə göndərincəyə qədər orada qalar”.*

**2-** Şərhçilər başqa rəvayətlərə əsasən cənnətə quş olacaq ruhun, mücahidlərin və şəhid olaraq ölən möminlərin ruhları olduğunu qeyd edirlər. Digər ruhların isə bəzən səmada, bəzən məzarlarında olacaqlarını bildirirlər.

**3-** Alimlər quş olma hadisəsi üçün: “Ruh Allahın əmri ilə quş şəklində təşəkkül və təmsil edirlər. Eynən mələyin insan şəklində timsal edildiyi kimi” deyərlər və əlavə edərlər: “Ehtimal ki, burada məqsəd bəzi rəvayətlərdə gəldiyi kimi, ruhun bir quş bədəninə girməsidir” Süyuti Əbu Davuda verdiyi haşiyədə Hədisi “ruh quş olaraq təşəkkül tapar” deyə açıqlasaq, burada qəsd edilən məna sadəcə “uçmağa qadir olmaqda” bənzətmədir, yaradılış cəhətdən bənzəmə deyildir. Çünki insanın maddi şəkli məxluqatın şəkilləri arasında ən üstünüdür” deyir.

Sindi Süyutinin mülahizəsinə bunları əlavə edir: “Bu görüş insan ruhunun özünəxas bir şəkli olması halında doğrudur. Amma həqiqətdə insan ruhunun müstəqil, xüsusi bir şəkli yoxsa və şəkildən mücərrəd isə və Allah bir hikmətə əsasən bəlli bir şəkil almasını dilərsə, ilk olaraq quş şəklini almasında ağlın qəbul etməyəcəyi bir şey yoxdur”.

وعن أبي رزين العُقَيْلِي قالَ: قُلْتُ يَا رَسُولَ اللّٰهِ كَيْفَ يُعِيدُ اللّٰهُ الْخَلْقَ؟ وَمَا آيَةُ ذلِكَ؟ قَالَ: أمَا مَرَرْتَ بِوادِى قَوْمِكَ جَدْباً، ثُمَّ مَرَرْتَ بِهِ يَهْتَزُّ خَضِراً؟ قُلْتُ: نَعَمْ. قَالَ: فَتِلْكَ آيَةُ اللّٰهِ في خَلْقِهِ كَذلِكَ يُحْيِي اللّٰهُ الْمَوْتَى.

[511] Müvətta, Cənaiz 49, 1, 240; Nəsai, Cənaiz 117 4, 108; İbn Mace, Zöhd 32, 4271

**5.** Əbu Rəzin əl-Uqeyli nəql edir: “Ey Allahın Rəsulu” dedim, “Allah məxluqatı necə dirildəcək? Bunun dünyadakı misalı nədir?”

Buyurdu: *“Sən heç qövmünün üzərində yaşadığı vadidən quraq olarkən keçmədinmi? Sonra bir dəfə də hər tərəfin yam-yaşıl olduğu münbit mövsümdə keçmədinmi?”*

Mən “Əlbəttə!” deyincə: *“Bax bu, yenidən yaratmasına Allahın dəlilidir. Allah ölüləri də belə dirildəcəkdir!”* buyurdu”.

**Açıqlama:**

Axirətdə yenidən dirilməyə Rəsulullahın (s) verdiyi bu misal tamamən Qurani bir metoddur. Çünki Qurani-Kərim dünyada cərəyan edən və gözlə gördüyümüz hadisələri zikr edərək, axirətdəki dirilmənin də belə olacağını söyləyir: ***“Buludları hərəkətə gətirən küləkləri Allahdır göndərən! Biz (o buludları) quru (ölü) bir məmləkətə qovub, öldükdən sonra torpağı onunla diriltdik. (Ölüləri) diriltmək də belədir!”***[512]

وعن ابن عبّاس رَضِيَ اللّهُ عَنْهما قال: في قوله تعالى: **فإذَا نُقِرَ في النَّاقُورِ.** قَالَ: هُوَ الصُّورُ، والرَّاجِفَةُ النَّفْخَةُ الأولى، والرَّادِفَةُ الثَّانِيَةُ.

**6.** İbn Abbas ***“Elə ki, sur çalındı”***[513] ayəsi ilə bağlı olaraq dedi: “Bu, surdur. Surədə keçən “racifə”, birinci üfləmə, “radifə” də ikinci üfləmədir”.[514]

**Açıqlama:**

**1-** İbn Hacər bu hədisin açıqlamasında suru üfləyəcək mələkdən bəhs edərkən, suru İsrafilin (ə) üfləyəcəyi barədə Həliminin qeydini nəql etdikdən sonra, bəzi rəvayətlərdə də iki sur üfləyicisindən bəhs edildiyinə toxunur. Bu rəvayətlərdən birində “Hər sabah, sura müvəkkil iki mələk ona üfləmə əmrini gözləyər” deyir.

---

[512] Fatir surəsi, ayə-9
[513] Müddəssirsurəsi, ayə-8
[514] Buxari, Riqaq 43

İbn Hacər bu mənanı ifadə edən hədislərdən bəzilərini qeyd etdikdən sonra birinci üfləməni başqa bir mələyin, ikinci üfləməni isə İsrafilin edəcəyini ifadə edən Aişədən gələn bu rəvayəti qeyd edir: “O mələk İsrafilin qanad çırpdığını görüncə sura üfləyər. O, birinci üfləməni edər ki, buna nefhai-saq deyilir. Sonra İsrafil ikinci üfləməni yerinə yetirər. Buna da nefhai-bə`s (yenidən dirilmə nefhai-qiyam da deyilir)”.

**2-** Qeyd etdiyimiz hədis “Müddəssir” surəsində keçən naqur və “Naziat” surəsində keçən “racifə” və “radifə” kəlmələri haqqında İbn Abbasın verdiyi açıqlamanı təqdim edir. Buna görə qeyd edilən naqurdan məqsəd, İsrafilin qiyamət günü ölülərin dirilməsi üçün üfləyəcəyi surdur. Surdan Quranda bir çox ayədə bəhs edilmişdir. Əvvəldə onları sizə təqdim etdik.

**3-** Sur kəlməsini Həsən Bəsri “suvər” şəklində oxumuşdur. “Suvər” surətin cəmidir. Bu təqdirdə mənanı belə təvil etmişdir: “Üfləmədən murad cəsədlərdir, ta ki, ruhlar cəsədlərə dönsünlər. Əbu Ubeydə “surət cəm olaraq “suvər” şəklində oxumanın da” caiz olduğunu, başqa şahidlərlə göstərir. Belə olunca, iki qiraət də eyni mənanı ifadə etmiş olur. Ancaq Əzhəri bu izahın qəbul etdiyi şəklə müxalif olduğunu bildirmişdir.

İbn Hacər bu ixtilafı qeyd etdikdən sonra Əbuş-Şeyxin “Kitabul-Əzəmət”indən Vəhəb ibn Münəbbihin bir rəvayətini qeyd edir: “Allah suru kristal şüşə saflığındakı incidən yaratdı. Sonra Ərşə: “Suru al və (bir küncünə) as!” dedi. Sonra, “Ol!” əmr verdi və İsrafil oldu. İsrafilə suru almasını əmr etdi. İsrafil də (Ərşdə asılı olan suru) aldı, onda yaradılmış hər bir ruh, həyat sahibi, hər bir nəfəs üçün bir dəlik açdı. Sonra bütün ruhlar surda toplanacaqlar. Sonra Allah İsrafilə əmr edər, o da sura (cəsədlərə) üflər və hər bir ruh cəsədinə girər”.

İbn Hacər deyir ki: “Bu hədisə görə, üfləmə hadisəsi öncə ruhların sura (ki, bu mənada cəsədlər deməkdir) çatması üçün əmələ gələr. Elə isə burada üfləmənin buynuz olan “sur”a bağlanması həqiqətdir, cəsədlər olan “sur”a istinadı isə məcazdır.

وعن أبي سعيد رَضِيَ اللّٰهُ عَنْه قال: ذَكَرَ رَسُولُ اللّٰهِ (ص) صَاحِبَ الصُّورِ، وَقَالَ عَنْ يَمِينِهِ جِبْرِيلُ، وَعَنْ يَسَارِهِ مِيكَائِيلُ عَلَيْهِمْ السَّمُ.

**7.** Əbu Səid nəql edir: “Rəsulullah (s) (bir gün bizə) Sahibi-Suru (İsrafili) zikr etdi və dedi:

*“Sağında Cəbrail, solunda da Mikail (ə) var”.*[515]

**Həşr haqqında**

“Məcməul-bəyan” təfsirində Həzrət Peyğəmbərdən (s) nəql olunur ki, Məaz ***“Qiyamətdə sur üfürüləndə dəstə-dəstə gələrsiniz”*** ayəsinin mənasını soruşduqda, Həzrət buyurdu: *“Ey Məaz, böyük bir mətləb soruşursan (Həzrətin mübarək gözü yaşardı). Mənim ümmətim Qiyamət günündə 10 sinfə bölünər. Bu 10 sinfi Allah-Təala ümumi müsəlmanlardan ayırar, surətlərini dəyişər; bəziləri meymun, bəziləri donuz, bəziləri əl-ayağı kəsilmiş surətdə, bir hissəsi kor, digəri lal, bir dəstəsi də kar olarlar. Məhşərə dilini dişləmiş bir tayfa daxil olar ki, ağızlarından çirk axar. Onların ağızlarının qoxusundan məhşər əhli əziyyət çəkər. Bir dəstə də məhşərə başı aşağı daxil olub, o halda da əzaba aparılarlar. Bir dəstə od budaqlarından asılmış, başqa bir dəstənin qoxusu murdardan daha pis olar. Digər bir dəstəyə qətrandan libas geydirilmiş, bu libaslar onların bədənlərinə yapışmışdır...”*

Həmin dəstələrdən bir neçəsini burada qeyd edirik:

**Söz gəzdirənlər**

“Meymun surətində məhşərə daxil olanlar söz gəzdirənlər, iki nəfərin arasını vuran, birinin dediyini o birinə və əksinə xəbər aparanlardır. Donuz surətində gələnlər haram mal yeyənlərdir. Məsələn, əskik ölçənlər, qatqı qatanlar, xalqın malını yeyənlər. Başı aşağı gələnlər sələmçilər, faiz yeyənlərdir. Dilini dişləyib və ağzından çirk axanlar, əməlsiz alimlərdir. Bəli, əməli olmayan alimlər yaxşı moizə edib, özü pis əməldə edərsə, başqaları onun sözündən faydalanıb özü bədbəxt olan alimlər dillərini dişləyib həsrət çəkərlər.

**Qiyamətdə təkəbbürlülər və zinakarlar**

Bir dəstə adam qarışqa tək zəif halda ayaqlar altında əzilər. Bunlar dünyada özünü yuxarı tutub, təkəbbür göstərənlərdir.

---

[515] Əbu Davud, Huruf vel-Qiraət 1, 3999

Zinakarların övrətlərindən axan çirkin qoxusundan isə məhşər əhli nalə çəkər.

### Qonşunu incidənin, zalım hakimin və xudpəsəndlərin əzabı

Məhşərə əl-ayağı kəsilmiş vəziyyətdə gələnlər qonşuya əziyyət verənlərdir. Kor halda daxil olanlar nahaq hökm vermiş zalım hakimlərdir. Amma məhşərdə kar olanlar, onlar xudpəsənd və özünü sevənlərdirlər (hətta özlərindən başqasının məhşərə kar gəlməsini istəməzlər). Oddan budaqlara bağlananlar dünyada padşahlara, ağalara sirr açıb, xəbər aparıb xalqı incidənlərdir. Murdardan daha iyrənc olanlar o kəslərdir ki, haram, şəhvət və ləzzətə bulaşmış, mallarından vacib haqqı ödəməmişlər. Alovdan paltar geyənlər təkəbbür göstərənlərdir. (Digər bir hədisdə var ki,) gözlərində alovdan iki mıx olanlar gözlərini haramla dolduranlardır.

### Günahkarlar çöhrələrindən tanınarlar

Mühəddis Feyz "Eynül-yəqin"də belə nəql edir ki, şərabxor (içki içən) məhşərə daxil olanda boynundan şərab şüşəsi asılmış, əlinə qədəh yapışdırılmış olar. Ondan elə bir pis qoxu qalxar, o qədər iyrənc olar ki, hamı onun şərabxor olduğunu bilər və yanından ötənlər ona lənət oxuyarlar. Şadlıq əhlinin tar və tənburu (musiqi aləti) onların əllərinə yapışıb, başlarına çalınar. Bəli, hər kəsin qiyafə və simasından bilinər ki, bu şəxs hansı günahın sahibidir.

عن سهيل بن سعدٍ رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): يُحْشَرُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ عَلى أرْضٍ بَيْضَاءَ عَفْراءَ كَقُرْصَةِ النَّقِيّ لَيْسَ فيهَا عَلَمٌ لأحَدٍ.

**1.** Süheyl İbn Səd nəql edir: "Rəsulullah (s) buyurdu: *"Qiyamət günü insanlar ağ, ağappaq, xas unun çörəyi kimi bir yerdə toplanacaqlar. Orada heç kimin bir bayrağı (nişanəsi, evi, bağı və s.) olmayacaq".*[516]

[516] Buxari, Riqaq 44; Müslim, Münafiqun 28, 2790

**Açıqlama:**

**1-** Həşr meydanı dedikdə, yəni qiyamətin qopmasından və ruhların cəsədlərə üflənməsindən sonra hesab vermək üçün insanların toplanacağı həşr meydanı təsvir edilmişdir: Bura ağ, dümağ (və ya qızıla oxşar) bir rəng daşıyacaqdır. Əfra kəlməsi üçün "ləkəsiz ağ", "ağappaq", "qızılı rəngdə ağ", "şiddətli bəyaz" kimi mənalar verilmişdir. "Bəyaz" dedikdən sonra "qızılı bəyaz" mənası deyil, "ağappaq" mənası da uyğun gəlir. Həqiqətən, əla növ un da bəyazdır.

**2-** Həşr meydanının ikinci vəsfi, düz olmasındadır. Orada dünyanın səthini xatırladan dağ, dərə, ev, bağ, bağça, ağac və s. olmayacaq. Məqsəd, yer üzünün tamamən yox olduğunu və tamamən başqa bir formada meydana gəldiyi bildirməkdir.

İbn Əbi Cəmrə: "Bu ifadədə mövqe sahəsinin bu dünyadan çox böyük olduğuna da işarə vardır" deyir. İbn Hacər də: "Bunda dünyanın yox olub ortadan qalxdığına, məkanın yeni olduğuna işarə vardır" deyir və alimləlrin bu məsələ ilə əlaqədar **"(Yadda saxla! Qiyamət günü) elə bir gündür ki, Yer (yer kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq..."**[517] ayəsinin izahında ixtilaf etdiklərini bildirir. Buradakı əvəzləmənin mənası dünyanın zatının və sifətlərinin dəyişməsidir, yoxsa sadəcə sifətlərinin dəyişməsidir? İbn Hacər, qeyd etdiyimiz hədisin birinci fikri dəstəklədiyini söyləyir. İbn Məsuddan bu ayə ilə bağlı nəql edilir: "Yer elə bir yerə dönər ki, bu yer sanki gümüş kimi (saf və tərtəmizdir), üzərində haram qan tökülməmiş və heç bir günah işlənməmişdir". Təbəri Ənəsdən mərfu olaraq "Allah Yerimizi üzərində günahların işlənmədiyi gümüşdən bir yerlə əvəz edər" hədisini rəvayət edib. Başqa rəvayətlər də var. Xülasə, Yerin qiyamət günü bəyaz, təmiz, günahsız bir məkana çevriləcəyi mənasını dəstəkləyən rəvayətlər də mövcuddur.

وعن ابن عبّاسٍ رَضِيَ اللّٰهُ عَنْهما قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إِنَّكُمْ مُلاقُو اللّٰه تَعالى حُفَاةً عُرَاةً غُرْلاً.

---

[517] İbrahim surəsi, ayə-48

**2.** İbn Abbas nəql edir: *“Rəsulullah (s): “Siz Allahın hüzuruna ayaqyalın, çılpaq və sünnət edilməmiş olaraq həşr olunacaqsınız!” buyurdu”.*

وفي أخرى قال: قَامَ فِينَا رَسُولُ اللّٰهِ (ص) بِمَوْعِظَةٍ. فقَال: يا أَيُّهَا النَّاسُ إِنَّكُمْ مَحْشُورُونَ الى اللّٰهِ تَعالى حُفَاةً عُرَاةً غُرْلاً **كَمَا بَدَأْنَا أَوَّلَ خَلْقٍ نُعِيدُهُ وَعْداً عَلَيْنَا إِنَّا كُنَّا فَاعِلِينَ**. أَلاَ وَإِنَّ أَوَّلَ الْخَلائِقِ يُكْسَى يَوْمَ الْقِيَامَةِ إِبْرَاهِيمُ عَلَيْهِ السَّلامُ، أَلاَ وَإِنَّهُ سَيُجَاءُ بِرِجَالٍ مِنْ أُمَّتِى فَيُؤْخَذُ بِهِمْ ذَاتَ الشِّمَالِ فأَقُولُ: يَا رَبِّ أَصْحَابِى. فَيُقَالُ: إِنَّكَ ما تَدْرِي مَا أَحْدَثُوا بَعْدَكَ. فأَقُولُ كَمَا قَالَ الْعَبْدُ الصَّالِحُ: **وَكُنْتُ عَلَيْهِمْ شَهِيداً مَا دُمْتُ فِيهِمْ** ـ الَى قَوْلِهِ ـ **الْعَزِيزُ الْحَكِيمُ**. قَال فَيُقَالُ لِي: إِنَّهُمْ لَمْ يَزَالُوا مُرْتَدِّينَ عَلى أَعْقَابِهِمْ مُنْذُ فَارَقْتَهُمْ.

زاد في رواية: فأَقُولُ: سُحْقاً، سُحْقاً.

**3.** Digər bir rəvayətdə İbn Məsud belə demişdir: “Rəsulullah (s) moizə etmək üçün aramızda ayağa qalxdı və dedi: “Ey insanlar! Sizlər (qiyamət günü) Allahın hüzurunda ayaqyalın, çılpaq və sünnətsiz olaraq toplanacaqsınız. Sonra bu ayəni oxudu: ***“Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü (qiyamət gününü) yadınıza salın. (O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi qaytarıb (dirildib) əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik”.***[518] Bilin və agah olun! Qiyamət günü məxluqatdan ilk geydiriləcək şəxs İbrahimdir (ə). Xəbəriniz olsun, o gün ümmətimdən bəzi kimsələr gətirilər və sol tərəfə aparılarlar. Buna görə mən: “Ey Rəbbim! Bunlar əshabımdır!” deyərəm. Mənə: “Sən bilmirsən, bunlar səndən sonra nələr etdilər” deyilər. Mən salih qul İsanın dediyi kimi deyəcəyəm: ***“Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: “Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!” Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim (onları belə nalayiq hərəkətlər etməyə qoymurdum). Sən (göyə qaldırmaqla) mənim canımı aldıqdan sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən! Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə də şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən!”***[519]

---

[518] Ənbiya surəsi, ayə-104
[519] Maidə surəsi, ayə-117-118

Rəsulullah (s) davamla dedi: “Bunun üçün mənə: “Onlar sən aralarından ayrıldığın gündən bəri dindən üz çevirdilər!” deyiləcək.

“Bir rəvayətdə bu əlavə də var: “Mən: “Rəhmətdən uzaq olsunlar, rəhmətdən uzaq olsunlar!” deyərəm”.[520]

**Açıqlama:**

**1-** Qurtubi bəlkə də kəlmənin istifadəsini əsas götürüb həşr haqqında bu açıqlamanı verir: “Həşr - toplanma mənasına gəlir. Dörd növ həşr vardır. Bunlardan ikisi dünyada, ikisi də axirətdədir.

*** Birinci həşr:** “Həşr” surəsinin ikinci ayəsində zikr edilir: ***“Kitab əhlindən kafir olanları (Mədinə ətrafında yaşayıb Muhəmməd əleyhissəlamın peyğəmbərliyini inkar edən Bəni-Nəzir qəbiləsini) ilk dəfə (bir yerə) toplayıb öz yurdundan çıxardan (Şama sürgün edən) Odur”.***[521]

*** İkinci həşr:** Qiyamət əlamətləri qismində zikr edilən həşrdir: Bir rəvayətdə Ədəndən çıxacaq bir atəşin insanları məhşərə sövq edəcəyi bildirilir:

تَخْرُجُ نَارٌ قَبْلَ يَوْمِ الْقِيَامَةِ مِنْ حَضْرَ موْتَ فَتَسُوقُ النَّاسَ

*“Qiyamətdən əvvəl Həzrəmövtdən bir atəş çıxacaq və insanları yönəldəcək”.*

Bir başqa rəvayətdə ذلِكَ نَارٌ تَخْرُجُ مِنْ قَعْرِ عَدَنٍ تَرْحَلُ النَّاسَ الى الْمَحْشَرِ

*“Bu bir oddur ki, Ədənin dibindən çıxacaq və insanlar məhşərə yönələcək”.*

Digər rəvayətdə isə deyilir: اَمَّا اَوَّلُ اَشْرَاطِ السَّاعَةِ فَنَارٌ تَحْشُرُ النَّاسَ مِنَ الْمَشْرِقِ الى الْمَغْرِبِ

*“Qiyamət saatının ilk işarələrindən biri oddur ki, insanlar məşriqdən məğribə həşr olunacaq”.*

Fərqli şəkillərdə çıxacağı bildirilən bu atəşlə bağlı rəvayətlərin izahı aydın deyil. İbn Hacər belə bir izah təklif edir: “Ehti-

---

[520] Buxari, Riqaq 45, Ənbiya 8, 44, Təfsir, Maidə 14, 15, Təfsir, Ənbiya 2; Müslim, Cənnət 57, 2860; Tirmizi, Qiyamət 4, 3329; Nəsai, Cənaiz 118, 4, 114

[521] Həşr surəsi, ayə-2

mal ki, bu atəş öncə Ədən tərəflərində çıxacaq. Sonra Yer üzünün hər tərəfinə sirayət edəcək. Hədisdə keçən *“...insanlar şərqdən qərbə həşr olunacaq”* ifadəsi, həşrin xüsusi deyil, hər tərəfdə ümumiləşəcəyini qəsd edir. Bəlkə öncə şərq əhalisi həşr ediləcək, amma sonradan qərb əhalisinin həşri də olacaq. Həqiqətən bütün fitnələr şərqdən başlayacaq..”

*** Üçüncü həşr:** Ölülərin qəbirlərindən həşridir. Bu yenidən dirilmədən sonra Movqif deyilən hesab meydanında toplaşmadır. Bu həşr ayədə bəhs edilən həşrdir: ***“O gün (qiyamət günü) dağları (yerindən qoparıb) hərəkətə gətirəcəyik. (O vaxt) yeri dümdüz görəcəksən, (möminləri və kafirləri) bir yerə toplayacaq, onların heç birini (başlı-başına) buraxmayacağıq”.***[522]

*** Dördüncü həşr:** İnsanların cənnət və ya cəhənnəmdə toplanmasıdır.

İbn Hacər bunlardan birinciyə həşr deyilməyəcəyini, şəri olaraq mütləq şəkildə həşr deyildikdə, qiyamət günü bütün mövcudatın toplanmasının qəsd edildiyini bildirir. Halbuki birinci həşr olaraq qeyd edilən hadisənin bənzərlərinin tarixdə rast gəlindiyini, heç birinə həşr deyilmədiyini bildirir və İbn Zübeyrin xəlifə olarkən Əməvilərin Mədinədən Şama sürgün olunduğunu qeyd edir.

**2-** Rəsulullahdan (s) sonra dindən mürtədlərlə bağlı bir çox açıqlamalar verilmişdir. Tarixə baxdıqda Peyğəmbərin (s) köməkçiləri və əshabının arasında böyük, fədakar və ləyaqətli insanların olduğunu görərik. Hətta Qurani-Kərimdə və rəvayətlərdə bu səhabələrin haqqında, onların fəziləti barəsində çoxlu bəhslər mövcuddur. Lakin bu o demək deyildir ki, biz, Peyğəmbərin (s) bütün səhabələrini məsum (günahsız, pak) saymalıyıq. Səhabələrin hamısının əməllərini istisnasız olaraq doğru-düzgün saymaq yanlış fikirdir. Diqqət etmək lazımdır ki, Qurani-Kərimin müxtəlif ayələri (“Tövbə” surəsi, “Nur” surəsi və “Munafiqin” surəsi) Peyğəmbərin (s) əshabının arasında olan ikiüzlü, mənfur niyyətli səhabələrdən söhbət açaraq, onları şiddətli şəkildə tənqid atəşinə tutur. Həmçinin Peyğəmbərimizlə (s) eyni dövrdə

---

[522] Kəhf surəsi, ayə-47

yaşadıqları halda ona hiylə edən, sui-qəsd hazırlayan, peyğəmbərliyinə şəkk gətirən səhabələrin olduğu da səhih rəvayətlər və tarix kitabları vasitəsilə bizlərə gəlib çatmışdır. Onların Peyğəmbərin (s) vəfatından sonra bu əməllərə əl atmadıqlarına heç bir zəmanət verilməmişdi. Başqa bir cəhətə diqqət etdikdə isə İslam Peyğəmbərinin (s) vəfatından sonra müsəlmanlar, xüsusilə bəzi səhabələr arasında müharibə alovunun qızışması (Siffeyn, Nəhrivan, Cəməl savaşları), öz beyətini dövrün xəlifəsi və imamı ilə namərdcəsinə sındıran və on minlərlə müsəlmanın qanını axıdan səhabələri görürük.

Bütün bunlara əsasən Qiyamət günü Peyğəmbərin (s) himayəsinə sığınmaq üçün can atan belə şəxslərin onun yanından uzaqlaşdırılması və Cəhənnəmə sürüklənməsi təbii haldır.

قَالَ رَسُولُ اللّٰهِ (ص): يُحْشَرُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ ثَلاثَ أَصْنَافٍ: صِنْفٌ مُشَاةٌ، وَصِنْفٌ رُكْبَانٌ، وَصِنْفٌ عَلى وُجُوهِهِمْ. قِيلَ يَا رَسُولَ اللّٰهِ، كَيْفَ يَمْشُونَ عَلى وُجُوهِهِمْ؟ قَالَ: الَّذِي أَمْشَاهُمْ عَلى أَقْدَامِهِمْ قَادِرٌ أَنْ يُمْشِيَهُمْ عَلى وُجُوهِهِمْ، أَمَّا إِنَّهُمْ يَتَّقُونَ بِوُجُوهِهِمْ كُلَّ حَدَبٍ وَشَوْكٍ.

**4.** Rəsulullah (s) buyurdu: *“Qiyamət günü insanlar üç sinif olaraq həşr olunarlar:*

** Piyadalar sinfi,*

** Miniklilər sinfi,*

** Üzü üstə sürünənlər sinfi”.*

Həzrətdən (s) soruşuldu: “Ey Allahın Rəsulu! Bunlar üzləri üstə necə yeriyərlər?” Peyğəmbər (s) belə cavab verdi: *“Onları ayaqları üstə yeridən Allah, üzləri üstə yeritməyə də qadirdir. Ancaq bilin ki, bu üzləri üstə yeriyənlər, qarşılarına çıxan hər əngələ, hər tikana qarşı özlərini üzləri ilə qorumağa çalışarlar”.*[523]

**Açıqlama:**

Qiyamət günü əbədi mənzillərinə getmək üzrə hər kəs əməl və imanlarının dərəcəsinə görə fərqli sürətdə yol tutacaq. Həzrət (s) bunları üç qrupda ifadə etmişdir: Piyadalar, miniklilər, üzü

---

[523] Tirmizi, “Təfsir” Bəni-İsrail (İsra), 3141

üstə sürünənlər. İlk iki sinif iman əhlidir, üçüncüsü isə kafirlərdir. Əhli-iman da iki qrupa bölünmüşdür:

**Piyadalar.** Bunlar gedişdə məşəqqət çəkəcəklər, amma sürünənlərinkindən çox asan.

Bəzi alimlər öncə piyadaların zikr edilməsini əhli-imandan piyada yeriyəcək olanların çoxluq təşkil etmələri ilə izah etmişlər.

Ən şərəfli sinif minikli olanlardır. Bunların da miniklərin sürət və rahatlıqları nəzərə alınsa, öz aralarında fərqliliklər göstərəcəyi anlaşılır.

Üz üstə sürünəcək olanlarla əlaqəli bu ayəni də qeyd edə bilərik: ***“Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın zəlalətə saldığı (sapdırdığı) kəs üçün isə (Allahdan) başqa dostlar tapa bilməzsən. Biz qiyamət günü onları üzü üstə sürünə-sürünə, kor, lal və kar kimi məhşər ayağına çəkəcəyik. Onların düşəcəkləri yer Cəhənnəmdir. Cəhənnəm odu azaldıqca onların (bədənlərinin) alovunu artıracağıq!”***[524]

əl-Qazi deyir: *“Üzləri ilə qorunarlar”* ifadəsi onların nə qədər alçaldılıb həqir olunacaqlarını bəyan edər. Allah onlara əziyyət verən şeylərə qarşı əllərinə və ayaqlarına əvəz olaraq üzləri ilə qorunmağa məcbur edəcəkdir”.

قَالَ رَسُولُ اللّٰهِ (ص) يُحْشَرُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ عَلى ثَلاثِ طَرَائِقَ، رَاغِبِينَ رَاهِبِينَ، وَاثْنَانِ عَلى بَعِيرٍ، وَثَلَثَةٌ عَلى بَعِيرٍ، وَأَرْبَعَةٌ عَلى بَعِيرٍ، وَعَشْرَةٌ عَلى بَعِيرٍ. وَتَحْشُرُ بَقِيَّتَهُمُ النَّارُ، تَقِيلُ مَعَهُمْ حَيْثُ قَالُواً، وَتَبِيتُ مَعَهُمْ حَيْثُ بَاتُوا، وَتُصْبِحُ مَعَهُمْ حَيْثُ أَصْبَحُوا، وَتَمْسِي مَعَهُمْ حَيْثُ أَمْسَوْا.

**5.** Rəsulullah (s) buyurur: *“İnsanlar qiyamət günü üç hal üzrə həşr olunarlar:*

***1)*** *İstəklilər, qorxanlar;*

***2)*** *İki nəfər bir dəvə üzərində olanlar, üç nəfər bir dəvə üzərində olanlar, dörd nəfər bir dəvə üzərində olanlar, on nəfər bir dəvə üzərində olanlar;*

***3)*** *Geridə qalanları, atəşə səcdə edənlər. Cəhənnəm onların gecələdikləri yerdə onlarla birlikdə gecələr, onların səhərə göz-*

---

[524] “İsra” surəsi, ayə-97

*lərini açdıqları yerdə onlarla açar, onların axşamladıqları yerdə onlarla bərabər axşamlar".*[525]

**Açıqlama:**

Hədis Ədən tərəflərində çıxıb dünyanın hər tərəfinə sirayət edəcək bir atəş səbəbilə insanların Şama tərəf toplanacaqlarından və bu toplanmada iştirak edənlərin üç növdən ibarət olacaqlarından xəbər verir.

Birinci növ: İstəklilər, qorxaqlar. Hədis bunların nəyi arzulayıb nədən qorxduqlarını açıqlamır, mübhəm və mütləq buraxır.

İkinci növ: Bunlar qaçarkən məşəqqətdədirlər. Bu məşəqqət və sıxıntı "bir dəvəyə iki, üç...on nəfər minəcək" şəklində ifadə edilmişdir.

Üçüncü növ: Qaça bilməyənlər. Bunları atəş yaxalayacaq. Bu hadisənin qiyamətdən öncə baş verməsi ehtimal olunsa, qaçılan bu atəşin onları yaxalayacağını söyləmək olar. Yaxalanmanın vaxtı yoxdur; kimini sabah, kimini günorta, axşam... gecə və s. Xəttabi bu həşrin qiyamətdən öncə baş verəcəyini söyləyir və "İnsanları dirilər olaraq Şama toplaşar" deyir.

İbn Hacər, növbə ilə istifadəni qəti bir üslubla rədd etməsə də, bir dəvəyə eyni anda on nəfərin minə biləcəyini, Allahın bu gücü o gün dəvəyə verəcəyini söyləyir. Bu izah bizə dəvə kəlməsini minik vasitəsi olaraq anlamağımıza imkan verir.

Bunu da izah edim ki, Həlimi bu həşrin qəbirlərdən Mövqifə gediş həşri olduğuna meyl etmiş, Qəzzali isə bu barədə qəti qənaət bəyan etmişdir. İsmaili: "Hədisin zahiri, insanların *"ayaqyalın, çılpaq və piyada"* həşr ediləcəklərini xəbər verən İbn Abbas hədisinə müxalifdir" deyir. Belə bir təlif təklif edir: "Həşrlə nəşr" də ifadə edilir. Çünki biri digərilə birləşikdir. Elə isə həşr insanların qəbirlərdən ayaqyalın, çılpaq olaraq çıxarılıb, Mövqifə (hesab meydanına) sövq edilmələridir. Bu sırada müttəqilər dəvə üzərində gələrək toplanarlar".

Bəzilari də iki hədisi belə təlif edir: "İnsanlar qəbirlərindən

---

[525] Buxari, "Riqaq" 48; Müslim, "Cənnət" 59 2861; Nəsai, "Cənaiz" 118, 4, 115, 116

İbn Abbasın hədisində ifadə edilən vəsfdə çıxarılarlar, sonra halları, buradan Mövqifə gəlincəyə qədər bu hədisdə ifadə edilən vəsf içində olar. Bu son təvili dəstəkləyən bir rəvayət Əbu Zərdən, Əhməd ibn Hənbəl və Nəsai tərəfindən nəql edilmişdir.

Deyir: "Hz.Peyğəmbər (s) mənə xəbər verdi: *"Qiyamət günü insanlar, üç qrup halında həşr ediləcəkdir: Bir qrup (Allahın nemətlərindən) yeməkdə olduqları və libaslar içində və miniklər üzərində olduqları halda həşr edilər. Bir qrup piyadadır, bir qrup da mələklər tərəfindən üzləri üstə sürünərək".*

İyaz bu görüşlər içərisində Xəttabinin görüşünü tərcih edir və bəzi hədislərdə "atəş onlarla birlikdə axşamlar, onlarla birlikdə sabahlar" ifadəsini dəlil göstərərək: "Bu hallar dünyaya aid hallardır" deyir.

قَالَ رَسُولُ اللهِ (ص): يَعْرَقُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ حَتّى يَذْهَبَ عَرَقُهُمْ في الأرْضِ سَبْعِينَ ذِراعاً، وَإنَّهُ يُلْجِمُهُمْ حَتّى يَبْلُغَ أذَانَهُمْ.

**6.** Rəsulullah (s) buyurdu: *"İnsanlar qiyamət günü elə tər axıdarlar ki, bu tərlər yerin içində yetmiş ziralıq dərinliyə qədər enər və bu tər (yer üstündə də yığılaraq insanları danışamaz hala gətirmək üçün ağızlarına) qantarğa vurar və qulaqlarına qədər çatar".*[526]

**Açıqlama:**

Qiyamət günü hesab əsnasındakı hallarla əlaqəli olaraq müxtəlif hədislər gəlmişdir. Bunların bir qismi tər hadisəsi ilə əlaqəlidir. Qeyd etdiyimiz hədis insanların, hesab sıxıntısıyla yerin dibinə yetmiş arşın enəcək və yerin üstündə də qulaqlara qədər yüksəlib insanları danışmaz hala gətirəcək bir dərya təşkil edəcək qədər çox tərləyəcəklərini ifadə etməkdədir.

Alimlər bu tərin hər kəsin öz təri, yaxud müştərək tərləri olmasında ixtilaf edirlər, İyaz: "Bundan insanın müşahidə etdiyi qorxunc hallar nisbətində çıxacaq tərin qəsd edilmiş olması ehtimal olduğu kimi, həm öz, həm başqasının təri qəsd edilmiş olması da ehtimaldır. Beləcə bir qisminə çox şiddətli, bir qisminə

---

[526] Buxari, Riqaq 47; Müslim, Cənnət 61, 2863

daha asan sıxıntı verər. Bütün bunlar insanların izdiham və bir-birlərinə sıxışmasından tərin yerin altına yetmiş arşın nüfuz etməsindən sonra, yer üstündə axıb yığılmasından meydana gələr. Eynən suyun torpaq tərəfindən əmilməsindən sonra bir vadidə axması kimi" deyir.

İbn Hacər bu tərləmə hadisəsini bir başqa hədisin yardımıyla izah edir. Hədis belədir: *"Qiyamət günü günəş Yerə (bir mil qədər) yaxınlaşar. İnsanlar tərləyərlər. Kiminin təri ayaqqabısının dabanına qədər yüksələr, kiminin ayağının yarısına qədər yüksələr; dizinə qədər yüksələnlər, bud sümüyünə qədər yüksələnlər, böyrünə qədər yüksələnlər, çiyninə qədər və hətta ağzına qədər (və əliylə işarə edərək) yüksələnlər vardır. Ağzına qədər yüksələn tər, sahibinə qantarğa vurmuş olar. Bəzilərini tər tamamən bürüyər (və bunu söyləyərkən əlini başının üzərinə vurur).*

Bəzi rəvayətlərə görə hesab gününün sıxıntısı o qədər şiddətlidir ki, insanlar: "Ey Rəbbimiz, cəhənnəmə gedəcək olsaq da bizi bundan qurtar!" deyə fəryad edərlər. Müslimin bir rəvayətində tərə batmağın insanların əməlilə mütənasib olacağı qeyd olunmuşdur

Bir başqa hədisdə bu gözləmə müddətinin qırx il olacağı, bir digərində bir günün yarısının, dünya zamanına görə əlli min il olacağı, ancaq möminə bu günün, günəşin batma anı kimi asan gələcəyi qeyd olunmuşdur.

Beyhəqinin bir hədisində bu sıxıntılı halın kafirlərə məxsus olduğu qeyd edilmişdir.

*"O günün sıxıntısı kafirə çox şiddətlənər. Belə ki, tər onu qantarğa edər!" Deyildi ki: "Ey Allahın Rəsulu möminlər harada olarlar?"* Buyurdu ki: *"Onlar qızıl kürsülər üzərindədirlər, onlara buludlar kölgə salar".*

Bəzi rəvayətlərdə də "əməlləri kölgə salar", bəzi rəvayətlərdə də "günəşin, insanların başlarına iki yay boyu yaxınlaşacağı" ifadə edilsə də, (imanda kamal sahibi) möminlərə bu hərarətin zərər verməyəcəyi qeyd olunmuşdur.

Xülasə, hesab günü uzun bir müddətdir, sıxıntısı çətindir. Ancaq möminlər əməllərinə görə o günün sıxıntısını çox az bir dərəcədə hiss edəcəklər. İbn Əbi Cəmrə: "Hədis bu sıxıntının bütün insanlara şamil olacağını ifadə etsə də, başqa hədislər bunun onlar çoxluq təşkil etsələr də bir qisim insanlara məxsus olduğunu qeyd edir. Peyğəmbərlər, şəhidlər və Allahın dilədikləri bundan istisna edilmiş, ən şiddətli tər sıxıntısının da kafirlərə, sonra böyük günah əhlinə, sonra bunları təqib edənlərə olacağı, möminlərin kafirlərə nisbətlə az olduqları qeyd olunmuşdur".

İbn Əbi Cəmrə bu hədislərdən ağla gələ biləcək: "İnsanlar müxtəlif tərzdə olduqları halda hamısı necə qulaqlarına qədər tərə batar, bu arada tər bir qisminin ayağını bürüməz?" kimi suallara: "Bunlar uxrəvi, qeybi xəbərlərdir, əqli izahı yoxdur, qüvvətli iman sahibləri təsdiq edər" mənasında cavab verdikdən sonra deyir ki: "Bu vəziyyəti xəbər verməkdə məqsəd dinləyənləri xəbərdar etmək, möminləri bu qorxunc hallara düşməkdə qoruyacaq əməllərə təşviq etmək, günahlardan tövbəyə sövq etmək, Kərim və Bağışlayan Allaha pənah aparmaq bu hallardan və atəşdən qoruyub, rəhmət və cənnətinə daxil etməsini tələb etməyə bir şövqdür".

# IV FƏSİL
# HESAB VƏ HÖKM MƏSƏLƏSİ HƏDİSLƏRDƏ

## Hesab və qullar arasında hökmün verilməsi

قَالَ رَسُولُ اللّٰهِ (ص) مَنْ كَانَتْ عِنْدَهُ مَظْلَمَةٌ لأَخِيهِ مِنْ عِرْضِهِ أَوْ شَيْءٍ مِنْهُ فَلْيَتَحَلَّلْهُ مِنْهُ الْيَوْمَ مِنْ قَبْلِ أَنْ لاَ يَكُونَ دِينارٌ وَ دِرْهَمٌ، إِنْ كَانَ لَهُ عَمَلٌ صَالِحٌ أُخِذَ مِنْهُ بِقَدْرِ مَظْلَمَتِهِ، وإِنْ لَمْ تَكُنْ لَهُ حَسَنَاتٌ أُخِذَ مِنْ سَيِّئَاتِ صَاحِبِهِ فَحُمِلَ عَلَيْهِ.

**1.** Rəsulullah (s) buyurdu: *“Kimin üzərində qardaşına qarşı mənəvi və ya başqa bir şey səbəbilə haqq varsa, dinar və dirhəmin olmadığı (qiyamət və hesablaşmanın olacağı) gün gəlməzdən öncə burada ikən halallaşsın. Əks təqdirdə o gün, saleh bir əməli varsa, o zülmü nisbətində ondan alınar. Əgər savabı yoxsa, dostunun günahından alınıb ona yüklənər”.*[527]

**Açıqlama:**

Hədis möminləri mömin qardaşına qarşı haqsızlıq etməməyə, şayəd etmişsə də halallaşmağa təvşiq edir. Bu haqsızlıq, “irz”lə ifadə edilən mənəvi varlığına qarşı ola bilər. “Başqa bir şey” təbiriylə də “bütün növlərilə mal”, “yaralama”, hətta “sillə”yə qədər hər şey qəsd edilmişdir. Tirmizinin rəvayətində “irz və mal növündən” deyilmişdir.

Müslimdə bu məna bir başqa üslubla ifadə edilir: *“Ümmətimdən müflis olan o kimsədir ki, Qiyamət günü namazı, orucu və zəkatı olduğu halda gələr. Ancaq birinə küfr etmiş, digərinin qanını tökmüş, bir digərinin də malını yemişdir. Savabları buna, o birinə, digərinə paylanar. Üzərindəki borclar bitmədən savabları tükənmişsə, o birlərinin günahlarından alınar, üzərinə yüklənər və beləcə atəşə atılar”.*

---

[527] Buxari, “Məzalim” 10, “Riqaq” 48; Tirmizi, “Qiyamət” 2, 2421

Bu hədis, ***“Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz”***[528] ayəsinə müxalif deyil. Zira bu kimsə, öz feli və zülmü səbəbilə cəzalandırılmışdır. Çünki savabı, Allahın qullar haqqındakı ədaləti müqabilində alınmışdır.

Hümeydi, Kitabul-Muvazənədə deyir: “İnsanlar üç qisimdir:

***** Savabları pisliklərinə üstün gələnlər.

***** Pislikləri savablarına üstün gələnlər.

***** Savabları və pislikləri bərabər olanlar.

Birincilər, Quranın da bəyanına əsasən qurtuluşa çatacaqlar.

İkincilər, savabından artıq olan günahı səbəbilə İsrafilin sura üfləməsindən atəşdən çıxanların sonuncusuna qədər, pisliyinin azlığı-çoxluğu nisbətində əzab ediləcəkdir.

Üçüncülər Ərafdakılardır (Əraf cənnət və cəhənnəm arasında bir yerdir)”.

Həmçinin Humeydi “Pislikləri savablarına qələbə çalanlar da iki qisimdir: “Əzab çəkib, şəfaətlə atəşdən xilas olanlar, günahı əfv edilib heç əzab çəkməyənlər” demişdir.

قَالَ رَسُولُ اللّٰهِ (ص): لَتُؤَدُّنَّ الْحُقُوقَ الى أهْلِهَا يَوْمَ الْقِيَامَةِ حَتّى يُقَادَ لِلشَّاةِ الْجَلْحَاءِ مِنَ الشَّاةِ الْقَرْنَاءِ، وَيَسْألَ الْحَجَرُ: لِمَ انْكَبَّ عَلى الْحَجَرِ؟ وَلِمَ نَكَأ الرَّجُلُ الرَّجُلَ؟ قَالَ: وَكُنَّا نَسْمَعُ أنّ الرَّجُلَ يَتَعَلّقُ بِالرَّجُلِ يَوْمَ الْقِيَامَةِ وَهُوَ لاَ يَعْرِفُهُ. فَيَقُولُ: كُنْتَ تَرَانِي عَلى الْخطأِ وَعلى الْمُنْكَرِ وَلا تَنْهَانِي.

**2.** Rəsulullah (s) buyurdu: *“Qiyamət günü haqq sahiblərinə haqlarını mütləq əda edəcəksiniz. Belə ki, buynuzsuz qoyun üçün, buynuzlu qoyundan qisas alınacaq, daşa niyə bir başqa daş üzərinə yüklənib qaldığından; adamın adamı niyə yaraladığından soruşulacaq”.*

Ravi deyir: “Biz bunu da eşidirdik: *“Qiyamət günü, kişini tanımadığı biri tutar və deyər: “Sən məni xətalı və pis işlər edərkən görürdün, fəqət ondan çəkindirmirdin!”*[529]

---

[528] “Ənam” surəsi, ayə-164

[529] Müslim, Birr 6, 2582; Tirmizi, Qiyamət 2, 2422

**Açıqlama:**

Nəvəvi hədisi açıqlayarkən deyir: “Bu hədis, heyvanların da qiyamət günü həşr ediləcəyi və eyni təklif əhli insanların, uşaqların, dəlilərin və özlərinə təbliğ çatmayanların yenidən dirildilməsi kimi, onların da diriləcəyi barədə bir açıqlamadır. Bu mövzuda Quran və sünnətdə dəlillər mövcuddur. Allah belə buyurur: ***“Vəhşi heyvanlar (bir-birindən qisas almaq üçün) bir yerə toplanacağı zaman.”***[530] Ayə və hədisdə gələn bir kəlmənin zahirini əsas götürməyə əqli və ya şəri bir mane olmasa onu zahirinə həml etmək vacib olar. Alimlər deyirlər: “Qiyamət günü, yenidən dirildilmə və həşr edilmək üçün cəza, mükafat və ya savab şərt deyildir. Buynuzlu keçinin buynuzsuz keçi üçün qisas alması, təklif qisası deyil, qarşılıq qisasıdır”.

وعن عائشة رَضِيَ اللّٰهُ عَنْها قالت: قَالَ رَسُولُ اللّٰهِ (ص): مَنْ نُوقِشَ الْحِسَابَ عُذِّبَ. فَقُلْتُ: أليْسَ يَقُولُ اللّٰهُ تَعالى: فأمَّا مَنْ أوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَسَوْفَ يُحَاسَبُ حِسَاباً يَسِيراً وَيَنْقَلِبُ الى أهْلِهِ مَسْرُوراً. فقَالَ: إنَّمَا ذلِكَ الْعَرْضُ وَلَيْسَ أحَدٌ يُحَاسَبُ يَوْمَ الْقِيَامَةِ إلاَّ هَلَكَ.

**3.** Peyğəmbər xanımı Aişə nəql edir: “Rəsulullah (s): *“Axirətdə kimin hesabı münaqişə edilərsə, əzaba məruz qalacaq deməkdir!”* buyurmuşdur. Mən: “Necə olar? Allah: ***“Kimin əməl dəftəri sağ əlinə verilmişsə, onunla yüngül haqq-hesab çəkiləcək və o, (Cənnətdəki) ailəsinin (yaxınlarının) yanına sevinclə qayıdacaqdır!”***[531] buyurmadımı, (bu hesab münaqişəsi deyilmi)?” dedim.

Buyurdu: *“Xeyir! Bu (münaqişə deyil) ərzdir. Qiyamət günü hesaba çəkilən hər kəs mütləq həlak olmuş deməkdir!”*[532]

**Açıqlama:**

Burada keçən “münaqişətul-hesab” təbiri, hesabın təhqiq və tədqiqini ifadə edir. Zəməxşəri “Faiq”də “hesab münaqişəsi”ni

---

[530] Təkvir surəsi, ayə-5

[531] İnşiqaq surəsi, ayə-7-9

[532] Buxari, Elm 35, Təfsir, İnşiqaq 1; Riqaq 49; Müslim, Cənnət 80, 2876; Əbu Davud, Cənaiz 3, 3093; Tirmizi, Qiyamət 6, 2428

“hesabda çətinlik, az çox hamısını ortaya tökmək, saya daxil etmək” şəklində açıqlayır. Bir şəxsin həlak olması, burada “edilən incə hesab, sonunda artıq gələn günahları səbəbilə əzab çəkməsidir”.

Rəsulullahın “ərz” deyə ifadə etdiyi ayə, çox incə və dəqiq bir hesabın nəticəsini deyil, əməlin ərzini ifadə etməkdədir. Tibi deyir: “Hədisdə keçən “bu ərzdir” ifadəsinin mənası budur: “Ayədə qeyd olunan hesab, bəndənin əskiklərinə rəğmən Allahın dünyadakı lütfünü və bu əskikliklərin axirətdəki əfvini bilməsi üçün möminin əməllərinin bir ərzidir”.

Rəsulullah bu hədislərində “heç bir şəxsin öz əməlilə cənnətə getməyəcəyini” ifadə etdiyinə görə, əbədi cənnət, insanların dünyada etdikləri əməllərin nəticəsi deyildir. Cənnət, lütfü-İlahinin nəticəsidir. Allahın lütfü təcəlli edənlərin kitabları sağından verilmiş olacaqdır. Şübhəsiz ki, İlahi rəhmətin təcəllisində əməl dəftərinin məzmunu təsirə sahibdir.

قَالَ النَّبِيُّ (ص) : أَوَّلُ مَا يُنظَرُ فِي عَمَلِ العَبْدِ فِي يَوْمِ القِيَامَةِ صَلاتُهُ ، فَإِنْ قُبِلَتْ نُظِرَ فِي غَيْرِهَا ، وَإِنْ لَمْ تُقْبَلْ لَمْ يُنْظَرْ فِي عَمَلِهِ بِشَيْءٍ.

**4.** Hz.Muhəmməd peyğəmbər(s) buyurur: *“(Qiyamət günü) bəndənin ilk baxılacaq əməli namazdır. Əgər namazı qəbul edilərsə, geri qalan əməllərinə baxılar. Əgər namazı qəbul edilməzsə digər əməllərinin heç birinə baxılmaz”.*[533]

وعن ابن مسعود رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): أوَّلُ مَا يُقْضى بَيْنَ النَّاس يَوْمَ الْقِيَامَةِ في الدِّمَاءِ.

**5.** Abdullah ibn Məsud nəql edir: *“Rəsulullah (s) buyurdu: “Qiyamət günü insanlar arasında hökm ediləcək ilk şey qandır”.*[534]

**Açıqlama:**

Bu hədis insanlarla bağlı haqlarda ilk hesaba çəkiləcək məsələnin qanla bağlı məsələlər olduğunu ifadə edir. Əvvəlki hədisdə

---

[533] “Cəvahirul-bihar”, c.79, səh.277.

[534] “Mustədrəkul-Vəsail”, c.18, səh.208.

isə ilk hesabın namazla bağlı olduğu bildirilmişdi. Zahirdə bir ziddiyyət görünsə də, əslində yoxdur. Çünki biri Allah haqqına aid ilk məsələ, digəri isə qul haqqına aid ilk məsələ ilə bağlıdır.

İbn Hacər: "Ən mühüm olanla başlamaq, prinsip olması səbəbilə bu hədis, qan məsələsinin əhəmiyyətini nəzərlərimizə ərz edir" deyir. Bəzi alimlər: "Hökm insanlara xasdır, heyvanlarla bağlı hökm yoxdur" desə də, İbn Hacər "Bunun xətalı olduğunu, hədisin insanlar arasındakı hökmün öncəliyindən bəhs etdiyini, bu ifadədə, məsələ insanlar arasındakı hökmdən sonra heyvanlar arasında da hökm olacağının inkar edilmədiyini" qeyd edir.

Yeri gəlmişkən, qanın əhəmiyyətini ifadə edən başqa bir hədis də qeyd etmək istəyirik: *"Dünyanın zavalı, Allah yanında mömin bir qulun haqsız yerə öldürülməsindən daha asan qalar"* və ya *"Möminin qətli Allah yanında dünyanın zavalından daha böyük bir günahdır."* Hədislərdə Allah nəzərində milçək qədər dəyəri olmadığı bildirilən dünya, həvaye-nəfs əhlinin dünyasıdır, dünyanın üsyanlarla, cinayətlər və haqsızlıqlarla dolu olan cəhətidir, nəfsi-əmmarələri qənaət edən yönüdür. Bu cəhətdən dünyanın Allah nəzərində milçək qanadı qədər dəyəri yoxdur. Elə isə hədisdə, Allahın adlarının təcəlligahı və ya abid qullarının ibadət edib, axirət üçün əkin etdikləri dünya qəsd edilmir.

قَالَ رَسُولُ اللّٰهِ (ص): لاَ يَزُولُ قَدَمَا عَبْدٍ يَوْمَ الْقِيَامَةِ حَتَّى يُسْأَلَ عَنْ أَرْبَعٍ: عَنْ عُمُرِهِ فِيمَا أَفْنَاهُ، وَعَنْ عِلْمِهِ مَا عَمِلَ بِهِ، وَعَنْ مَالِهِ مِنْ أَيْنَ اكْتَسَبَهُ وَفيمَا أنْفَقَهُ، وعَنْ حُبِّنَا أَهْلِ البَيْتِ.

**6.** Rəsulullah (s) buyurdu: *"Bəndə qiyamət günü, dörd şeydən sual edilmədikcə ayaqları Rəbbinin hüzurundan ayrılmaz:*

** Ömrünü harada keçirdiyindən,*

** Nə əməldə olduğundan,*

** Malını haradan qazandığından və haraya xərclədiyindən,*

** Və biz Əhli-Beytin sevgisindən".*[535]

---

[535] Əllamə Məclisi, "Biharul-ənvar", c.7, səh.258.

**Açıqlama:**

**1-** Bu hədis, başqa mənalarla da gəlmişdir. Başqa bir tərzinə görə "İnsandan beş şey soruşulacaq: "Ömrünü harada keçirdi, gəncliyini harada keçirdi, malını harada qazandı, haraya xərcləməyi bildiyi halda nə dərəcədə əməl etdi?" Bu rəvayətdə, gəncliyin ayrıca qeyd edilməsi, insan həyatı içərisində onun ayrı bir əhəmiyyət daşıdığını ifadə edir. Əhəmiyyətlidir, çünki ibadət və s. etməkdə gücü-qüvvəsi olan bir dövrədir. Bu dövrədə edilən ibadətlər daha qiymətlidir.

**2-** Başqa bir hədisdə insanın Allah hüzurunda tək başına hesab verəcəyini daha açıq bir şəkildə ifadə edir: *"Sizdən hər birinizlə mütləq, arada hər hansı bir tərcüməçi olmadan Rəbbi, qiyamət günü danışacaqdır. İnsan sağına baxacaq, həyatda etdiyi (saleh) əməldən başqa bir şey görməyəcək. Sonra soluna baxacaq, yenə dünyada ikən gördüyü (pis) əməldən başqa bir şey görməyəcək. Sonra qarşısına baxacaq, atəşin özünü gözlədiyini görəcək".* Hz.Peyğəmbər (s) bu məqamda bu tövsiyə də verir: *"Sizdən hər biriniz özünü atəşə qarşı, bir xurma ilə də olsa qorusun".*

وعن أبِى سَعِيد: قَالَ رَسُولُ اللّٰهِ (ص): يُؤْتَى بِالْعَبْدِ يَوْمَ الْقِيَامَةِ. فَيَقُولُ اللّٰهُ تَعالى لَهُ: أَلَمْ أَجْعَلْ لَكَ سَمْعاً وَبَصَراً وَمالاً وَوَلداً، وَسَخَّرْتُ لَكَ الأَنْعَامَ وَالْحَرْثَ، وَتَرَكْتُكَ تَرْأَسُ وَتَرْبَعُ؟ أَكُنْتَ تَظُنُّ أَنَّكَ كُنْتَ مُلاقِيَّ يَوْمَكَ هذا؟
فَيَقُولُ: لاَ، فَيَقُولُ لَهُ: الْيَوْمَ أَنْسَاكَ كَمَا نَسِيتَنِي.

**7.** Əbu Səid nəql edir: "Rəsulullah (s) buyurdu: *"Qiyamət günü qul hesab vermək üçün Allahın hüzuruna gətirilər. Allah buyurur: "Mən sənə qulaq, göz, mal və övlad vermədimmi? Sənə heyvanları və əkini hizmətçi qılmadımmı? Səni bunlara başçı olmaq, onlardan istifadə etmək üçün sərbəst buraxmadımmı? Əcaba, mənimlə bu gün qarşılaşacağını heç düşündünmü?" deyə soruşacaq. Qul da: "Xeyir" deyəcək. Allah: "Elə isə bu gün mən də səni unudacağam, eynən sənin (dünyada) məni unutduğun kimi!" buyuracaq".*[536]

[536] Tirmizi, Qiyamət 7, 2430

**Açıqlama:**

Hədis sayılan nemətlərə nail olan bir kimsənin, nemətlərə şükür etməməsi halında qiyamət günü, Allahın da onu unudulmağa məhkum edəcəyini bildirməkdədir. Allahın qulu unutması, onu əzaba tərk etməsi, rəhmətini təcəlli etdirərək, əzabdan qurtarmaması deməkdir.

قَالَ رَسُولُ اللّٰهِ (ص): يُعْرَضُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ ثَلاثَ عَرَضَاتٍ، فأَمَّا عَرْضَتَانِ، فَجِدَالٌ وَمَعاذِيرُ. فَعِنْدَ ذٰلِكَ تَطِيرُ الصُّحُفُ في الأَيْدِي، فآخِذٌ بِيَمِينِهِ وَآخِذٌ بِشِمَالِهِ.

**8.** Rəsulullah (s) buyurur: *“Qiyamət günü insanlar üç dəfə Allaha ərz edilərlər: İlk iki ərz edilmədə cidal və üzr bəyanı vardır. Amma üçüncü ərz edilmə əsnasında əllərdə səhifələr uçuşar, kimisi sağ əliylə, kimisi də sol əliylə alar.”*[537]

**Açıqlama:**

**1-** İnsanlar birinci ərz sırasında özlərini müdafiə edəcəklər: “Bizə peyğəmbər gəlmədi” deyə Allaha qarşı dəlil göstərməyə cəhd edəcəklər.

İkinci ərzdə isə gərçəkləri etiraf edəcəklər. Ancaq: “Bu günahları səhvən, xəta və cəhalət üzündən etdim, qəsdim yox idi...” kimi üzrləri irəli sürəcəklər.

Üçüncü ərzdə isə, hər kəsin əməl dəftəri ortaya çıxarılacaq. Dəftərini sağ əlində tutanlar səadət əhlidir, sol əlində tutanlar isə şəqavət əhlidir.

**2-** Tirmizi, hədisin zəif olduğunu qeyd edir. Ancaq rəvayət daha məqbul yollardan da gəlmişdir.

وعن عائشة رَضِيَ اللّٰهُ عَنْها قالتْ: جَاءَ رَجُلٌ فَقَالَ: يا رَسُولَ اللّٰهِ! إنَّ لِي مَمْلُوكِينِ يَكْذِبُونَنِي وَيخُونُونَنِي وَيَعْصُونَنِي فأَشْتِمُهُمْ وَأضْرِبُهُمْ. فَكَيْفَ أنَا مِنْهُمْ؟ فقَالَ رَسُولُ اللّٰهِ (ص): إذَا كَانَ يَوْمَ الْقِيَامَةِ يُحْسَبُ مَا خَانُوكَ وَكَذَّبُوكَ وَعَصَوْكَ وَعِقَابُكَ وَإِيَّاهُمْ. فَإِنْ كَانَ عِقَابُكَ إيَّاهُمْ بِقَدْرِ ذُنُوبِهِمْ كَانَ كَفَافاً،لاَ لَكَ وَلا عَلَيْكَ، وَإِنْ كَانَ عِقَابُكَ إيّاهُمْ دُونَ ذَنْبِهِمْ كَانَ فَضْلاً لَكَ، وإنْ كَانَ عِقَابُكَ إيّاهُمْ فَوْقَ ذُنُوبِهِمْ اقْتَصَّ لَهُمْ مِنْكَ الْفَضْل. فَتَنَحّى الرَّجُلُ يَبْكِي. فَقَالَ رَسُولُ اللّٰهِ (ص): أمَا تَقْرأ قَوْلَ اللّٰهِ عَزّ وَجَلّ: **وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلا تُظْلَمُ نَفْسٌ شَيْئاً وإنْ كَانَ مِثْقَالَ حَبَّةٍ مِنْ خَرْدَلٍ أتَيْنَا بِهَا وَكَفَى**

[537] Tirmizi, Qiyamət 5, 2427

**بِنَا حَاسِبِينَ.**

فَقَالَ الرَّجُلُ: يَا رَسُولَ اللهِ مَا أجِدُ لِي وَلِهؤُلاءِ شَيْئاً خَيْراً مِنْ مُفارَقَتِهِمْ. أُشْهِدُكَ أنَّهُمْ كُلَّهُمْ أحْرَارٌ.

**9.** Aişə binti Əbu Bəkr nəql edir: “Bir nəfər gələrək: “Ey Allahın Rəsulu! Mənim kölələrim var, mənə yalan söyləyirlər və mənə xəyanət edirlər, mənə üsyan edirlər. Mən də onları döyürəm. Onlara görə (Allah yanında) vəziyyətim necə olacaq?” deyə soruşdu.

Rəsulullah (s) buyurdu: *“Qiyamət günü onlar sənə olan xəyanətləri, üsyanları və yalanları səbəbilə sorğu-sual olunacaqlar. Sənin onlara verdiyin cəza isə əgər onların günahları nisbətində isə başa-başdır, nə lehinə, nə də əleyhinə olar. Əgər onlara verdiyin cəza günahlarından az isə bu sənin üçün bir fəzilət olar. Əgər onlara verdiyin cəza günahlarından çox olarsa, bu artıqlıq səbəbilə onların lehinə səndən qisas alınar”.*

Bunun üzərinə həmin şəxs hüzurdan çəkildi, ağlamağa və özünü döyməyə başladı. Bunu görən Həzrət dedi: *“Sən Allahın kitabını oxumursanmı?* ***“Biz qiyamət günü üçün ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik”.***[538]

Həmin şəxs təkrar soruşdu: “Allaha and olsun, ey Allahın Rəsulu! Mən həm özüm və həm də onlar üçün ayrılmalarından daha xeyirli bir şey görmürəm. Səni şahid tuturam, hamısı hürdür, (azad etdim)” dedi”.[539]

وعن أنس رَضِيَ اللّهُ عَنْه قال: ضَحِكَ رَسُولُ اللّهِ (ص) فقَالَ: هَلْ تَدْرُونَ مِمَّ أضْحَكُ؟ قُلْنَا: اللّهُ وَرَسُولُهُ أعْلَمُ. قَالَ: مِنْ مُخَاطَبَةِ الْعَبْدِ رَبَّه. فَيَقُولُ: يَا رَبِّ ألَمْ تُجِرْنِي مِنَ الظُّلْمِ؟ فَيَقُولُ: بَلَى. فَيَقُولُ إنِّي لاَ أُجِيزُ الْيَوْمَ عَلى نَفْسِي شَاهِداً إلاَّ مِنِّي فَيَقُولُ: كَفَى بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيباً، وَالْكِرَامِ الكَاتِبِينَ عَلَيْكَ شُهُوداً. قَالَ: فَيُخْتَمْ على فيهِ وَيُقَالُ أرْكَانِهِ: انْطِقِي. فَتَنْطِقُ بِعَمَلِهِ، ثُمَّ يُخَلِّى بَيْنَهُ وَبَيْنَ الْكَلاَمِ. فَيَقُولُ: بُعْداً لَكُنَّ وَسُحْقاً. فَعَنْكُنَّ كُنْتُ أُنَاضِلُ.

---

[538] Ənbiya surəsi, ayə-47

[539] Tirmizi, Təfsir, Ənbiya, 3163

**10.** Ənəs ibn Malik nəql edir: “Rəsulullah (s) bir gün güldü və: *“Nəyə güldüyümü bilirsinizmi?”* buyurdu.

Biz: “Allah və Rəsulu daha yaxşı bilir!” dedik.

*“Qulun Rəbbinə olan xitabından!”* buyurdu və belə davam etdi: *“Qul belə deyər: “Ey Rəbbim, Sən məni zülmdən qorumadınmı?” Rəbb: “Bəli qorudum” buyurar. Qul da: “Fəqət mən bu gün özümə, özümdən başqa bir kimsənin şahid olmasını əsla istəmirəm” deyər. Rəbb: “Bu gün sənə tək şahid olaraq nəfsin, çox şahid olaraq da “kiramən katibin” yetərlidir” buyurar”.* Rəsulullah davamında dedi: *“Ağzına möhür vurular və digər orqanlarına: “Danış!” deyilər. Onlar onun əməlini xəbər verərlər. Sonra danışmaq üçün buraxılar. O şəxs bədən üzvlərinə: “Yazıqlar olsun sizə! Gedin buradan! Mən sizin üçün çalışırdım” deyər”.*[540]

قَالَ رَسُولُ اللّهِ (ص): إنَّ اللّهَ عَزَّ وَجلَّ سَيُخَلِّصُ رَجُلاً مِنْ أُمَّتِي عَلى رُؤُوسِ الْخَلائِقِ فَيَنْشُرُ لَهُ تِسْعَةً وَتِسْعِينَ سِجِّلاً، كُلُّ سِجلٍّ مُدَّ الْبَصَر. فَيَقُولُ: أَتُنْكِرُ مِنْ هذَا شَيْئاً؟ أَظَلَمَكَ كَتَبَتِي الْحَافِظُونَ؟ فَيَقُولُ:لاَ يَا رَبِّ. فَيَقُولُ: أَفَلَكَ عُذْرٌ: فَيَقُولُ:لاَ يَا رَبِّ. فَيَقُولُ اللّهُ عَزَّ وَجَلّ: بَلى إنَّ لَكَ عِنْدنَا حَسَنَةً وَإنَّهُ لاَ ظُلْمَ عَلَيْكَ الْيَوْمَ، فَتُخْرَجُ بِطَاقَةٌ فيهَا: أَشْهَدُ أَنْ لاَ إلهَ إلاَّ اللّهُ وَأَشْهَدُ أَنَّ مُحَمّداً رَسُولُ اللّهِ. ثُمَّ يَقُولُ: احْضُرْ وَزْنكَ. فَيَقُولُ: يَا رَبِّ مَا هذِهِ الْبِطَاقَةُ مَعَ هذِهِ السِّجِلاتِ؟ فيَقُولُ: إنَّكَ لَنْ تُظْلَمَ، فَتُوضَعُ السِّجِلاتُ في كِفَّةٍ، وَالْبِطَاقَةُ في كِفّةٍ، فَطَاشَتِ السِّجِلاتُ وَثَقُلَتِ الْبِطَاقَةُ، وَلا يَثْقُلُ مَعَ اسْمِ اللّهِ تَعالى شَيْءٌ.

**11.** Rəsulullah (s) buyurdu: *“Əziz və Cəlil olan Allah qiyamət günü ümmətimdən bir adamı məxluqatın üstündən seçər və onun üçün doxsan doqquz böyük dəftər açaram. Hər dəftər, gözün görə bildiyi qədər böyükdür. Rəbb adamdan soruşar: “Bu dəftərdə yazılı olanlardan bir şey inkar edirsənmi? Mühafiz katiblərim sənə zülm etmişlərmi?”*

*Qul: “Ey Rəbbim! Xeyir! (Hamısı doğrudur!)” deyər. Rəbb soruşar:*

*“Bir üzrün varmı?” Qul deyər:*

*“Xeyir! Ey Rəbbim!” Əziz və cəlil olan Allah:*

---

[540] Müslim, Zöhd 17, 2969

*“Bəli! Sənin bizim yanımızda (məqbul, böyük) bir də savabın var. Bu gün sənə zülm etməyəcəyik!” buyurar. Həmən bir yazı çıxarılar. Üzərində “Əşhədu ən la ilahə illallah və əşhədu ənnə Muhəmmədən rəsulullah (şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və şəhadət edirəm ki, Muhəmməd Allahın elçisidir)” yazılmışdır.*

*Sonra, Rəbb deyər: “Ağırlığını (yəni əməllərinin ağırlığını) hazırla!” Qul soruşar:*

*“Ey Rəbbim! Bu dəftərlərin yanındakı bu yazı nədir?” Rəbb deyər: “Sənə zülm edilməyəcək! Həmən dəftərlər Mizanın bir gözünə, yazılı kağızı da digər gözünə qoyular. Ölçülərlər. Sonda dəftərlər yüngül gələr, o yazılı kağız isə ağır. Allahın ismi yanında heç bir şey ağır olmaz”.*[541]

وعن أَبِي مسعود البدري رَضِيَ اللَّهُ عَنْه قال: قِيلَ يَا رَسُولَ اللَّهِ! أَنُؤَاخَذُ بِمَا عَمِلْنَا فِي الْجَاهِلِيَّةِ؟ فقَالَ (ص): مَنْ أَحْسَنَ فِي الإِسْلامِ لَمْ يُؤَاخَذْ بِمَا عَمِلَ فِي الْجَاهِلِيَّةِ. وَمَنْ أَسَاءَ فِي الإِسْلامِ أُخِذَ بِالأَوَّلِ وَالآخِرِ.

**12.** Əbu Məsud əl-Bədri nəql edir: Peyğəmbərə (s) deyildi: “Ey Allahın Rəsulu, biz cahiliyyə dövründə etdiklərimizdən hesaba çəkiləcəkyikmi?” Peyğəmbər (s) belə cavab verdi: *“Müsəlman olduqdan sonra yaxşı olana, cahiliyyə dövründə etdiklərindən soruşulmayacaq. Pis əməl işləyənə, həm İslamdakı əməli, həm də öncəki əməli səbəbilə hesab soruşulacaqdır”.*[542]

**Açıqlama:**

Hədis əvvəllər kafir ikən, sonradan müsəlman olan bir kəsin əvvəlki həyatından suala məruz qalıb-qalmaması məsələsinə aiddir və şərti olaraq cavab verilir. Müsəlman olduqdan sonra saleh əməl sahibinə isə sual yoxdur.

وعَنْ أنسٍ رَضِيَ اللَّهُ عَنْه قال: قَالَ رَسُولُ اللَّهِ (ص): مَا مِنْ دَاعٍ دَعَا الى شَيْءٍ إلاَّ كَانَ يَوْمَ الْقِيَامَةِ مُوْقُوفاً لاَزِماً بِهِ لاَ يُفَارِقَهُ وَإنْ دَعَا رَجُلٌ رَجُلاً ثُمَّ قَرَأ: **وَقِفُوهُمْ إِنَّهُمْ مَسْؤُلُونَ**.

[541] Tirmizi, İman 17, 2641
[542] Buxari, İstitabə 1; Müslim, İman 189, 120

**13.** Ənəs ibn Malik nəql edir: "Rəsulullah (s) buyurdu: *"Bir kimsəni (küfr və ya günah kimi) bir şeyə çağıran elə bir kimsə yoxdur ki, qiyamət günü o çağırdığı şeylə birlikdə həbs edilməmiş olsun. Mütləq onunla ayrılmaz şəkildə bərabərdir. Bir adam bir adamı (bir şeyə) dəvət etmiş olsa belə!"* Sonra bu ayəni oxudu: ***"Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"***[543,544]

**Açıqlama:**

Burada bir kəsin təbliğatını apardığı şeydən məsul olduğu ifadə edilir. İnsanları pisliyə çağıran kimsə, pisliklərin yer aldığı cəhənnəmdə olacaq deməkdir. Ayədəki "soğu-sual olunacaqlar" ifadəsini müfəssirlər, "əqidələrindən, sözlərindən və hərəkətlərindən" deyə təfsir etmişlər.

---

[543] Saffat, 24

[544] Tirmizi, "Təfsir", "Saffat", 3226

# V FƏSİL
# KÖVSƏR HOVUZUNUN, MİZANIN, ŞƏFAƏTİN VƏ SİRAT KÖRPÜSÜNÜN VƏSFİ HƏDİSLƏRDƏ

## Kövsər hovuzunun vəsfi

عن أبي ذرّ رَضِيَ اللّهُ عَنْه قال: قُلْتُ يَا رَسُولَ اللّهِ! مَا آنِيَةُ الْحَوْضِ؟ قَالَ: وَالّذِي نَفْسِي بِيَدِهِ لآنِيَتُهُ أَكْثَرُ مِنْ عَدَدِ نُجُومِ السَّمَاءِ وَكَوَاكِبِهَا في اللَّيْلَةِ الْمُظْلِمَةِ الْمُصَحِيَةِ آنِيَةُ الْجَنَّةِ: مَنْ شَرِبَ مِنْهَا لَمْ يَظْمَأ، آخِرَ مَا عَلَيْهِ يَشْخُبُ فيهِ مَيزَابَانِ مِنَ الْجَنَّةِ. عُرْضُهُ مِثْلَ طُولِ مَا بَيْنَ عَمَّانِ الى أيْلَةَ، وَمَاؤُهُ أشَدُّ بَيَاضاً مِنَ اللَّبَنِ، وَأحْلى مِنَ الْعَسَلِ.

**1.** Əbu Zərr nəql edir: “Ey Allahın Rəsuluna dedim ki, Kövsər hovuzunun qabları nədir?” Belə buyurdular: *Nəfsimi qüdrət əlində tutan Allaha and olsun, onun qabları aydın və qaranlıq bir gecədə göydəki ulduzlardan daha çoxdur. Cənnətin qablarından kim içərsə, artıq ömrünün sonuna qədər heç susamaz. Hovuzun cənnətdən çıxan iki novu şırıl-şırıl axar. Genişliyi uzunluğuna bərabərdir. Bu da Əmmandan Əyləyədək məsafə qədərdir. Suyu süddən daha ağ, baldan daha şirindir”.*[545]

وعن سَمُرَةِ بن جُندَبٍ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): إنَّ لِكُلِّ نَبِيٍّ حَوْضاً تَرِدُهُ أُمَّتُهُ، وإنَّهُمْ يَتَبَاهَوْنَ أيُّهُمْ أكْثَرُ وَارِدَةً، وَإنِّي أرْجُو أنْ أكُونَ أكْثَرَهُمْ وَارِدَةً.

**2.** Səmurə ibn Cundəb nəql edir: “Rəsulullah (s) buyurdu: *“Hər peyğəmbərin bir hovuzu vardır. Ümməti oraya su almağa gələr. Peyğəmbərlərin hər biri, hansının suya gələni çox deyə öyünərlər. Su almağa gələn ümməti ən çox olan peyğəmbərin mən olacağımı ümid edirəm”.*[546]

---

[545] Müslim, Fəzail 36, l, 2300; Tirmizi, Qiyamət 16, 2447
[546] Tirmizi, Qiyamət 15, 2445

**Açıqlama:**

Bu hədis axirətdə hər peyğəmbərə məxsus müstəqil bir hovuz olacağını bildirir. Ümmətləri bu hovuzlara gəlib suyundan içəcəkdir. Hər peyğəmbər hovuza gələnlərinin çoxluğu ilə iftixar edəcək. Bundan məqsəd ümmətlərinin çoxluğudur. Rəsulullah da ümmətinin sayca çox olmasını arzu və təmənna edərək, digər peyğəmbərlərə qarşısında bu çoxluqla iftixar etməyi arzulayır.

وعن أنس رَضِيَ اللهُ عَنْه قال: سُئِلَ رَسُولُ اللهِ (ص): مَا الْكَوْثَرُ؟ قَالَ: نَهْرٌ فِي الْجَنَّةِ أَعْطَانِيهِ اللهُ، أَشَدُّ بَيَاضاً مِنَ اللَّبَنِ، وَأَحْلَى مِنَ الْعَسَلِ، فِيهِ طَيْرٌ أَعْنَاقُهَا كَأَعْنَاقِ الْجَزُورِ. فقَالَ عُمَرُ رَضِيَ اللهُ عَنْه: إِنَّ هٰذِهِ لَنَاعِمٌ. فقَالَ (ص): آكِلُهَا أَنْعَمُ مِنْهَا.

**3.** Ənəs ibn Malik nəql edir: "Rəsulullahdan (s) "Kövsər nədir?" deyə soruşuldu. *"Cənnətdə bir çaydır. Allah onu mənə verdi. O, süddən daha ağ, baldan daha şirindir. Onda (çayda) bir quş var, boynu dəvə boynuna bənzər!"* buyurdu. Ömər atılaraq: "Elə isə o rifah içindədir!" dedi. Həzrət də: *"Onu yeyən, ondan da rifah içindədir!" buyurdu".*[547]

**Açıqlama:**

Bu hədis cənnətdə, Kövsər hovuzunun kənarında yaşayan bir quş haqqında məlumat verir. Boynu dəvə boynuna bənzəyən bir quş. Cənnət əhli bu quşun ətindən yeyəcəkdir. Əhməd ibn Hənbəlin kitabında isə bu hədis bir az daha təfərrüatlıdır. Məalı belədir: Həzrət: "Cənnət quşu dəvəyə bənzər, cənnətin ağaclarından bəslənər" demişdi ki, Əbu Bəkr atıldı: "Ey Allahın Rəsulu! Bu quşlar mütləq rifah içindədirlər!" dedi. Həzrət də: "Ondan yeyənlər daha da rifahlıdırlar. Ondan yeyənlər daha da rifahlıdırlar, ondan yeyənlər daha da rifahlıdırlar!"

وعن جُندب رَضِيَ اللهُ عَنْه قال: قَالَ رَسُولُ اللهِ (ص): أَنَا فَرَطُكُمْ عَلَى الْحَوْضِ.

**4.** Cündəb nəql edir: "Rəsulullah (s) buyurdu: *"Hovuz kənarına gələn ilk şəxs mən olacağam!"*[548]

[547] Tirmizi, Qiyamət 15, 2445
[548] Buxari, "Riqaq" 53; Müslim, "Fəzail" 25, 2289

وعن ابنِ مسعودٍ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): أنَا فَرْطُكُمْ عَلى الْحَوْضِ، وَلَيُرْفَعَنَّ اليّ رِجَالٌ مِنْكُمْ حَتّى إذَا أهْوَيْتُ إلَيْهِمْ أنَاوِلَهُمُ اخْتُلِجُوا دُونِي. فأقُولُ: أيْ رَبِّ أصْحَابِي. فَيُقَالُ: إنّكَ لاَ تَدْرِي مَا أحْدَثُوا بَعْدَكَ. فأقُولُ: سُحْقاً، سُحْقاً لِمَنْ بَدَّلَ بَعْدِي.

**5.** İbn Məsud nəql edir: *"Rəsulullah (s) buyurdu: "Mən hovuz başına sizdən öncə gələcəyəm. Mənə sizdən bəzi kimsələr yüksəldilib göstəriləcəklər. O qədər ki, əyilsəm onları tutaram. Amma həmən geri çəkiləcəklər. "Ey Rəbbim! Bunlar mənim səhabələrimdir!" deyərəm. Amma mənə: "Səndən sonra bunların nə bidətlər etdiklərini bilmirsən!" deyilər. Mən də: "Dini məndən sonra dəyişdirənlər rəhmətdən uzaq olsun, rəhmətdən uzaq olsun!" deyərəm."*[549]

وفي أخرى لمسلم، عن أبي هريرة: تَرِدُ أُمَّتِي عَليّ الْحَوْضَ، وَأنَا أذُودُ النّاسَ عَنْهُ كَمَا يَذُودُ الرَّجُلُ إبِلَ الرَّجلِ عَنْ إبِلِهِ. قَالُوا: يَا رَسُولَ اللّهِ تَعْرِفُنَا؟ قَالَ: نَعَمْ، لَكُمْ سيمَا لَيْسَتْ أحَدٍ غَيْرِكُمْ، تَرِدُونَ عَليّ غُرّاً مُحَجَّلِينَ مِنْ آثَارِ الْوُضُوءِ، وَلَتَصُدَّنَّ عَنِّى طَائِفَةٌ مِنْكُمْ فَلا يَصِلُونَ اليّ، فأقُولُ: يَا رَبِّ أصْحَابِي أصْحَابِي؟ فَيُجِيبُنِي مَلَكٌ، فَيَقُولُ: وَهَلْ تَدْرِي مَا أحْدَثُوا بَعْدَكَ؟

**6.** Müslimin digər rəvayətində Əbu Hüreyrədən belə rəvayət edilmişdir: *"Rəsulullah (s) buyurdu: "Ümmətim hovuzun başında yanıma gələcək. Mən, eynən dəvəsindən başqasının dəvəsini qovan bir kimsə kimi, hovuzumdan bəzi insanları qovaram!" Yanındakılar: "Ey Allahın Rəsulu, bizi tanıyacaqsınızmı?" dedilər.*

*"Bəli",* buyurdu. *"Sizin, başqasında olmayan bir əlamətiniz olacaq. Sizlər yanıma alnınızda və dəstəmaz üzvlərində bir nurla gələcəksiniz. Ancaq sizlərdən bir dəstəniz məndən uzaqlaşdırılacaq, onlar mənə qovuşmayacaqlar. Mən: "Ey Rəbbim, onlar mənim səhabələrimdir, onlar mənim səhabələrimdir!" deyəcəyəm. Amma bir mələk mənə cavab verəcək: "Səndən sonra onların nə bidətlər ortaya çıxardıqlarını bilirsənmi?" deyəcək".*[550]

---

[549] Buxari, "Riqaq" 53, "Fitən" 1; Müslim, "Fəzail" 32, 2297
[550] Müslim, "Təharət" 37, 247

وعن يزيد بن أرقم رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): مَا أَنْتُمْ جُزْءٌ مِنْ مِائَةِ أَلْفِ جُزْءٍ مِمَّنْ يَرِدُ عَلَيّ الْحَوْضَ. قِيلَ: كَمْ كُنْتُمْ يَوْمَئِذٍ؟ قَالَ: سَبْعَمِائَةِ أَوْ ثَمَانِمِائَةٍ.

**7.** Yezid ibn Ərqəm nəql edir: "Rəsulullah (s) buyurdu: *"Sizlər (səhabələrim), hovuzun başında yanıma gələnlərin yüz min dəstəsindən yalnız bir dəstəsini təşkil edəcəksiniz!"* Deyildi: "O gün siz nə qədər idiniz?" deyə soruşulduqda: *"Yeddi yüz və ya səkkiz yüz nəfər idik!" deyə cavab verdi".*[551]

**Açıqlama:**

Son yeddi hədis, axirətdəki hovuzla bağlı fərqli məlumatlar təqdim edir. Hovuz, Kövsər hovuzu deyə də adlandırılır. Qurani-Kərimdə "Kövsər" surəsində bəhs edilən Kövsərlə də bu hovuzun qəsd edildiyi qəbul edilmişdir. Kövsər, mütəvatir deyiləcək qədər çox sayda səhabə tərəfindən zikr edilmiş qeybi bir həqiqətdir, inanılması şərtdir. Bəzi təhqiqlərdə Kövsərlə bağlı rəvayətdə olan səhabələrin sayı əllidən artıqdır.

Rəsulullah (s) Kövsər səbəbilə də digər peyğəmbərlərə bir üstünlüyə sahib olacaqdır. Rəvayətlər cənnətdəki Kövsərin, cənnət qapılarının yanında və hazırda xəlq olduğunu ifadə edir. Yuxarıda Kövsər, siratdan öncə, ya sonradır deyə bəyan edilərək ixtilafı olunmuşdur. Məqbul rəyə görə, iki ədəd Kövsər mövcuddur. Biri cənnətin içindədir, digəri siratdan öncədir və məhşər yerindədir.

Kövsər siratdan sonra ümmətin bir toplanma yeridir. Rəsuli-Əkrəmlə (s) bir görüşmə yeridir. Rəsulullah, oraya qədər gələ bilən bir qisim şəxslərin oradan qovulacağını bildirmişdir. Bu qovulanlar kimlərdir, bu barədə ixtilaf vardır. Bunlara: "Münafiqlər və mürtədlər" deyənlər olmuşdur. "Rəsulullah zamanında mömin olub sonradan dindən çıxanlar" deyənlər də olmuşdur.

وعن أنس رَضِيَ اللّهُ عَنْه قال: قُلْتُ: أَشْفِعْ لِي يَا رَسُولَ اللّهِ يَوْمَ الْقِيَامَةِ. قَالَ: أَنَا فَاعِلٌ إِنْ شَاءَ اللّهُ. قُلْتُ: فَأَيْنَ أَطْلُبُكَ؟ قَالَ: اطْلُبْنِي أَوَّلَ مَا تَطْلُبُنِي عَلى الصِّرَاطِ. قُلْتُ: فإِنْ لَمْ أَلْقَكَ؟ قَالَ: فَاطْلُبْنِي عِنْدَ الْمِيزَانِ. قُلْتُ: فإِنْ لَمْ أَلقَكَ؟ قَالَ: فَاطْلُبْنِي عِنْدَ الْحَوْضِ، فإِنِّي لاَ أُخْطِئُ هذِهِ الثَّلاثَةَ الْمَوَاطِنَ.

---

[551] Əbu Davud, "Sünnə", 26, 4746

**8.** Ənəs nəql edir: “Bir gün, ey Allahın Rəsulu! Qiyamət günü mənə şəfaət edin!” dedim. *“İnşallah, edəcəyəm!”* buyurdu. Mən: *“Sizi harada axtarım?”* dedim. *“Məni ilk olaraq sirat üzərində axtar!”* buyurdu. “Sizi orada tapmasam necə?” dedim. *“Mizanın yanında məni axtar!”* buyurdu. “Orada da sizi tapmasam necə?” deyə soruşdum. *“Elə isə məni hovuzun yanında axtar!* Çünki mən bu üç dayanacaqdan başqa yerdə olmaram!” buyurdu.”[552]

**Açıqlama:**

**1-** Başqa hədislərdə bəyan edildiyi kimi, Rəsulullahın (s) bütün ümmətinə şamil olmaq üzrə ümumi bir şəfaəti vardır. Ənəs burada xüsusi bir şəfaət diləyir.

**2-** Hədis, axirətdə öncə sirat, sonra mizan, sonra da hovuzun gəldiyini ifadə edir.

وعن عائشة رَضِيَ اللّهُ عَنْها قالت: ذَكَرْتُ النَّارَ فَبَكَيْتُ. فقَالَ رَسُولُ اللّهِ (ص): مَا يَبْكِيكِ؟ قُلْتُ: ذَكَرْتُ النَّارَ فَبَكَيْتُ. فَهَلْ تَذْكُرونَ أهْلِيكُمْ يَوْمَ الْقِيَامَةِ؟ قَالَ: أمَّا في ثَلاثَةِ مَوَاطِنَ فَلا يَذْكُرُ أحَدٌ أحَداً: عِنْدَ الْمِيزَانِ، حَتّى يَعْلَمَ أيَخِفُّ مِيزَانُهُ أمْ يَثْقُلَ، وَعِنْدَ تَطَايُرِ الصُّحُفِ، حَتّى يَعْلَمَ أيْنَ يَقَعُ كِتَابُهُ، في يَمِينِهِ أم في شِمَالِهِ أمْ وَرَاءَ ظَهْرِهِ. وَعِنْدَ الصّرَاطِ إذَا وُضِعَ بَيْنَ ظَهْرَانَيْ جَهَنَّمَ، حَتّى يَجُوزَ.

**9.** Aişə binti Əbu Bəkr nəql edir: “Atəşi xatırlayıb ağladım. Rəsulullah (s): *“Niyə ağlayırsan?”* deyə soruşdu. “Cəhənnəmi xatırladığım üçün ağladım! Siz, qiyamət günü, ailənizi xatırlayacaqsınız?” dedim.

O buyurdu: *“Üç yerdə kimsə kimsəni xatırlamaz: mizan yanında, çəkisi ağır, ya yüngül gəldiyini öyrənincəyə qədər; səhifələrin verildiyi zaman; öz dəftərinin haraya veriləcəyini öyrənincəyə qədər; Siratın yanında, cəhənnəmin iki tərəfinin ortasında körpünün üzərində, oranı keçinə qədər”.*[553]

---

[552] Tirmizi, “Qiyamət”, 10, 2435

[553] Əbu Davud, “Sünən” 28, 4755

**Açıqlama:**

Qeybi olan həqiqətlərdən biri mizandır. Axirətə imanın bir hissəsidir. Hədislərdən başqa Quranla da mizan sabitdir. Ayədə:

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ

***"Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz (hamıya) yetərik."***[554]

Mizan qiyamət günü qurular. Bəndələrin əməllərinin yazıldığı dəftərlər mizanda çəkilər. Bu mizanın iki gözü vardır; biri savabların çəkilməsi üçün, digəri də pisliklərin. Həsən Bəsridən gələn bir rəvayətə görə, mizanın bir də dili vardır.

**Şəfaət haqqında**

Şəfaət – İslam etiqadındakı mənasına görə "Bir kəsin bağışlanması üçün onun adından əfv diləmək, maddi və ya mənəvi imkan əldə etməsi üçün səlahiyyət çərçivəsində vasitəçilik etmək" deməkdir. Dini məfhum kimi şəfaət "Bir peyğəmbərin, mələk və ya saleh bir möminin Allahın izni və razılığı şərti ilə günahkar bir möminin yaxşılığına şahidlik edərək Haqq-Təaladan əfv diləməsi və bağışlanıb cənnətə girməsinə və ya hansısa bir istəyinə çatmasına vəsilə olmasıdır". Bu tələbi, yəni şəfaəti qəbul edənə "şafi", "şəfi" və "müşəffi" deyilir. Dilimizdə isə "şəfaətçi" deyirik. Şəfaəti qəbul edilənə də "müşəffə" deyilir.

Hədislərdə dünya və axirət işləri üçün şəfaət məsələsi çox yerdə qeyd edilir. Kəlmənin burada anlaşılan mənasından kənar başqa mənaları da var. Ancaq mövzumuzdan kənar olduğu üçün burada qeyd etmirik.

a) Dünyada şəfaət - İnsan məsumları və ya övliyaları vasitəçi seçməklə Allahdan öz duasının qəbul olmasını istəyir. Amma unutmamalıyıq ki, belə bir şəfaət olmadan da dua qapısı açıqdır. Sadəcə, şəfaət duanın qəbul olması üçün Allahın öz bəndəsinə

[554] "Ənbiya" surəsi, ayə-47

açdığı digər mərhəmət qapısıdır. Yəni şəfaət gücləndirici amildir. Bu amil olmazsa da, dua qapısı açıqdır. Hər kəs, hər vaxt, hər yerdə Allaha üz tutsa, tövbə edib, istəyini diləyə bilər. Amma məsumlardan yardım almaqla dua etmə yolunu da Allah özü qoymuşdur. Qurani-Kərimdə oxuyuruq: ***"Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər".***[555]

Məlum olur ki, şəfaət duanın tez qəbul olunmasına zəmanət verir. Amma şəfaət yeganə dua yolu deyil və şəfaət olmadan da dua etmək mümkündür. Allah övliyalarına "təvəssül" etmək, onları vasitə seçməkdən ibarət olan şəfaət isə yalnız gücləndirici amildir. Bu yoldan istifadə edənlərin ilahi mərhəmətdən faydalanma imkanı daha çoxdur. Bizim iman və mərifətimiz zəif olduğundan Allahla əlaqə yolumuz da dardır. Amma şəfaət yolu daha geniş, daha möhkəmdir. Bu yolla ilahi dərgaha yaxınlaşmaq daha asandır.

Unutmamalıyıq ki, Allah bəndələrinin duasını daha da asanlaşdırmaq üçün belə bir yol qərar vermişdir. Məsumlardan üz döndərib, Allaha təkbaşına yaxınlaşmaq qərarına gələn insan özünü Allahın böyük bir lütfündən məhrum edir. Axı nə üçün Allahın nemətlərindən imtina etməliyik?! Allah-Təala peyğəmbərdən bağışlanma diləməyi özünə sığışdırmayan münafiqlər – nifaq əhli haqqında buyurur: ***"(Ya Peyğəmbər) sən onların bağışlanmasını diləsən də, diləməsən də fərqi yoxdur. Onsuz da Allah onları bağışlamayacaq".***[556]

Bir daha qeyd edək ki, şəfaət qapısı olmasaydı da, Allahla əlaqə yolu vardı. Amma şəfaət yolu ilə əlaqə daha möhkəm olur və daha asan başa gəlir.

b) Axirətdə şəfaət – digər bir şəfaət axirət dünyasına aiddir. Allah-Təala Məsumların, övliyaların və möminlərin istəyi əsasında bəzi insanları cəhənnəm odundan çıxarar. Yəni Allaha

---

[555] "Nisa" surəsi, ayə-64
[556] "Munafiqun" surəsi, ayə-6

imanı olan, məhşər səhnəsinə imanla daxil olan, Əhli-Beyt (ə) şəfaətinə nail olan insanlar behiştə yol tapa bilirlər. Deməк, belə bir şəfaət imanını günahda əridənlərə yox, imanı yerində olanlara aiddir. Dünyadan imanla gedənlər böyük günaha yol vermədiklərindən, bəzi saleh işlər gördüklərindən onların kiçik günahları bağışlanır və şəfaətə nail olurlar. Bağışlanma yollarından biri böyük günahlardan çəkinməkdir. Unutmayaq ki, kiçik günahların təkrarı (israrı) da böyük günah sayılır. Demək, böyük günaha yol verməyən və kiçik günahlarını təkrarlamayanların bağışlanması asan olur. Hətta tövbə etmədən günahdan çəkinənlər üçün bağışlanma yolu var. Tövbə də bağışlanmaq üçün bir yoldur. Üçüncü bağışlanma yolu isə şəfaətdir. Şəfaət tövbə etməmiş və ya tövbəsi qəbul olmamış imanlı insanlara aiddir. Onlar bir müddət bərzəx aləmində (qiyamətə qədərki ruhlar aləmində) cəzalandırıldıqdan sonra şəfaət vasitəsi ilə bağışlanacaqlar. Onların bağışlanma səbəbi malik olduqları imandır. Amma imanı olmayan, namaz və digər əmrləri yüngül sayanlar şəfaətdən məhrumdur. İmam Sadiq (ə) can üstə olarkən yaxınlarını toplayıb buyurdu: *"Namazı yüngül tutanlar bizim şəfaətimizə nail olmaz".*[557]

Əvvəldə qeyd olunduğu kimi şəfaətin bu mənasının şərti var. Şərt budur ki, insan məhşər səhnəsinə imanla gəlsin. İmanını günahlarda əritmiş insan şəfaətdən məhrumdur. Şəfaət günahların bağışlanmasına köməkdir. Əslində isə əsas bağışlanma amili Allaha imandır. Sadəcə, Allah-Təala öz mərhəmətindən Peyğəmbər və imamların şəfaətini gücləndirici bir səbəb qərar vermişdir. Şəfaətin arxasında ciddi məntiq dayandığından onu əsassız güzəşt hesab etmək olmaz. Şəfaət heç yerdən yaranmır və onun konkret şərtləri var.

*Əgər şəfaət üçün yol axtarmaq şirk olsaydı, Allah Quranda belə buyurmazdı:* ***"Ey iman gətirənlər! Allahdan qorxun və Ona qovuşmaq üçün vasitə arayın!"*** *Ayədəki "vasitə" sözü qeyri-müəyyən olduğu üçün bütün ilahi vasitələrə şamil olur. Heç kim deyə bilməz ki, ibadətlər vasitədir, lakin şəxsiyyətlər vasitə deyil.*

[557] "Biharül-ənvar", c. 83, səh. 19.

*Allah Ali-İmran surəsinin 103-cü ayəsində buyurur:* ***“Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın.”*** *Əgər Peyğəmbər (s) və imamlar Allah ilə insan arasında hökm vasitələridirsə, şəfaət vasitəsi də ola bilərlər. Allahın ipi dedikdə, Allah ilə insanlar arasında vasitə nəzərdə tutulur və bu ip həm Quran, həm də Quranı təbliğ edən müqəddəs şəxslərdir.*

*Şiə və sünnü mənbələrində çox məşhur olan bir hədisdə Peyğəmbər (s) buyurmuşdur: “Mənim Əhli-beytim sizin üçün Nuhun (ə) gəmisinə bənzəyir. Ona pənah gətirən xilas, ondan kənar qaçan isə qərq olar.” Digər hədisdə isə buyurur: “Mən sizin aranızda iki dəyərli əmanət qoyub gedirəm: Allahın kitabı və mənim Əhli-beytim. Nə qədər ki, onlara iqtida edirsiniz, əsla azmazsınız”. Onlara iqtida etmək, çətin vəziyyətlərdə onlara pənah aparmaq deməkdir. Həm dünya, həm də axirət işlərində. Bəzilərinin istinad etdiyi “Allah ilə başqasını çağırmayın”-ayəsi “Allahla birgə, başqasını da çağırmayın” – deməkdir. Bu, “Allaha dua edərkən şəfaətçi axtarmayın” demək deyil. Bundan əlavə, ayə Allaha ibadətdə şərik qoşmamağı əmr edir. Çünki, əvvəlcə buyurur: “Məscidlər Allahındır”. Təfsirçilər belə təfsir edirlər: “Səcdəgahlar Allaha məxsusdur. Başqasına Allahla birgə sitayiş etməyin”. Cin surəsində də (18-ci ayədə) belə buyurur: “Allahla birgə, başqa Allahı çağırmayın” (məqsədsə, yalançı allahlardır. Əslində, bir Allah vardır və O, hər şeyi cəm edib).*

### *Şəfaət haqqında daha ətraflı məlumat*

*Şeyx Süleyman ibn Səmhan Nəcdi “Əl-hidayətüs-sünniyyə” kitabının 64-cü səhifəsindən 68-ci səhifəsinə qədər şəfaət barədə geniş məlumat verir. Onun dəlil kimi göstərdiyi ayə və hədislərdən bir neçəsini qeyd edirik: “****Allahın izni olmadan, Onun yanında kim şəfaət edə bilər?****”*[558]

*“****O gün Rəhmanın izn verdiyi və söz danışmağına razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməz.****”*[559]

---

[558] Bəqərə surəsi, ayə-255
[559] Taha surəsi, ayə-109

*"**Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah, Öz istədiyi və razı olduğu kimsəyə izn verdikdən sonra.**"*[560]

*Buxari və Müslim öz "Səhih"lərində yazırlar: "Allah Qiyamət günü dörd dəfə Peyğəmbərə (s) buyurar: "Ey Məhəmməd (s)! Qalx və danış ki, Allah eşidər və şəfaət et ki, Allah qəbul edər."*

*Buxari Peyğəmbərin (s) belə buyurduğunu yazır: "Mənim şəfaətimə layiq olan ən xoşbəxt şəxs o kəsdir ki, bir Allahdan başqa Allah olmadığına səmimi qəlbdən inansın."*

*Tirmizi və İbn Macə Qəzvini Peyğəmbərdən (s) belə nəql edirlər: "Allahın yanından birisi gəlib, mənə bunlardan birini qəbul etməkdə ixtiyar sahibi olduğumu xəbər verdi: "Ya ümmətimin yarısı Cənnətə getsin, ya da mən onlara şəfaətçi olum." Mən şəfaəti qəbul etdim. Mənim şəfaətim isə yalnız o adama qismət olar ki, zərrə qədər də Allaha şərik qərar vermədən ölsün."*

*Bir səhih hədisdə deyilir: "Bu rəhmətlik ümmətin içində Allahın hüzurunda günahkarlara şəfaət edə biləcək şəxslər vardır. Onlardan bəzisi Rəbiə və Muzr qəbiləsinin əhalisindən də çox adama şəfaət edəcəklər."*

*Peyğəmbər və imamların şəfaət etməsinə dair dəlillərin kifayət qədər çox olması aydın oldu. Müsəlmanların əsrlər boyu inanıb qəbul etdiyi şəfaət iki növdür:*

*1. Peyğəmbəri və ya o Həzrətin əsl canişinlərini özləri ilə Allah arasında vasitə qərar verirlər. Yəni, Allahı and verirlər onların itaət və ibadətinə, onların Allah yanında olan hörmətinə ki, Allah onların arzusunu yerinə yetirsin. Məsələn, Abdullah ibn Ömərin nəql etdiyi hədisdə belə oxuyuruq: "Peyğəmbər bir kora öyrətdi ki, öz arzusunun yerinə yetməsi üçün Allahı Peyğəmbərin haqqına and verərək, Allahın Peyğəmbərin bu arzu barəsindəki şəfaətini qəbul etməyi üçün ona dua etsin."*

*Bu hədisi Əhməd ibn Hənbəl Osman ibn Hüneyf Ənsaridən nəql edir. Habelə, İbn Macə, Tirmizi, Hakim Nişaburi, Süyuti və Buxari (Ömərin yağış üçün Peyğəmbərin əmisi Abbasdan şəfaət diləməsi barəsində) nəql etmişlər.*

---

[560] Nəcm surəsi, ayə-26

*2. Allahdan diləyi olan şəxs Peyğəmbərdən istəyir ki, onun arzusunu Allahdan diləsin. Çünki Peyğəmbər Allaha daha yaxındır. Allah Öz Peyğəmbərinə sidq ürəklə kəlmeyi-şəhadəti deyən müsəlman üçün şəfaət etməyə izn vermişdir. Buna sübut olaraq Buxari, Tirmizi, İbn Macə, Haris ibn Qeys və Əbu Səid Xudrinin Peyğəmbərdən (s) nəql etdiyi hədisləri göstərə bilərik. Bu, elə biz deyən şəfaətdir. Bunun adını dəyişib müsəlmanlara qara yaxanlar ya nadandırlar və Quran ilə sünnədən xəbərləri yoxdur, ya da müsəlmanlarla, Peyğəmbər və imamlarla düşmənçilik etməyə bəhanə axtarırlar. Yaxud da bəzi cahil və inadkar müsəlmanları aldatmaqla müsəlmanların rəhbərliyini qazanmaq, onların mal, can və namusuna təcavüz etmək üçün tərəfdar toplamaq fikrindədirlər.*

**Kimlər şəfaət edəcək**

عن بعض أصحابنا، عن أحد هما قال في قوله: "عسى أن يبعثك ربك مقاما محمودا" قال: "هي الشفاعة".

**1.** İmam Baqir (ə) ***"Həqiqətən, Rəbbin sənə bəxş edəcək və sən (Ondan) razı olacaqsan!"***[561] *ayəsi barədə buyurdu: "Bu, şəfaətdir".*[562]

عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ (ص): "لَا أَزَالُ أَشْفَعُ لِأُمَّتِي, حَتَّى يُقَالَ: يَا مُحَمَّدُ! أَخْرِجْ مِنَ النَّارِ مَنْ فِي قَلْبِهِ وَزْنُ شَعِيرَةٍ", إِلَى أَنْ قَالَ: "فَيُقَالُ: يَا مُحَمَّدُ! أَخْرِجْ مَنْ فِي قَلْبِهِ مِقْدَارُ جَنَاحِ بَعُوضَةٍ مِنْ إِيمَانٍ".

**2.** Ənəs Həzrət Peyğəmbərdən (s) belə söylədiyini nəql edir: *"Ümmətim üçün o qədər şəfaət edərəm ki, mənə deyilər: "Ey Muhəmməd, qəlbində arpa dənəsi qədər iman olanı oddan çıxar". Nəhayət sonda isə deyilər: "Qəlbində ağcaqanad qanadı qədər imanı olanı da oddan çıxar".*[563]

---

[561] "Ziha" surəsi, ayə-5.
[562] "Biharul-Ənvar", c.8,səh. 57 , hədis 72.
[563] "Kənzul-ummal", hədis 39043, İbn Həcər, "Kitabul-futuh", "Şəfaət" babı, Hədis 4729.

قَالَ رَسُولُ اللّٰهِ (ص): لِكُلِّ نَبِيٍّ دَعْوَةٌ مُسْتَجَابَةٌ، فَتَعَجَّلَ كُلُّ نَبِيّ دَعْوَتَهُ، وإِنِّي اخْتَبَأتُ دَعْوَتِي شَفَاعَةً أمَّتِي يَوْمَ الْقِيَامَةِ، فَهِيَ نَائِلَةٌ إنْ شَاءَ اللّٰهُ تَعالى: مَنْ مَاتَ مِنْ أُمَّتِي لاَ يُشْرِكُ بِاللّٰهِ شَيْئاً.

**3.** "Rəsulullah (s) buyurdu: *"Hər peyğəmbərin müstəcab bir duası vardır. Hər peyğəmbər o duanı etməkdə tələsdi. Mən isə bu duamı qiyamət günündə, ümmətimə şəfaət olaraq istifadə etmək üçün saxladım. Ona inşallah, ümmətimin şirk qoşmadan ölənləri nail olacaqdır".*[564]

**Açıqlama:**

**1-** Bu hədisə görə "hər peyğəmbərin müstəcab olan sadəcə bir duasının olduğu" mənası çıxır. Halbuki, başda Rəsulullah olmaqla bütün peyğəmbərlərin neçə duaları məqbul olmuşdur. Ortada bir müşkil olsa da, alimlər: "Burada qəsd edilən qəbul ediləcəyi qəti olan duadır, digər dualarında əsas olan qəbula ümiddir, "qətilik" yoxdur" deyərək cavab vermişlər.

"Hər peyğəmbərin müstəcab bir duası vardır" ibarəsini, alimlər fərqli izah etmişlər:

***** Bəzisi: "Ən əfzəl duasıdır, başqa duaları da var" demişdir.

***** Bəzisi: "Hər birinin ümməti haqqında müstəcab ümumi bir duası vardır: ya həlak olmaları, ya da nicat tapmaları üçün. Xüsusi dualara gəlincə, bunların bir qismi müstəcabdır, bir qismi deyildir" demişdir.

***** Bəzisi: "Hər bir peyğəmbərin bir duası vardır, onu şəxsi və ya dünyası üçün istifadə edər. Eynən Hz.Nuhun: ***"Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma"***[565] deyə etdiyi dua, Hz.Zəkəriyyənin: ***"Buna görə də mənə Öz dərgahından bir oğul (vəli) bəxş et"***[566] deyə etdiyi dua və Hz.Süleymanın ***"Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk (səltənət) ver ki, məndən***

---

[564] Buxari, "Dəavat" 1, "Tövhid" 31; Müslim, "İman" 334, 198; "Müvətta", "Quran" 26, (1, 212); Tirmizi, "Dəavat" 141, 3597

[565] "Nuh" suərsi, ayə-26.

[566] "Məryəm" surəsi, ayə-5.

***sonra (o cürəsinə) heç kəs nail ola bilməsin"***[567] deyə etdiyi kimi" demişdir.

**2-** Hədis, bütün duaların – peyğəmbərlər belə etmiş olsa - istənilən şəkildə qəbul edilməyəcəyini göstərir. Ancaq hər duaya bir cavab olacağını daha öncə bildirmişdik.

**3-** İbn Bəttal deyir: "Bu hədisdə, Rəsulullahın (s) digər peyğəmbərlərə olan bir üstünlüyü bəyan edilməkdədir: "Məqbul duada, ümmətini özünə və əhli-beytinə üstün etməkdədir. Həmçinin digər bir qisim peyğəmbərlər qövmlərinin həlakı üçün bu duanı istifadə edərkən, Həzrət ümmətin həlakı üçün də bundan istifadə etmişdir."

وعن جابر رَضِيَ اللهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): شَفَاعَتِي أَهْلِ الْكَبَائِرِ مِنْ أُمَّتِي.

**4.** Cabir ibn Abdullah nəql edir: "Rəsulullah (s) buyurdu: *"Şəfaətim, ümmətimdən böyük günah sahibləri üçündür."*[568]

**Açıqlama:**

Hədisdə "kəbair" olması səbəbilə cəhənnəmə layiq olan kimsəyə edilən şəfaətlə atəşə girməyəcəyi, "La ilahə illəllah, Muhəmmədun rasulullah" deyənlərdən günahı səbəbiylə atəşə girənlərin yenə şəfaət sayəsində cəhənnəmdən çıxarılacaqlarını ifadə edir. Şəfaətlə əlaqəli bəzi təfərrüatları ümumi açıqlamada qeyd etdik.

## Şəfaətə nail olmayanlar

قال رسول الله صلى الله عليه وآله: رجلان لا تنالهما شفاعتي: صاحب سلطان عسوف غشوم، وغال في الدين مارق.

Həzrət Peyğəmbər (s) buyurur: *"Mənim şəfaətim iki nəfərə çatmaz: Qüdrət sahibi olan zalıma və dindən çıxmış üsyankara".*[569]

---

[567] "Sad" surəsi, ayə-35.

[568] Tirmizi, "Qiyamət" 12, 2437; Əbu Davud, "Sünnət" 23, 4739; İbn Macə, "Zöhd" 37, 4310.

[569] "əl-Xisal",səh. 63 , hədis 93.

وقال صلى الله عليه وآله: والشفاعة لا تكون لاهل الشك والشرك ، ولا لاهل الكفر والجحود بل يكون للمؤمنين من أهل التوحيد.

Peyğəmbər (s) buyurur: *"Şəfaətə şəkk əhli və müşriklər, kafirlər və inkar edənlər nail olmazlar. Şəfaət tövhid əhlindən olan möminlər üçündür". və zalımlar istisna olmaqla, böyük günah edənlər barəsindədir".*[570]

وقال صلى الله عليه وآله: لا ينال شفاعتي يوم القيامة من لم يؤمن بها.

Peyğəmbər (s) buyurur: *"Kim mənim şəfaət etməyimə iman gətirməsə, Qiyamət günü mənim şəfaətimi ona çatdırmayacaq".*[571]

**Kimlər şəfaət edəcək**

عن علي عليهم السلام قال: قال رسول الله صلى الله عليه وآله: ثلاثة يشفعون إلى الله عز وجل فيشفعون: الأنبياء، ثم العلماء، ثم الشهداء.

Peyğəmbər (s) buyurur: *"Allah yanında üç dəstə şəfaət edər və səfaətləri qəbul olunar: peyğəmbərlər, sonra alimlər, sonra da şəhidlər".*[572]

وقال صلى الله عليه وآله: لا شفيع أنجح من التوبة: والشفاعة للانبياء والاوصياء و المؤمنين والملائكة.

Peyğəmbər (s) buyurur: *"Şəfaət etmək peyğəmbərlərə, vəsilərə, möminlərə və mələklərə məxsusdur".*[573]

قال النبي صلى الله عليه وآله: الشفعاء خمسة: القرآن والرحم، والامانة، ونبيكم، وأهل بيت نبيكم.

Həzrət Peyğəmbər (s) buyurur: *"Şəfaət edənlər beşdir:*

---

[570] "Biharul-Ənvar", c.8,səh. 58 , hədis 75
[571] "Uyune Əxbare Rza", c.1, səh. 136 , hədis 35
[572] "əl-Xisal",səh. 156 , hədis 197
[573] "Biharul-Ənvar", c.8,səh. 58 , hədis 75

*Quran, qohum, əmanət, sizin Peyğəmbəriniz və Peyğəmbərinizin Əhli-Beyti (ə)”.*[574]

وقال صلى الله عليه وآله: في المؤمنين من يشفع مثل ربيعة ومضر، وأقل المؤمنين شفاعة من يشفع لثلاثين إنسانا.

Həzrət Peyğəmbər (s) buyurur: *“Möminlərin arasında da elələri var ki, Rəbiə və Muzir qəbilələri qədər şəfaət edəcəklər. Şəfaətə hamıdan az haqqı olan möminlər fəqət otuz nəfərə şəfaət edəcəklər”.*[575]

**İslam hədisləri və şəfaət**

İslam hədislərində bir çox hədislər vardır ki, aşkar surətdə şəfaət məsələsinə dəlalət edir. Onlardan bəzilərini qeyd edirik:

1. “Burhan” təfsirində İmam Kazimdən (ə), o da imam Əlidən (ə) nəql edir. Əli (ə) buyurur: “Mən Peyğəmbərdən (s) eşitdim buyurur: “Mənim şəfaətim ümmətimin böyük günahları üçündür.”

Bu hədisi rəvayət edən İbn Əbu Umeyr deyir: Mən imam Kazimdən (ə) soruşdum böyük günah sahibinə necə şəfaət olar, bir halda ki, Allah buyurub: “Böyük günahları əmələ gətirəndən Allah razı deyil.” İmam cavabında buyurdu: Peyğəmbər (s) buyurub ki, hər kəs günah edə və bu günahdan peşiman ola, o peşimançılıq onun üçün tövbə mislindədir. Kim tövbə etməsə həqiqi mömin deyil. Ona şəfaət olunmayacaq. Onun əməli zülmdür. Allah da zalımların barəsində buyurubdur: “Onları himayət və şəfaət edəni yoxdur.”

Hədisdən məqsəd budur ki, hər kim etdiyi günahdan peşiman olsa, onun üçün şəfaət vardır. Peşimançılıq günahları bir mərhələyə çıxardır, o mərhələdə də ona şəfaət şamil olur.

2. “Kafi” kitabında imam Sadiqdən (ə) əshabına yazılmış bir məktubda belə nəql olunur: “Kim istəyir ki, şəfaət edənlərin şəfaəti ona fayda versin, gərək Allahın razılığını tələb etsin.”

---

[574] “Biharul-Ənvar”, c.8,səh. 43 , hədis 39

[575] “Biharul-Ənvar”, c.8,səh. 58 , hədis 75

3. İmam Sadiqdən (ə) olan başqa bir hədisdə oxuyuruq: “Qiyamət günü Allah alim və abidi qaldıracaq. Abidə deyəcək, sən behiştə tərəf get, amma alimə deyəcək, sən dayan, tərbiyə etdiyin camaata şəfaət et.”

İkinci hədisdə günaha təşviq edən şəfaəti inkar edərək camaata bildirir ki, istəyirsiz şəfaət olunasız, Allahın riyazətini əldə edin. Üçüncü hədisdə isə alimin tərbiyə etməsi ilə onun şəfaət etməsi arasında olan rabitəni göstərərək bildirir ki, şəfaət olunan və şəfaət edən gərək bu simada olsunlar; şəfaət olunan, şəfaət edənin məktəbindən öyrənib ona əməl etsin şəfaət edənin də gərək məktəbi olsun və onun sayəsində şəfaət etmək hüququ ona verilsin.

Bundan əlavə, üçüncü hədisdən istifadə olunur ki, alimə şəfaət etmək hüququnun verilməsi, abiddən bu hüququn alınması, islam məntiqində şəfaət hüqununun qazanılması müqavilə, rüşvət və qüvvətin olmağı ilə deyildir. Bu hüquq, dediyimiz kimi əməl və təklif yolunda artıq dərəcədə çəkilmiş zəhmətin müqabilindədir.

***Ölülərə təvəssül etmək***

*İmamiyyə məzhəbində olanlar deyirlər: “Peyğəmbər və imamların həm sağlıq dövründə, həm də dünyadan köçdükdən sonra onlardan kömək istəmək və istəklər üçün onlara təvəssül etmək düzgündür.” Bu iş əvvəla, puça müraciət etmək deyildir. Şafeilərin ən böyük alimi Qəzzali[576] “Ehyaulumid-din” kitabında yazır: “Bəzi alimlər demişlər: “Ölüm, elə həmin puç olmaq deməkdir.” Bu, Allaha və ölümdən sonrakı həyata inanmayan mülhidlərin fikridir. Lakin insan bu həyatda yuxuda olduğu kimidir. Ölən kimi ayılır. Çünki, ölərkən ilk anladığı şey, yaxşı və pis hərəkətləridir. Pis hərəkətlərini görüb, dəhşətlə həsrət çəkir.”*

---

[576] Əbu Hamid Məhəmməd ibn Məhəmməd ibn Məhəmməd Qəzali Tusi Əşəri Şafei “Höccətül-İslam” ləqəbi ilə tanınıb, “Ehyaül-umid-din” və digər kitabların müəllifidir. O, 505-ci h. ilində Tusda vəfat etmiş və elə orada da dəfn olunmuşdur.

***Qurandan dəlillər***

*Qurandan dəlillərimiz aşağıdakı ayələrdir:*

*1. "**…Artıq bu gün, gözündən pərdəni qaldırdıq. Bu gün artıq gözün sərrastdır.**"*[577]

*2. "**Oxu kitabını. Bu gün haqq-hesab çəkmək üçün elə öz nəfsinin sənə şahidlik etməsi yetər.**"*[578]

*3.* ***"Ruziləri də səhər-axşam oradadır."***[579]

*4.* ***"Həqiqətən, yaxşı əməl və itaət sahibləri Cənnətdə qərar tutacaqlar. Pis əməl sahibləri isə Cəhənnəmdə olacaqlar."***[580]

*5.* ***"Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə sabitqədəm edər."***[581]

*Buxari öz "Səhih"ində yazır: "Peyğəmbər (s) buyurmuşdur: "Mömin qəbirdə oturarkən Allahın təkliyinə, Məhəmmədin peyğəmbərliyinə şəhadət verir". Bu, elə İbrahim surəsinin 27-ci ayəsinin mənasıdır. Yuxarıdakı ayələr ümumi xarakter daşıyırdı. İndi isə günahkarlar və kafirlərə aid ayələr:*

*1.* ***"Onlar səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə Firon əhlini ən şiddətli əzaba salın."***[582]

*2. "**Cənnət əhli Cəhənnəm əhlinə belə müraciət edib: "Biz, Rəbbimizin bizə vəd etdiyini haqq olaraq gördük. Siz də Rəbbinizin sizə vəd etdiyini gerçək olaraq gördünüzmü?"-deyə, soruşacaqlar. Onlar: "Bəli"-deyə, cavab verəcəklər.**"*[583]

*Buxari "Səhih"ində yazır: "Bədr müharibəsi bitdikdən sonra Hz. Peyğəmbər (s) Bədr quyusunun yanına gəlib yuxarıdakı ayəni oxudu. Səhabələrdən biri dedi: -Ya Rəsulullah! Ölənlərimi səsləyirsən? Peyğəmbər (s) buyurdu: "Siz onlardan daha yaxşı eşidən deyilsiniz, (yəni, onlar da sizin kimi eşidirlər) lakin cavab verə bilmirlər".*

---

[577] Qaf surəsi, ayə-22
[578] İsra surəsi, ayə-14
[579] Məryəm surəsi, ayə-62
[580] İnfitar surəsi, ayə-13-14
[581] İbrahim surəsi, ayə-27
[582] Mömin surəsi, ayə-46
[583] Əraf surəsi, ayə-44

*3.* ***"Ona hər tərəfdən ölüm gələr, lakin ölməz."***[584]

*4.* ***"Axirət yurdu isə şübhəsiz, əbədi həyatdır, kaş biləydilər!"***[585]

*5. "****O: "Kaş ki, mən əvvəlcədən həyatım üçün edəydim"-deyəcəkdir.****"*[586]

*Bəli, imansız və kafir insan axirət dünyasında həqiqətləri görən kimi deyər: "Kaş, əbədi həyatım üçün bir şey göndərəydim!". Bəli, o, "həyatım" üçün deyir. Çünki tezliklə bitən dünya həyatı artıq yoxdur və yalnız bir əbədi həyat var. Axirət həyatı.*

*O cümlədən, şəhidlər haqqında nazil olan ayələrdir:*

*1. "***Allah yolunda öldürülənlərə "ölü" deməyin. Əksinə, onlar diridirlər, lakin siz dərk etmirsiniz***."*[587]

*2. "***Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub, ruzi yeyirlər. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış şəxslərin heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar."***[588]

*Allah iman əhlinə belə müraciət edir:* ***"Ey arxayın nəfs! Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! Bəndələrimin zümrəsinə daxil ol! Cənnətimə varid ol!"***[589]

*Əgər insan ölərkən məhv olursa, bəs nə üçün Allah onlarla danışır? Məhv olmuş şəxsə müraciət etmək olarmı? Əgər onlar puçdularsa, bu sözü Allaha necə deyə bilərlər?*

***"Ey Rəbbim! Məni geri qaytar! Bəlkə zay etdiyim ömrün müqabilində, yaxşı bir iş görüm!."***[590]

---

[584] İbrahim surəsi, ayə-17
[585] Ənkəbut surəsi, ayə-64
[586] Fəcr surəsi, ayə-24
[587] Bəqərə surəsi, ayə-154
[588] Ali-İmran surəsi, ayə-169-170-171
[589] Fəcr surəsi, ayə-27-28-29-30
[590] Muminun surəsi, ayə-99-100

***“Kaş qövmüm biləydi ki, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindən etdi!”[591]***

***Peyğəmbər sünnəsindən dəlilimiz***

*Sünnədən isə “Sihah” və “Sünən” kitablarından nəql etsək, kifayətdir. Bu kitablarda aşağıdakı bölmələr vardır:*

*“Ölü, dirilərin ayaq səsini eşidir”, “Ölü qəbirdə danışır”, “Ölü Cənnət və ya Cəhənnəmdə öz yerini görür.” “Qəbristana girərkən, Peyğəmbər və ali-Peyğəmbərə, habelə, digər möminlərə salam verməyin qaydası” və. s.*

*Buxari “Səhih”in namazın vacibliyi və Peyğəmbərin (s) merac gecəsi Adəm, İdris, İbrahim, Musa və İsa ilə görüşməsi bölməsində yazır: “İbn Həzm və Ənəs ibn Malik deyirlər ki, Peyğəmbər buyurdu: “Allah mənim ümmətimə əlli namaz vacib etdi. Meracdan qayıdarkən Musa ilə rastlaşdım. Musa (ə) soruşdu: Allah nəyi sənin ümmətinə vacib etdi? Dedim: Əlli namazı. Musa dedi: Qayıt Allaha de ki, çoxdur, sənin ümmətində bu qədər taqət yoxdur. Mən də qayıdıb Allaha dedim. Allah da onun yarısını vacib etdi. Qayıdıb Musaya dedim: Allah yarısını saxladı. Musa dedi: Qayıt de ki, ümmətim üçün bu da çoxdur. Qayıdıb Allaha belə də dedim. Allah buyurdu: Onu beş vaxt namaz miqdarında etdim. Qayıdıb Musaya dedikdə, Musa bir də qayıdıb yüngülləşdirməyimi təklif etdi. Lakin mən dedim ki, daha Allahdan utanıram...”[592]*

*Nəsainin[593] “Sünən”ində və “Ehyaulumid-din”də Peyğəmbərdən (s) belə nəql olunur: “Allahın Yerdə gəzişən və mənim ümmətimə rəhmət göndərən mələkləri var.”*

---

[591] Yasin surəsi, ayə-26-27

[592] Bu hədis həm sünnü, həm də şiə alimlərinin kitablarında vardır. Lakin tədqiqatçıların dediyinə görə və hədisin özündən də göründüyü kimi, bu hədis zəifdir. Güman ki, israiliyyatdandır.

[593] Əhməd ibn Əli ibn Şüeyb Nəsai. Xorasan viilayətində Sərxos və Abivərd arasında yerləşən Nəsa şəhərində doğulub. “Sihahi-sittə”dən biri olan “Sünən” kitabının müəllifidir. Böyük alim və fəqih olmuşdur. Digər kitablarından, Həzrət Əlinin (ə) tərifatına dair yazdığı “Xəsaisün-Nəsai”nin adını qeyd edə bilərik. 303-cü h. ilində vəfat edib.

*Yenə Peyğəmbər (s) buyurmuşdur: "Mənə çoxlu salam göndərin. Onlar mənə çatır". Ətrafdakılar soruşdular: "Ya Rəsulullah! Bizim salamımız sənə necə çata bilər? Axı sənin bədənin öləndən sonra çürüyəcək? Peyğəmbər (s) buyurdu: "Allahın Peyğəmbəri diridir və Allahdan ruzi alır."*

*Bəs necə olur ki, peyğəmbərlər və şəhidlər istənilən səsi, salamı eşidirlər, lakin onlara təvəssül edəni eşitmirlər? Halbuki, Peyğəmbərdən (s) nəql olunur ki, buyurmuşdur: "Mənim biliyim, vəfatımdan sonra diriliyimdəki biliyim kimidir."*

*Qəzzali "Ehyaulumid-din"də o Həzrətdən belə nəql edir: "Allah bir mələyi camaatın sözlərini mənə çatdırmaq üçün məmur etmişdir."*

***Kitab və sünnəyə əsasən, dirilərə təvəssül etmək şirk deyil***

*Məlumdur ki, dirilərə təvəssül etmək düzgündür. Peyğəmbər, övliya və şəhidlər də Quranda diri hesab olunurlar, deməli, onlara təvəssül də düzgündür və şirk deyil.*

*Allah buyurur: "***Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun***."*[594]

*Buxari "Səhih"də yazır: "Peyğəmbər (s) buyurdu: "Müşriklərin köməkçilərini azad edin, onlardan İslama gəlmək istəyənləri qəbul edin!"*

*Məxluqdan kömək istəmək, Quranda da qeyd olunmuşdur. Allah buyurur:* ***"Musanın adamlarından olan şəxs, düşməninə qarşı ondan imdad istədi."***[595]

*Həvarilər İsadan (ə) xahiş etdilər ki, Allahdan onlar üçün göydən süfrə enməsini istəsin. Musanın tərəfdarları ondan su tapmasını dilədilər. Yusif azad olmuş məhbusa dedi:* ***"Ağanın yanında məni də yada sal!"***[596]

*Musa və Xızr haqda buyurur:* ***"Sonra yenə yola düzəlib getdilər. Axırda bir məmləkət əhlinə yetişib, onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq etmək istəmədi."***[597]

---

[594] Maidə surəsi, ayə-2
[595] Qəsəs surəsi, ayə-15
[596] Yusif surəsi, ayə-42
[597] Kəhf surəsi, ayə-77

*Əgər Yusifin (ə) bir kafirdən "Ağanın yanında məni də yada sal"-deyə, xahiş etməsi, Musa və Xızrın (ə) bir məmləkət əhlindən yemək istməsi doğru və düzgün hesab olunursa, bəs nə üçün Peyğəmbərin (s) qəbri önündə dayanıb "Ağanın yanında məni yada sal" – deyərək yalvarmaq müşriklik sayılmalıdır? Süleyman (ə) məclis əhlinə üz tutub deyir: "***Səba mələikəsi Bilqeys özü gəlib çatmamış, onun taxtını kim gətirə bilər?**". Bir ifrit (cin) bu işi öz boynuna götürür. İbn Teymiyyə və onun kimilər nicat gəmisi olan Peyğəmbər (s) və Əhli-beytin (ə) məqamını bir ifrit qədər də qəbul etmirlərmi? O Peyğəmbər (s) ki, bu istək və hacətləri yerinə yetirməkdə aciz deyil. Allah buyurur: "***(Münafiqlərin Peyğəmbərə və möminlərə qarşı) kin-küdurət bəsləmələrinin səbəbi, yalnız Allahın və Peyğəmbərinin Öz nemətləri ilə onları varlandırmasıdır**"[598]

"**Kaş münafiqlər Allahın və Peyğəmbərinin onlara verdiklərindən razı qalıb: Allah bizə kifayətdir. Allah bizə Öz nemətindən bəxş edəcək. Biz, həqiqətən, Allaha ürəkdən bağlananlarıq!-deyərdilər**"[599]

"**(Peyğəmbər) onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar**"[600]

*Ağır yük" həm dünya, həm də axirət işlərinə aiddir.*

"**Sizə özünüzdən bir Peyğəmbər göndərildi ki, əziyyətə düşməyiniz ona ağır gəlir, o sizi çox istəyir, möminlərə şəfqətlidir, mərhəmətlidir**."[601]

*Fəxr Razi "Təfsir"ində yazır: "Yəni, Peyğəmbər (s) Allahın dünya və axirətdə sizə xeyir verməsi üçün israrlıdır".*

*Allahın yanında bu qədər hörməti olan Peyğəmbərdən (s) imdad istəmək və ona təvəssül etmək şirk ola bilməz.*

*Allah İsa (ə) haqqında belə buyurur: "***Mən sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstə-**

---

[598] Tövbə surəsi, ayə-74
[599] Tövbə surəsi, ayə-59
[600] Əraf surəsi, ayə-157
[601] Tövbə surəsi, ayə-128

**liyinə tutulanları sağaldır və Allahın iznilə ölüləri dirildirəm.**[602]

*“***Dörd cür quş götürüb onlara diqqətlə bax, sonra hər dağın başına onlardan bir parça at, daha sonra onları çağır, tez yanına gələcəklər!***”*[603]

*Bunlardan əlavə, Musanın (ə) əsanı daşa vuraraq daşın parçalanması, İsanın (ə) ölüləri diriltməsi, bizim Peyğəmbərin (s) ayı parçalaması, o Həzrətin Meraca getməsi və s. Quran və sünnədə şübhəsiz qəbul olunan məsələlərdir. Müsəlmanların bu fövqəl-təlim işləri qəbul etməkdən başqa çarəsi yoxdur.*

*Bəlli oldu ki, peyğəmbərlər dünyada fövqəl-təbii qüdrətə malik olmuşlar. O da aydın olur ki, peyğəmbərlər Bərzəx aləmində də yaşayır və deməli, dünyada bizim hacətlərimizə əncam çəkməyə qadir olduqları kimi, axirətdə də bu işi edə bilərlər. İsanın (ə) ölüləri diriltməsi və xəstələrə şəfa verməsi ilə, ona təvəssül etmək arasındakı fərq nədir? Halbuki, ölümə şəfa Allahın əlindədir və digər hacətlərdən daha çətindir. Dəqiq bir hədisdə deyilir ki, Peyğəmbər (s) bir kora belə deməyi öyrətdi: “İlahi! Sənin rəhmət peyğəmbərin olan Peyğəmbərin (s) vasitəsilə səndən imdad istəyirəm. Ya Məhəmməd (s)! Mən sənin vasitənlə bu arzumun yerinə yetməsi üçün Allaha üz tuturam. İlahi! Peyğəmbərin mənim barəmdə şəfaətini qəbul elə!”*

Bu hədisi Hakim Nişaburi[604] və İbn Macə Qəzvini İmran ibn Həssandan nəql edərək düzgün olduğunu qeyd etmişlər. Tirmizi və Şeyx Süleyman Nəcdi də öz kitablarında bu hədisi yazmışlar. Lakin qəribə burasındadır ki, Şeyx Süleyman Nəcdi də öz kitabında bu hədisi yazdıqdan sonra belə deyir: “Bu hədis bizə aydın edir ki, Allahdan başqasını çağırmaq olmaz. Çünki Peyğəmbər

---

[602] Ali-İmran surəsi, ayə-49

[603] Bəqərə surəsi, ayə-260

[604] Məhəmməd ibn Abdullah ibn Məhəmməd “Hakim Nişaburi” və “ibnül-Bəyyi” adı ilə məşhurdur. O, təxminən, iki min nəfərdən hədis öyrənmiş və öz dövründəki hədis alimlərinin sünni məzhəbləri arasında başçısı olmuşdur. Buxari və Müslimin “Səhih”inə şərh olan “Müstədrəküs-səhiheyn”, “Fəzailu-Fatimə (s.ə)” və “Nişabur alimlərinin tarixi” kitablarının müəllifidir. Hakim Nişaburi 405-ci h. ilində vəfat etmişdir.

deyir: İlahi, Sənə üz tuturam”. Halbuki o, hədisin davamında “Ya Məhəmməd (s)! Mən sənin vasitənlə Allaha üz tuturam” cümləsini nəzərə almır! Allahdan qeyrisinə təvəssül etməyin ümumiyyətlə, batil olduğunu deyənlərin kitab və sünnəyə müxalif olduqları aydınlaşır. Əlavə dəlil budur ki, Buxari “Səhih”inin “Qıtlıq zamanı camaatın yağış üçün xahişi” və “peyğəmbərlik əlamətləri” bölməsində Sabitdən, onun da Ənəs ibn Malikdən yazdığı hədisdir: “Peyğəmbər (s) zamanında Mədinədə qıtlıq oldu. Bir gün Peyğəmbər (s) Cümə xütbəsi oxuyarkən, bir kişi qalxıb dedi: Ya Rəsulullah! Mal-qaramız qırıldı getdi. Allahdan istə, bizi sirab etsin. Peyğəmbər (s) də əlini açıb dua etdi.”

# VI FƏSİL
# CƏNNƏT VƏ CƏHƏNNƏMİN VƏSFİ HƏDİSLƏRDƏ

## Cənnətin vəsfi haqqında

قَالَ رَسُولُ اللّٰهِ (ص): قَالَ اللّٰهُ تَعالى: أَعْدَدْتُ لِعِبَادِي الصَّالِحِينَ، مَا عَيْنٌ رَأَتْ، وَلا أُذُنٌ سَمِعَتْ، وَلا خَطَرَ عَلى قَلْبِ بَشَر. قَال اِقْرَءُوا إنْ شِئْتُمْ: **"فَلا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أعْيُنٍ".**

**1.** Rəsulullah (s) buyurur: *“Allah-Təala buyurur: “Mən saleh qullarım üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi və insanın xəyal və xatirindən heç keçməyən nemətlər hazırladım”.*

Ravi əlavə edərək deyir: “İstəsəniz bu ayəni oxuyun: ***“Etdikləri əməllərin mükafatı olaraq (Allah dərgahında) onlar üçün göz oxşayan (onları sevindirəcək) nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!”***[605,606]

### Açıqlama:

Bu hədis, Rəbbin cənnətdə saleh qulları üçün hazırladığı nemətlərin ucalığını ifadə edir. Elə nemətlər ki, tərifi mümkün deyildir. Çünki bunları insan nə görmüş, nə eşitmiş, nə dadmış, nə də xəyal edə bilmişdir. Cənnət və nemətlərinin bundan daha uca, həqiqətinə daha yaxın bir tərifi düşünülməz. Lakin başqa naslarda, cənnət nemətlərinin sadəcə ad baxımından dünyadakılara bənzəyəcəyi ifadə edilsə də, bu bənzərlik addan o tərəfə keçməmişdir, mahiyyətinin idrakı mümkün deyildir.

İbn Məsudun rəvayətində “Onu müqərrəb (Allaha yaxın) mələklər də bilməz, peyğəmbərlər də” əlavəsi də mövcuddur.

---

[605] “Səcdə” surəsi, ayə-17

[606] Buxari, “Bədul-Xalq” 8, Təfsir “Səcdə” 1, “Tövhid” 35; Müslim, “Cənnət” 2, (2824); Tirmizi, “Təfsir”, (3195)

Hədisdə keçən “bəşər” kəlməsini əsas götürən bəzi şərhlər: “Mələklərin qəlbinə gələ bilər” ehtimalını irəli sürsə də, xüsusilə İbn Məsuddan gələn əlavəyə əsaslanan üləma, ona da etibar etməmiş, inkarın ümumi olmasını əsas götürmüşlər. Sadəcə insanın deyil, mələklərin qəlbinə də cənnət nemətləri gəlməz, xəyal edilməz.

وزاد البخاري في أخرى، عن سهل بن سعد: وَذكر مثله. ثمّ قال: وَقَالَ مُحَمّدُ بْن كَعْبٍ: إنَّهُمْ أخْفَوْا للّهِ عَمَلاً فأخْفَى لَهُمْ ثَواباً. فَلَوْ قَدِمُوا عَلَيْهِ أقَرَّ تِلْكَ الأعْيُنِ .

**2.** Buxari digər rəvayətində bu əlavəni qeyd edir: *“Səhl ibn Səd nəql edir ki, hədisin eynisini qeyd etdikdən sonra Muhəmməd ibn Kəb dedi: “Onlar Allah üçün əməli gizli tutdular. Allah da onların savabını gizli tutdu. Qullar yanına gəlincə onları nemətlə qərq edəcək”.*

Hədis bu məzmunda “Buxari”də mövcud deyil. Hakimin “əl-Müstədrək”ində isə var.

وعنه رَضِيَ اللّهُ عَنْه قال: قُلْتُ: يَا رَسُولَ اللّهِ (ص) مِمَّ خُلِقَ الْخَلْقُ؟ قَالَ: مِنَ الْمَاءِ. قُلْتُ: اَلْجَنَّةُ مَا بِنَاؤُهَا؟ قَالَ: لَبِنَةُ فِضَّةٍ وَلَبِنَةُ ذَهَبٍ. وَمِطُهَا الْمِسْكُ الأذْفَرُ، وَحَصْبَاؤُهَا اَللُّؤْلُؤُ وَالْيَاقُوتُ، وَتُرَابُهَا الزَّعْفَرَانُ، مَنْ يَدْخُلُهَا يَنْعَمُ وَ يَبْأسُ، وَيَخْلُدُ وَ يَمُوتُ، وَلا تَبْلى ثِيَابُهُمْ، وَلا يَفْنَى شَبَابُهُمْ: ثُمَّ قَالَ: ثَلَثَةٌ تُرد دَعْوَتُهُم: الإمَامُ الْعَادِلُ، وَالصَّائِمُ حِينَ يُفْطِرُ وَدَعْوَةُ الْمَظْلُومِ يَرْفَعُهَا اللّهُ فَوْقَ الْغَمَامِ، وَتُفَتَّحُ لَهَا أبْوَابُ السَّمَاءِ. وَيَقُولُ اللّهُ: وَعِزَّتِي لأنْصَرَنَّكَ وَلَوْ بَعْدَ حِينٍ.

**3.** Səhl ibn Səd Peyğəmbərdən soruşur: “Ey Allahın Rəsulu! İnsanlar nədən yaradıldı?”

O: *“Sudan!”* buyurdu.

“Bəs cənnət?” dedim, “o nədən inşa edildi?”

*“Gümüş kərpicdən və qızıl kərpicdən! Cənnətin çınqılları inci və yaqutdan, torpağı da zəfərandır. Ona girən nemətə nail olar, əziyyət görməz, əbədiyyət qazanar, ölümlə qarşılaşmaz. Libası köhnəlməz, gəncliyi qeyb olmaz”.*

Həzrət sözlərinə belə davam etdi: *“Üç kişi var duaları rədd edilməz (mütləq qəbul edilər):*

** Adil imam (dövlət başçısı).*

** İftarını etdiyi zaman oruclu şəxs.*

** Zülmə məruz qalanın duası. Allah, (məzlumun) duasını buludların fövqünə çıxarar və onlara səma qapıları açılar və Allah: "İzzətimə and olsun! Vaxtı uzansa da, duanı mütləq qəbul edəcəyəm!" buyurar".*[607]

**Açıqlama:**

**1.** Rəsulullah bu hədislərində üç böyük əməli diqqətimizə çatdırır: Ədalət, oruc və zülmə qarşı səbir. İlk ikisi ibadətdir, üçüncüsü zülmün nə qədər böyük bir cinayət olduğunu ifadə edir. "Məzlum" hədisdə mütləq gəldiyi üçün, alimlər tərəfindən "hər kim olursa olsun" açıqlaması verilmişdir. Yəni zülmə məruz qalan kafir də olsa, günahkar da olsa, münafiq də olsa duası məqbuldur. Onun küfrü, nifaqı başqasının ona qarşı zülm və haqsız rəftar etməsinə haqq qazandırmaz. Bu təfərrüat hədislərdə də gəlmişdir, daha öncə başqa cəhətlərini qeyd etdik.

**2-** Hədisdə keçən يَرْفَعُهَا فَوْقَ الْغَمَامِ -ki "Allah, (məzlumun) duasını.. qəbul edər" deyə tərcümə etdik- ibarə iki surətdə başa düşülə bilər:

**1)** Burada buludların fövqinə çıxan və tez və ya gec Allahın qəbuluna nail olacaq olan dua "məzlum"un duasıdır.

**2)** Bu dua, hədisdə sayılan üç qrupun duasıdır: Adil imam, iftar sırasındakı oruclu və məzlum.

Məzlumun etdiyi duanın mütləq şəkildə Allah tərəfindən qəbul ediləcəyini Qurani-Kərimin bu ayəsi də təsdiqləyir: ***"(Bütlər yaxşıdır) yoxsa əli hər yerdən üzülüb darda qalan birisi Ona dua etdiyi zaman onun duasını qəbul buyuran, (sizdən) şəri sovuşduran, sizi yer üzünün varisləri edən kimsə? Məgər Allahla yanaşı başqa bir tanrı varmı? Siz nə az düşünüb-daşınırsınız?"***[608]

**3-** Hədisdə, açıqlanması lazım olan son bir xüsus, "vaxtı uzansa da" deyə tərcümə etdiyimiz بَعْدَ حِينٍ təbiridir. Allah dualara cavab verəcəyini vəd etməkdədir. Həzrət isə bunu xəbər verir. Ancaq, nə Quran, nə də hədislər "anında, eynilə" deyə bir qeyd

---

[607] Tirmizi "Cənnət" 2, (2528)
[608] "Nəml" surəsi, ayə-62

gətirmirlər. Çünki Allah, Həkimdir, hər şeyi hikmətlə edər. Bilavasitə duaların qəbulunda da izlədiyi bir hikmət vardır. Anında yerinə yetirə biləcəyi kimi, on il, iyirmi il, qırx il sonra da yerinə gətirə bilər, məhv edər, fəqət səhlənkarlıq etməz. Elə isə məna belədir: "Ey məzlum! Mən sənin tapdanan haqqını zay etməyəcəyəm. Uzun zaman keçsə də duanı geri çevirməyəcəyəm. Çünki mən Həliməm, qulları cəzalandırmaqda tələsmərəm. Bəlkə tövbə edərlər, məzlumlara da haqlarını verərək könüllərini alaraq razı edərlər, zülm və günahdan vaz keçərlər deyə möhlət verərəm".

وعن أبي موسى رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): جَنَّتَانِ مِنْ فِضَّةٍ، آنِيتُهُمَا وَمَا فيهَا؛ وَجَنَّتَانِ مِنْ ذَهَبٍ، آنِيَتُهمَا وَمَا فِيهِمَا؛ وَمَا بَيْنَ الْقَوْمِ وَبَيْنَ أنْ يَنْظُرُوا الى رَبِّهِمْ إلاَّ رِدَاءُ الْكِبْرِيَاءِ عَلى وَجْهِهِ في جَنَّةِ عَدْنٍ.

**4.** Əbu Musa nəql edir: "Rəsulullah (s) buyurdu: *"Gümüşdən iki cənnət vardır. Qabları və içində olan digər şeyləri də gümüşdəndir. Qızıldan iki cənnət vardır, qabları və içlərində olan digər əşyaları da qızıldandır. Ədn cənnətində, cənnətliklərlə Rəblərini görmələri arasında Allahın vəchindəki ridaul-kibriyədən (böyüklük pərdəsindən) başqa bir şey yoxdur."*[609]

**Açıqlama:**

**1.** Bu hədisin bir başqa vəchində rəvayətin əvvəli belə başlayır: "Firdovs cənnətləri dörddür: İkisi qızıldan, ikisi də gümüşdən.." Başqa rəvayətlərdə qızıldan olan iki cənnətin müqərrəblərə, yəni Allaha yaxınlıq kəsb edən böyüklərə, gümüşdən olan digər ikisinin də əməl dəftərləri sağından verilənlərə məxsus olduğu bildirilmişdir.

Bu hədis cənnətin gümüş və qızıl kərpiclərdən – hətta bir qat qızıl, bir qat gümüş kərpicdən – tikildiyini ifadə edən rəvayətlərə müxalifdir. Ancaq alimlər başqa rəvayətlərdəki əlamətləri dəyərləndirərək: "Birincisi, hər bir cənnətdə qab-qacaq və s. növündən olanların vəsfini, ikincisi də bütün cənnətləri əhatə edən divarların vəsfini bəyan edir" deyərək hədisləri izah edirlər. Bu

[609] Buxari, "Təfsir", "Rəhman" 1, 2, "Bədul-Xalq" 8, "Tövhid" 24; Müslim, "İman" 180, (296); Tirmizi, "Cənnət" 3, (2530)

təvili dəstəkləyən dəlillərindən biri bu rəvayətdir: *“Allah cənnətin divarını bir qızıldan, bir gümüşdən kərpic ilə inşa etmişdir”.*

Bu hədis Müslim, Tirmizi, Nəsai, İbn Huzeymə və İbn Hibbanda keçir. Müslimin mətni belədir: “Rəsulullah (s) buyurdu: *“Cənnət əhli cənnətə girincə, Allah soruşar: “Sizə əlavə bir nemət verməyimi istəyirsinizmi?” Cənnət əhalisi: “Sən bizim üzlərimizi ağ etmədinmi? Bizi cənnətə qoymadınmı (daha nə istəyəcəyik)?” deyərlər. Rəsulullah (s) deyir ki: “Bundan sonra onlar üçün hicab açılar. Cənnət əhalisinə bundan daha xoş bir şey verilməmişdir”.*

Həzrət sonra bu ayəni tilavət etdi: ***“Yaxşı işlər görənləri ən gözəl mükafat (Cənnət) və (ondan da) artığı (Allah rizası) gözləyir”***[610]

Qurtubiyə görə “Rida bir kinayədir, onunla Uca Allahın əzəmətinə eyham edilmişdir. Həqiqətən bu hədisdə də belədir: “Kibriyə ridamdır, əzəmət də izarımdır”.

İbn Battal deyir ki: “Bu hədisdə Allaha cisim izafə etməyə çalışan Mücəssəmə firqəsi üçün məkan əlavəsinə bir yol yoxdur. Çünki Allaha cisim nisbət verməyin və ya bir məkanda olmasını gərəkdirən bir halın qeyri-mümkün olması barədə dəlillər qətidir. Bu vəziyyətdə “rida”nı insanların Allahı görməsinə “mane olan gözlərdəki afət” olaraq təvil etmək lazımdır.

وفي رواية لَهُمْ: قَالَ رَسُولُ اللّٰهِ (ص): في الْجَنَّةِ خَيْمَةٌ مِنْ لُؤْلُؤَةٍ مُجَوَّفَةٍ. وَفي رواية: عَرْضُهَا سِتُّونَ مِيً: في كُلّ زَاوِيَةٍ مِنْهَا أَهْلٌ لاَ يَرَوْنَ الآخَرِينَ، يَطُوفُ عَلَيْهِمُ الْمُؤْمِنُ.

**5.** Yenə eyni qaynaqlarda bu rəvayət gəlmişdir: “Rəsulullah (s) buyurdu: *“Cənnətdə mömin üçün içi boş tək bir incidən bir çadır vardır. (Bir rəvayətdə) genişliyi altmış mildir. Hər küncündə bir rəfiqəsi olar, heç biri digərini görməz, mömin bunların hər birini gəzər”.*[611]

---

[610] Yunus surəsi, ayə-26

[611] Buxari, Bədul-Xalq 8, Təfsir, Rəhman 1, 2, Tövhid 24; Müslim, Cənnət 23, (2838); Tirmizi, Cənnət 3, (2530)

**Açıqlama:**

Möminə cənnətdə hazırlanan bu çadırın bəzi rəvayətlərdə yüksəkliyinin altmış mil olduğu ifadə edilmişdir. Demək ki, həm yüksəkliyi həm də genişliyi altmış mil olacaqdır. Hər küncündə bir zövcənin yer alacağı bildirilmiş olmasından, bəzi alimlər, axirətdə huri mənşəli olsun, dünya mənşəli olsun, ər-arvadın sayca çox olacağı hökmünə çıxarmışdır. Künclərdə oturan ər-arvadın bir-birlərini görməmələri, məsafənin uzaqlığındandır. Bəzi rəvayətlərdə, tək bir incidən emal olunan bu çadırın yetmiş qapısı olduğu bildirilmişdir.

Çadır deyə tərcümə etdiyimiz xeymənin ağacdan emal olunmuş dörd künclü ev mənasına gəldiyi də söylənmişdir. Beləcə möminin axirətdəki çadırında dörd xanımının olacağı anlaşıla bilər. Onları dolaşmaqdan mənanın, cimadan kinayə olduğu qeyd olunur.

وعن عُبادة بن الصّامت رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): في الْجَنَّةِ مِائَةُ دَرَجَةٍ، مَا بَيْنَ كُلِّ دَرَجَةٍ وَدَرَجَةٍ كَمَا بَيْنَ السَّماءِ وَالأَرْض. وَالْفِرْدَوْسُ أعْلاهَا. وَمِنْهَا تُفَجَّرُ أنْهَارُ الْجَنَّةِ الأرْبَعَةُ، وَمِنْ فَوْقِهَا يَكُونُ الْعَرْشُ. فإذَا سَأَلْتُمُ اللّٰهَ فَاسْأَلُوهُ الْفِرْدَوْسَ.

**6.** Ubadə ibn Samit nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cənnətdə yüz dərəcə vardır. Hər bir dərəcənin digər dərəcə ilə arası səma ilə ərz arası qədər genişdir. Firdovs bunların ən yuxarıda olanıdır. Cənnətin dörd çayı buradan başlayır. Bunun üstündə Ərş vardır. Allahdan cənnət istədiyiniz vaxt Firdovsi istəyin.”*[612]

وعن ابي سعيد رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ في الْجَنَّة مِائَةَ دَرَجَةٍ لَوْ أنَّ الْعَالَمِينَ اجْتَمَعُوا في إحْدَاهُنَّ لَوَسِعَتْهُمْ.

**7.** Əbu Səid nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cənnətdə yüz dərəcə vardır. Bütün aləmlər bunlardan birinin içində toplansalar, hamısını da tutar, hətta artıq qalar”.*[613]

---

[612] Tirmizi, “Cənnət” 4, (2533)
[613] Tirmizi “Cənnət” 4, (2534)

وعن أنس رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): إنَّ في الْجَنَّةِ شَجَرَةً يَسِيرُ الرَّاكِبُ في ظِلِّهَا مِائَةَ عَامٍ يَقْطَعُهَا؛ وَاقْرءُوا إنْ شِئْتُمْ: **وظِلٍّ مَمْدُودٍ**.

**8.** Ənəs nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cənnətdə bir ağac vardır ki, minikli bir kimsə yüz il kölgəsində gəzsə onu qət edə bilməz. İstəsəniz bu ayəni oxuyun:* ***"Çəkilməyən (daimi) kölgəliklərdə, axar su kənarında".***[614]

قَالَ رَسُولُ اللّهِ (ص): مَا في الْجَنَّةِ شَجَرَةٌ إلاّ وَسَاقُهَا مِنْ ذَهَبٍ.

**9.** Allahın Rəsulu buyurur: *"Cənnətdə elə bir ağac yoxdur ki, gövdəsi qızıldan olmasın".*[615]

**Açıqlama:**

Qeyd etdiyimiz bu dörd hədisdə cənnətlə bağlı bəzi təriflər mövcuddur. Belə ki:

**1-** Cənnət tək dərəcəli deyildir. Başlıca yüz dərəcəsi vardır. Hər dərəcənin məsafəsi digər dərəcədən artıqdır. Dəmək ki, dərəcə içərisində də ikinci təbəqələr, mərtəbələr vardır. Cənnətliklər əməllərinə müvafiq olaraq dərəcədə yerini alacaqdır. Həqiqətən bəzi alimlər yüz dərəcə təbirilə çoxluğun qəsd edildiyini bildirirlər. Cəhənnəm də belədir, küfrdəki şiddətinə görə hər bir kafir bir dərəcədə yerini alacaqdır. Ayə münafiqlərin atəşin ən aşağı təbəqəsində yer alacaqlarını ifadə edir. ***"(Ya Rəsulum!) Əlbəttə, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan!"***[616]

Dərəcələr arasındakı məsafələr hədislərdə fərqlidir. Bəzisində beş yüz gəzmə ili, bəzisində daha az, daha çox deyilmişdir.

**2-** Firdovs: Hər növ bitkini cəm edən bağça, bostan mənasına gəlir. Ancaq "Üzüm asmalarının olduğu bağçadır" da deyilmişdir. Kəlmənin rumca, qibticə və hətta süryanicə olduğu iddia edilmişdir.

---

614 "Vaqiə" surəsi, ayə-30-31, Tirmizi, "Təfsir", "Vaqiə", (3289, "Cənnət" 1, (2525)

615 Tirmizi, "Cənnət" 1, (2527)

616 "Nisa" surəsi, ayə-145

Buradan çıxan dörd ana çaydan məqsəd, başqa rəvayətlərdə açıqlanmışdır: Biri su, biri süd, biri xəmir, biri bal çayıdır.

Firdovs cənnəti hamısının yuxarısında, hamısından üstün olduğu üçün Allahdan öncəliklə bunun tələb edilməsi tövsiyə edilmişdir. Bu halda mömin Allahdan bir şey istərkən ən ucanı, ən böyüyünü, ən çoxunu istəməlidir. Onun rəhmətinə sərhəd olmadığı üçün Allahdan istərkən qənaətkar olmaq, mütəvazi davranmaq fəzilət deyildir.

**3-** Cənnətdəki ağacın Tuba olduğu söylənmişdir. Ancaq kölgə kəlməsinin adət mənası anlaşılmamalıdır. Çünki dilimizdə kölgə deyincə günəş istiliyinə qarşı hasil edilən qorunma fikrə gəlir. Halbuki axirətdə günəş olmayacaq. Elə isə kölgədən məqsəd, ağacın hasil etdiyi nemətlər və rahatlıq olmalıdır. Yəni cənnətin harasına gedilsə cənnətin kənarına çıxılmayacaq deməkdir. "Zill" (kölgə) kəlməsi ərəbcədə "himayə" mənasında da işlənir. "Onun zillində" demək, onun qanadları, himayəsi altında deməkdir.

**4-** Cənnətdəki hər ağacın gövdəsinin qızıldan olmasına gəlincə, bu ibarə oradakı ağacın məlumumuz olan dünyəvi ağaclar kimi olmadığını bəyan edir. Qızıl, çürüməyən bir maddədir. Elə isə cənnət ağacının qızıldan olması, onun əbədi, çürüməz bir mahiyyətdə olacağının ifadəsidir. Bir hədisdə deyilir: *"Cənnətdə bir ağac vardır, gövdələri qızıldan, budaqları qiymətli incidəndir. Külək əsdikcə bunlar bir-birinə dəyərək elə bir namə çıxarırlar ki, heç bir qulaq belə dadlı bir səs eşitməmişdir"*. İbn Abbasın bir rəvayətində: *"Cənnət xurmalarının gövdələri yaşıl zümrüddəndir. Budaqlarının sapı qızıldan, yarpaqları da cənnət əhlinin geyimlərindəndir. Pencəkləri bundan tikilər. Onun meyvəsi isə dibçək və güldanları kimi iri, süddən bəyaz, baldan şirin, qaymaqdan daha yumşaqdır, onlarda çürük yoxdur"* deyilmişdir.

Cənnət əhlinin bu ağac altında söhbət edib dünya xatirələrini təzələyəcəkləri, əylənmək istədikləri zaman Allahın göndərəcəyi bir küləklə ağacın tərpənib, dünyadakı hər çeşid əyləncəni ortaya qoyacağı ifadə edilmişdir.

الامام الصادق (ع) عن جده عن علي (ع) قال: أن للجنة ثمانية أبواب، باب يدخل منه النبيون و الصديقون، و باب يدخل منه الشهداء و الصالحون، و خمسة ابواب تدخل منها شيعتنا و محبونا، و باب يدخل منه ساير المسلمين ممن يشهد ان لا اله الا الله و لم يكن في قلبه مثقال ذرة من بغضنا أهل البيت.

**10.** İmam Sadiq (ə) babalarından, onlar da İmam Əli (ə) belə nəql edirlər: *"Cənnətin səkkiz qapısı var; bir qapısından peyğəmbərlər və siddiqlər (haqq sözü danışanlar), digərindən şəhidlər və əməli saleh insanlar daxil olacaq. Digər beş qapıdan isə bizim şiələr və bizi sevənlər, qalan bir qapıdan Allahın vahidliyinə şəhadət verən və qəlblərində biz Əhli-Beytə qarşı zərrə qədər düşmənçiliyi olmayan müsəlmanlar Cənnətə keçəcəklər".* [617]

عن أبي بصير قال: قلت لأبي عبدالله عليه السلام: جُعلت فداك! يابن رسول الله شوّقني، فقال: يا أبا محمّد، إنّ من أدنى نعيم الجنّة يوجد ريحها من مسيرة ألف عام من مسافة الدنيا، وإنّ أدنى أهل الجنّة منزلاً لو نزل به أهل الثقلين الجنّ والإنس لوسعهم طعاما وشرابا، ولاينقص ممّا عنده شيء، وإنّ أيسر أهل الجنّة منزلة من يدخل الجنّة فيرفع له ثلاث حدائق، فإذا دخل أدناهنّ رأى فيها من الأزواج والخدم والأنهار والأثمار ماشاء الله، ممّا يملأ عينه قرة وقلبه مسرة، فإذا شكر الله وحمده قيل له: ارفع رأسك إلى الحديقة الثانية، ففيها ما ليس في الأُخرى، فيقول: يا ربِّ، أعطني هذه، فيقول الله تعالى: إن أعطيتك إياها سألتني غيرها، فيقول: ربِّ هذه هذه، فإذا هو دخلها شكر الله وحمده. قال فيقال: افتحوا له باب الجنّة، ويقال له: ارفع رأسك، فإذا قد فُتح له باب من الخلد، ويرى أضعاف ماكان فيما قبل، فيقول عند تضاعف مسرّاته: ربِّ لك الحمد الّذي لا يحصى إذ مننت عليَّ بالجنان ونجيتني من النيران.

قال أبو بصير: فبكيت وقلت له: جُعلت فداك! زدني، قال: يا أبا محمّد، إنّ في الجنّة نهرا في حافته جوارٍ نابتات، إذا مرّ المؤمن بجارية أعجبته قلعها وأنبت الله مكانها أُخرى.

قلت: جُعلت فداك! زدني.

قال: المؤمن يزوّج ثمانيمئة عذراء، وأربعة آلاف ثيّب، وزوجتين من الحور العين.

قلت: جُعلت فداك! ثمانيمئة عذراء؟ قال: نعم، ما يفترش منهنّ شيئا إلاّ وجدها كذلك.

قلت: جُعلت فداك! من أيّ شيء خُلقْنَ الحور العين؟

---

[617] "əl-Xisal", səh.408, hədis 6.

قال: من تربة الجنّة النورانية، ويرى مخّ ساقيها من وراء سبعين حلّة، كبدها مرآته وكبده مرآتها.

قلت: جُعلت فداك! ألهنَّ كلام يكلِّمنَّ به أهل الجنّة؟

قال: نعم، كلام يتكلّمْنَّ به لم يسمع الخلائق بمثله.

قلت: ماهو؟

قال: يقلن: نحن الخالدات فلا نموت، ونحن الناعمات فلا نبوس، ونحن المقيمات فلا نظعن، ونحن الراضيات فلا نسخط، طوبى لمن خُلق لنا، وطوبى لمن خُلقنا له، نحن اللواتي لو أن قرن إحدانا علّق في جوّ السماء لأغشى نوره الأبصار.

**11.** Əbu Bəsir deyir: İmam Sadiqə (ə) dedim: *"Sənə fəda olum ey peyğəmbər övladı! Məni Cənnətə şövqləndir!" İmam (ə) buyurdu: "Ey Əbu Muhəmməd! Cənnətin ən aşağı səviyyəli nemətinin min illik dünya məsafəsindən ətri hiss olunur. Cənnət əhlinin ən aşağı mərtəbəsində olan şəxsə bütün cin və insanlar qonaq təşrif buyursalar onların hamısını yedirər, içirər və onun nemətlərindən heç bir şey azalmaz..."*[618]

İmam (ə) Cənnətin vəsfinə davam edərək buyurur: *"...Həqiqətən də Cənnət əhlinin ən aşağı məqama sahib şəxs üçün üç bağça ucalar. Onlardan ən aşağısına daxil olduqda orada Allahın onun üçün hazırladığı zövcələri, xidmətçiləri, çayları və meyvələri görər. Bunlar onun gözlərini sevinclə doldurar və qəlbini şad edər. Allaha şükür edib, həmd etdikdə ona deyilər: "İkinci bağa tərəf başını qaldır!"*

Sonra deyir: *"...Bəndə bağı gördükdə deyir: "Ey Rəbbim, bunu mənə ver!" Allah ona xitab edər: "Əgər bunu sənə əta etsəm, bundan başqasını Məndən istəməyəcəksən?" Bəndə deyir: "Ey Rəbbim! Bunu.., bunu..!"*

İmam (ə) sonra deyir: *"...Oraya daxil olduqda yenə Allaha şükür və həmd deyər. Deyilər: "Onun üçün Cənnətin qapısını açın!" Ona xitab olunar: "Üçüncü bağa baxmaq üçün başını qaldır!" Onun üçün ədəbi qalacağı bir qapı açıldıqda əvvəl gördüklərindən qat-qat artığını orada görər. Onun sevinci qat-qat artar və deyər: "Rəbbim sənə saysız həmd olsun! Mənə Cənnəti bəxş etdin və oddan nicat verdin!"*

---

[618] "Təfsirul-Qumi", c.2, səh.82

Əbu Bəsir deyir: *Mən ağlamağa başladım və dedim: "Sənə fəda olum, davam et."*

*Dedi: "Ey Əbu Muhəmməd! Cənnətdə bir çay vardır ki, ətrafı bitkilərlə əhatə olunub. Əgər mömin onun yanından keçsə, valeh olar. Əgər birini dərsə, Allah onun yerində yenisini bitirər..."*[619]

Bu zaman Əbu Bəsir deyir: *"Sənə fəda olum! Cənnət hurilərinin danışdıqları kəlamlar nədir?*

İmam (ə) buyurur: *"Bəli. Onların elə kəlamları vardır ki, məxluqlardan heç kəs elə kəlamlar eşitməyib. Dedim: Nədir onlar? Dedi: Deyərlər: "Biz əbədi yaşayanlarıq, ölməyəcəyik. Biz nemətlər içindəyik, heç vaxt əlimizdən alınmayacaq. Biz burada qalacağıq və çıxarılmayacağıq. Biz razı qalınanlarıq və bizə qəzəb olunmayacaq. Xoş bizim üçün yaradılanların halına və xoş o kəslərin halına ki, biz onlar üçün yaradılmışıq! Biz o kəslərik ki, əgər birimiz səmaya yaxınlaşsaq, nurumuz gözlər qamaşdırar."*[620]

**Açıqlama:**

- Rəvayətlərdə qeyd olunanlara əsasən Cənnətin Quran ayələrinin sayı qədər dərəcələri var. Buna görə də Qiyamət günü bəndəyə deyilər: *"Oxu və yüksəl!"*[621]

Bəziləri elə hesab edə bilər ki, burada məqsəd ayələrin hifzi və əzbərlənməsidir. Belə olsa, bəzi münafiqlər Quran hafizi olduqları üçün cənnət əhlindən sayılmalıdırlar. Halbuki məqsəd əmələ çevrilmiş Quran ayələridir.

- Hədisdən göründüyü kimi hətta axirətdə belə şükür İlahi nemətlərin artmasına səbəb olur. ***"Əgər*** (Mənə) ***şükür etsəniz, sizə*** (olan nemətimi) ***artıracağam".***[622] Bu da insanın Cənnətin dərəcə və mərtəbələrinə ucalmasına səbəb olur.

- Allahın verdikləri əsla azalmaz. Əksinə, bəxş etdikləri Ona

---

[619] "Təfsirul-Qumi", c.2, səh.82

[620] "Təfsirul-Qumi", c.2, səh.82-83.

[621] "Əmali", Şeyx Səduq, səh.440, hədis 586.

[622] "İbrahim" surəsi, ayə-7.

qarşı kərəm və sevgini daha da artırar. Hər zaman aclıq, susuzluq, bir hacət və ya tələb varsa, oraya Allahın ətası, kərəmi və səxavəti də vardır.

وعن أنسٍ رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): رُفِعْتُ الى سِدْرَةِ الْمُنْتَهى فإذَا أرْبَعَةُ أنْهَارٍ: نَهْرَانِ ظَاهِرَانِ وَنَهْرَانِ بَاطِنَانِ: فأمَّا الظّاهِرَانِ فَالنِّيلُ وَالْفُراتُ، وَأمَّا الْبَاطِنَانِ فَنَهْرَانِ في الْجَنَّةِ.

**12.** Ənəs nəql edir: "Rəsulullah (s) buyurdu: *"Sidrətul-Müntəhaya çıxarıldım. Orada dörd çay gördüm: İki çay zahirdi, iki çay da batin. Zahir olan iki çay Nil və Fərat çaylar idi. Batın olanlar da cənnətin iki çayı idi".*[623]

وعن بريدة رَضِيَ اللّٰهُ عَنْه قال: سَألَ رَجُلٌ رَسُولَ اللّٰهِ (ص) فقَالَ: هَلْ في الْجَنَّةِ خَيْلٌ؟ قَالَ: إنِ اللّٰهُ أدْخَلَكَ الْجَنَّةَ فَلا تَشَاءُ أنْ تُحْمَلَ فيهَا عَلى فَرَسٍ مِنْ يَاقُوتَةٍ حَمْرَاءَ تَطِيرُ بِكَ في الْجَنَّةِ حَيْثُ شِئْتَ إلاَّ كَانَ. فقَالَ آخَرُ: هَلْ في الْجَنَّةِ مِنْ إبِلٍ؟ قَالَ: فَلَمْ يَقُلْ لَهُ مَا قَالَ لِصَاحِبِهِ. فقَالَ: إنْ يُدْخِلْكَ اللّٰهُ الْجَنَّةَ يَكُنْ لَكَ فيهَا مَا اشْتَهَتْ نَفْسُكَ وَلَذَّتْ عَيْنُكَ.

**13.** Büreydə nəql edir: *"Bir nəfər Rəsulullaha (s) dedi: "Cənnətdə at varmı?" Həzrət də: "Allah səni cənnətə qoyduğu təqdirdə, qızıl yaqutdan bir at üzərində orada dolaşmaq istəyəcək olsan, o səni istədiyin hər yerə uçuracaqdır" buyurdu. Bunun üzərinə başqa bir nəfər soruşdu: "Cənnətdə dəvə varmı?" Amma Həzrət onun cavabını birincə verdiyi kimi vermədi. Belə buyurdu: "Əgər Allah səni cənnətə qoyarsa, orada canının hər istədiyi, gözünün hər xoşlandığı şeylər olacaqdır".*[624]

**Açıqlama:**

Hədisin ibarəsi nəticə etibarilə dəyişməyəcək fərqli bir üslubla tərcüməyə də əlverişlidir. Ancaq əsas söylənmək istənilən, cənnətdə minmə arzusu duyulduğu təqdirdə hər tərəfə götürəcək vasitələrin olduğudur. Yenə bir başqa rəvayət bu mövzunu daha açıq bir üslubla ifadə edir: "Bir bədəvi gələrək: "Ey Allahın Rəsulu! Mən atı sevirəm, cənnətdə at varmı?" deyə soruşdu. Rə-

---

[623] Buxari, "Əşribə" 12; Müslim, "İman" 264, (164)
[624] Tirmizi, "Cənnət" 11, (2546)

sulullah bu cavabı verdi: *"Cənnətdə məskunlaşdığın təqdirdə iki qanadı yaqutdan olan bir at sənə gətirilər. Sən ona mindirilərsən. O səni istədiyin yerə uçurar".*

Hədisin sonunda yer alan "*canının hər istədiyi, gözünün hər xoşlandığı şeylər*" ibarəsi bu ayəyə işarə edir: ***"...Orada ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız!"***[625]

Diqqət edək ki, Rəsulullah açıq bir şəkildə cənnətdə "at və ya dəvə vardır" və ya "yoxdur!" demir. Amma hər arzu ediləcək şeyin var olduğuna diqqət çəkir. Minik ehtiyacı olduqda bunun cənnət atlarının yerinə yetirəcəyini bildirir. Cənnətdəki atlar dünyəvi atlar kimi deyildir.

وعن عليٍّ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): إنَّ في الْجَنَّةِ لَمُجْتَمَعاً لِلحُورِ الْعِينِ يُغَنِّينَ بأصْوَاتٍ لَمْ يَسْمَعِ الْخَلائِقُ بِمِثْلِهَا، يَقُلْنَ: نَحْنُ الْخَالِدَاتُ فَلا نَبِيدُ. وَنَحْنُ النَاعِمَاتُ فَلا نَبْأسُ، وَنَحْنُ الرَّاضِيَاتُ فَلا نَسْخَطُ طُوبَى لِمَنْ كَانَ لَنا وَكُنّا لَهُ.

**14.** Hz. Əli (ə) nəql edir: "Rəsulullah (s) buyurdu: "*Cənnətdə qara gözlülərin (hurilərin) toplanma yerləri vardır. Orada bənzəri məxluqatın heç eşitmədiyi gözəl bir səslə mahnı oxuyar və belə söyləyərlər:"Bizlər əbədilərik, heç ölmərik! Bizlər nemətlərə nailik, fəqirlik nədir bilmərik! Rəbbimizdən razıyıq, əsla qəzəbə düçar olmarıq!"*[626]

**Açıqlama:**

Dilimizdə huri və ya huri qız deyilən cənnət qızları təbiri Qurani bir təbirdir. Quranda dəfələrlə zikri keçir və cənnət əhlinə bunlardan nikah ediləcəyi bildirilir, gözəllikləri təsvir edilir.[627] "Hur", lüğət olaraq, "həvra"nın cəmidir. "Həvra", gözünün bəyazı çox bəyaz, qarası da çox qara mənasına gəlir. Qısaca qara gözlü, ceyran gözlü kimi tərcümələri vardır.

Hədis hurilərin cənnətdə dünyada eşidilməmiş fövqəladə gözəl nəğmələrlə mahnı oxuyacaqlarını bildirir. Beləcə cənnət

---

[625] "Zuxruf" surəsi, ayə-71
[626] "Camiul-əxbar" səh.174., Tirmizi, "Cənnət" 24, (2567)
[627] Duxan 54, Tur 20, Rəhman 72, Vaqiə 22

əhlinin, Allahın bir başqa növ nemətlərindən qulağa xitab edən nemətlərini də, cənnətə layiq bir üstünlüklə dadacağını xəbər verir.

وعن أنس رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ في الْجَنَّةِ لَسُوقاً يَأتُونَهَا كُلَّ جُمْعَةٍ فَتَهُبُّ رِيحُ الشِّمَالِ فَتَحْثُو في ثِيَابِهِمْ وَوُجُوهِهِمْ فَيَزْدَادُونَ حُسْناً وَجَمَاً فَيَرْجِعُونَ الى أهْلِيهِمْ وَقَدْ إزْدَادُوا حُسْناً وَجَمَاً. فَيَقُولُ أهْلُوهُمْ: واللّٰهِ لَقَدِ ازْدَدْتُم بَعْدَنَا حُسْناً وَجَمَاً. فَيَقُولُون: وَأنْتُمْ واللّٰهِ لَقَدِ ازْدَدْتُمْ بَعْدَنَا حُسْناً وَجَمَاً.

**15.** Ənəs nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cənnət əhlinin bir bazarı vardır. Hər cümə oraya gəlirlər. Dərhal cənub ruzgarı əsir, libaslarını və üzlərini oxşayır. Bunun təsirilə hüsn və camalları artar. Beləcə ailələrinə, daha da gözəlləşmiş olaraq dönərlər. Xanımları: “Vallahi, bizdən ayrıldıqdan sonra sizin camal və gözəlliyiniz artmışdır!” deyərlər. Kişilər də: “Sizlər də, Allaha and olsun, bizdən sonra çox gözəlləşmişsiniz!” deyərlər”.*[628]

**Açıqlama:**

Bu hədis, yer üzündə insanların zövq aldıqları toplantı və toplanmaların axirətdə də olacağını xəbər verir. Bazar deyə tərcümə etdiyimiz “suq” kəliməsi, insanların daha çox alış-veriş üçün bir araya gəldikləri, qarşılaşdıqları yerdir. Bazar, qarşılaşmağa, salamlaşmağa, görüşməyə vəsilə olduğu üçün, rəvayətlərdə, alış-veriş qayəsi olmadan da, xüsusilə cümə namazından sonra bazarın belə dolaşılmasının sünnət qılındığı görülür. Beləcə bəşəri bir ehtiyac olan ünsiyyət saxlanmış olur. Bu halda bu zövq axirətdə də vardır. Ancaq oranın zövqü dərəcə və mərtəbə etibarilə çox fərqlidir. Gözəllik, ziyadələşmədə ailə arasında qarşılıqlı məhəbbətlərin daha da artmasına vəsilə olmaqdadır. Qarşıdakı hədisdə də bildiriləcəyi kimi, axirətdə dünyadakı kimi alış-veriş ehtiyacı olmadığına görə, oranın bazarı, alış-veriş edilən yer mənasında anlaşılmamalı, ünsiyyətin təmin edildiyi toplanma yerləri mənasında anlaşılmalıdır.

---

[628] Müslim, Cənnət 13, (2833)

Rəsulullahın cənub küləyi təbirini işlətmədi, o küləyin yağmur və sərinlik gətirməsindəndir. İsti iqlimdə bu vəsfdəki külək ən çox sevilən və arzu edilən bir şeydir.

"əl-Məbarik"də belə deyilmişdir: *"Bazara hər həftə cənnətliklər toplanar, mələklər onları əhatə edər, onlara gözlərin görmədiyi, qulaqların eşitmədiyi, insan qəlbinə heç doğmamış nemətlər gətirərlər. Onlar bu nemətlərdən istədikləri qədər, pul ödəmədən alarlar. Bu da cənnətdə dadılan ləzzətlərdən biridir".*

Yəni, bazardan evə bir şeylər alaraq gəlmək ləzzəti. Bunun dahi cənnətdə olduğu anlaşılmaqdadır.

وعن عليّ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): إنَّ في الْجَنَّةِ لَسُوقاً مَا فيهَا شِرَاءٌ وَ لا بَيْعٌ إلاَّ الصُّورَ مِنَ الرِّجَالِ وَالنِّسَاءِ. فإذَا اشْتَهى الرَّجُلُ صُورَةً دَخَلَ فيهَا.

**16.** Hz. Əli (ə) nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cənnətdə bir bazar vardır. Ancaq orada nə alış, nə də satış vardır. Sadəcə kişi və qadın surətləri vardır. Kişi bunlardan bir surət arzu edərsə o surətə düşər".*[629]

**Açıqlama:**

**1-** Hədis cənnətdəki bazar haqqında məlumat verir. Orada alış-veriş yoxdur. Ancaq qadın və kişi surətləri mövcuddur. Hər kəs bu surətlərdən dilədiyinə sahib ola bilir.

**2-** Şərhçilər hədisin iki mənaya ehtimal olduğunu bildirirlər:

***** Birinci mənaya görə, bazarda gözəl surətlər təklif edilməkdədir. Kişi bunlardan hansını arzulasa və təmənna etsə, Allah qüdrəti ilə o şəxsi arzuladığı surətə salar.

***** İkinci mənaya görə, surətdən məqsəd zinətdir. Bir kəs o bazarda bu zinətlə süslənər, özünə arzu edəcəyi zinət, tac və s. geyinər. Ərəbcədə "filankəsin gözəl bir surəti var" demək, xoş bir görünüşü var deməkdir. Bir başqa ifadə ilə hədis: "Bazarda olan şeylərdən hər nə arzu edərsə, ona verilər" mənasını ifadə edir. Elə isə o bazara girməkdə məqsəd orada bəzənmək və süslənməkdir.

Hər iki mənada da söhbət zatdan deyil, sifət və xarici görünüş dəyişməsində gedir.

---

[629] Tirmizi, "Cənnət" 15, (2553)

**Cəhənnəmin vəsfi haqqında**

Axirət dünyasının cəzalarının günahlarla daha sıx təkvini əlaqəsi vardır. Axirətdə əməllə cəza arasındakı əlaqə, nə şərti və nə də səbəb-nəticə əlaqəsidir. Axirətdə yaxşı və ya pis iş görənlərə mükafat və ya cəza şəklində verilən əvəzlər, əməlin özünün cilvəsi və təzahürüdür.

Quranın yetim malı yemək barəsindəki təbiri belədir: ***"Həqiqətən yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər".***[630]

Yəni yetim malı yemək eynilə od və atəş yeməkdir. Amma onlar bu dünyada olduqları üçün bunu başa düşmürlər, bədən pərdəsi aradan götürüldükdən və bu dünyadan çıxan kimi od tutub yanacaqlar.

Axirətin cəzaları əməlin təzahürüdür. Oranın nemət və əzabları həmin yaxşı və pis əməllərdir ki, pərdə kənara çəkiləndən sonra həmin formalarda cilvələnirlər. Quran oxumaq gözəl bir səs olacaq və insanın kənarında dayanacaqdır. Qeybət və başqalarını incitmək cəhənnəm itlərinin yeməyi formasında olacaqdır.

Başqa sözlə desək, bizim əməllərimizin bir müvəqqəti və fani olan və bu dünyada söz və ya əməl şəklində zahir olan mülki surəti, bir də bizdən baş verdikdən sonra heç vaxt fani olmayan, bizim ayrılmaz, ardıcıl, davamlı və övladlarımızdan sayılan mələkuti (ruh aləminə mənsub) forması vardır. Bizim əməllərimizin mələkuti forması həmişə qalır. Biz bir gün onlara çatacaq və onları həmin formada müşahidə edəcəyik. Gözəl və ürəkaçan olsalar bizim nemətlərimiz, çirkin və iyrənc olsalar bizim cəhənnəm odumuz olacaqlar.

Qurani-Kərim qeybət barəsində belə buyurur: ***"...Bir-birinizin qeybətini etməyin! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir)...".***[631]

---

[630] "Nisa" surəsi, ayə-10.

[631] "Hucurat" surəsi, ayə-12.

Peyğəmbərin (s) səhabələrindən olmuş Qeys ibn Asim nəql edib ki, bir gün Bəni-Təmim qəbiləsindən olan bir dəstə adamla Peyğəmbərin (s) yanına getmişdik. Mən o həzrətə dedim: "Ey Allahın peyğəmbəri, biz səhrada yaşayırıq və sənin hüzurundan az bəhrələnirik, bizi moizə və nəsihət et".

Peyğəmbər (s) çox faydalı nəsihətlər verdi, o cümlədən belə buyurdu: *"Sənin, səndən heç vaxt ayrılmayacaq bir yoldaşın olacaq və o səninlə birlikdə dəfn ediləcək, sən ölü, o isə diri olacaq. Əgər sənin yoldaşın şərəfli olsa, səni əzizləyəcək, yaramaz olsa isə səni hadisələrin öhdəsinə buraxacaq. Sonra həmin yoldaşın səninlə məhşərə gələcək və qiyamətdə səninlə birgə olacaq və sən onun üçün məsuliyyət daşıyacaqsan. Seçdiyin yoldaşın yaxşı olmasına diqqət et. Çünki o, yaxşı olsa sənin ünsiyyət vasitən olacaq, belə olmasa (pis olsa isə) sənin vəhşətinə səbəb olacaq. Həmin yoldaşın sənin rəftarındır".*

Digər bir hədisdə deyilir: *"Bu əzablar sizin özünüzə qaytarılan əməllərinizdir".*

**Əvəz verilməsi ilahi ədalətin tələbidir**

Yuxarıda qeyd olunduğu kimi, qəbul etdiyimiz dəyərlər, insanı ədalət, müqavimət, sədaqət, əhdə vəfalı qalmaq və s. Dəvətlər onların əksi olan sifətlərdən saxlayır. Amma bu kimi işlərin dəyəri yalnız çağırmaq, dəvət etmək və ya qarşısını almaqla bitmir. Əksinə, onların hər biri üçün münasib əvəz də nəzərdə tutulmuşdur. Çünki hər bir fitri və sağlam əql dərk edir ki, xəyanəti və zülmü özlərinə peşə edənlər cəzalandırılmağa, ədalət və əmanətdarlıq yolunda fədakarlıq edən ədalətli və əmanətdar şəxs isə mükafata layiqdir. Bizim hər birimiz həmin dəyərlər əsasında qəlbən zalımı cəzaya layiq, adil və düz əməl sahibini isə təqdirəlayiq hesab edirik. Bu kimi dəyərlərin əməli olaraq həyata keçib gerçəkləşməsinə yalnız münasib mövqe seçib himayə etməkdə bacarıqsızlıq və şəxsi təəssüblər mane ola bilər.

Biz Allahın Özünün bütün işlərində ədalətli və düz əməlli olduğunu bildikdə, bütün işlərə münasib əvəz – savab və ya cəza verəcəyinə inandıqda və o dəyərlərin həyata keçirilməsi yolunda Onun qarşısında heç bir maneənin olmadığını gördükdə bilmə-

liyik ki, Allah-Təala yaxşı əməl sahiblərinə münasib mükafat, bəd əməl sahiblərinə isə cəza verməlidir.

Buna görə də təbii olaraq nəticə alırıq ki, Allah-Təala yaxşı əməl sahiblərinə mükafat verib, məzlumların haqqını zalımlardan alacaq.

ان جبريل عليه السلام اتى النبي (ص) فقال أتيتك حين امر الله بمنافيخ النار فوضعت على النار لتسعر الى يوم القيامة فقال النبي (ص) يا جبريل صف لي النار. فقال: ان الله امر بها فأوقد عليها ألف عام حتى احمرت ثم أوقد عليها ألف عام حتى صفرت ثم اوقد عليها الف عام حتى اسودت فهي سوداء مظلمة لا تطفأ وقال الأكفاني لا يضئ لهبها ولا جمرها والذي بعثك بالحق لو أن ثوبا من ثياب أهل النار ظهر وقال الأكفاني أظهر لأهل الارض فماتوا جميعا ولو ان ذنوبا من شرابها صب في مياه الأرض جميعا لقتل من ذاقه ولو أن ذراعا منها لمات أهل الأرض من نتن ريحه وتشويه خلقه وعظمه.

**1.** Şeyx Səduq İmam Sadiqə (ə) istinad edərək rəvayət edir ki, İmam (ə) dedi: *“Bir gün Peyğəmbər (s) Cəbrayılın (ə) onun yanına kədərli, hüznlü və rəngi dəyişmiş halda gəlməsini bəyan etdi. Rəsulallah (s) ona dedi: Ey Cəbrayıl! Nə üçün səni kədərli və hüznlü görürəm?*

*Dedi: Ey Muhəmməd! Necə belə olmayım ki, bu gün cəhənnəmin əsintiləri*[632] *buraxılıb.*

*Rəsulullah (s) dedi: Ya Cəbarıyıl! Cəhənnəmin əsintiləri nədir?*

*Dedi: Allah oda qızaranadək min il yanmasını əmr etdi. Sonra ağaranadək min il də yanmasını əmr. Sonra qaralanadək daha min il yanmasını əmr etdi. O zülmət qarasıdır. Əgər onun yetmiş zira*[633] *uzunluğunda olan zəncirindən bir həlqəsi dünyaya düşsə, dünya onun istisindən əriyər. Əgər onun zəqqum və zərisindən bir damcı dünya əhlinin içkisinə düşsə, dünya əhli onun pis iyindən həlak olar.*

*Dedi: Rəsulullah (s) və Cəbrayıl ağlamağa başladılar. Allah onlara bir mələk göndərərək dedi: “Rəbbiniz sizi salamlayır və*

---

[632] Yelləri, nəfəsləri

[633] Uzunluq vahididir və təqribən 0.66 metrəyə bərabərdir.

*deyir: "Mən sizi əzaba aparacaq bütün günahlardan amanda qərar verdim!"*[634]

**Açıqlama:**

Bu səbəbdən də İmam Əli (ə) deyir: *"Rəsulullah (s) buyurdu: "Sizin əlinizdə olan od cəhənnəm odunun yetmiş hissəsindən biridir. O, yetmiş dəfə su ilə söndürülüb. Əgər belə olmasaydı insan onu alovlandığı zaman söndürə bilməzdi... Allah qiyamət günü onu cəhənnəm odunun üzərinə gətirəcək. Elə bir müqərrəb mələk və elə bir göndərilmiş peyğəmbər yoxdur ki, onun çığırtı və dəhşətinin qorxusundan dizi üstə çökməsin."*[635]

Qorxutma və müjdələmə arasında müqayisə apardıqda Quranın müjdədən çox qorxutmaya üstünlük verdiyini görürük. Bir çox ayələrdə peyğəmbərlərin müjdələməyin əksinə olaraq məhz qorxutmaqla vəzifələndikləri qeyd olunur. ***"Sən ancaq qorxudansan və hər bir qövmün hidayət edəni var",***[636] ***"Sən yalnız ondan çəkinəni qorxudansan"***[637]***, "Sən ancaq qorxudansan. Allah hər bir şeyə vəkildir."***[638]***, "Sən qəbirdə olanı eşitdirə bilməzsən. Sən yalnız qorxudansan!"***[639] Bunun səbəbi isə insan təbiətlərinin bu iki təsirə müxtəlif münasibət göstərmələridir. "Bəziləri özlərindəki qorxuya qalib gəlirlər. Lakin insan Allahın zalımlara, üsyan və günahlara mürtəkib olmuş şəxslərə vəd etdiyi əzab növlərini düşündükcə qorxusu artır və əzələləri sıxılır. Bu da onu əzab qorxusundan Allaha ibadətə gətirir.

Bəziləri də özündəki ümidə qalib gəlirlər. Lakin Allahın iman gətirib, saleh əməl edənlərə vəd etdiyi nemət, kəramət və gözəl aqibətləri düşündükdə isə bağışlanma və Cənnət şövqündən ümidləri artır, təqva və saleh əməllərini artırmağa səy göstərirlər".[640]

---

[634] "Ulumul-yəqin fı usulid-din", Feyz Kaşanı, c.2, səh.1032
[635] "Sünəni Termizi" c.4, səh.709, "Elmul-yəqin" c.2, səh.1034
[636] Rəd 7
[637] Naziat 45
[638] Hud 12
[639] Fatir 23
[640] "Əl-Mizan fi təfsiril-Quran" c.11, səh.158

Bunu təqvalıların İmamı Əlinin (ə.s.) “Nəhcul Bəlağə”dəki sözlərində də görürük:

*“Lakin günah əhli ən pis evdə sakin olacaqlar. Əlləri boyunlarına bağlanacaq, alınları isə ayaqlarına. Geyimləri qətrandan köynəklər və oddan parçalardır. Onlar şiddətli istinin ağuşunda və əhlinin üzünə bağlanmış qapılar arxasındadırlar. Elə bir od ki, çox alovlu, səsli-küykü, amansız və alçaldıcıdır. Onun sakini oradan çıxarılmır və əsiri azad edilmir. O evin nə müddəti var ki, aradan getsin və nə də əhlinin əcəli var ki, ölsün”.*[641]

*“Məgər bir kəsin bədəninə batan tikandan, qana bulaşmasına səbəb olan sürüşmədən və onun ayaqlarını yandıran isti qumdan necə nalə çəkib inildəməsini görməmisiniz? Bəs onun halı odun iki təbəqəsi arasında, yandırıcı daşla yataq yoldaşı və şeytanla bərabər olanda necə olacaq?! Bilirsinizmi ki, cəhənnəm sahibi mələk oda qəzəblənəndə, od onun qəzəbindən bir-birinə çırpılır və Cəhənnəm qapıları arasında fəryad qopararaq sıçrayır?”*[642]

وعن الخدْري رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): لِسُرَادِقِ النَّارِ أرْبَعُ جُدُرٍ كُثُفُ كُلِّ جِدَارٍ مَسِيرَةُ أرْبَعِينَ سَنَةً.

**2.** Əbu Səid Xudri nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cəhənnəmi əhatə edən surun dörd (ayrı) divarı vardır. Hər divarın qalınlığı qırx illik gəzmə məsafəsi qədərdir.”*[643]

**Açıqlama:**

**1-** Hədis, cəhənnəmi çevrələyən surun genişliyi haqqında bilgi verir. Sur, iç-içə dörd divardan mütəşəkkildir, hər divarın qalınlığı qırx illik məsafə qədərdir. Hədisdə, divarlar arasındakı məsafə bildirilməmişdir. Dörd ayrı divar olduğuna görə, bitişik olmadığı, aralarında az və ya çox bir məsafə, bir açıqlıq olacağı anlaşılır.

---

[641] “Nəhcul Bəlağa” 109-cu xütbə
[642] “Nəhcul Bəlağə” 183-cü xütbə
[643] Tirmizi, Cəhənnəm 4, (2587)

**2-** Hədis, bu ayəyə işarə edir: ***"Biz zalimlər üçün elə bir od hazırlamışıq ki, onun pərdələri (dumanları) onları bürüyəcəkdir",***[644] "Sur" və ya "divar" deyə çevirdiyimiz "suradiq" kəlməsini İbn Abbasın "atəşdən divar" deyə açıqladığı rəvayət edilmişdir.

**3-** Hədisin Tirmizidəki davamında belə deyilir: *"Əgər, cəhənnəmliklərin (içində üzdükləri) irindən, dünyaya bir vedrə tökülsə, bütün yer əhalisi iylənər".*

وعن الحسن البصري قال: قالَ عُتْبَةُ بْن غَزْوَانْ رَضِيَ اللّٰهُ عَنْه على مِنْبَرِ الْبَصْرَةِ: إنَّ النّبيّ (ص) قَالَ: إنَّ الصَّخْرَةَ الْعَظِيمَةَ لَتُلْقى مِنْ شَفِيرِ جَهَنَّمَ فَتَهْوِى سَبْعِينَ عاماً مَا تُفْضِى الى قَرَارِهَا.

**3.** Həsən Bəsri nəql edir: "Utbə İbn Qəzvan, Bəsrədə minbərdə dedi: "Rəsulullah (s) belə buyurdu: *"Cəhənnəmin sahilindən böyük bir daş buraxıldı. Bu daş yetmiş il aşağı doğru düşsə də hələ dibinə çatmadı".*[645]

**Açıqlama:**

Hədis, cəhənnəmin dərinliyinin sonsuz olduğunu bildirir. Şərhçilər, "yetmiş" rəqəminin çoxluq ifadə etdiyini, miqdar ifadə etmədiyini bildirirlər.

وعن أبي سعيد الخدري رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللهِ (ص): وَيْلُ وَادٍ في جَهَنَّمَ يَهْوِى فيهِ الْكَافِرُ أرْبَعِينَ خَرِيفاً قَبْلَ أنْ يَبْلُغَ قَعْرَهُ.

**4.** Əbu Səid əl-Xudri nəql edir: "Rəsulullah (s) buyurdu: *"Veyl, cəhənnəmdə bir vadidir. Kafir orada qırx il batsa da dibinə çatmaz".*[646]

**Açıqlama:**

"Veyl" kəlməsi, əsl etibarilə əzab mənasındadır. Ərəblər fəlakət istəyi mənasıyla "filankəsə veyl (əzab) olsun!" deyə sıx işlədirlər. Dilimizə "yazıqlar olsun!", "vay halına!" kimi təbir-

---

[644] Kəhf 29
[645] Tirmizi, Cəhənnəm 2, (2578)
[646] Tirmizi, Təfsir, Ənbiya, (3164)

lərlə çeviririk. Hədis, veyl kəlməsinin cəhənnəmdə müəyyən bir əzab vadisinin adı olduğunu bildirir. Elə bir vadi ki, cəhənnəmliklər qırx il yol getsələr də onun dibinə çatmayacaqlar.

وعن ابن عبّاس رَضِيَ اللّهُ عَنْهما قال: قَالَ رَسُولُ اللّهِ (ص): لَوْ أَنَّ قَطْرَةً مِنَ الزَّقُّومِ قُطِرَتْ في الدُّنْيَا لأفْسَدَتْ عَلى أهْلِ الدُّنْيَا مَعَايِشَهُمْ. فَكَيْفَ بِمَنْ يَكُونُ طَعَامَهُمْ وَشَرابَهُمْ.

**5.** İbn Abbas nəql edir: “Rəsulullah (s) buyurdu:

“Əgər zəqqumdan, dünyaya bir damcı damsa, bu dünya əhlinin yeyəcəklərini xarab edər. Eə isə, yeyəcək və içəcəyi zəqqumdan olan cəhənnəmliklərin halı nə olar (anlayın)!”[647]

**Açıqlama:**

Zəqqum: Ayədə cəhənnəmdən çıxan bir ağac olaraq təfsir edilir.[648] Alimlər, zəqqum ağacını: “Cəhənnəm əhlinə məxsus çox acı bir ağac” deyə tərif edirlər. Zəqqum cəhənnəmliklərin yeyəcəyidir. Cəhənnəmliklər onun üstündən qaynar su içəcəklər[649]. Hədis, zəqqumun, son dərəcə pis iyli olduğunu bildirir.

وعن أبي هريرة رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): اشْتَكَتِ النّارُ الى رَبِّهَا. فقَالَتْ: يَا رَبِّ أكَلَ بَعْضِي بَعْضاً، فأذِنَ لَهَا بِنَفَسَيْنِ، نَفَسٍ في الشِّتَاءِ وَنَفسٍ في الصَّيْفِ، فَهُوَ أشَدُّ مَا تَجِدونَ مِنَ الْحَرِّ، وَأشَدُّ مَا تَجِدُونَ مِنَ الزَّمْهَرِيرِ.

**6.** Əbu Hureyrə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cəhənnəm, Rəbbinə şikayət edərək: “Ey Rəbbim! Bir parçam digər bir parçamı yeməkdədir” dedi. Buna görə, Allah ona, iki nəfəs almağa izin verdi; Bir nəfəs qışda, bir nəfəs də yazda. (Yazdakı nəfəsi) sizin rastlaşdığınız ən şiddətli istidir. (Qışdakı nəfəsi də) sizin rastlaşdığınız ən şiddətli (soyuq olan) soyuqdur”.*[650]

وعنه رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): يَخْرُجُ عُنُقٌ مِنَ النَّارِ يَوْمَ الْقِيَامَةِ

---

647 Tirmizi, Cəhənnəm 4, (2588)

648 Saffat 62-66

649 Vaqiə 52-55

650 Buxari, Bədul-xalq 10; Müslim, Məsacid 185, (617); Tirmizi, Cəhənnəm 9, (2595)

لَهُ عَيْنَانِ تُبْصِرَانِ وَأُذُنَانِ تَسْمَعَانِ وَلِسَانٌ يَنْطِقُ، يَقُولُ: إنِّى وُكِّلْتُ بِثَلاثَةٍ: بِمَنْ دَعَا مَعَ اللّٰهِ إلهاً آخَرَ، وَبِكُلِّ جبّارٍ عَنِيدٍ، وَبِالْمُصَوِّرِينَ.

**7.** Əbu Hureyrə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Qiyamət günü, atəşdən bir parça, boyun şəklində uzanar. Bunun, görən iki gözü, eşidən iki qulağı, danışan iki dili vardır. Deyir ki: “Mən üç qisim (insanı cəzalandırmaq) üçün vəzifələndirildim: Allahla birlikdə başqa bir ilaha dua edən kimsə, bilə bilə zülm edən cabbar, təsvirçilər”.*[651]

وعن ابنِ مسعودٍ رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): يُؤْتَى بِجَهَنَّمَ يَوْمَئِذٍ لَهَا سَبْعُونَ أَلْفَ زِمَامٍ، مَعَ كُلِّ زِمَامٍ سَبْعُونَ أَلْفَ مَلَكٍ يَجِرُّونَهَا.

**8.** İbn Məsud nəql edir: “Rəsulullah (s) buyurdu: *“Qiyamət günü cəhənnəm, yetmiş min noxta olduğu halda gətirilər. Hər noxtada, onu çəkən yetmiş min mələk vardır”.*[652]

**Açıqlama:**

**1-** Hədisdə, cəhənnəmin, qiyamət günü, yaradıldığı yerdən Movqifə (dayanma yeri) gətiriləcəyi ifadə edilir. Bu məna bu ayədə də gəlmişdir: ***“Və cəhənnəmin gətiriləcəyi gün...”***[653]. “Cəhənnəmin Movqifə gətirilməsi, orada toplanan insanlara göstərilərək onların qorxudulması qayəsi üzərində ola bilər” deyilmişdir.

وعن مُجاهد قال: قَالَ لى ابْنِ عبّاسٍ رَضِيَ اللّٰهُ عَنْهما: أَتَدْرِى مَا سعَةُ جَهَنَّمَ؟ قُلْتُ: لاَ. قَال: أجَلْ، وَاللّٰهِ مَا تَدْرِي. حَدَّثَتْنِي عَائِشَةُ رَضِيَ اللّٰهُ عَنْها قَالَتْ: سَأَلْتُ رَسُولَ اللّٰهِ (ص) عَنْ قَوْلِهِ تعالى: "وَالأَرْضُ جَمِيعاً قَبْضَتُهُ يَوْمَ الْقِيَامَةِ وَالسَّمَوَاتُ مَطْوِيّاتٌ بِيَمِينِهِ". قَالَتْ، قُلْتُ: أيْنَ يَكُونُ النّاسُ؟ قَالَ: عَلى جِسْرٍ جَهَنَّمَ.

**9.** Mücahid nəql edir: “İbn Abbas mənə: “Cəhənnəmin genişliyi nə qədərdir, bilirsənmi?” deyə soruşdu. Mən: “Xeyir!” deyincə: “Doğru, Allaha and olsun, bilməzsən!” dedi və əlavə etdi: “Mənə Aişə dedi ki: Rəsulullaha (s): ***“Qiyamət günü yer***

---

651 Tirmizi, Cəhənnəm 1, (2577)
652 Müslim, Cənnət 29, (2842); Tirmizi, Cəhənnəm 1, (2576)
653 Fəcr 23

***bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir”***[654] ayəsindən soruşmuş və: *“Bu sırada insanlar harada olarlar (ey Allahın Rəsulu)” demişdim. Həzrət “Cəhənnəm körpüsündə!” cavabını verdi”.*[655]

## Cənnət və cəhənnəmin müştərək yönləri

قَالَ رَسُولُ اللّٰهِ (ص): لَمَّا خَلَقَ اللّٰهُ تعالى الْجَنَّةَ قَالَ لِجِبْرِيلَ عَلَيْهِ السَّمُ: اِذْهَبْ فَانْظُرْ إلَيْهَا. فَذَهَبَ، فَنَظَرَ إلَيْهَا. فقَالَ: وَعِزَّتِكَ لاَ يَسْمَعُ بِهَا أَحَدٌ إلاَّ دَخَلَهَا. فَحَفَّهَا بِالْمَكَارِهِ. ثُمَّ قَالَ اِذْهَبْ فَانْظُرْ إلَيْهَا، فَذهَبَ، فَنَظر إلَيْهَا. فقَال: وَعِزَّتِكَ لَقَدْ خَشِيْتُ أنْ لاَ يَدْخُلَهَا أحَدٌ وَلَمّا خَلَقَ النّارَ قَالَ لِجِبْرِيلَ: اِذْهَبْ فَانْظُرْ إلَيْهَا. فَذَهَبَ، فَنَظَرَ إلَيْهَا. فقَالَ: وَعِزَّتِكَ لاَ يَسْمَعُ بِهَا أحَدٌ فَيَدْخُلُهَا. فَحَفَّهَا بِالشَّهَوَاتِ. ثُمَّ قَالَ: اِذْهَبْ، فَانْظُرْ إلَيْهَا. فَذَهَبَ، فَنَظَرَ إلَيْهَا. فَلَمّا رَجَعَ. قَالَ: وَعِزَّتِكَ لَقَدْ خَشِيْتُ أنْ لاَ يَبْقى أحَدٌ إلاَّ دَخَلهَا.

**1.** “Rəsulullah (s) buyurdu: *“Allah cənnəti yaratdığı zaman Cəbrailə (ə): “Get ona bir bax!” buyurdu. O da gedib cənnətə baxdı və dedi: “Ey Rəbbim! Sənin izzətinə and olsun, onu eşidib ona girməyən qalmayacaq, hər kəs ona girəcək!”. Allah cənnətin ətrafını məkruhlarla (insan nəfsinin xoşlamadığı və ona çətin görünən şeylərlə) əhatə etdi. Sonra: “Hələ get ona bir daha bax!” buyurdu. Cəbrail gedib ona bir daha baxdı. Sonra da: “Qorxuram, ona heç kimsə girməyəcək!” dedi. Cəhənnəmi yaradınca, Cəbrailə: “Get, bir də, buna bax!” buyurdu. O da gedib ona baxdı və dedi: “İzzətinə and olsun, eşidənlərdən kimsə ona girməyəcəkdir!” dedi. Allah onun ətrafını şəhvətlərlə əhatə etdi. Sonra da: “Get ona bir dəfə də bax!” dedi. O da gedib ona baxdı. Döndüyü zaman: “İzzətinə and olsun, tək bir kişi qalmayıb hər kəsin ona girəcəyindən qorxram!” dedi.”*[656]

**Açıqlama:**

Hədis cənnətin cəlb edən lakin qazanılması asan olmayan, cəhənnəmin də çox pis lakin oraya şiddətlə çəkən cazibələrin

---

[654] Zumər 67
[655] Tirmizi, Təfsir, Zumər, (3242)
[656] Əbu Davud, Sünnət 25, (4744); Tirmizi, Cənnət 21, (2563); Nəsai, İman 3, (7, 3)

olduğunu bildirir. Hz.Cəbrail ilk baxışında onu doğru vəsflə dəyərləndirir: “Cənnət o qədər gözəldir ki, hər kəs oraya girər, yəni onu qazanmaq arzusunu izhar edər, qazanmaq üçün lazımi say göstərər” demək istəmişdir. Həmçinin “cəhənnəmin çirkinliyi, pisliyi qarşısında hər kəs oraya girməmək üçün əlindən gələni edər” demək istəmişdir.

Amma ikinci dəfə, yəni cənnəti qazanmaq üçün nəfsin xoşlanmadığı bir çox məkruhların aşılmasının lazım olduğu, cənnətin ətrafını bunların əhatə etdiyini görüncə, bu xoş olmayan əngəlləri aşacaq kimsələrin çıxmayacağı narahatlığını keçirir, belə ki, cənnətin ətrafında ibadət üçün məşəqqətlər, səbir, təvəkkül, pisliklərdən yayınmaq, zəkat, sədəqə vermək, cihad etmək, qulluq yolunda ac-susuz və yuxusuz qalmaq, yanılmaq, nəfsə hakim olmaq və s. kimi məşəqqətli təkliflər, nəfsani arzulara müxalifət və şəhvətlərin qırılması var. İnsan nəfsi bunları sevmir. Lakin cənnət bunlarla əhatələnib. Həmçinin cəhənnəmin ətrafında da nəfsin xoşuna gələn, çox cazibəli şeylər var: sərbəstlik, məsuliyyətsizlik, əyləncə, israf, dedi-qodu, fuhuş, yalan, qeybət və s. Bunların cazibəsinə düşməmək hər insanın işi deyil.

Cənnət və cəhənnəmi əhatə edən şeylər səbəbilə Cəbrail (ə) buralara tərəf meyl edəcək insanların sayı barədə narahat olmuşdur.

Şərhçilər bu hədisi Rəsulullahın bədii sözlərindən biri kimi qəbul edirlər. Cənnətin nəfsin xoşuna gəlməyən əməllərlə qazanıla biləcəyini, həmçinin cəhənnəmdən qorunmaq üçün də mütləq şəhvəti arzulardan, nəfsin meyl etdiyi şeylərdən qaçmaq gərəkdiyi çox gözəl bir təşbehlə ifadə edilmişdir.

Hədis, cənnəti qazanma və cəhənnəmdən qaçmağın yollarını ən gözəl bir şəkildə bildirir, möminləri bu mühüm məsələ barədə xəbərdar edir.

وعن أنسٍ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): حُفَّتِ الْجَنَّةُ بِالْمَكَارِهِ وَحُفَّتِ النّارُ بِالشّهَواتِ.

**2.** Ənəs nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cənnətin ətrafı məkarihlə (nəfsin xoşlanmadığı şeylərlə) əhatə olunmuşdur. Cəhənnəmin ətrafı da şəhvəti (nəfsin arzuladığı, cazibə) şeylərlə əhatə olunmuşdur"*.

## VII FƏSİL
## CƏNNƏTLİKLƏR VƏ CƏHƏNNƏMLİKLƏR

### Cənnətliklər

عن سهل بن سعد رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ أهْلَ الْجَنَّةِ لَيَتَرَاءَوْنَ أهْلَ الْغُرفِ كَمَا تَتَراءَوْنَ الْكَوْكَبَ في السّمَاءِ.

**1.** Səhl ibn Səd nəql edir: *“Rəsulullah (s) buyurdu: “Cənnət əhli, eynən göydəki ulduzları seyr etməyiniz kimi ğurfələrdə (otaqlarında) qalanları seyr edərlər”.*[657]

وعن ابى سعيد رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ أهْلَ الْجَنّةِ لَيَتَراءَوْنَ أهْلَ الْغُرَفِ كَمَا تَتَرَاءَوْنَ الْكَوْكَبَ الدُّرِّىَّ الْغَابِرَ في الأفُقِ مِنَ الْمَشْرِقِ الى الْمَغْرِبِ لِتَفَاضُلِ مَا بَيْنَهُمْ. قَالُوا: يَا رَسُولَ اللّٰه، تِلْكَ مَنَازِلُ الأنْبِيَاءِلاَيَبْلُغُهَا غَيْرُهُمْ. قَالَ: بَلى وَالّذِي نَفْسِي بِيَدِهِ، رِجَالٌ آمَنُوا بِاللّٰهِ وَصَدّقُوا الْمُرسَلِينَ.

**2.** Əbu Səid nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cənnət əhli otaqlarda qalanları (əhli-ğurafı) görərlər. Eynən, üfüqdə şərqdən qərbə gedən inci kimi parlaq ulduzları gördüyünüz kimi. Aralarındakı fəzilət fərqi, (otaq əhlini) elə yuxarıda göstərər”.*

Səhabələr dedilər: “Ey Allahın Rəsulu! Bu söylədiyiniz, peyğəmbərlərin məqamıdır, başqaları oraya qovuşmaz!” Ancaq Peyğəmbər (s) buyurdu: *“Xeyir! Ruhumu qüdrət əlində tutan Allaha and olsun! Otaqlarda qalanlar (peyğəmbərlər deyillər), Allaha inanıb peyğəmbərləri təsdiq edən kimsələrdir”.*[658]

**Açıqlama:**

**1-** Hədis cənnət əhlinin dərəcə etibarilə bir-birlərindən fərqli

[657] Buxari, Riqaq 51; Müslim, Cənnət 10, (2830)
[658] Buxari, Bədul-Xalq 8; Müslim, Cənnət 11, (2831)

olduğunu ifadə edir. Belə ki, dərəcəsi üstün olanların uca mənzilləri vardır. Bunlar, eynən bizə görə ulduzlar kimi yuxarıda və parlaq görüləcəklər.

**2-** Ğuraf, “ğurfə”nin cəmidir. “Ğurfə” isə ərəb dilində “otaq” deməkdir. Ancaq, Qurani-Kərim və hədislərdə bir qisim cənnətliklərin nail olacağı bir lütf, xüsusi bir mərtəbəni ifadə edir. “Furqan” (ayə-75), “Zumər” (ayə-20) və “Ənkəbut” (ayə-58) surələrində otaq veriləcək şəxslərin vəsfləri bildirilir.

**3-** Hədis bu mərtəbəyə Allaha iman edib, peyğəmbərləri təsdiq edənlərin çatacağını ifadə etdir. Ancaq şərhçilər, başqa rəvayətlərə də əsasən, bu iki vəsfi daşıyan hər kəsin o mərtəbəni əldə edəcəyi mənasına gəlmədiyini bildirirlər. Rəsulullah (s) “Cənnətdə otaqlar vardır ki, çölü içindən, içi də çölündən görünür” buyurur. Bir bədəvi bunların kimlərə aid olduğunu soruşduqda Həzrət: *“Bunlar, dadlı sözlü olan, oruca davam edən və hər kəs yatarkən gecə namaz qılan kimsələr üçündür”* buyurdu. Bəzi şərhçilər, o mənzillərə qeyd edilən vəsflərdəki kimsələrin çatacaqlarını, peyğəmbərlərin məqamlarının isə daha üstün olacağını söyləmişdir. Bəziləri də bu vəsfləri daşıyan kimsələrin peyğəmbərlərin mərtəbələrinə çatacaqlarını anlamışlar.

İkinci bir ehtimala daha diqqət edək: “Ğurfələrdə qalacaq olanlar, cənnətə ilk səfdə girəcək olanlardır. Bunlar, şəfaətə çataraq ikinci səfdə girəcəklərindən fərqli olmalıdır”. Bunların Muhəmməd ümməti olduğu iddiasına qeyd etdiyimiz rəvayət dəlil olur. “Hədisdə onlar Allaha inanıb (bütün) peyğəmbərləri təsdiq edənlərdir” deyilməkdədir. Bu vəsf Muhəmməd (s) ümmətinə xasdır. Çünki bütün peyğəmbərləri təsdiq məsələsi sadəcə bu ümmətdə həyata keçmişdir. Halbuki öncəki ümmətlər, özlərindən sonra gələnləri təsdiq etməmişlər. Lakin, onlardan da özlərindən sonra gələcək peyğəmbərləri təsdiq edənlər olsa da, arada fərq var. Biri vaqe olanı, digəri baş verəcək olanı təsdiq etmə vəziyyətindədir.

وعن أبِي هريرة رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): إنَّ أوَّلَ زُمْرَةٍ يَدْخُلُونَ الجَنَّةَ عَلى صُورَةِ الْقَمَرِ لَيْلَةَ الْبَدْرِ. ثُمَّ الّذِينَ يَلُونَهُمْ عَلى أشَدِّ كَوْكَبٍ دُرِّيٍّ في السّمَاءِ إضاءَةً،لاَيَبُولُونَ وَلا يَتَغَوَّطُونَ وَلا يَتْفُلُونَ وَلا يَمْتَخِطُونَ. أمْشَاطُهُمُ الذّهَبُ،

وَرَشْحُهُمُ الْمِسْكُ، وَمَجَامِرُهُمُ الألُوَّةُ الألَنْجُوجُ: عُودُ الطِّيبِ. أزْوَاجُهُمُ الْحُورُ الْعِينُ عَلى خَلْقِ رَجُلٍ وَاحِدٍ على صُورةِ أبيهم آدَمَ سِتُّونَ ذِرَاعاً في السّماءِ.

**3.** "Rəsulullah (s) buyurdu: *"Cənnətə ilk girəcək zümrə, bədir gecəsindəki ay surətindədir. Onu təqib edən zümrə, parlaqlıq yönüylə göydəki ən böyük ulduz kimidir. Cənnətliklər bövl etməzlər, qüsl pozmazlar, tüpürməzlər, fınxırmazlar. Daraqları qızıldandır, tərləri müşkdür. Buxurdanları əzvay ağacından, zövcələri qara gözlü hurilərdən olacaq. Onlar ataları Adəmin yaradılışı kimi, altmış zira hündürlüyündə ucaboy insan surətində olacaqlar".*[659]

**Açıqlama:**

Bu hədisdə Peyğəmbər (s) axirət həyatıyla bağlı bəzi təfərrüatlara izah verir. Oradakı həyat, mahiyyət etibarilə dünyəvi həyatdan fərqlidir. Burada tabe olduğumuz qanunlar çərçivəsində oranı əqlən izah etməyimiz olduqca çətindir. Axirətdə də yemək içmək var, lakin ifrazat yoxdur. Bu necə ola bilər, əqlən bunu necə qəbul edə bilərik? Lakin dünyamızda da nəbati həyatda bunun bir örnəyi müşahidə edilə bilər, ağaclar da yeyər, içər, lakin ifraz etməzlər. Nəsaidə qeyd olunan bir rəvayət mövzumuza izah verir:

"Əhli kitabdan bir nəfər gələrək dedi: "Ey Əbul-Qasim, inancınıza görə cənnət əhli yeyər və içər, elə deyilmi?" Peyğəmbər (s) buyurdu: "Bəli, cənnətdə hər kəsə yüz adamın yemək, içmək və cima qüvvəsi verilər". Həmin şəxs: "Amma yeyən və içən onu ifraz etmək məcburiyyətindədir. Halbuki cənnətdə pislik yoxdur!" deyərək izah istədi. Həzrət: "Orada ifrazat tər şəklində baş verir. İnsanların dərilərindən müşk sızıntıları kimi atılar!" buyurdu.

İbn Cövzi deyir ki: "Cənnət əhlinin qidaları son dərəcə lətafət və təmkinə sahib olduğu üçün onlarda ifrazatı gətirən əza və çoxluq olmaz. Əksinə bu növ qidalardan iylərin ən xoşu, ən gözəli hasil olar".

---

[659] Buxari, "Bədul-Xalq" 8, "Ənbiya" 1; Müslim, "Cənnət" 15, (2834); Tirmizi, "Cənnət" 7, (2540)

Buxarinin bir rəvayətində cənnət əhli haqqında daha fərqli, daha tamamlayıcı məlumatlar verilmişdir. “Qəlbləri tək bir şəxsin qəlbi kimidir. Aralarında ixtilaf, ziddiyyət yoxdur. Hər bir kişiyə iki zövcə vardır. Bunlardan hər birinin ayağının iliyi və gözəlliyi səbəbilə ətinin arxasında görülər. Səhər və axşam Allahı təsbih edərlər... qabları qızıl və gümüşdəndir”.

Buradakı qəlb birliyi, paklıqda birlikdir, “heç birində dünyəvi kir, pis əxlaq qalmamışdır” deməkdir. Cənnətliklərin təsbihi bir vəzifə deyil. Müslimdə gələn və aşağıda qeyd edəcəyimiz bunun mahiyyətini açır. “Cənnətliklərə, eynən nəfəs ilham olunduğu kimi, təsbih və təhmid ilham olunar”. Məqsəd bu təsbih və təhmidlərdə bir zəhmətin olmadığını, tənəffüslərinin bir növ təsbih qəbul edildiyinə bəyandır. Şərhçilər: “Axirətdə qəlb ilahi mərifətlə dolunca, hər an onun zikrində olar” deyirlər.

Axirətdəki axşam və gündüzün də dünyadakı axşam və gündüzlərə bənzəmədiyi bildirilmişdir.

Cənnətliklərlə bağlı dolğun təfərrüat qarşıdakı rəvayətlərdə veriləcək.

وعن جابر رَضِـيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): أنَّ أهْلَ الْجَنَّةِ يَأكُلُونَ فيهَا وَيَشْرَبُونَ وَلا يَتْفُلُونَ وَلا يَبُولُونَ وَلا يَتَغَوَّطُونَ وَلا يَمْتَخِطُون. قيلَ فَمَا بَالُ الطَّعَامِ؟ قَالَ: جُشَاءٌ كَرَشْحِ الْمِسْكِ، يُلْهَمُونَ التّسْبِيحَ وَالتّحِميدَ كَمَا تُلْهَمُونَ النّفسَ.

**4.** Cabir ibn Abdullah nəql edir: “Rəsulullah (s): *“Cənnət əhli cənnətdə yeyər və içərlər. Ancaq tüpürməzlər, qüsl və dəstəmazları pozulmaz, fınxırmazlar da!”* buyurdu. Əshab: “Yaxşı, bəs yedikləri nə olar?” deyə soruşdular. Həzrət: *“Gəyirmək və müşk sızıntısı kimi tər! Onlara eynən nəfəs ilham olunduğu kimi təsbih və təhmid ilham olunar”.*[660]

Açıqlama öncəki hədisdə verildi.

وعن الْخُدْري رَضِـيَ اللّٰهُ عَنْه قال: قَال رسُولُ اللّٰهِ (ص): مَنْ مَاتَ مِنْ أهْلِ الْجَنَّةِ مِنْ صَغِيرٍ أوْ كَبِيرٍ يَدْخُلُونَ الْجَنّةَ بَنِي ثَلاثِينَ لاَ يَزِيدُونَ عَلَيْهَا أبَداً وَكذلِكَ أهْلُ النّارِ.

---

[660] Müslim, “Cənnət” 18, (3835); Əbu Davud, “Sünnət” 23, (4741)

**5.** Əbu Səid əl-Xudri nəql edir: *“Rəsulullah (s) buyurdu: “Bir kimsə cənnətlik olaraq ölsə, böyük və ya kiçik, yaşı nə olura olsun, otuz yaşında bir kimsə olaraq cənnətə girər və artıq bu yaş əbədiyyən dəyişməz. Cəhənnəmliklər üçün də vəziyyət beədir”.*[661]

وعن أبي هريرة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللهِ (ص): أهْلُ الْجَنَّةِ جُرْدٌ مَرْدٌ كُحَّلٌ لاَ يَفْنَى شَبَابُهُمْ وَلا تَبْلَى ثِيَابُهُمْ.
وزاد في رواية: "عَلَيْهِمُ تِّيجَانُ، وإنّ لُؤْلُؤَةً مِنْهَا لَتُضِئُ مَا بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ".

**6.** Əbu Hureyrə nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cənnət əhlinin vücudu tüksüz, üzü saqqalsız, gözləri sürməlidir, gənclik-əri keçici deyil, libasları da köhnəlməz”.*[662]

Tirmizidə bu rəvayətin ardı da qeyd edilir: *“Cənnətliklərin başlarında taclar vardır. Tacların hər bir incisi məşriq ilə məğrib arasını işıqlandırır”.*

وعن أبي رزين الْعُقَيْلِي رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰه (ص): لاَ يَكُونُ لأهْلِ الْجَنَّةِ وَلَدٌ.

**7.** Əbu Rəzin əl-Uqayli nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cənnət əhlinin uşağı olmaz, (orada doğum yoxdur).”*[663]

وعن أنسٍ رَضِيَ اللهُ عَنْه قال: قَالَ رَسُولُ اللهِ (ص): يُعْطَى الْمُؤْمِنُ في الْجَنَّةِ قُوَّةَ كَذَا وَكَذَا مِنَ الْجِمَاعِ. قِيلَ: يَا رَسُولَ اللهِ أوَ يُطِيقُ ذلِكَ؟ قَالَ: يُعْطى قُوَّةَ مِائَةٍ.

**8.** Ənəs nəql edir: “Rəsulullah (s): *“Möminə cənnətdə çox sayda (qadınla) cima gücü verilər!”* buyurmuşdu. “Ey Allahın Rəsulu! Buna taqət gətirə bilərmi?” deyə soruşuldu. *“Yüz (kişinin) gücü verilər!”* buyurdu.”[664]

---

[661] Tirmizi, “Cənnət” 23, (2565)
[662] Tirmizi, “Cənnət” 8, (2542)
[663] Tirmizi, “Cənnət” 23, (2566)
[664] Tirmizi, “Cənnət” 6, (2539)

وعن الخدري رَضِيَ اللّهُ عَنْه قال: قَال رَسُولُ اللهِ (ص): أدْنَى أهْلِ الْجَنَّةِ مَنْزِلَةً الّذى لَهُ ثَمَانُونَ ألْفَ خَادِمٍ، وَاثْنَانِ وَسَبْعُونَ زَوْجَةً؛ وَتُنْصَبُ لَهُ قُبَّةٌ مِن لُؤْلُو وَزَبْرجَدٍ وَيَاقُوتٍ كَمَا بَيْنَ الْجَابِيَةِ الَى صَنْعَاءَ.

**9.** əl-Xudri nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cənnət əhindən dərəcəsi ən aşağı olanın səksən min xidmətçisi, yetmiş iki zövcəsi vardır. Onun üçün incidən, zəbərcəddən (qiymətli daş) və yaqutdan Cabiyədən Sənaya qədər uzanan bir çadır quruar".*[665]

**Açıqlama:**

**1-** Zövcə olaraq zikr edilənlər hurilərdir, dünyəvi zövcələr bunun xaricindədir.

**2-** Cənnətliyin çadırı qübbə ilə ifadə edilmişdir. Qübbə kəlməsi bu çadırın yuvarlaq olacağını bildirir. Cabiyə Suriyada bir qəsəbədir. Səna da Yəməndə bir şəhər adıdır. İkisinin arasında bir aylıq məsafə mövcuddur. Beləcə, çadırın böyüklüyü ifadə edilmiş olur.

Hədis bu mənanı zehnə gətirir: "Cənnətliyin ən aşağı mərtəəsində olan belə böyük nemətlərə nail olarsa, ən yuxarı mərtəələrdə olanlar necə nemətlərə nail olacaqlar?"

وعن ابنِ عُمرَ رَضِيَ اللّهُ عَنْهما قال: قَالَ رَسُولُ اللهِ (ص): إنَّ أدْنَى أهْلِ الْجَنَّةِ مَنْزِلَةً لِمَنْ يَنْظُرُ الى جِنَانِهِ وَأزْوَاجِهِ وَخَدَمِهِ وَنِعَمِهِ وَسُرُرِهِ مَسِيرَةَ ألْفِ عَامٍ. وَأكْرَمُهُمْ على اللهِ مَنْ يَنْظُرُ الى وَجهِهِ غُدْوَةً وَعَشِيَّةً. ثُمَّ قَرَأ (ص): وُجُوهٌ يَوْمَئِذٍ نَاظِرَةٌ الى رَبِّنَا نَاضِرَةٌ.

**10.** İbn Ömər nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cənnət əhlinin mərtəbəcə ən aşağı olanı o kimsədir ki, bağçalarına, zövcələrinə, nemətlərinə, xidmətçilərinə, taxtlarına baxar. Bunlar min illik səyahət məsafəsini tutar. Cənnətliklərin Allah nəzdində ən qiymətli olanları isə səhər-axşam Vəchullaha nəzər salarlar".*

Rəsulullah (s) sonra bu ayəni oxudu: ***"O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə (Onun qüdrətinə, əzəmətinə, rəhmətinə) baxacaqdır!"***[666]

---

[665] Tirmizi, "Cənnət" 23, (2565)
[666] Qiyamə 22-23; Tirmizi, Cənnət 17, (2556), Təfsir, Qiyamət (3327)

## Cəhənnəmliklər

عن النّعمان بن بشير رَضِيَ اللّهُ عَنْهما قال: قَالَ رَسُولُ اللّهِ (ص): أهْوَنُ أهْلِ النّارِ عَذَاباً مَنْ لَهُ نَعْلانِ وَشِراكَانِ مِنْ نَارٍ يَغْلِي مِنْهُمَا دِمَاغُهُ كَما يَغْلِي الْمِرْجَلُ، مَا يَرى أنّ أحَداً أشَدّ مِنْهُ عَذَاباً وَإنّهُ لأهْوَنُهُمْ عَذَاباً.

**1.** Numan ibn Bəşir nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cəhənnəmliklərin əzab baxımından ən asan olanı, ayağında atəşdən bir ağacsəndəl və atəşdən bağı olan kimsədir ki, ayağındakılar səbəbilə eynən qazan qaynaması kimi, başında beyni qaynar. Elə bir əzab çəkər ki, əzab baxımından insanların ən yüngülü olduğu halda, özündən şiddətli əzab çəkən olmadığını zənn edər".*[667]

وعن سَمُرَةَ بن جُنْدَبٍ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): إنّ مِنْهُمْ مَنْ تَأخُذُهُ النّارُ الى كَعْبَيْهِ، وَمنْهُمْ مَنْ تَأخُذُهُ الى رُكْبَتَيْهِ، وَمِنْهُمْ مَنْ تَأخُذُهُ الى حُجْزَتِهِ، وَمِنْهُمْ مَنْ تَأخُذُهُ الى تَرْقُوَتِهِ.

**2.** Səmurə ibn Cundəb nəql edir: "Rəsulullah (s) buyurdu: *"(Cəhənnəmliklər dərəcə dərəcədir.) Bir qismi vardır, atəş onları topuğuna qədər yaxalar, bir qismi vardır, dizlərinə qədər yaxalar, bir qismi vardır kəmərə qədər yaxalar, bir qismi vardır körpücük sümüyünə qədər yaxalar."*[668]

وعن أبي الدّرْدَاءِ رَضِيَ اللّهُ عَنْه قال: قَالَ رَسُولُ اللّهِ (ص): يُلْقى عَلى أهْلِ النّارِ الْجُوعُ، فَيَعْدِلُ مَاهُمْ فيهِ مِنَ الْعذَابِ، فَيَسْتَغِيثُونَ، فَيُغَاثُونَ بِطَعَامٍ مِنْ ضَرِيعٍ لاَ يُسمِنُ وَلا يُغنِى مِنْ جُوعٍ فَيَسْتَغِيثُونَ بِالطّعَامِ، فَيُغَاثُونَ بِطَعَامٍ ذي غُصّةٍ. فَيَذكُرُونَ أنّهُمْ كَانُوا يُجِيزُونَ الْغُصَصَ في الدُّنْيَا بِالشّرَابِ. فيَسْتَغِيثُونَ بِالشّرَابِ. فَيُدْفَعُ إلَيْهِمُ الْحَمِيمُ بِكَلِيبِ الْحَدِيدِ. فَإذَا أُدْنِىَ مِنْ وُجُوهِهِمْ شَوى وُجُوهَهُمْ فَإذَا دَخَلَ بُطُونَهُمْ قَطَعَ مَا في بُطُونِهِمْ فَيَقُولُونَ: أدْعُوا خَزَنَةَ جَهَنّمَ عَسَاهُمْ يُخَفّفُونَ عَنّا فَيَدْعُونَهُمْ فَيَقُولُونَ: **ألَمْ تَكُ تَأتِيكُمْ رُسُلُكُمْ بِالْبَيّنَاتِ؟** قَالُوا: **بَلى. قَالُوا: فَادْعُوا وَمَا دُعَاءُ الْكَافِرِينَ إلاّ في ضَلالٍ.** فَيَقُولُونَ: أُدْعُ مَالِكاً، فَيَقُولُونَ: يَا مَالِكُ لِيَقْضِ عَلَيْنَا رَبُّكَ. فَيُجِيبُهُمْ: **إنَّكُمْ مَاكِثُونَ.** قَالَ الأعْمَش رَحِمَهُ اللّهُ نُبِّئْتُ اَنّ بَيْنَ دُعَائِهِمْ مَالِكاً وَإجَابَتِهِ مِقْدَارَ ألْفِ عَامٍ فَيَقُولُونَ: أُدْعُوا رَبّكُمْ، فَلا

---

[667] Buxari, "Riqaq" 8, Müslim, "İman" 363,l (213); Tirmizi, "Cəhənnəm" 12, (2607)
[668] Müslim, "Cənnət" 33, hədis 2845.

أَحَدَ خَيْرٌ مِنْ رَبِّكُمْ، فَيَقُولُونَ: **رَبَّنَا غلَبَتْ عَلَيْنَا شِقْوَتُنَا وَكُنَّا قَوْماً ضَالِّينَ. رَبَّنَا أخْرِجْنَا مِنْهَا فإنْ عُدْنَا فإنَّا ظَالِمُونَ.** قَالَ فَيُجِيبُهُمْ: اِخْسَئُوا فِيهَا وَلا تُكَلِّمُونِ. قَال: فَعِنْدَ ذلِكَ يَئِسُوا مِنْ كُلِّ خَيْرٍ، فَيأخُذُونَ في الزَّفيرِ وَالشَّهِيقِ وَيَدْعُونَ بِالْوَيْلِ وَالثُّبُور.

**3.** Əbu Dərda nəql edir: “Rəsulullah (s) buyurdu: *“Cəhənnəm əhli aclıqla əzab olunar. Aclığa qarşı yardım diləyərlər. Onlara faydası olmayan və aclığı aparmayan tikanlı bir ot verilər. Yenə də yeməyə bir şey istəyərlər, bu dəfə də boğazda tıxanıb qalan bir təam verilər. Bu da boğazlarında tıxanıb qalar, nə içəri keçər, nə də geri gələr. Dərhal dünyada ikən bu vəziyyətdə bir qurtum suyun tıxanan loğmaları keçirdiyini xatırlayıb bir su istəyərlər. Onlara dəmir qablarda qaynar sular verilər. Qabları üzlərinə yaxınlaşdırdıqda üzlərini dağlayıb yandırar. Su qarınlarına girincə içlərini parça-parça edər. Bu dəfə də:“Cəhənnəmin gözətçilərini çağırın, ola bilsin ki, əzabımızı bir az yüngüləşdirsinlər!” deyərlər. Onları çağırarlar. Onlar gəlincə: “Sizə peyğəmbərləriniz bunları xəbər verməmişdimi?” deyərlər. Onlar: “Bəli gətirmişdi (amma dinləmədik)” deyərlər. Bu zaman gözətçilər:* ***“Siz istəyin! Kafirlərin istəkləri burada boş şeydir!”*** *deyərlər”.*[669]

*Cəhənnəmliklər gözətçilərdən ümidlərini kəsincə: “(Cəhənnəmə müvəkkil mələk) Maliki çağırın!” deyərlər. Malik gəlincə: “Ey Malik, söylə Rəbbin bizim haqqımızda ölümə hökm versin!” deyərlər. Malik də onlara:* ***“Siz (həmişəlik burada) qalacaqsınız!” – deyə cavab verəcəkdir!”***[670]

Hədisin ravilərindən Əməş deyir: *“Cəhənnəm əhlinin Malikə yalvarması ilə Malikin onlara verdiyi cavab arasında min illik zaman keçəcəkdir. Cəhənnəmliklər bu dəfə aralarında: “Rəbbinizə dua edin, çünki sizin üçün Ondan daha xeyirli kimsə yoxdur!” deyəcəklər və əlbir olaraq belə yalvaracaqlar:* ***“Onlar deyərlər: “Ey Rəbbimiz! Bizim azğınlığımız bizə qələbə çaldı və biz haqq yoldan sapan bir camaat olduq! Ey Rəbbimiz! Bizi oradan (cəhənnəm odundan) çıxart! Əgər bir də (Sənin xoşuna gəl-***

---

[669] “Ğafir” surəsi, ayə-50.
[670] “Zuxruf” surəsi, ayə-77

***məyən pis işlərə) qayıtsaq, şübhəsiz ki, zalim (özümüz-özümüzə zülm etmiş) olarıq".***[671]

Allah onlara buyurar: ***"Orada zəlil (məyus) vəziyyətdə durub qalın və Mənə heç bir şey deməyin! (Cəhənnəm odundan xilas edilməyinizi Məndən diləməyin!)"***[672]

Rəsulullah ardınca buyurdu: *"Bu cavabdan sonra, cəhənnəm əhli hər növ xeyirdən ümidini kəsər; hıçqırmağa, peşmançılıq çəkməyə başlar".*[673]

وعن أبي هريرة رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ الْحَمِيمَ لَيُصَبُّ عَلى رُؤُوسِهِمْ فَيَنْفُذُ حَتّى يَخْلُصَ الى جُوفِهِ فَيَسْلِتُ مَا في جَوْفِهِ حَتّى يَمْرُقَ مِنْ قَدَمَيْهِ، وَهُوَ الصَّهْرُ ثُمَّ يُعَادُ كَمَا كَانَ.

**4.** Əbu Hüreyrə nəql edir: "Rəsulullah (s) buyurdu: *"Cəhənnəmliklərin təpəsinə qaynar su tökülər. Bu su, vücudlarının içinə nüfuz edər, elə ki, qarınlarına qədər çatar, içlərində nə var nə yox, söküb atar və ayaqlarını dəlib keçər. Bu hadisə* ***"O su ilə qarınlarında olanlar (bağırsaqları, ciyərləri) və dəriləri əridiləcəkdir."***[674] *ayəsində zikr edilən əritmə (əs-sahru) hadisəsidir. Sonra (əriyən cəsədləri) əvvəlki halına qaytarılar".*[675]

وعن ابنِ عمر رَضِيَ اللّٰهُ عَنْهما قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): إنَّ الْكَافِرَ لَيَسْحَبُ لِسَانَهُ في النّارِ الْفَرْسَخَ وَالْفَرْسَخَيْنِ يَتَوَاطَّؤُهُ النّاسُ.

**6.** İbn Ömər nəql edir: "Rəsulullah (s) buyurdu: *"Kafir bir iki fərsəx uzunluğundakı dilini qiyamət günü yerdə sürüyər, insanlar onun üzərinə çıxarlar".*[676]

---

[671] "Muminun" surəsi, ayə-106-107
[672] "Muminun" surəsi, ayə-108
[673] Tirmizi, "Cəhənnəm" 5, (2589)
[674] "Həcc" 20
[675] Tirmizi, "Cəhənnəm" 4, (2585)
[676] Tirmizi, "Cəhənnəm" 3, (2583)

**Cənnətliklərin və cəhənnəmliklərin müştərək zikr edildiyi hədislər**

وعنه رَضِيَ اللّٰهُ عَنْه قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): يُخَلَّصُ الْمُؤْمِنُونَ مِنَ النّارِ، فَيُحْبَسُونَ على قَنْطَرَةٍ بَيْنَ الْجَنَّةِ وَالنّارِ، فَيُقْتَصُّ لِبَعْضِهِمْ مِنْ بعضٍ مَظَالِمَ كَانَتْ بَيْنَهُمْ في الدُّنْيَا، حَتّى إِذَا هُذِّبُوا وَنُقُّوا أُذِنَ لَهُمْ في دُخُولِ الْجَنَّةِ. فَوَالّذِي نَفْسِي بِيَدِهِ لأَحَدُهُمْ أَهْدَى بِمَنْزِلِهِ في الْجَنَّةِ مِنْهُ بِمَنْزِلِهِ كَانَ في الدُّنْيَا.

**1.** Əbu Səid nəql edir: "Rəsulullah (s) buyurdu: *"Möminlər cəhənnəmdən qurtarılıb, cənnətlə cəhənnəm arasındakı körpüdə bir müddət həbs edilərlər. Bu sırada, aralarında dünyada keçmiş olan haqsızlıqlar qisas edilər. Beləcə günahlardan təmizlənib paklandıqdan sonra cənnətə girmələrinə izin verilər. Nəfsimi qüdrət əlində tutan Allaha and olsun, onlardan hər biri, cənnətdəki evini, dünyadakı evinden daha yaxşı bilər".*[677]

**Açıqlama:**

**1-** Bu hədisdə, imanla qəbrə girən hər kəsin günahlarının cəzasını çəkdikdən sonra cənnətə girəcəyi bildirilməkdədir. Ancaq, cəhənnəmliklərin bir-birlərinə qarşı işləmiş olduqları zülmlər də son dəfə qisas edilib, günahdan əsər qalmadıqdan sonra, "şəfaət"lə cənnətə alınacaqlar. Hədis, günahı olan kimsənin cənnətə girməyəcəyini ifadə edən "Üzərində qul haqqı olan heç kimsə cənnətə girməz" hədisini qüvvətləndirir.

**2-** Hədisdə söz edilən təmizlənmə hadisəsi, bir-birlərinə qarşı haqları olan kimsənin günahını verib savabını alma şəklində bir ödəşmədir. Söz edilən təmizlənmə bu surətlə cərəyan edəcəkdir. Üzərində ödənməmiş qul haqqı olan kimsə, ona öz savabından verəcək və şəxsi dərəcəsini düşürəcəkdir. O biri də savabını almaqla dərəcəsini ucaldacaqdır, alacaq savabı qalmamışsa, bunun günahından ona yüklənəcəkdir.

وعن عِمْرَانِ بْنِ حُصَيْن رَضِيَ اللّٰهُ عَنهما قال: قَالَ رَسُولُ اللّٰهِ (ص): يَخْرُجُ قَوْمٌ مِنَ النّارِ بِشَفَاعَةِ مُحَمّدٍ (ص) فَيَدْخُلُونَ الْجَنَّةَ، يُسَمَّوْنَ الْجَهَنَّمِيِّينَ.

---

677 Buxari, "Məzalim" 1, "Riqaq" 48

**2.** İmran ibn Husayn nəql edir: "Rəsulullah (s) buyurdu: *"Muhəmmədin (s) şəfaəti ilə bir qisim insanlar cəhənnəmdən çıxacaq, cənnətə girəcəkdir. Bunlara cəhənnəmliklər deyiləcəkdir".*[678]

وعن أبي هريرة رَضِيَ اللَّهُ عَنْه قال: قَالَ رَسُولُ اللَّهِ (ص): إنَّ رَجلَيْنِ مِمَّنْ يَدْخُلُ النّارَ يَشْتَدُّ صِيَاحُهُمَا فيهَا، فَيقُولُ اللَّهُ تَعالى: أَخْرِجُوهُمَا. ثُمَّ يَقُولُ: لأيِّ شَيْءٍ صِيَاحُكُما؟ فَيقُونِ: فَعَلْنَا ذَلِكَ لِتَرْحَمَنا. فيقُولُ: إنَّ رَحْمَتِي لَكُمَا أنْ تَنْطَلِقَا فَتُلْقِيَا أنفُسَكما في النّارِ. فَينْطَلِقَانِ. فَيُلْقِي أحَدُهُمَا نَفْسَهُ، فَيَجْعَلُهَا اللَّهُ عَلَيْهِ بَرْداً وَسَماً. وَيَقُومُ الآخَرُ فَلا يُلْقِي نَفْسَهُ. فَيَقُولُ اللَّهُ تَعالى: مَا مَنَعَك أنْ تُلْقي نَفْسَكَ كَمَا أَلْقى صَاحِبُك؟ فَيَقُولُ: يَا رَبِّ إنِّي لأرْجُو أنْ لاَ تُعِيدُنِي فيهَا بَعْدَ أنْ أخْرَجْتَنِي مِنْهَا. فَيَقُولُ اللَّهُ تَبَارَكَ وَتَعالى: لَكَ رَجَاؤُكَ. فَيُدْخَلانِ الْجَنَّةَ مَعاً بِرَحْمَةِ اللَّهِ تَعالى.

**3.** "Rəsulullah (s) buyurdu: *"Cəhənnəmə girən iki kişinin oradakı bağırtıları şiddətlənəcək. Allah: "Çıxarın bunları!" buyuracaq. Onlardan:*

*"Nə üçün bağırırsınız?" deyə soruşacaq. Onlar:*

*"Bizə mərhəmət edəsən deyə belə etdik!" deyəcəklər. Rəbb: "Mənim sizə rəhmətim, gedib özünüzü atəşə atmanız şəklindədir!" buyuracaq. Onlar gedəcəklər. Biri özünü atəşə atacaq. Allah da atəşi ona soyuq və salamat edəcək. Digəri qalxar lakin özünü atəşə atmaz. Allah: "Dostunun atdığı kimi, səni də özünü atmaqdan çəkindirən nədir?" deyə soruşar. O: "Ey Rəbbim, məni ondan çıxardıqdan sonra oraya bir daha göndərməyəcəyinə ümid edirəm!" deyər. Allah: "Tez ol, ümidini doğrultdum!" deyər. İkisi də Allahın rəhmətiylə cənnətə girərlər".*[679]

عن أنس بن مالك قال: جاء جبريل إلى النبي صلى الله عليه وسلم في ساعةٍ ما كان يأتيه فيها متغيّر اللون، فقال له النبي صلى الله عليه وسلم: مالي أراك متغير اللون.

فقال: يا محمد جئتُكَ في الساعة التي أمر الله بمنافخ النار أن تنفخ فيها، ولا ينبغي لمن يعلم أن جهنم حق، و أن النار حق، وأن عذاب القبر حق، وأن عذاب الله أكبر أنْ

---

678 Buxari, "Riqaq" 513, Əbu Davud, "Sünnət" 23, (4740); Tirmizi, "Cəhənnəm" 10, (2603)

679 Tirmizi, Cəhənnəm 10, (2602

تقرّ عينه حتى يأمنها.
فقال النبي صلى الله عليه وسلم: يا جبريل صِف لي جهنم
فإذا أنفذ الله تعالى حكمه قال: يا جبريل ما فعل العاصون من أمة محمد صلى الله عليه وسلم ؟ فيقول: اللهم أنت أعلم بهم . فيقول انطلق فانظر ما حالهم
فينطلق جبريل عليه السلام إلى مالك و هو على منبر من نار في وسط جهنم، فإذا نظر مالك على جبريل عليه السلام قام تعظيماً له ، فيقول له يا جبريل : ماأدخلك هذا الموضع ؟ فيقول: ما فَعَلْتَ بالعصابة العاصية من أمة محمد ؟ فيقول مالك: ما أسوأ حالهم و أضيَق مكانهم، قد أُحرِقَت أجسامهم، و أُكِلَت لحومهم، وبقِيَت وجوههم و قلوبهم يتلألأ فيها الإيمان.
فيقول جبريل: ارفع الطبق عنهم حتى انظر إليهم . قال فيأمر مالك الخَزَنَة فيرفعون الطبق عنهم، فإذا نظروا إلى جبريل وإلى حُسن خَلقه، علموا أنه ليس من ملائكة العذاب فيقولون : من هذا العبد الذي لم نر أحداً قط أحسن منه ؟ فيقول مالك : هذا جبريل الكريم الذي كان يأتي محمداً صلى الله عليه وسلم بالوحي ، فإذا سمعوا ذِكْر محمد صلى الله عليه وسلم صاحوا بأجمعهم: يا جبريل أقرئ محمداً صلى الله عليه وسلم منا السلام، وأخبره أن معاصينا فرّقت بيننا وبينك، وأخبره بسوء حالنا.
فينطلق جبريل حتى يقوم بين يدي الله تعالى ، فيقول الله تعالى: كيف رأيت أمة محمد؟ فيقول: يارب ما أسوأ حالهم و أضيق مكانهم.
فيقول: هل سألوك شيئاً ؟ فيقول: يا رب نعم، سألوني أن أُقرئ نبيّهم منهم السلام و أُخبره بسوء حالهم فيقول الله تعالى : انطلق فأخبره.
فينطلق جبريل إلى النبي صلى الله عليه وسلم وهو في خيمة من درّة بيضاء لها أربعة آلاف باب، لكل باب مصراعان من ذهب ، فيقول: يا محمد . قد جئتك من عند العصابة العصاة الذين يُعذّبون من أمتك في النار ، وهم يُقرِئُونك السلام ويقولون ما أسوأ حالنا، وأضيق مكاننا.
فيأتي النبي صلى الله عليه وسلم إلى تحت العرش فيخرّ ساجداً ويثني على الله تعالى ثناءً لم يثنِ عليه أحد مثله..
فيقول الله تعالى : ارفع رأسك ، و سَلْ تُعْطَ ، و اشفع تُشفّع.
فيقول: يا رب الأشقياء من أمتي قد أنفذتَ فيهم حكمك وانتقمت منهم، فشفّعني فيهم.
فيقول الله تعالى : قد شفّعتك فيهم ، فَأْتِ النار فأخرِج منها من قال لا إله إلا الله . فينطلق النبي صلىالله عليه وسلم فإذا نظر مالك النبي صلى الله عليه وسلم قام تعظيماً له فيقول : يا مالك ما حال أمتي الأشقياء ؟
فيقول: ما أسوأ حالهم و أضيق مكانهم . فيقول محمد صلى الله عليه وسلم : افتح الباب و ارفع الطبق، فإذا نظر أصحاب النار إلى محمد صلى الله عليه وسلم صاحوا بأجمعهم فيقولون: يا محمد ، أَحْرَقت النار جلودنا و أحرقت أكبادنا، فيُخرجهم جميعاً و قد صاروا فحماً قد أكلتهم النار فينطلق بهم إلى نهر بباب الجنة يسمى نهر الحيوان ،

فيغتسلون منه فيخرجون منه شباباً جُرْداً مُرْداً مُكحّلين و كأنّ وجوههم مثل القمر ، مكتوب على جباههم "الجهنّميون عتقاء الرحمن من النار" ، فيدخلون الجنة فإذا رأى أهل النار أن المسلمين قد أُخرِجوا منها قالوا : يا ليتنا كنا مسلمين وكنا نخرج من النار، وهو قوله تعالى: **"رُبَمَا يَوَدُّ الَّذِينَ كَفَرُواْ لَوْ كَانُواْ مُسْلِمِينَ".**

**4.** Ənəs ibn Malikdən nəql olunur: *"Cəbrail adət etmədiyi bir vaxtda, rəngi dəyişmiş halda Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) dedi: "Nə olub, rəngin belə dəyişib?"*

*Dedi: "Ya Muhəmməd, Allahın körüklərə odun üzərinə üfürməyi əmr etdiyi bir saatda gəlmişəm. Cəhənnəmin haqq və Allahın əzabının şiddətli olduğunu bilən hər kəs buna iman gətirməlidir".*

Cəbrail Cəhənnəm odunu vəsf etdikdən sonra onun əhlindən olan müsəlmanların aqibətindən söz açmağa başlayır:

*....Uca Allahın hökmü həyata keçdikdən sonra deyər: "Ey Cəbrail, Muhəmmədin (s) ümmətindən olan günahkarlar nə edirlər?"*

*Cəbrail deyər: İlahi, Sən onların halını daha yaxşı bilirsən!"*

*Uca Allah buyurar: Get və onların halına bax.*

*Cəbrail Malikin yanına gedər və onu Cəhənnəmin ortasında oddan çarpayı üzərində oturmuş görər. Malik Cəbraili gördükdə ehtiram əlaməti olaraq ayağa qalxar və deyər: Səni buraya gətirən nədir?*

*Cəbrail deyər: Muhəmmədin (s) ümmətindən olan günahkarların halı necədir?*

*Malik cavab verər: Halları çox pis, yerləri dardır. Od bədənlərini yandırır, ətlərini yeyir, imanla parlayan üzləri və qəlbləri toxunulmaz qalır.*

*Cəbrail deyər: Üzərilərindən örtüyü qaldır, onlara baxım.*

*Malik əmr edər və üzərilərindən örtük qaldırılar. Yaradılış gözəlliyinə sahib Cəbraili gördükdə onun əzab mələklərindən olmadığını anlayarlar və deyərlər: Əvvəllər bundan daha gözəl sima görmədiyimiz bu bəndə kimdir?*

*Malik deyər: Bu, Muhəmmədə (s) Allahın vəhylərini gətirən Cəbraildir.*

*Muhəmmədin (s) adını eşitdikdə hamılıqla ucadan deyərlər: Ey Cəbrail, Muhəmmədə (s) bizdən salam de və günahlarımızın bizimlə onun arasında ayrılıq saldığını, eləcə də buradakı acılı halımızı ona xəbər ver.*

*Cəbrail gəlib Allahın qarşısında dayanar. Uca Allah buyurar: Ey Cəbrail, Muhəmməd (s) ümmətinin halını necə gördün?*

*Cəbrail deyər: Ya Rəbbim, halları çox pis, yerləri olduqca dardır.*

*Uca Allah buyurar: Səndən bir şey dilədilər?*

*Cəbrail: Bəli, ey Rəbbim. Məndən Peyğəmbərlərinə (s) salam deməyimi və acılı hallarını ona xəbər verməyimi xahiş etdilər.*

*Uca Allah buyurar: Get və çatdır.*

*Cəbrail Peyğəmbərin (s) yanına gedir. O, Cənnətdə ağ mirvaridən tikilmiş, hər iki tayı qızıldan olan dörd min qapıya sahib xeyməsində oturmuşdur. Cəbrail deyər:*

*- Ya Muhəmməd, ümmətindən böyük günah işlədiklərinə görə odda əzab görənlər sənə salam göndərir və deyirlər: Halımız çox pis, yerimiz olduqca dardır.*

*Peyğəmbər (s) Ərşə tərəf gedib səcdə edər, heç kimin deyə bilməyəcəyi sənalarla Uca Allah həmd-səna söyləyər.*

*Uca Allaha buyurar: (Ya Muhəmməd!) Başını qaldır, istə əta edim, şəfaət et şəfaətin qəbul olsun!*

*Peyğəmbər (s) deyər: İlahi, ümmətimin bədbəxtləri barəsində hökmün gerçək olub.*

*Uca Allah buyurar: Onlara şəfətini qəbul etdim. Get və "Allahdan başqa ilah yoxdur" deyənləri oddan çıxar.*

*Peyğəmbər (s) oraya gedər, Malik onu gördükdə ehtiram olaraq ayağa qalxar. Peyğəmbər (s) buyurar: Ey Malik ümmətimdən olan bədbəxtlərin halı necədir?*

*Malik deyər: Halları çox pis, yerləri olduqca dardır.*

*Peyğəmbər (s) buyurar: Qapını aç, üzərilərindəki örtüyü qaldır! Oradakılar həzrət Muhəmmədi (s) gördükdə hamılıqla nida edərlər: Od dərimizi və böyrəklərimizi yandırıb.*

*Onları Cəhənnəmdən çıxarar. Odun təsirindən qaralmış, sanki kömürə çevrilmişlər. Onları Cənnətin qapısının yaxınlığın-*

*dakı "həyəvan" adlanan çaya aparar, orada yuyunar və cavan gənc olaraq sudan çıxarlar. Üzləri qəmər kimi parlayar. Alınlarında "Rəhmanın oddan azad etdiyi cəhənnəmlilər" yazılar və Cənnətə daxil olarlar. Od əhli müsəlmanların Cəhənnəmdən çıxdıqlarını görüb deyərlər: Kaş ki, biz də müsəlman olardıq və oddan çıxardıq. Bu da Uca Allahın Qurandakı sözüdür:* ***"Kafirlər, yəqin ki, müsəlman olmalarını istərdilər!***[680]**"**[681]

**Açıqlama:**

"Rəvayətdə bir neçə əhəmiyyətli məqamlara toxunulub. Onlardan:

- Rəvayətdə xəbəri eşitdikdən sonra Rəsulullahın (s) halı vəsf olunub. Belə ki, bu xəbərin hüzn və kədərindən dolayı bir müddət insanlardan uzaqlaşmış və səcdə edərək ağlamışdır.
- Cəhənnəmə aparılacaq hər bir kəsin üzü qaralacaq. Ancaq nəticədə Rəsulullahın (s) və Əhli-Beytinin (ə) şəfaətinə məzhər olacaq şəxslərin üzləri qaralmayacaq.
- Günahlar Qiyamət günü insana Rəsulullahın (s) adını da unutduracaq. Od isə "La ilahə illəllah" deyən kəslərə toxunmayacaq. Odun tövhidə sahib batini yandırmağa qüdrəti çatmayacaq. Yalnız şəhadəti unudanlara və ya Rəbbin əmrinə əsasən od onlara toxunacaq.
- Muhəmməd (s) ümməti odda əbədi qalmayacaq. Allahın hökmü barələrində icra olunduqdan, günahlardan, xəbis əməllərdən və pis vərdişlərdən təmizləndikdən sonra onlar Cəhənnəmdən çıxarılacaq. Çünki Cənnət paklıq evidir, oraya heç bir pislik daxil olaq bilməz. Həmçinin onlardan bəzisi bu dünyada xəstəliklər, bəlalar, qəriblik, fəqirliklə, bəzisi bərzəx əzabı, bəzisi də Cəhənnəm odunda yanmaqla günahlardan təmizlənəcək. Bu həmin oddur ki, bu dünyada istifadə edilməsi üçün yetmiş dəfə (bəzi rəvayətlərdə yetmiş min dəfə) söndürülmüşdür.
- Bəzisi Axirət illəri hesabı ilə odda uzun bir müddət qalacaqlar. ***"Həqiqətən də Rəbbin yanında bir gün sizin saydı-***

---

[680] "Hicr" surəsi, ayə-2.

[681] "Elmul-yəqin", Feyz Kaşani, c.2, səh.1267.

***ğınız min il qədərdir.”***[682] Allahın rəhməti, Peyğəmbərin (s) və Əhli-Beytinin (ə) şəfaəti onlara şamil olduqdan sonra Cəhənnəmdən çıxarılıb Cənnətə daxil olarlar.

- Rəvayətdən aydın görünür ki, oraya daxil olan şəxslər də bizim kimi namaz qılanlar, oruc tutanlar və ibadət edənlərdir”.[683]

## Allahın görülməsi

وعن صُهيب رَضِيَ اللّهُ عَنْه قال: قالَ رَسُولُ اللّهِ (ص): إذَا دَخَلَ أهْلُ الْجَنَّةِ الْجَنَّةَ يَقُولُ اللّهُ تَعالى: تُرِيدُونَ شَيْئاً أزِيدُكُمْ؟ فَيَقُولُونَ: ألَمْ تُبَيِّضْ وُجُوهَنَا، ألَمْ تُدْخِلْنَا الْجَنَّةَ، ألَمْ تُنْجِنَا مِنَ النّارِ؟ قَالَ: فَيُكْشَفُ الْحِجَابُ. فَمَا أُعْطُوا شَيْئاً أحَبَّ إلَيْهِمْ مِنَ النَّظَرِ الى رَبِّهِمْ تَبَارَكَ وَتعالى. ثُمَّ تَلا هذِهِ الآيَةَ: لِلَّذِينَ أحْسَنُوا الْحُسْنَى وَزِيَادَةٌ.

**1.** Süheyb Rumi nəql edir: “Rəsulullah (s) buyurdu: “Cənnətliklər cənnətə girincə Allah: “Bir şey daha istəyirsənizsə söyləyin, onu da əlavə olaraq verim!” buyurar. Cənnətliklər: “Sən bizim üzlərimizi ağ etmədinmi? Sən bizi cənnətə qoymadınmı? Sən bizi cəhənnəmdən qurtarmadınmı (daha nə istəyəcəyik?)” deyərlər. Dərhal pərdə açılar. Onlara, Uca Rəblərinə (Onun rəhmətinə) baxmaqdan daha sevimli bir şey verilməmişdir”.

Süheyb deyir: “Rəsulullah bu sözlərindən sonra bu ayəni tilavət etdi: ***“Yaxşı işlər görənləri ən gözəl mükafat (Cənnət) və (ondan da) artığı (Allah rizası) gözləyir.***”[684]

وعن أبِى ذَرٍّ رَضِيَ اللّهُ عَنْه قال: سَألْتُ رَسُولَ اللّهِ (ص): هَلْ رَأيْتَ رَبّكَ تَعالى؟ قَالَ: نُورٌ، أنّي أرَاهُ.

**2.** Əbu Zərr nəql edir: “Rəsulullahdan (s) “Sən Rəbbini heç gördünmü?” deyə soruşdum, “Nurdur, mən Onu necə görə bilərəm” buyurdu.”[685]

### Açıqlama:

Nəvəvi, bu hədisin mənasını belə izah edir: “Bunun mənası:

---

[682] “Həcc” surəsi, ayə-47.
[683] “Ruhun tərbiyəsi”, Seyid Kamal Heydəri.
[684] Yunus surəsi, ayə-26; Müslim, İman 297, (181); Tirmizi, Cənnət 16, (2555)
[685] Müslim, İman 291, (178); Tirmizi, Təfsir, Nəcm, (3278)

“Onun hicabı (pərdəsi) nurdur, Onu mən necə görə bilərəm?” deməkdir. İmam Əbu Abdullah əl-Maziri də: “...mənası: “Nur, görmək üçün mənə mane olur, eynən hər kəs üçün olduğu kimi: İşıq gözü qamaşdırır, baxanla, araya girdiyi əşyanın baxan tərəfindən görülməsinə mane olur” deməkdir”.

Müslimin bir rəvayətində, Rəsulullahın (s) Əbu Zərin “Rəbbini gördünmü?” sualına verdiyi cavab “Bir nur gördüm” şəklindədir. Bunu şərhçilər “Mən, nur gördüm, başqa bir şey görmədim” şəklində izah edərlər.

İki rəvayət zahirdə zidd görünsə də, əslində belə bir ziddiyyət yoxdur. Eyni mənada birləşirlər. Çünki birincidə qəsd edilən, gözün görməkdən aciz qalacağı şiddətli bir nurdur. Rəsulullah (s) bunu görmədiyini ifadə edir. İkinci nur, birinci pərdə olan, görülə biləcək bir nurdur. Rəsulullah (s) bu nuru görmüşdür. Həqiqətən gecə qaranlığında baxılınca qarşıdan bizə işıq tutulsa, işığı görərik, ancaq onun arxasındakını görmərik.

Allahın nura nisbətini ifadə edən nasları təvil edərək anlamağa çalışan bir qisim alimlər, ***“Allah göylərin və yerin nurudur”*** ayəsilə Allahı nur olaraq ifadə edən digər hədisləri ***“Allah nurun xaliqidir”*** şəklində bir izahla bəyan edirlər. Onların bu rəylərinə əsasən Allaha nur demək, təşbih və bənzətmə gətirməkdir. Çünki nur, bir növ cisimdir. Halbuki Allah Qurani-Kərimdə ***“Onun (Allahın) bir bənzəri yoxdur”*** buyurur.

Mövzu, növbəti hədisdə daha gözəl şəkildə açıqlanacaq.

وعن مسروق قال: قُلْتُ لِعَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْها. يَا أُمَّتَاهُ: هَل رَأى مُحَمّدٌ رَبَّهُ؟ فَقَالتْ: لَقَدْ قَفَّ شَعْرِي مِمّا قلْتَ. أيْنَ أنْتَ مِنْ ثَلاثٍ، مَنْ حَدّثَكهُنَّ فقَدْ كَذبَ. مَنْ حَدّثَك أنَّ مُحَمّداً رأى رَبَّهُ فَقَدْ كَذَبَ. ثُمَّ قَرَأتْ: **لاَ تُدْرِكُهُ الأبْصَارُ وَهُوَ يُدْرِكُ الأبْصَارَ**. وَمَنْ حَدّثَكَ أنَّهُ يَعْلَمُ مَا في غَدٍ فقَدْ كَذَبَ. ثُمَّ قَرَأتْ: وَمَا تَدْرِي نَفْسٌ مَاذَا تَكسِبُ غَداً؛ وَمَنْ حَدّثَكَ أنَّهُ كَتَمَ شَيْئاً مِنَ الْوَحْيِ فقَدْ كَذبَ. ثُمَّ قرأتْ: **يَا أيُّهَا الرَّسُولُ بَلِّغَ مَا أُنْزِلَ إلَيْكَ مِنْ رَبِّكَ...** وَلَكِنَّهُ رَأى جِبْرِيلَ في صُورَتِهِ مَرَّتَيْنِ.

**3.** Məsruq nəql edir: “Aişə binti Əbu Bəkrə dedim: “Ey Anam! Muhəmməd (s) Rəbbini gördümü?” Cavab olaraq dedi: “Söylədiyin sözdən tüklərim ürpəşdi. Sənin üç xətalı sözdən xəbərin yoxdurmu? Kim onları sənə söyləsə yalan söyləmiş olar.

Belə ki: Kim sənə: "Muhəmməd Rəbbini gördü" desə yalan söyləmiş olar. Sonra sözünə dəlil olaraq bu ayəni oxudu: ***"Gözlər Onu dərk etməz, O gözləri dərk edər".***[686] Kim sənə desə ki, Muhəmməd sabah olacaq şeyi bilir, yalan söyləmişdir. Sözünə dəlil olaraq bu ayəni oxudu: ***"Heç kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını), heç kəs harada öləcəyini bilməz"***[687] buyurulmuşdur. Kim sənə Muhəmmədin vəhydən bir şey gizlətdiyini söyləsə, o da yalan söyləmişdir. Çünki ayədə: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan"***[688] buyurulmuşdur. Lakin Rəsulullah (s) Cəbraili öz surətində iki səfər görmüşdür".[689,690]

"Allah-Təala heç bir vaxt gözlə görülməz. Çünki gözlə görülmək cismin xüsusiyyətlərindəndir. Gözlə görülən hər bir varlıq, məkan və zaman hüdudlarında qərarlaşmalı, müəyyən bir rəngə və surətə malik olmalıdır. Bütün bu xüsusiyyətlər Allahın yaratdığı cisimlərə, varlıqlara məxsus olan xüsusiyyətlərdir. Allah-Təala isə öz yaratdığı məxluqların maddi xüsusiyyətlərindən uzaq və pakdır. Çünki məxluqatın malik olduğu bu sifətlər, birbaşa onların naqis və öz məkan, zaman forma və rənglərinə ehtiyaclı olduğunu yetirir. Allah-Təala isə hər növ miqyas və ölçüdən uzaqdır, ehtiyacsızdır.

Qurani-Kərim buyurur: ***"Gözlər Onu görməz. Lakin O, bütün gözləri görür. O, bağışlayan və mehribandır".***[691]

Məhz elə buna görə də, Bəni-İsrail qövmünün bəhanə axtaran "baş bilənləri" Musaya (ə) Allahı görmək istədiklərini bildirdilər. Və ondan Allahı onlara göstərməsini tələb etdilər; ***"Əgər Allahı***

---

[686] "Ənam" surəsi, ayə-103.
[687] "Loğman" surəsi, ayə-34.
[688] "Maidə" surəsi, ayə-67.
[689] "Buxari", Təfsir, "Maidə" 7, ("Bədul-Xalq" 6, Təfsir, Nəcm 1, Tövhid 4; "Müslim" İman, 287, (177); Tirmizi, Təfsir, "Ənam" (3070).
[690] İbrahim Canan, Kutubus-Sittə, Tərcümə və Şərhi, Akçağ Yayınları: cild 14
[691] "Ənam" surəsi, ayə-103.

***aşkar olaraq görməsək, sənə iman gətirməyəcəyik!”***[692] Musa (ə) onları Tur dağına apardı və onların tələblərini Allaha söylədi. Allah-Təala isə onlara belə cavab verdi: ***“Əsla (heç vaxt) məni görə bilməyəcəksən! O dağa bax. Əgər o, yerində qalarsa, sən də, məni görəcəksən. Sonra Rəbbi dağa təcəlli edib, onu yerlə-yeksan etdi. Musa bayılıb yerə düşdü. O, özünə gələrkən dedi: “Ey Rəbbim, Sən gözlə görülməkdən uzaq və paksan! Sənə tövbə etdim. Mən iman gətirənlərin ilkiyəm”.***[693]

Bütün bunlar Allahın gözlə görülməsinin qeyri-mümkünlüyünə bir dəlildir.

Əgər bəzi ayələrdə və islami rəvayətlərdə “Allahı görməkdən” söhbət olunursa da, bundan məqsəd Allah-Təalanı batini gözlə görməkdir. Onu qəlbən “görüb” dərk etməkdir.

“Bir nəfər Həzrət Əlidən (ə) soruşdu: “Ey möminlərin ağası, söylə görüm, heç öz Allahını görmüsənmi?” İmam Əli (ə) belə cavab verdi: *“Görmədiyim varlığamı ibadət edim? (Yəni mən görmədiyim varlığa ibadət etmərəm!)* Sonra isə buyurdu: *“Əsla Onu gözlər görməz, müşahidə edə bilməz. Amma qəlblər Onu iman gözü ilə dərk edər”.*[694]

Məxluqatın xüsusiyyətlərini (məkan, zaman, cismiyyət, gözlə görülmək, forma, quruluş və s.) Allaha nisbət vermək olmaz və bu iş bir növ şirk sayılır. O, bütün varlıqlardan və onlara nisbət verilən sifətlərdən uca və pakdır. Heç bir varlıq Ona bənzəmir. O, bənzərsiz bir xaliqdir”.[695]

**Qiyamətin əlamətləri**

Allah Qurani-Kərimdə buyurur: **“O saat (qiyamət günü) mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir!”**.[696]

Bir dəfə Hz. Peyğəmbər (s) məsciddə xütbə oxuyurdu. Camaat içindən bir nəfər qalxıb dedi:

---

692 “Bəqərə” surəsi, ayə-55.
693 “Əraf” suərsi, ayə-143.
694 “Nəhcul-bəlağə”, 179-cu xütbə.
695 “Məkarim Şirazi, “Əqidətuna”, I fəsil.
696 “Həcc” surəsi, ayə-7

- Ya Rəsulullah! Qiyamət nə vaxt olacaq?

Həzrət (s) buyurdu: Bu barədə sual olunan sual edəndən artıq bir şey bilmir, amma Qiyamət qəflətən olacaq. Qurani-Kərimdə xəbər verildiyi kimi, Qiyamətin nə vaxt baş verəcəyini yalnız Allah özü bilir. Amma onun nişanələri və əlamətləri vardır.

Həzrətin (s) söylədiyi əlamətlər aşağıdakılardır:

1. Elm məhv olar,
2. Çox zəlzələlər baş verər,
3. Fitnə-fəsad çoxalar,
4. Dünyanı hərc-mərclik əhatə edər,
5. Camaat öz istədiklərinin dalınca gedər,
6. İmarətlər xarabaya çevrilər,
7. Xaraba qalmış yerləri tikib təmir edərlər,
8. Böyük yaşayış yerlərindən biri Şərqdə, biri Qərbdə, biri də Ərəbistan yarımadasında yerə qərq olar,
9. Günəş Qərbdən çıxar,
10. Dəccal zahir olar,
11. Yəcuc və Məcuc tayfası gəlib dünyanı əhatə edər. (Yəcuc və Məcuc insana bənzər qeyri-adi məxluqlardır ki, Quranda onların haqqında ayələr vardır. Bunlar bir vaxt yer üzündə azad gəzib, xalqa çox böyük əziyyətlər vermişlər. Zülqərneyn onların qabağına sədd çəkib, dünya xalqını onlardan ayırıb. Onun çəkdiyi səddin yeri dəqiq məlum deyil).
12. Məryəm oğlu Hz. İsa asimandan yerə nazil olar,
13. Yəmən tərəfdən ipəkdən yumşaq bir yel əsər,
14. İnsanlarda bir zərrə iman qalmaz,
15. Sonra Ədən tərəfdən bir od gələr. O Həzrətdən (s) soruşurlar ki, bu hadisələr nə vaxt baş verər? Buyurdu:
16. Onda ki, Quran oxuyanlarınız əmirləri tərifləyər,
17. Əmirlərinizə təzim edərsiniz,
18. Fəqir və kasıbları zəlil və xar edərsiniz,
19. Havacat oxumaq, çalıb-çağırmaq yayılar,
20. Zinanı aşkar edərlər,
21. Binaları ucaldarlar,
22. Quranı müxtəlif havalar və məqamlar üstündə oxuyarlar,

23. Batil əhli haqq əhlinə hakim olar,
24. Yaxşılığı əmr edən və pislikdən çəkindirən şəxslər azalar,
25. Namazı gözdən salıb zay edərlər,
26. Xalq öz şəhvətlərinə tabe olar, öz nəfslərinin istədiklərini edərlər,
27. Zalım əmirləri hər işdə qabağa salarlar,
28. Özləri xəyanətkar, vəzirlər isə fisq-fücur sahibləri olar,
29. Qurana hərislik artar,
30. Alimlər münafiq olar,
31. Məscidləri zinətləndirərlər,
32. Quranı qızıla tutarlar,
33. Hər yerdə minbərləri ucaldarlar,
34. Məsciddə camaat namazı qılanda səflər çoxalar,
35. Məscidlərdə qalmaqal qalxar,
36. Din sözü yalnız dillərində deyilər, qəlblərində olmaz,
37. Onlara bir şey versən, təşəkkür edərlər, verməsən nankorluq edərlər,
38. Uşaqlara rəhm etməzlər,
39. Böyüklərə hörmət etməzlər,
40. Öz nəfslərinə xidmət edərlər,
41. Onların sərhədləri pozulub tapdanar,
42. Nökərlər və qullar onlara hakimiyyət edər,
43. İşlərini uşaqlar idarə edər,
44. Mühüm işlərin tədbirlərini arvadlar tökər,
45. Kişilər özlərini qızıl və gümüşlə bəzəyib zinətləndirər, ipəkdən və dibacdan tikilmiş libaslar geyərlər,
46. Qonşuları söyərlər,
47. Ərhamı qət edərlər, yəni qohum-əqrəba ilə əlaqəni kəsərlər,
48. Yolları kəsib bağlayarlar,
49. Gömrükxanalarda işləməyə gedərlər,
50. Müsəlmanlar ilə vuruşub, kafirlərlə barışarlar. Belə olan vaxtda:
51. Yağışlar çoxalar,
52. Nəbatat, ot-ələf azalar,

53. Alimlər azalar,

54. Əmirlər çoxalar,

55. Əmin adamlar azalar. Bu arada namaz vaxtı çatdı. Peyğəmbər (s) camaatla namaz qıldı. Namazdan sonra yenə bir nəfər soruşdu:

-Ya Rəsulullah! Qiyamət nə vaxt baş verər?

O Həzrət (s) öz mübarək üzünü asimana tərəf tutub buyurdu:

- Onun xaliqi və bərpa edəni Allahdır, vaxtını da o bilir. Amma qiyamətin əlamətləri bunlardır:

56. Əmirlər ən xəbis adamlardan olar,

57. Quran oxuyanlara yaltaqlıq edib tərifləyərlər,

58. Alimlər arasında nifaq olar,

59. Camaat nücuma və münəccimlərə inanar, amma qəza və qədərə inanmazlar,

60. O camaata inanıb əmanət verdikdə, qənimət bilib mənimsəyərlər,

61. Sədəqəni cərimə hesab edərlər,

62. Fahişəliyə adi bir iş kimi baxıb günah hesab etməzlər,

63. Xalqın nəzərində böyük görünmək üçün təkəbbürlə ibadət edərlər.

Allaha and olsun, onda ki, əmirləriniz günahkar, vəzirləriniz xəyanətkar, arifləriniz zalım, Quran oxuyanlarınız fisq-fücur sahibləri, abidləriniz cahil (qanmaz) oldu, Allah yer üzərində o camaata zülmətdən bir fitnə açar, yəhudilərin səhrada azğın düşməsi kimi, onlar da azğın düşüb çöllərdə itərlər. Belə olanda islamın ipi getdikcə zəifləşər və qırılar,[697]

64. Dünya hərc-mərclik içində qalanda, fitnələr zühur edəndə, yollar kəsiləndə, bəziləri bəzilərinə hücum edəndə qiyamət yaxınlaşar,

65. Qiyamət yaxınlaşanda ölüm hadisələri və qətliamlar geniş yayılacaq,

66. İnsanların öz əlləri ilə etdikləri pis əməllərin nəticəsində quruda və suda fəsad və pozuntu əmələ gələr ki, Allah onlara etdikləri bəzi günahların cəzasını daddırsın ki, bəlkə onlar qayıtsın,

---

[697]Əhmədağa Əhmədov. «İslam təlimi», Bakı, 1995.

67. Böyük şəhərlər dünən sanki, yox imiş kimi məhv olar,

68. Bu hadisələr olana qədər qiyamət qopmayacaqdır, zəlzələlər çoxalacaqdır,

69. Aclıq və həyatın bahalığı çoxalacaqdır,

70. Pozğunluq aşkar edilmədən qiyamət qopmaz,

71. Qiyamət yaxınlaşanda həya, kişinin qadınla yolun ortasında cinsi əlaqədə olacaq qədər aradan gedər. Kişilər qadınlara bənzəyəcək, qadınlarda kişilərə bənzəyəcək,

72. Kişilər kişilərlə, qadınlarda qadınlarla kifayətlənəndə qiyamət yaxınlaşacaq,

73. İnsanlara elə bir vaxt gələcək ki, Quran bir vadidə, insanlar başqa vadidə olarlar,

74. İnsanlara elə bir dövr gələcək ki, Qurani-Kərimin yalnız adı qalacaq. Onlar İslamdan çox uzaq olduqları halda islami adlarla adlandırılacaq, məscidlər gözəl göründüyü halda, hidayət yönündən xarab olacaqdır.

75. Qiyamətə yaxın Quran oxuyan, ancaq oxuduqları yalnız dillərdə qalan, ürəklərinə gedib çatmayan insanların törəyəcəyi bir zaman gələcəkdir,

76. Axırzamanda sizdən əvvəlki millətləri qarış-qarış izləyəcəksiniz. Hətta onlar (xristianlar və yəhudilər) kərtənkələ deşiyinə girsələr belə, sizdə onların arxaları ilə ora girəcəksiniz,

77. Qiyamətə yaxın qaranlıq hissələr kimi qarışıqlıqlar olacaqdır. Bu qarışıqlıqlar içində insan mömin olaraq səhəri açıb, kafir olaraq axşamlayacaq. Mömin olaraq axşamlayıb, kafir olaraq səhəri açacaqdır,

78. Haram olan şeylərin halal hesab edilməsi qiyamətin əlamətlərindəndir,

79. Axırzamanda qurd oxuyanlar olacaqdır. Kim həmin dövrə yetişsə, şərlərdən Allaha sığınsın. Onlar çox iylənmiş insanlardır. Riyakarlıq (ikiüzlülük) hakim olacaq, riya və təkəbbürdən utanmayacaqlar,

80. Alimlər elmi ancaq pul qazanmaq üçün öyrənəndə, dini dünya mənfəəti əvəzinə satanda qiyamət yaxınlaşacaq,

81. Axırzamanda elə insanlar çıxacaq ki, dinlərini dünya

mənfəətinə satacaqlar. Bunlar yumşaq görünmək üçün qoyun dərisinə bürünəcəklər. Dilləri şəkərdən şirin, lakin ürəkləri qurd ürəyi kimi qatı olacaqdır.

82. Ümmətimin axır dövrlərində məscidlərini bəzəyib ürəklərini xarab saxlayan, paltarını çəkinib qoruduğu qədər dinin çəkinib qorumayan, dünya işlərinin yolunda getməsi üçün dinini vasitə etməyə fikir verməyən bəzi insanlar törəyəcək,

83. Yaxşılıq tərk edilib əmr edilməyəndə və pislik edilib qarşısı alınmayanda qiyamət yaxınlaşacaq,

84. Qiyamətin bir əlaməti məscidlərin içərisində günahkarların səslərinin yüksəlməsi və günahkarların əmr etdiklərini yerinə yetirən səmimi möminlərin üzərində qalib gəlib hökm etmələridir,

85. İnsanlara elə bir zaman gələcək ki, məscidlərdə yığışıb namaz qılarlar, ancaq içərilərində bir dənə də belə mömin olmaz,

86. Kim Quran oxusa savabını Allahdan istəsin. Çünki son dövrlərdə Quranı oxuyub mükafatını insanlardan istəyən bəzi insanlar törəyəcək,

87. Quranın mahnı kimi oxunulub həzz alındığı, hətta insan alim olmadığı halda bu cür oxuduğuna görə etibar gördüyü vaxt qiyamət qopar,

88. İnsanlara elə bir vaxt gələr ki, sələm (faiz) yeməyən adam qalmaz. Onu yeməsə də tozu mütləq dəyər,

89. İnsanlara elə bir dövr gələr ki, zənginləri səyahət üçün, alimləri riya və ücb üçün, kasıbları isə dilənmək üçün həccə gedərlər,

90. Qiyamət yaxınlaşanda qanunsuz əlaqələrdən doğulan uşaqlar (biclər) çoxalar,

91. Dedi-qoduçular, qeybətçilər və lağ edənlərin çoxalması qiyamətin əlamətlərindəndir.

# NƏTİCƏ

Nəticədə söyləmək mümkündür ki, Qiyamət saatı və ondan sonrakı sonsuz həyat insanları gözləyən ən mühüm həqiqətdir. Bu səbəbdən ərsəyə gətirilən və tədqiq edilən mövzu çox böyük əhəmiyyət daşıyır.

Qurani-Kərim biz insanları bir çox ayələrində, Qiyamətin o dəhşətli və qorxulu səhnələrini təsvir edərək, oyandırmağa və gözlərimizi açmağa çalışır. Çünki Qiyamət Qurani-Kərimə görə çox da uzaqda deyil və Qiyamət günü əvvəl-axır gələcəkdir. O gələndən sonra isə biz insanlar, yəni tarix boyu nə qədər insan yer üzünə gəlib getmişsə, hamısı bütöv bir şəkildə həşr olunacaqlar. Hər kəs etdiyi əmələ görə cavab verəcəkdir.

Bu səbəbdən, nəticə olaraq demək lazımdır ki, həmin gün haqdır və ona bu gündən, yəni dünya həyatı zamanı hazırlıq görməliyik.

Eyni zamanda Qurani-Kərimdəki qiyamət səhnələrini incəliklə, elmi bir üslubda tədqiq edib, insanlara çatdırmaq biz insanların borcudur.

Mühüm bir nöqtəyə toxunmaq istərdim: Azərbaycanda bu vacib və dərin məsələ o qədər də tədqiq edilməmişdir. Hətta cəsarətlə demək olar ki, ərsəyə gətirdiyimiz bu kiçik elmi iş mövzunu tədqiq etməkdə ilk addımı sayılır. Doğrudur, ölkəmizdə müəyyən qədər Qiyamət gününə dair kitablar tərcümə olunaraq nəşr olunub, amma bu əsərlər Qiyamət gününün təhlilini verməkdən daha çox, Qiyamətin əlamətlərini incələmiş, Qurandakı Qiyamət səhnələri barədə o qədər də çox yazmamışlar.

Bu aspektdən Qurani-Kərimdəki Qiyamət səhnələrinin altında yatan dərin mənaları üzə çıxarmaq çox böyük və əhəmiyyətli məsələdir. Bütün bu məsələləri nəzərdən keçirib, böyük cəsarətlə söyləmək olar ki, bu işdə tədqiq edilən Qurandakı Qiyamət səhnələri ölkəmizdə həmin günlə əlaqəli nadir tədqiq edilən mövzudur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Qurani-Kərim, tərcümə edənlər, Z.M.Bünyadov və akademik V.M.Məmmədəliyev, Bakı-Qismət, 2010

2. Əbdüləziz Hatip, “”Mülk”, “Nəbə” və “Saf” surələrinin təfsiri”, Bakı, BDU-1999.

3. Bekir Topaloğlu, “Ahiret”, Diyanet İslam Ansiklopedisi, İstanbul-1998.

4. Buxari, “Camius-Səhih”, “müxtəsər təcridi-Sərih” tərcüməsi və şərhi, Ankara, Türk Tarih Kurunun Basimevi, 1993.

5. Cemal Uşşaq, “1500 Hadisle Peyğamber Yolu”. “Yeni Asiya” yayınları, İstanbul-1998.

6. Elmalılı Hamdi Yazır, “Hak Dini Kuran Dili”, “Zaman” qazetesi, İstanbul-1992.

7. Əbdülqadir Cəlil Məhəmməd, “2000-ci il dünyanın sonudurmu!” “Qütb” jurnalı, 8-ci nömrə, Dekabr, 1999.

8. Qurani-Kərim, Türkiyə Diyanət Vəqfi, Bakı, Göytürk-2000.

9. Harun Yəhya, “Qiyamət günü”, Bakı-2003, “əl-Qiraət”.

10. İbrahim Canan, “Kutubu Sitte” (tərcümə və şərhi), Ankara-1995.

11. İbni Kəsir, “Hadislerle Kurani Kerim tefsiri”, İstanbul, “Çağrı” yayınları, 1990.

12. İbni Uşeymin, “üç esas: Allah, Din, Peyğamber”, İstanbul-1999.

13. “Səhihi-Müslim” (tərcümə şə şərhi), İstanbul-1968.

14. Martin Linges, “Hz. Muhammedin Hayatı”, İstanbul-2003.

15. Mevdudi, “Tefhimul Kuran”, İstanbul, “Bengisu” yayınları, III, VI, VII cildlər, 1997.

16. Ömer Öz Soy, İlhami Güler, “Konularına göre Kuran”, Ankara, “Fecr” yayın evi, 1999.

17. Seyid Qutub, “Quranda əbədi səhnələr”, “Arslan” yayınları, İstanbul-1998.

18. Süleyman Toprak, “Haşir, D. İ. A.”, İstanbul-1930.

19. Suat Yıldırım, “Fatihə” və “Ənam” surələrinin təfsiri, İzmir, “İşık” yayınları, 1990.
20. Muhəmməd Əsəd, “Quran Mesajı”, İstanbul-2001, “İşarət” yayınları.
21. Muhsin Demirçi, “Kuranın Temel Konuları”, İFAV, İstanbul-2000.
22. Zəməxşəri, əl-Kəşşaf, nəşr yeri yoxdur, hicri 1415.
23. Əhmədağa Əhmədov, “İslam təlimi”, Bakı-1995.
24. Əllamə Məclisi, “Biharul-ənvar”.
25. İncil, “Yəhudanın məktubu”.
26. Məhəmməd Reyşəhri, “Mizanul-hikmət”.
27. Mürtəza Mütəhhəri, “Əbədi həyat və ya axirət dünyası”.
28. Yavuz Yusuf Şevki, Bas, “DİA”.
29. Möhsün Qiraəti, “Məad”.
30. “Təfsiri-Safi”.
31. “Nurus-Səqəleyn”.
32. “Təfsiri-Nümunə”.
33. “Vəsailuş-Şiə”.
34. Əllamə Təbatəbai, “əl-Mizan”.
35. Şeyx Səduq, “İləluş-Şəraye”.
36. “Nəhcül-bəlağə”.
37. “Cameuş-şəhadət”.
38. Şeyx Təbərsi, “Məcməul-bəyan”.
39. “Dini terminlər sözlüyü”, İstanbul-1991.
40. Məhəmməd ibn İsa ət-Tirmizi, “əs-Sünən”.
41. Əhməd ibn Hənbəl, “Müsnədi-Əhməd”.
42. Məhəmməd ibn Yəzid ibn Macə, “əs-Sünən”.
43. Əbu Davud, “Sünəni-Əbi Davud”.
44. Nəsai, “Sünəni-Nəsai”.
45. Şeyx Tusi, “Kitabul-ğeybə”.
46. Numani, Ğeybət
47. Yusif Məqdisi Şafeii, Əqdüd-dürər fi əxbaril-Müntəzər.
48. Əliəsğər Rizvani, Əsrin İmamı Mehdi ilə tanışlıq.
49. Feyz Kaşani, Ulumid-yəqin fi usulid-din.
50. Seyid Kamalı Heydəri, Ruhun tərbiyəsi.

## MÜNDƏRİCAT

ÖN SÖZ ........ 3
GİRİŞ ........ 5
A.Qurani-Kərimin təsvir metodu ........ 5
B.Ümumi olaraq Qiyamət ........ 6
**I FƏSİl QURANİ-KƏRİMDƏ QİYAMƏTİN ƏLAMƏTLƏRİ**
Qiyamətin vaxtı ........ 12
Qurani-Kərimdə Qiyamətin adları ........ 15
Qiyamət günü ........ 21
Maddi vasitələrin köməyə çatmaması ........ 24
Qiyamətdə hesaba çəkən kimlərdir? ........ 30
Əməllərin yazılması və kəşfi ........ 37
Kitabların növləri ........ 40
Görülməyən işlərin hesabı ........ 42
Qiyamət günü cavabsız qalan suallar ........ 45
Qiyamətdə şahidlik edənlər ........ 47
Birinci şahid- Allah ........ 48
İkinci şahid- peyğəmbərlər ........ 48
Üçüncü şahid- məsum imamlar ........ 49
Dörüncü şahid- mələklər ........ 49
Beşinci şahid- Yer ........ 50
Altıncı şahid- vicdan ........ 50
Yedinci şahid- bədən üzvləri ........ 51
Səkkizinci şahid- zaman ........ 52
Doqquzuncu şahid- əməl ........ 52
Qiyamətdə şikayət edənlər ........ 54
Qiyamət günü həsəd aparan kimlərdir? ........ 57
Mizan ........ 60
Sirat ........ 62
Qiyamətdə yalvarışlar ........ 64
Əraf və Əraf əhli ........ 66
İsrafil surunun üfürülməsi ........ 68
A) Birinci üfürülüş ........ 68
1.Kainatda baş verəcək hadisələr ........ 70

2.Yer kürəsinin vəziyyəti ........................................................ 72
3.Surun birinci üfürülüşü zamanı insanların vəziyyəti .......... 79
B.İkinci üfürülüş ..................................................................... 86
1.Bəs (diriliş).......................................................................... 86
2.Həşr ...................................................................................... 98
Həşr zamanı və məşhərdə insanların vəziyyəti ...................... 106
A)Kafirlərin həşri.................................................................... 108
B)Möminlərin həşri.................................................................. 110
Mühakimə ............................................................................... 111
Əməl dəftərlərinin verilməsi .................................................. 113
Hesab....................................................................................... 117
**II FƏSİL BƏRZƏX ALƏMİ**
Misali aləm və misali bədən .................................................. 124
İki şərt daxilində güzgüdəki surətə oxşatma .......................... 124
Bütün qidalar bir qidada toplanmışlar.................................... 125
Bərzəx savabı və bərzəx cəzası hədislərdə ............................ 125
İnsanların bərzəx surəti dünyadakı kimidir............................ 126
Ruhlar yeni gələnlərdən hal-əhval tuturlar ............................ 126
Ruhların öz yaxınlarını ziyarət etmələri ................................ 127
**III FƏSİL HƏDİSLƏRDƏ QİYAMƏTİN ƏLAMƏTLƏRİ**
Hz. İsa və Hz. Mehdi haqqında.............................................. 128
Mehdi inancı ........................................................................... 135
Quranda Mehdi məsələsi......................................................... 139
Hədislərdə Mehdi məsələsi ..................................................... 143
Məcusilikdə xəbər................................................................... 145
Brahmanizmdə xəbər ............................................................. 146
Buddizmdə xəbər ................................................................... 146
Bütün dinlərdə “Gələcək bir qurtarıcı” inancı ....................... 147
Mehdi və Dəccal, şəxsi məcazdirmi?..................................... 149
Dəccal haqqında...................................................................... 150
Süfyani və axırzaman fitnələri ............................................... 154
Mehdi dövründə dünya .......................................................... 157
Mehdinin zühurundan öncə və sonra baş verənlər................. 158
Rəcət ...................................................................................... 158
İmamın ictimai səciyyələri haqqında ..................................... 160

İndi isə zühur dövrünün səciyyələri ilə tanış olaq ................ 161
Zühur dövrünün iqtisadi səciyyələrinə nəzər salaq................ 161
Uyğun dövrün elmi səciyyələrinə nəzər salaq ....................... 162
Hüzur dövrünün mühakimə səciyyələrinə nəzər salaq .......... 163
Hüzur dövründə həyatvericilik səciyyələri ............................ 163
İmam Mehdinin (ə) fərdi səciyyələri .................................... 163
İdarəçilik səciyyələri ............................................................ 164
Qiyamət öncəsi fitnələr ......................................................... 165
Rəsulullahdan sonra Qiyamət yaxındır .................................. 166
Qiyamətdən öncə bir atəşin çıxması ..................................... 168
Müasirlərin ömrü .................................................................. 169
Yalançıların zühuru ............................................................... 170
Günəşin Qərbdən çıxması ...................................................... 171
Qiyamətin başqa əlamətləri ................................................... 175
Surun üfürülməsi və həşr ...................................................... 185
Həşr haqqında ...................................................................... 192
Söz gəzdirənlər ..................................................................... 192
Qiyamətdə təkəbbürlülər və zinakarlar ................................. 192
Qonşunu incidən, zalım hakimin və xudpəsəndlərin əzabı .... 193
Günahkarlar çöhrələrindən tanınarlar ................................... 193
**IV FƏSİL HESAB VƏ HÖKM MƏSƏLƏSİ HƏDİSLƏRDƏ**
Hesab və qullar arasında hökmün verilməsi ......................... 204
**V FƏSİL KÖVSƏR HOVUZUNUN, MİZANIN, ŞƏFAƏTİN VƏ SİRAT KÖRPÜSÜNÜN VƏSFİ HƏDİSLƏRDƏ**
Kövsər hovuzunun vəsfi ....................................................... 215
Şəfaət haqqında .................................................................... 220
Şəfaət haqqında daha ətraflı məlumat ................................... 223
Kimlər şəfaət edəcəklər ......................................................... 225
Şəfaətə nail olmayanlar ........................................................ 227
Kimlər şəfaət edəcək ............................................................. 228
İslam hədisləri və şəfaət ........................................................ 229
Ölülərə təvəssül etmək .......................................................... 230
Qurandan dəlillər .................................................................. 231

Peyğəmbər sünnəsindən dəlilimiz........................................233
Kitab və sünnəyə əsasən, dirilərə təvəssül etmək şirk deyil..234
**VI FƏSİL CƏNNƏT VƏ CƏHƏNNƏMİN VƏSFİ HƏDİSLƏRDƏ**
Cənnətin vəsfi haqqında........................................................238
Cəhənnəmin vəsfi haqqında..................................................253
Əvəz verilməsi ilahi ədalətin tələbidir..................................254
Cənnət və Cəhənnəmin müştərək yönləri..............................261
**VII FƏSİL CƏNNƏTLİKLƏR VƏ CƏHƏNNƏMLİKLƏR**
Cənnətliklər...........................................................................264
Cəhənnəmliklər.....................................................................270
Cənnətliklərin və Cəhənnəmliklərin müştərək zikir edildiyi hədislər...........................................................................273
Allahın görülməsi...................................................................279
Qiyamətin əlamətləri..............................................................282
**NƏTİCƏ**.................................................................................288
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**..........289
**MÜNDƏRİCAT**....................................................................291

«Elm vя тящсил» няшриййатынын  директору:
професcор Надир МЯММЯДЛИ

Dizayn: Zahid Məmmədov
Səhifələyici: Tünzalə Vahabova

Чапа имзаланмыш 14.04.2016.
Шярти чап вяряги 18,5. Сифариш №155.
Каьыз форматы 60x84 1/16. Тираж 200

Китаб «Elm vя тящсил» няшриййат-полиграфийа
мцяссисясиндя щазыр диапозитивлярдян чап олунмушдур.
E-mail: nurlan1959@gmail.com
Тел: 497-16-32; 050-311-41-89
Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.